-　-

**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin**
**10 illiyinə həsr edilmiş**

# “AZƏRBAYCANDA MİQRASİYA SİYASƏTİ: NAİLİYYƏTLƏR VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ”

**mövzusunda elmi-praktik konfransın**

**MATERİALLARI**

**Xəzər Universiteti Nəşriyyatı-2017**

-                                                                                                   -

**© Xəzər Universiteti Nəşriyyatı, 2017**
**Bütün hüquqları qorunur**

Redaktor və ön sözün müəllifi: **Hamlet İSAXANLI**

Mətni çapa hazırlayan: **Cabir MƏMMƏDLİ**

"Azərbaycanda miqrasiya siyasəti: nailiyyətlər və inkişaf perspektivləri" mövzusunda elmi-praktik konfransın materialları. Bakı. Xəzər Universiteti Nəşriyyatı, 2017 – 198 səh. +16 səh. şəkilli.

**ISBN-978-9952-20-113-0**

Bakı/Azərbaycan, AZ1096, Məhsəti küçəsi-41

## İçindəkilər:


İnsan yer dəyişdirir *(Redaktordan)* .......... 5

**QAÇQINLAR VƏ SIĞINACAQ AXTARAN ŞƏXSLƏRİN BEYNƏLXALQ HİMAYƏSİ** .......... 7

**Zaur Əlişov.** Azərbaycan Respublikasında olan qaçqın və məcburi köçkünlərin ümumi vəziyyəti və beynəlxalq hüquqi baza .......... 9

**Aygül Abbaszadə.** Sığınacaq axtaran şəxslərin təyinat ölkəsi seçiminə təsir edən amillər. .......... 13

**Namiq Cəfərov.** Sığınacaq axtaran şəxslərin beynəlxalq himayəsi –Azərbaycanın təcrübəsi .......... 18

**MİQRASİYA SİYASƏTİ VƏ İNSAN HÜQUQLARI** .......... 31

**Amid Əliyev.** Qloballaşan dünyada miqrasiya siyasəti: mahiyyəti və məzmunu .......... 33

**Sevda Zeynalova.** Miqrasiya siyasəti sahəsində insan hüquqlarının qorunması mexanizmləri və Azərbaycan təcrübəsi .......... 38

**Nargiz Karimova.** Where the rights of migrants start from? .......... 44

**Туран Джахангирова.** Международное регулирование прав мигрантов и вынужденных переселенцев .......... 49

**Мамедага Сардаров.** К вопросу совершенствования и регулирования миграционных процессов .......... 57

**Atamoğlan Məmmədli.** Sabitliyə, tərəqqiyə, təhlükəsizliyə xidmət nümunəsi .......... 62

**Rima Məmmədova.** Miqrasiya və təhsil .......... 66

**QLOBALLAŞMA DÖVRÜNDƏ MİQRASİYA PROSESLƏRİ: ÇAĞIRIŞLAR VƏ CAVAB TƏDBİRLƏRİ** .......... 71

**Ильхам Мамедзаде.** Философский анализ процессов миграции в условиях глобализации .......... 73

**Xəyalə Abbasova.** Qloballaşma dövründə miqrasiya prosesləri: çağırışlar və cavab tədbirləri .......... 78

**Rafiq Nəcəfquliyev.** Ekstremizm və separatizm məcburi miqrasiyanı şərtləndirən sosial təhlükələrdən biri kimi .......... 82

**Sevinc Məstiyeva.** Miqrasiya və inkişafın qarşılıqlı təsiri .......... 85

**Mayis Əliyev.** Əməkçi miqrantların əmək münasibətlərinin hüquqi tənzimlənməsi problemləri .......... 94

**Əfsanə Hüseynova.** Avropada miqrasiya böhranı: mövcud reallıqlar və problemlər .......... 102

**Cəmil Hüseynov.** Azərbaycanda multikulturalizm modeli miqrasiya fonunda .......... 114

**Azər Allahverənov.** Qloballaşma şəraitində Azərbaycanda miqrasiya proseslərinin aktual məsələləri .......... 124

**İslam Hidayətov.** Qloballaşma dövründə Azərbaycan Respublikasının miqrasiya siyasətinin milli təhlükəsizlik aspektləri .......... 130

**Xəyalə Məmmədova.** Qloballaşma dövründə miqrasiya: nəzəriyyə və təhlillər .......... 137

**Nəriman Paşayev.** Müasir miqrasiya formalarının elmi-nəzəri əsasları və Azərbaycan ərazisində əhali miqrasiyasının yaratdığı iqtisadi-coğrafi problemlərin tədqiqi .......... 143

**Eldar Aslanov.** Miqrasiya və turizm: qarşılıqlı əlaqə və təsirlənmə .......... 156

**Rövşən Kərimov.** Təbii fəlakətlərin səbəb olduğu əhali miqrasiyasının tənzimlənməsi .......... 161

**Z.N.Eminov, İ.B.Məmmədov, L.İ.Əliyeva, E.H.Hüseynova.** Azərbaycan Respublikasında miqrasiyanın əsas istiqamətləri .......... 166

**Etibar Bədəlov.** Qloballaşma və Azərbaycanda miqrasiya proseslərinin dinamikası .......... 171

**Qərib Əsgərov.** İnsan alveri və dövlətin sərhəd təhlükəsizliyi siyasəti .......... 176

**Könül Kərimova.** Qloballaşma şəraitində Azərbaycanın dünyadakı miqrasiya proseslərində yeri və rolu .......... 180

**Rəna Ağamirova.** Azərbaycan gəncləri miqrasiya proseslərində .......... 190

***Redaktordan***

## İnsan yer dəyişdirir

İnsan həmişə, könüllü şəkildə və ya məcbur olaraq, yer dəyişdirmişdir. Yeni yerlər görmək arzusu ilə səyahətə çıxmaq insanın ən sevimli məşğələlərindən biridir. Bilmək, öyrənmək naminə insanlar ən uzaq yerlərə getməkdən çəkinməmişlər. Lakin insanlar təbii fəlakət və ya savaşlar üzündən də öz yerlərini tərk etmiş, yeni yerlərə üz tutmağa məcbur olmuşlar.

Əcdadımız olan “düşünən insan”, “ağıllı insan”, yəni Homo sapiens Afrikadan dünyaya yayılmışdır. Bu yayılmanın könüllü olması ağla batmır. Yəqin ki, iqlim şəraitinin və ətraf mühitin kəskin pisləşməsi, münbit yerlərin quruması kimi həlledici səbəblər insanları doğulduqları yerləri buraxıb yeni yerlər axtarmağa vadar etmişdi. Arxeoloji qazıntılar insanların yayılma marşrutlarını izləməyə imkan verir.

Tarixin ən qədim dövrlərində böyük köçlər olmuş, insanlar böyük dəstələrlə yer dəyişdirə-dəyişdirə dünyanın bir başından o biri başına köç etmişlər. Bu köçlər at belində olmuşdur, qədimdə gəmilərlə çox böyük köçlər, yəqin ki, olmamışdır; böyük dənizləri, okeanları aşıb gedə bilən çox böyük gəmilər də yoxdu, kiçik gəmilərdə dənizin məchulluğuna girmək istəyənlər də, yəqin ki, çox olmazdı. Əcdadlarımız sayılan qədim hunlar və türklər Asiyanın tam şərqindən Avropanın qərbinə qədər yürüşlər etmiş, nəticədə əsasən Avropa və Asiya arasında böyük ərazilərdə məskən salıb dövlətlər qurmuşlar.

Böyük şəhərlər əhalinin təbii artımı ilə deyil, köçlər nəticəsində böyümüşlər. Böyük imperiyaların yaranması və dağılması və böyük savaşlar külli miqdarda insanların məcburi yerdəyişmələrinə səbəb olmuşdur. Hindistanın parçalanması, Amerikaya könüllü köçlər və Afrika-Atlantik-Amerika qul alveri kimi çox böyük miqrasiyalar olmuşdur. Çağdaş dünyada da böyük miqrasiya dalğaları müşahidə olunur. Təhlükəsizliyini təmin etmək, iqtisadi vəziyyətini düzəltmək, etnik təmizləmədən qaçmaq miqrasiyanı artıran əsas hadisələr sırasında durur; müvəqqəti getdiyini zənn edənlərin bir çoxu geri qayıda bilmirlər. Təhsil almaq üçün başqa ölkələrə gedən çoxmilyonlu gənclərin bir qismi geri qayıtmır, oxuduğu yerdə iş tapırlar.

Azərbaycan Respublikası da ciddi miqrasiya problemləri ilə qarşılaşmışdır. Rusiya, Osmanlı və İran arasında gedən savaşlar nəticəsində çox köç edənlər olmuşdur. Sovetlərin dağılması və Dağlıq Qarabağ separatizmi və

Ermənistanın təcavüzü nəticəsində faciələr yaşanmış, milyona yaxın qaçqın və köçkün əmələ gəlmişdir.

Azərbaycanda Miqrasiya siyasəti haqqında Xəzər Universiteti və Dövlət Miqrasiya Xidməti birgə konfrans təşkil etmək barədə razılığa gəldilər. Çox müxtəlif elm və təhsil ocaqlarının və Dövlət Miqrasiya Xidmətinin əməkdaşları müxtəlif və maraqlı mövzular üzrə məruzə etdilər, faydalı müzakirələr oldu. Xəzər Universiteti Nəşriyyatı bu konfransın materiallarını bir kitab halında nəşr etmək qərarına gəldi. Bu işdə əməyi keçən hər kəsə –Dövlət Miqrasiya Xidmətinin və Xəzər Universitetinin rəhbər işçilərinə, konfrans iştirakçılarına, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyliyə, Xəzər Universitetində çalışan və bu kitabın nəşrə hazırlanmasında zəhmət çəkən jurnalist Cabir Məmmədliyə və bütün məqalə müəlliflərinə təşəkkür edirəm.

***Professor Hamlet İsaxanlı***

# QAÇQINLAR VƏ SIĞINACAQ AXTARAN ŞƏXSLƏRİN BEYNƏLXALQ HİMAYƏSİ

***Zaur ƏLİŞOV,***
*Dövlət Miqrasiya Xidməti*

## Azərbaycan Respublikasında olan qaçqın və məcburi köçkünlərin ümumi vəziyyəti və beynəlxalq hüquqi baza

XX əsrdə Azərbaycan tarixinin ən faciəli səhifələri qaçqınlıq və məcburi köçkünlüklə bağlı olmuşdur. Azərbaycanın geostrateji mövqeyi, zəngin təbii sərvətləri regionda maraqları olan qüvvələri azərbaycanlıların öz tarixi torpaqlarından zorla köçürülməsinə sövq etmiş, ermənilərin daha çox torpaq əldə etmək cəhdləri isə 1905, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə azərbaycanlıların öz yurdlarından didərgin salınması ilə nəticələnmişdir.

Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi son etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşamış 250 min nəfər azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovulmuş və Azərbaycana pənah gətirmişdir.

Eyni zamanda, 1990-cı ildə Mərkəzi Asiyadan didərgin salınmış 50 min nəfərədək Axıska (Məshəti) türkü də Azərbaycanda sığınacaq tapmışdır.

Beləliklə, 1988-ci ildən başlayaraq, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20%-i –Dağlıq Qarabağın (Xocalı, Xocavənd, Şuşa rayonları və inzibati mərkəz olan Xankəndi şəhəri), eləcə də ona bitişik olan 7 rayonun (Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan) ərazisi işğal olunmuş, Dağlıq Qarabağdan, ətraf rayonlardan, həmçinin Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək azərbaycanlı öz daimi yaşayış yerindən məhrum olaraq məcburi köçkün düşmüş və respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti məskunlaşmışdır.

Ermənistanın təcavüzkar siyasəti nəticəsində qaçqın və məcburi köçkünə çevrilən bu insanların hüquqları kobud şəkildə pozulmuşdur və onların həllini gözləyən bir çox problemləri yaranmışdır. Ən ciddi zərbələrdən biri insan kapitalına olan təhdidlər idi və bu səbəbdən gənc ölkə olan Azərbaycanın bu ağır şəraitdə atdığı addımların əsas istiqamətlərindən biri məhz bu sərvətin qorunması olmuşdur.

Statistik məlumatlara əsasən, bu gün dünya üzrə qaçqınların və məcburi köçkünlərin sayı 60 milyon nəfərdən artıqdır. Bu da 20 il bundan öncəki vəziyyətlə müqayisədə 3 dəfə çoxdur.

Dünyanın müxtəlif regionlarında baş verən fövqəladə hadisələr uzun müddət təcavüzə məruz qalan ölkə olaraq, şübhəsiz, bizi də ciddi narahat edir.

Münaqişələr nəticəsində insanların kütləvi yerdəyişməsi dünyanın ayrı-ayrı regionlarında davamlı inkişafa böyük maneə yaradır. Belə bir ağır şəraitdə ən başlıca vəzifələrdən biri insan kapitalını qorumaq üçün qətiyyətli, düşünülmüş addımların atılmasıdır. Hökumətlərin buna hazır olması və belə ağır şəraitdə bu məqsədlə müvafiq addımlar atması vəziyyətdən daha az ziyanla çıxmağa xidmət edə bilər.

Qaçqın və məcburi köçkün məsələləri ilə bağlı Azərbaycan modelinin əsas cəhətləri nədir?

-bu problemin xalqımızın Ümummilli lideri Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkənin bir nömrəli prioritet problem olmasının bəyan edilməsi;

-Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qaçqın və məcburi köçkün probleminin müntəzəm olaraq diqqət mərkəzində saxlaması, bütün yerli və beynəlxalq tədbirlərdə bu məsələlər haqqında ictimaiyyətin müntəzəm məlumatlandırılması;

-problemin vahid mərkəzdən koordinasiya edilməsi;

-onların ölkə daxilində idarə olunmasının təmin olunması üçün beynəlxalq qanunvericiliyə uyğun milli hüquqi bazanın yaradılması;

-qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə diqqət, həyat şəraitinin yaxşılaşdırılması;

-onların malik olduqları bilik, bacarıq və təcrübələrindən səmərəli istifadəyə lazımi şəraitin, həmçinin ictimai, siyasi həyatda fəal mövqe tutmasına, iqtisadi inkişafa töhfə verməsinə normal mühitin yaradılması;

-qaçqın və məcburi köçkünlərin ölkə daxilində sərbəst miqrasiyasının və inteqrasiyasının təmin edilməsi.

Bütün bunlar isə, əlbəttə, öz yurdlarını məcburi tərk etmiş insanların daim qayğı ilə əhatə olunmasına, insan kapitalının qorunub saxlanılmasına xidmət edir.

Münaqişə ilə üzləşən ölkələrdən fərqli olaraq, Azərbaycanda bu sahənin vahid mərkəzdən idarə olunması üçün 1998-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin strukturunda Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsi təsis edilmişdir.

Həmçinin, ölkədə fəaliyyət göstərən beynəlxalq və yerli humanitar təşkilatların fəaliyyətinin təmin edilməsi üçün Baş nazirin müavininin rəhbərliyi ilə Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası yaradılmışdır.

Münaqişədən zərər çəkən insanların hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə beynəlxalq normalara uyğun tam hüquqi baza yaradılıb, ölkə Prezidenti tərəfindən 96 fərman və sərəncam imzalanıb, Nazirlər Kabineti tərəfindən 368 qərar və sərəncam, Milli Məclis tərəfindən isə 34 qanun qəbul edilib. Həmçinin, 2 Dövlət Proqramı və ona 2 əlavələr təsdiq edilib.

Qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə yönəlmiş hərtərəfli dövlət siyasətinin müəyyənləşdirilməsi və müvafiq dövlət proqramlarının qəbulu və icrası zamanı insan kapitalının qorunması və inkişaf etdirilməsi məqsədilə münbit şəraitin yaradılmasına nail olunmuşdur.

Cənab Prezidentin səyi nəticəsində Dövlət Neft Fondunun vəsaiti hesabına müasir standartlara cavab verən 95 yaşayış kompleksi salınıb, 50 min ailə 250 min nəfərdən çox qaçqın və məcburi köçkün yeni mənzillərlə təmin olunmuşdur.

Yeni yaşayış məntəqələrində bütün sosial infrastrukturla yanaşı, 150 məktəb, 58 mədəniyyət mərkəzi, 59 uşaq bağçası, 58 tibb məntəqəsi, 2 olimpiya idman kompleksi tikilmişdir.

Milli hökumətlərlə yanaşı, beynəlxalq ictimaiyyətin, o cümlədən beynəlxalq humanitar və inkişaf təşkilatlarının ziyan dəymiş ölkələrdə qaçqın və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması və onların keyfiyyətli təhsil alması imkanlarını dəstəkləməsi olduqca mühüm məsələdir. Bununla yanaşı, beynəlxalq qurumlar həmin həssas qrupun nümayəndələrini öz proqramları çərçivəsində işə daha geniş cəlb etməlidir.

Ölkəmizdə hər il 2 min nəfərədək məcburi köçkün tələbə adını qazanır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda humanitar vəziyyətin ciddi şəkildə pisləşməsi, qaçqın və məcburi köçkünlərin sayının milyonu keçdiyindən dərin narahatlıq hissi keçirərək, BMT-nin Baş Assambleyasının 1993-cü ildə keçirdiyi 85-ci plenar iclasında “Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında” qətnamə (A/RES/ 48/114) qəbul etmişdir.

Bundan əlavə, BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı, qətnamələrdə münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin Ermənistan silahlı qüvvələrindən azad edilməsi ilə yanaşı qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması məsələsi də öz əksini tapmışdır.

BMT Baş Assambleyasının 62-ci sessiyası çərçivəsində 2008-ci ildə gündəliyin “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı bəndi üzrə qəbul edilmiş qətnamədə işğal olunmuş ərazilərdən köçkün düşmüş insanların öz evlərinə qayıtmaq hüququ bir daha təsdiq olunmuşdur.

İslam Konfransı Təşkilatının xarici işlər nazirlərinin konfransları, dövlət və hökumət başçılarının zirvə görüşlərində qəbul edilən “Ermənistan

Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü” adlı qətnamədə də münaqişə nəticəsində qaçqın və məcburi köşkün düşmüş insanların öz evlərinə qayıtmasının vacibliyi vurğulanır.

Avropa Şurası Parlament Assambleyasının 2005-ci ildə qəbul etdiyi 1416 saylı qətnamədə Azərbaycan torpaqlarının əhəmiyyətli hissəsinin Ermənistan qüvvələri və separatçı qüvvələr tərəfindən işğalından narahatlıq qeyd olunmuş və məcburi köçkünlərin öz evlərinə şərəf və ləyaqətlə qayıtmaq hüququ təsdiq olunmuşdur.

Azərbaycan Hökuməti qaçqın və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində bir sıra beynəlxalq təşkilatla, xüsusilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə əməkdaşlıq edir. BMT QAK Azərbaycanda 1992-ci ilin dekabrından fəaliyyət göstərir. Ötən illər ərzində təşkilat məcburi köçkünlərə əsasən, sığınacaq, su-sanitariya, gəlir əldəetmə, heyvandarlıq, səhiyyə və s. layihələr üzrə yardım göstərən beynəlxalq və yerli humanitar təşkilatları maliyyələşdirmiş və onların fəaliyyətini əlaqələndirmişdir.

Azərbaycan BMT-nin İqtisadi və Sosial Şurasının 2012-ci ilin aprel-may aylarında Nyu-Yorkda keçirilmiş sessiyası zamanı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinə üzv seçilmişdir. 2012-ci il oktyabrın 1-dən 5-dək BMT QAK-ın İcraiyyə Komitəsinin Cenevrədə keçirilmiş 63-cü sessiyasında Azərbaycan Komitənin üzvü qismində iştirak etmişdir. Dünyada məcburi köçkünlərin sayının qaçqınların sayından çox olmasına baxmayaraq, indiyədək məcburi köçkünlərin hüquqlarının müdafiəsi sahəsində beynəlxalq məcburedici qüvvəyə malik sənədin olmamasını nəzərə alaraq, Azərbaycan belə bir sənədin hazırlanması təklifi ilə çıxış etmişdir.

2012-ci il mayın 11-i və 12-də Türkmənistanın Aşqabad şəhərində İslam Əməkdaşlığı təşkilatının “Müsəlman dünyasında qaçqınlar” adlı nazirlər konfransı keçirilmişdir. Tədbirdə Azərbaycan tərəfi Xarici İşlər Nazirliyi da daxil olmaqla müvafiq dövlət orqanlarının nümayəndələrindən ibarət heyətlə təmsil olunmuş, konfransın yekun sənədi olan bəyannaməyə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticəsi olaraq yaranmış bir milyon qaçqın və məcburi köçkünün öz torpaqlarına qayıtmaq hüququnu dəstəkləyən bənd daxil edilmişdir.

25 ildən çox vaxt keçməsinə baxmayaraq, münaqişə həll olunmur, tarixi haqsızlıq davam edir, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və s. nüfuzlu beynəlxalq təşkilatların problemlə bağlı qərar və qətnamələri icrasız qalır, ATƏT-in Minsk Qrupunun fəaliyyəti də heç bir nəticə verməmişdir.

***Aygül Nadir qızı ABBASZADƏ,***
*Beynəlxalq əməkdaşlıq idarəsinin*
*Beynəlxalq əlaqələr şöbəsinin baş inspektoru,*
*II dərəcəli miqrasiya xidməti qulluqçusu*

## Sığınacaq axtaran şəxslərin təyinat ölkəsi seçiminə təsir edən amillər

Müasir dövrdə dünyada baş verən qlobal miqrasiya axınları əvvəlki dövrlərdə olduğundan daha mürəkkəb və çoxşaxəlidir, eyni zamanda sərhədlərarası yerdəyişmənin səbəbləri də müxtəlifdir. "Miqrant", "qaçqın" və "sığınacaq axtaran şəxs" terminləri arasında müxtəlif ədəbiyyatlarda olan ziddiyyətlər insan axınlara qarşı yanaşmanın fərqliliyinə gətirib çıxarmışdır. Miqrasiyanın başlıca səbəblərindən birinin təyinat ölkəsində vəd olunan iqtisadi imkanlar və daha yaxşı həyat şəraiti ehtimalları olmasına baxmayaraq, "iqtisadi" miqrant və qaçqın və ya sığınacaq axtaran şəxs anlayışları bir-birindən fərqləndirilməlidir. Qanunsuz miqrasiya axınları, adətən özündə həm daha yaxşı yaşam şəraiti axtarışında olan, həm də təqiblərdən qaçan şəxslərin axınlarını ehtiva edən "qarışıq miqrasiya" adlandırılır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, "hər bir şəxs digər ölkələrdə təqibdən sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir" (Maddə 14(1)). Bu gün dünyada baş verən siyasi proseslər və müharibələr ötən əsrin 90-ci illərindən etibarən ən yüksək qaçqın axınına səbəb olmuşdur. İnsanlar təqiblərə məruz qaldıqca qaçqınlar qlobal reallıq olacaqdır və ilbəil artan qaçqın sayına nəzər saldıqda bu problemin yaxın zamanlarda həll oluna biləcəyi ehtimal olunmur.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının statistik məlumatlarına əsasən, hazırda dünyada 21,3 milyon qaçqın olmaqla, 65,3 milyon şəxs məcburi yerdəyişməyə məruz qalmışdır. Bugünədək qaçqınların əksəriyyəti inkişaf etməkdə olan və qaçqın problemi olan qaynar nöqtələrə yaxın ölkələr tərəfindən qəbul edilmişdir. Ümumilikdə dünya üzrə qaçqınların 53%-i yalnız üç ölkə –Suriya (4,9 mln), Əfqanıstan (2,7 mln) və Somalidən (1,1 mln) olan qaçqınlar təşkil edir və ən çox qaçqın qəbul edən ölkələrə isə Türkiyə (2,5 mln) liderlik edir[1].

[1] http://www.unhcr.org/figures-at-a-glance.html

Sığınacaq qərarının verilməsinə təsir edən amilləri mənşə və təyinat ölkələrində olan təkanverici[1] və cəzbedici[2] amillər olmaqla iki qrupa ayırmaq olar. Sığınacaq axtaran şəxslərin öz evlərini tərk etmələri üçün ilkin səbəb öz həyatlarını xilas etməkdir. Belə ki, yerdəyişməyə insan hüquqlarının pozulması, vətəndaş və etnik müharibələr, dövlətin suverinliyinin itirilməsi kimi amillər təkan verir. Qeyd edilən amillər belə vəziyyətdə olan ərazilərdə yaşayan şəxsləri həm ölkənin digər bölgələrinə[3] və yaxın qonşu dövlətlərin ərazilərinə miqrasiya etməyə vadar edir. Sığınacaq axtarmağın birinci mərhələsi olan bu köçmə başlıca olaraq həyati təhlükədən xilas olmaq və təhlükəsizlik üçün atılan addımdır. Lakin aparılmış tədqiqatlar üçüncü dövlətlərdə sığınacaq axtarmağın daha yaxşı yaşayış imkanları axtarışı üçün iqtisadi səbəblərə görə baş verdiyini göstərir (Neumayer, 2005). İkinci mərhələ –Avropa İttifaqı, ABŞ, Kanada kimi ölkələrin inkişaf səviyyəsi sığınacaq axtaran şəxslər üçün daha cəlbedici olmasıdır.

Təyinat ölkəsində olan qeyri-müəyyənlik və ya məlumatsızlıq sığınacaqla nəticələnən miqrasiyaya mane olan faktorlardır. Lakin artıq təyinat ölkəsində məskunlaşmış miqrant şəbəkələri potensial miqrantlar üçün bu qeyri-müəyyənlikləri kifayət qədər azaldır (Beine, Docquier və Ozdem, 2011). Şəbəkə nəzəriyyəsi belə bir ideya irəli sürür ki, eyni mənşə ölkəsindən olan əvvəlki miqrantlar onlardan sonra gələn potensial miqrantlar üçün məlumat, assimilasiya və yerləşmə xərclərini azaldır və miqrasiyanı daha asanlaşdırır. (Rotte, Vogler və Zimmermann, 1997). Bu növ şəbəkələr potensial miqrantların faydalana biləcəyi mövcud miqrantların şəxsi əlaqələrindən ibarətdir. Şəxsi əlaqələr təyinat ölkəsində prosedur və qaydalarla tanışlıq, yeşləşmə, iş əldə etmə və qəbul edən icmaya mədəni inteqrasiya üçün kömək edən əsas amillərdəndir. Bununla yanaşı, əvvəl miqrasiya etmiş şəxslər potensial miqrantlar üçün model rolunu oynaya bilər.

Miqrant şəbəkələri yalnız eyni mənşə ölkəsindən olan şəxslər ilə məhdudlaşmır, coğrafi cəhətdən yaxın, eləcə də mədəni və sosial oxşarlıqları olan mənşə ölkələrinin miqrant şəbəkələri sığınacaq miqrasiyasını asanlaşdırır. Coğrafi yaxın mənşə ölkələri arasında asılılıq həmçinin, eyni qanunsuz miqrasiya marşrutlarından istifadə ilə bağlıdır. Belə ki, qonşu ölkələrdən olan potensial sığınacaq axtaran şəxslər miqrant qaçaqmalçıların xidmətlərindən birgə istifadə edirlər. Bu hal hazırda Avropaya eyni qayıqda gələn miqrantların bənzər mənşə ölkələrindən olması ilə təsdiqlənə bilər.

Şəbəkələr, həmçinin, eyni dildən istifadəyə də əsaslana bilər, mövcud immiqrantlarla ümumi dil məlumat mübadiləsini və dəstəyi artırır. Nümunə

---

[1] Mənşə ölkəsini tərk etməyə səbəb olan neqativ təsirlər və ya şərait (İngiliscə -*push factor*).
[2] Təyinat ölkəsinə miqrasiyaya təşviq edən amillər (İngiliscə -*pull factor*).
[3] Bu halda ölkədaxili məcburi köçkünlər.

olaraq, Qərbi Afrikadan olan bir sığınacaq axtaran şəxs üçün fransiz dilli icmanın olması öz mənşə ölkəsindən olan miqrant şəbəkəsi qədər faydalı ola bilər. Ümumi dil adətən, mənşə və təyinat ölkəsi arasında tarixi koloniyalaşmanın nəticələrindən biri olur və bu da öz növbəsində tarixən müstəmləkəçi olmuş dövləti müstəmləkə ölkələrindən sığınacaq axtaran şəxslərin ilk seçimlərindən biri etmişdir.

Sığınacaq miqrasiyasına təşviq edən amillərlə yanaşı, eyni zamanda miqrasiyaya mane olan amillər də mövcuddur. Bu amillərdən birincisi, miqrasiya üçün tələb olunan xərcdir. Bu xərc həm ölkəni tərk etmək, yeni ölkədə yaşayış şəraitinə, yeni dilə və fərqli mədəniyyətə uyğunlaşmaq üçün ehtiyac duyulur. Mənşə ölkəsində həddən artıq kasıblıq miqrasiyanın qarşısını alır. Belə ki, yoxsul ölkələrdə çox az insanın yerdəyişmə və məlumat xərclərini ödəmək üçün maliyyə vəsaiti olur. Miqrasiya və yoxsulluq arasındakı əlaqə "miqrasiya donqarı"[1] adlandırılan forma ilə təsvir edilir. Bu əyri ilə ilə göstərilən qarşılıqlı əlaqəyə əsasən, miqrasiya üçün xərcin ödənilməsi mümkün olmayan səviyyəyə qədər yoxsulluq miqrasiyayaya mane olur, yəni ən az inkişaf etmiş ölkələrdə xarici ölkələrə miqrasiya daha az olur. İnkişaf davam etdikcə və minimal xərclərin ödənilməsi üçün gəlir artdıqda əhalinin digər ölkələrə miqrasiyası davam edir. Bu mərhələ mənşə ölkəsində təklif olunan imkanların təyinat ölkəsində təklif olunanlara mütanasib olduğu nöqtəyədək –əyrinin ən yüksək nöqtəsinədək davam edir. Mənşə və təyinat ölkəsi arasındakı gəlir bərabərliyi təmin olunduqca xarici ölkələrə miqrasiya azalmış olur. Misal olaraq, 1960-1970-ci illər ərzində İspanya və Portuqaliya kimi ölkələrdə əhalinin xarici ölkələrə köçməsi "miqrasiya donqarı"nın ən yüksək nöqtəsinə doğru irəliləyirdi. Lakin 1980-1990-cı illər ərzində qazanılmış iqtisadi uğurlar nəticəsində miqrasiya saldosu azalmış və hazırda bu ölkələr xaricdən miqrant qəbul edən ölkələrə çevrilmişdir.

Sığıncaq axtaran şəxsləri qəbul etmənin gətirdiyi iqtisadi, siyasi və sosial çətinlikləri nəzərə alaraq, təyinat ölkələri tərəfindən ölkəyə qaçqın axınının azaldılması üçün bir sıra addımlar atılır. Bu cür tədbirlərə giriş zamanı tətbiq edilən viza tələblərinin sərtləşdirilməsi, sərhəd nəzarətinin gücləndirilməsi, sənədsiz miqrantların qaçaqmalçılığı ilə məşğul olanlara cəzaların tətbiqi kimi qərarlar daxildir. Digər bir tədbir isə qaçqın anlayışının daraldılması, müraciətlərə baxılma müddətinin azaldılması və qərardan şikayət etmənin mümkün olmamasıdır. Həmçinin, xüsusilə Qərb dövlətləri tərəfindən istifadə olunan "təhlükəsiz mənşə ölkələri"ndən sığınacaqla bağlı müraciətlərdən imtina edilməsi belə dövlətlərdən sığınacaq miqrasiyasının qarşısını alan siyasi addımlardandır. Bununla yanaşı, qaçqın axınları təyinat ölkələrində sosial müavinətlərin verilməsi və əmək bazarına çıxış imkanları ilə əlaqəlidir.

[1] İqtisadi inkişafın ölkədən miqrasiyaya təsirini göstərən zəngşəkilli əyri (İngiliscə -*migration hump*)

Tamamilə siyasi maneələrlə yanaşı, təyinat ölkələri fiziki divarlarla da sığınacaq axtaran şəxslərin hərəkətlərinə mane olur. Suriya, Əfqanıstan və problemli Afrika ölkələrindən gələn digər qaçqınların qarşısını almaq üçün Macarıstan, Xorvatiya və Rumıniya ilə sərhədində yüksək divarlar ucaltmışdır. Eyni qərar hazırkı ABŞ Prezidenti Donalt Trampın hakimiyyətə gəliyi vaxtdan qəbul ediyi ilk addımlardandır. Bu qərarla o, Latın Amerikasından gələn qanunsuz miqrasiyanın qarşısını almağa cəhd edir. Lakin tarixən atılmış bənzər addımlar insanların hərəkətinə mane olmaq üçün divarların yetərsiz olduğunu göstərmişdir. Belə ki, 2012-ci ildə Yunanıstan hökumətinin 3 milyon avrodan artıq xərc çəkərək, Türkiyə ilə sərhədə ucaltdığı divar öz məqsədinə nail olmamışdır. Yunanıstana qaçqın axınları dəniz vasitəsilə gəlməyə başlamışdır. Sərhədlərdə divarların tikilməsi dəniz yolunu daha az qorunan etmişdir və bunun nəticəsində, miqrasiya daha təhlükəli hal almışdır. Beynəlxlaq Miqrasiya Təşkilatının məlumatına əsasən 2016-cı il ərzində təkcə Aralıq dənizində 5083 miqrant həlak olmuşdur[1].

Suhrke (1998) qeyd edir ki, qaçqınların müdafiəsi beynəlxalq ictimai faydadır. Lakin bəzi təyinat ölkələri digərlərini daha çətin vəziyyətdə qoyaraq kollektiv fəaliyyət tələb edən qaçqın müdafiəsi məsələsində məsuliyyət götürməkdən yayınırlar və kollektiv maraqları milli maraqlara qurban veirilər.

Yuxarıda sadalanan sosial, iqtisadi və siyasi səbəblər sığınacaq axtaran şəxslərin son təyinat ölkəsini seçmələrinə təsir göstərən başlıca amillərdir. Qaçqınların üstün tutduğu iqtisadi cəhətdən inkişaf etmiş ölkələr ərazilərinə daxil olan sığınacaq axtaran şəxslərin sayını tənzimlənməsi, eləcə də, qanunsuz miqrasiya edən sənədsiz miqrantların sayının azaldılması üçün ayrı-ayrılıqda deyil, cəhdlərini birləşdirərək hərəkət etməlidirlər. İlk növbədə qaçqın axınına səbəb olan mənşə ölkələrində münaqişələrin, müharibələrin və insan hüquqlarının pozulması hallarının qarşısının alınması üçün beynəlxalq ictimaiyyət tərəfindən birgə səy göstərilməlidir.

Hazırkı dövrdə baş verən sığınacaq miqrasiyası axınlarının iqtisadi və demokratik cəhətdən inkişaf etmiş ölkələrə doğru yönəldiyi və sığınacaq axtaranların bu ölkələrə birbaşa deyil, tranzit ölkələr vasitəsilə həyata keçirildiyini nəzərə alaraq, təyinat ölkələri sığınacaq prosedurlarını daha da təkmilləşdirməlidir. İndiki qaçqın qəbul etmə prosesi əksər ölkələrdə ölkəyə daxil olduqdan sonra başlayır. Bu da öz növbəsində ölkəyə sığınacaq üçün gələn miqrantların qaçqın statusu verilmiş şəxslərin sayından dəfələrlə artıq olmasına səbəb olmuşdur. Sığınacaq üçün müraciətlərindən imtina edilmiş şəxslərin statuslarının müəyyənləşdirilməsi və ölkədən çıxarılması təyinat ölkələri üçün əlavə çətinliklər yaradır. Belə çətinliklərin aradan qaldırılması üçün təyinat ölkələri sığınacaq axınları istiqamətindəki qaçqınların tranzit ölkə kimi

[1] https://missingmigrants.iom.int/mediterranean.

istifadə etdiyi ölkələrdə öz sığınacaq mərkəzlərini yarada bilərlər. Bu mərkəzlərdə sığınacaq üçün ilkin prosedurlar yerinə yetirilir və status almış şəxslər son təyinat ölkələrinə çatdırılması üçün lazımi sənədlərlə təmin olunur. Mərkəzlər həmçinin, sığınacaq üçün müraciət edən şəxsərin qeyri-müəyyən vəziyyətdə qalmasının və onları qəbul edə biləcək digər ölkələrin nümayəndəliklərinə də müraciət etmək imkanı verəcəkdir.

**Ədəbiyyat:**

1. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Maddə 14 (1).
2. http://www.un.org/en/universal-declaration-human-rights/ index.html.
3. Neumayer E. (2005). Bogus Refugees? The Determinants of Asylum Migration to Western Europe, İnternational Studies Quarter, Cild 49, № 3.
4. Beine M., Docquier F., Özdem C. (2011). Diaspora Effects in International Migration –Key Questions and Methodological Issues. Dünya Bankı Siyasət Araşdırmaları üzrə İşçi Sənəd 5721.
5. Ralph R., Vogler M., Zimmermann K. (1997). South-North Refugee Migration: Lessons for Development Cooperation, Review of Development Economics 1(1): 99-115.
6. Suhrke A. (1998). Burden-sharing during Refugee Emergencies: The Logic of Collective Action versus National Action, Journal of Refugee Studies 11 (4): 396-415.

***Namiq CƏFƏROV,***
*Dövlət Miqrasiya Xidməti, Qaçqın statusunun müəyyənləşdirilməsi idarəsinin rəis müavini*

## Sığınacaq axtaran şəxslərin beynəlxalq himayəsi –Azərbaycanın təcrübəsi

Son illərdə dünyada baş verən transformasiyalar bütün ölkələrdə, xüsusilə də postsovet məkanında siyasi, sosial, iqtisadi həyatın kökündən dəyişməsini, milyonlarla insanın müxtəlif səbəblər üzündən miqrant həyatını yaşamasını şərtləndirmişdir. Tədqiqatçıların yekdil qənaətinə görə XXI yüzilliyin əvvəllərində yeni “miqrasiya dalğası, “böyük insan köçü” başlanmışdır. Bu, qloballaşma prosesi ilə bilavasitə bağlıdır. “Statistik məlumatlara görə, bu gün bizim planetimizdə bir milyarddan çox miqrant var. Onların 250 milyonu beynəlxalq miqrantlar, yəni başqa ölkələrə, 750 milyonu isə ölkələrinin daxilində miqrasiya edənlərdir.

İnsanın öz yaşayış yerini şəxsi, azad seçimi ilə və ya məcburi, zorakılıq səbəbindən dəyişməsini səciyyələndirmək üçün könüllü və məcburi, zorakı miqrasiya növləri ilə fərqləndirilir. Məcburi miqrasiya situasiyası –böyük əhali kütləsinin qaçqın və məcburi köçkünlərin sayı müasir dövrün ən mürəkkəb qlobal problemlərindən birinə çevrilmişdir.

Hazırda bəşəriyyət II Dünya müharibəsindən sonra ən böyük qaçqın və məcburi köçkün axınına şahid olur. Belə ki, “1951-ci ildə Konvensiya qəbul ediləndə onun müddəaları cəmi bir milyon qaçqına aid edilirdi”. İndi isə dünyada ümumilikdə 65,3 milyon şəxs məcburi olaraq öz yurd-yuvasından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilib, (onlardan 21,3 milyon qaçqın, 40,8 milyon köçkün, 3,2 milyon qaçqın statusu almaq qərarını gözləyənlərdir) bu da son on il ərzində dünyada qaçqınların sayının iki dəfə çoxalması, dünya üzrə hər 113 adamdan olması deməkdir. Dünyada hər dəqiqə 24 nəfər qaçqın və ya məcburi köçkün vəziyyətinə düşür.

1951-ci ildə qaçqınların əsas hissəsi Avropalılar idisə, bu gün Afrika və Asiyadır. (Hazırda BMT QAK-ın himayəsində olan 21 milyon qaçqının 50%-i əsasən Suriya, Əfqanıstan və Somalidəndir). Bu gün dünya xəritəsinə baxsaq sayı 30-a çatan müxtəlif səbəblərə görə baş verən münaqişlərin nə qədər geniş

vüsət almasının şahidi olarıq. Suriya, İraq, Əfqanıstan, Yəmən, Liviya, Cənubi Sudan, Kotduvuar, Burundi, Nigeriya, Ukrayna münaqişələr baş verən ölkələrin yalnız bir qismidir.

Son illərdə baş verən hadisələr göstərir ki, qaçqınların yerdəyişməsi fərdi yox, daha çox kütləvi xarakter almışdır və onların da 80%-i qadın və uşaqlardır. Əhalinin kütləvi miqrasiyasının səbəbləri olduqca müxtəlifidr. Bura təbii və ekoloji motivlərdən tutmuş aclıq, yerli və regional hərbi münaqişələr, həmçinin yoxsulluq da daxildir. Nəticədə, müasir qaçqınların əksəriyyəti mövcud konsepsiyaya görə qaçqın statusuna uyğun gəlmirlər. Buraya irqi, dini, milli səbəblərə, müəyyən sosial qrupa və siyasi düşüncəyə mənsubiyyətinə görə qaçqınlar aid edilir.

"Qaçqın" anlayışının müasir tərifi beynəlxalq hüquqa əsasən iki rəsmi sənəddə əksini tapmışdır: 1) BMT-nin "Qaçqınların statusuna dair 1951-ci il Konvensiyası"; 2) ona əlavə edilən 1967-ci il Protokolu.

Konvensiyaya görə aşağıdakı şəxslər və xüsusiyyətlər qaçqın statusuna aid edilə bilər:

1. Onlar mənşə (daimi yaşadığı) ölkə xaricində, hüdudlarından kənarda yerləşirlər;

2. Onlar həmin ölkənin təklif etdiyi himayə və müdafiəsindən istifadə edə bilmir, yaxud bunu istəmir, ora qayıtmağı arzulamırlar;

3. Bu istək və ya qayıtmağın mümkünsüzlüyünün çox mühüm əsasları var, bu, təqib olunmaq və təzyiqə məruz qalmaq qorxusu ilə bağlıdır.

4. Təqiblər irqi, dini əqidə, vətəndaşlıq, müəyyən sosial qrupa, yaxud da siyasi əqidəyə mənsub olmaqla bağlıdır.

Bu sənədlərdən əlavə qaçqın poblemi, məcburi miqrasiya sahəsində 30-dan çox beynəlxalq saziş qəbul olunmuşdur. Bunların arasında Afrika Birliyi Təşkilatının 1969-cu il Konvensiyası xüsusilə diqqəti cəlb edir. Burada qaçqın anlayışı daha yığcam və dəqiq ifadəsini tapmışdır. "Qaçqın" termini xarici işğal, təcavüz, hökmranlıq cəhdi və ya ictimai asayişin ən ciddi şəkildə pozulduğu hadisələr nəticəsində öz ənənəvi, daimi yaşayış yerini tərk etməyə məcbur olan istənilən şəxslərə aiddir.

Öz evlərini tərk etməyə məcbur olmuş, lakin öz ölkələrinin ərazisində qalmış şəxslər məcburi köçkün sayılır. BMT Baş Assambleyasının və İnsan hüquqları üzrə Komissiyanın tövsiyələri ilə "Ölkədaxili məcburi köçkünlərin problemləri üzrə Rəhbər Prinsiplər" qəbul edilmişdir. Rəhbər prinsiplər məcburi qüvvəyə malik olmasa da, onlara riayət edilməsi mütləq məcburidir. Ən mühüm prinsiplərdən biri də "insanların irqi ayrı seçkilik, etnik təmizləmə və bənzər səbəblərdən zorla köçkün salınmasının qadağan edilməsi"dir.

Beynəlxalq Miqrasiya Təşkilatının hesabatına əsasən son il 1.011.700-dən çox miqrant Avropaya dəniz vasitəsilə, 35.000 insan isə quru yolu ilə gəlib. Onlardan çoxunun çatmaq istədiyi əsas ölkə varlı şimal dövlətləri olan

Almaniya və İsveçdir. 2016-ci ildə Aralıq dənizində 5000-dən çox qaçqın və miqrant batıb (2015-ci ildə bu rəqəm 3.771 nəfər olmuşdur. “Ən çox qaçqın qəbul etmiş ölkələrin siyahısına Türkiyə liderlik edir. BMT-nin 2016-cı ilə olan məlumatına əsasən, Türkiydə 3 milyondan çox qaçqın məskunlaşıb, onlardan 2 mln 730 min nəfəri Suriyadandır. Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Təyyub Ərdoğan öz çıxışlarında qeyd etmişdir ki, “Qaçqınların yerləşdirilməsi və kömək göstərilməsinə 20 mlrd. dollar xərclənmişdir”. Türkiyənin ardınca Pakistan (1,5 milyon qaçqın), Livan, İraq, Efiopiya, İordaniya, Keniya, Uqanda, Çad və Sudan gəlir.

Avropanın rekord həddə sığınacaq müraciəti qəbul etməsinə baxmayaraq, qaçqınların böyük əksəriyyəti –təxminən 86%-i hələ də kasıb və ya inkişaf etməkdə olan ölkələr tərəfindən məskunlaşdırılır. Dünya üzrə qaçqınların yarıdan çoxu azı beş il qaçqın həyatı yaşamağa məcbur qalır və milyonlarla insan artıq onilliklərdən bəri öz doğma ev-eşiklərinə qayıda bilmir. Məhz bu səbəbdən hazırda bütövlükdə miqrasiya prosesləri dünya ictimaiyyətini daha çox narahat edir, həmçinin beynəlxalq təşkilatlar üçün ən aktual məsələyə çevrilib.

Böhran Avropa İttifaqı ölkələri arasında böyük siyasi ziddiyyətlərə gətirib çıxarmışdır ki, nəticədə Şengen azad zonasının bəzi ölkələri sərhədlərində hündür hasarlar çəkmiş, sərhəd nəzarət xidməti yaratmışdır. BMT-nin qaçqınlar üzrə rəhbəri Filippo Grandi qeyd etmişdir ki, miqrant böhranının öhdəsindən gəlmək üçün aparılan mübarizə ilə bağlı Avropada “ksenofobiya iqlimi” yaranması narahatlıq hissi doğurur. “Cəmiyyətdə qaçqın və miqrantlara qarşı əks fikirləri oyadan insanlar, bugünkü Avropada böyük narahatlıq yaradan ksenofobiya iqlimi yaratmaqda məsuliyyət daşıyırlar”.

2017-ci il yanvarın 10-da ölkə başçısının sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: “Keçən il Azərbaycanda “Multikulturalizm ili” elan edilmişdir. Bu, hesab edirəm ki, dünya miqyasında nadir bir hadisə idi. Bilmirəm, bu vaxta qədər hansısa bir ölkədə “Multikulturalizm ili” elan edilmişdir, yoxsa yox. Ancaq söhbət ondan getmir. Söhbət ondan gedir ki, 2016-cı ili “Multikulturalizm ili” elan etməyimiz çox böyük məna daşıyırdı. Bu, bizim siyasətimizi, cəmiyyətimizin əhvali-ruhiyyəsini göstərir, gördüyümüz işləri, görüləcək işlərimizi əks etdirir. Azərbaycan doğrudan da dünya miqyasında multikulturalizmin mərkəzidir. Biz bu mövzu ətrafında söhbətlərə, beynəlxalq tədbirləri keçirməyə başlayanda hələ miqrantlar böhranı yox idi, hələ Avropada, başqa yerlərdə ayrı-seçkilik o qədər də özünü büruzə vermirdi. Keçən il bu, ifrat dərəcəyə çatdı. Keçən il biz bəzi Avropa ölkələrində miqrantlara qarşı alçaldıcı hərəkətləri, islamofobiya ilə bağlı artıq açıq-aşkar aqressiv siyasəti gördük. Belə bir fonda “Multikulturalizm ili” elan etmək və onu

ləyaqətlə sona çatdırmaq bir daha bizim siyasətimizi, gücümüzü, niyyətimizi göstərir.

Biz keçən il bir neçə mötəbər tədbir keçirmişik. Mən onlardan BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu xüsusi qeyd etmək istəyirəm. Ənənəvi Bakı Beynəlxalq Humanitar Forumu da, digər tədbirlər də çox uğurla keçdi. Roma Papasının Azərbaycana səfəri və səfər zamanı verdiyi bəyanatlar da xüsusi qeyd edilməlidir. Bax, budur Azərbaycanın bu işə verdiyi töhfələr. Biz nəinki ölkə daxilində millətlərarası, dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, həm də dünyaya da nümunə göstəririk. Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk".

Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında məruzə ilə çıxış edən DSX-nin rəisi cənab Firudin Nəbiyev qeyd etmişdir ki, "Bu gün sakitcə öz həyatını yaşayan xalqı demokratiya pərdəsi altında hakimiyyətə qarşı qaldıran və ona gözəl gələcək vəd edənlər indi həmin xoşbəxt gələcəyə qovuşmaq üçün Avropaya sığınan milyonlarla insanı dəmir və beton sədlərlə, tikanlı məftillərlə, polis zorakılığı ilə, hətta insanlığa sığmayan əməllərlə üz-üzə qoyurlar. Lakin acınacaqlı vəziyyətin aradan qaldırılması istiqamətində hələ ki, real və konkret addımlar atmayan Avropanın cəhdləri və bəyanatları isə heç bir nəticə vermir. Avropa ölkələrində qəbul edilən qanunlar insanların irqindən, dinindən asılı olmayaraq, hər kəsə bərabər hüquqlar, yüksək həyat şəraiti nəzərdə tutsa da, bir sıra ölkələr miqrantlara dini mənsubiyyətlərinə görə yanaşırlar.

Sizin rəhbərliyinizlə cənab Prezident, Azərbaycan Respublikasının miqrasiya siyasətinin yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsi nəticəsində son illər dünya ölkələrində baş verən miqrant böhranı fonunda ölkəmizdə həm xarici, həm də daxili miqrasiyanın mənfi təzahürlərinin qarşısının alınması istiqamətində səmərəli və məqsədyönlü tədbirlər görülmüşdür.

2016-cı il aprelin 29-u və 30-da Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində keçirilən BMT Sivilizasiyalar Alyansının Dostları Qrupunun yüksək səviyyəli iclasında Bakı Bəyannaməsi qəbul olunmuşdur. Sənəddə qeyd olunur ki, Bakı Bəyannaməsi mədəni və dini müxtəlifliklərə hörmət və anlaşmanın vacibliyini qeyd edir, müxtəlif mədəniyyətlər, sivilizasiyalar və insanlar arasında tolerantlıq, hörmət, dialoq və əməkdaşlığı təbliğ edir.

Bəyannamədə sülh, təhlükəsizlik və inkişafın genişlənməsində universal dəyər kimi Sivilizasiyalar Alyansın moderatorluğunu genişləndirəcəyi vurğulanır. Dünyanın mədəniyyət müxtəlifliyi və mədəni irsinin bütün xalqlar arasında sülh faktoru və inkişaf kimi hər kəs tərəfindən qorunmasının vacibliyi bildirilir. Mədəni irslərə qarşı davamlı və geniş miqyasda qanunsuz aktların

baş verməsi ilə bağlı narahatlıq ifadə olunur. Sülh və təhlükəsizliyin, insan haqlarının və dayanıqlı inkişafın təbliğ olunması üçün mədəni irsə hörmətin vacibliyi vurğulanır. Mədəniyyətlərarası və dinlərarası dialoqun, tolerantlıq, plüralizm və qarşılıqlı hörmət sahəsində əməkdaşlığın vacibliyi qeyd olunur. "2030 –Dayanıqlı İnkişaf Gündəliyi"nin qəbulu alqışlanır. Günahsız insanların ölümünə, dağıntılara və insanların qaçqın düşməsinə səbəb olan, dünyanın müxtəlif yerlərində qeyri-tolerantlıq, zorakı ekstremizm, zorakılıq və terrorizm aktlarından narahatlıq ifadə olunur. Bəyannamədə fərq qoymadan bütün insan hüquq və azadlıqlarına hörmətlə bağlı BMT Xartiyası qarşısında bütün üzv ölkələr tərəfindən götürülən öhdəlik dəstəklənir, bir daha vurğulayır ki, üzv ölkələrin bütün insan hüquq və fundamental azadlıqlarını müdafiə etmək öhdəliyi var. Bəyannamədə rasizm, radikal ayrı-seçkilik, ksenofobiya və qeyri-tolerantlığa qarşı mübarizədə ümumi qətiyyət ifadə olunur. "Azərbaycanın 7-ci qlobal foruma ev sahibliyi etməsini yüksək qiymətləndirilərək, bildirilir ki, miqrasiyanın gedilən ölkə ilə gedən şəxsin vətəndaşı olduğu ölkə arasında mədəni plüralizmi təbliğ etmək də daxil olmaqla, müsbət nəticələri ola bilər. Bəyannamədə ölkələri Bakıda qəbul edilən öhdəlikləri yerinə yetirməyə çağıraraq, əminlik bildirilir ki, Bakı forumu inklüziv cəmiyyətdə birgə yaşama, zorakı ekstremizm kimi çağırışların qarşısının alınması, sülh, universal insan haqları və dayanıqlı inkişaf kimi Sivilizasiyalar Alyansı tərəfindən vurğulanan məqsədlərinə çatıb".

Ölkəmizdə olan qaçqın və məcburi köçkün probleminin miqyasına baxmayaraq, Azərbaycan hökuməti, dünyada humanitar fəlakətlərdən ziyan çəkmiş insanlara birbaşa və yaxud beynəlxalq təşkilatlar vasitəsilə vaxtında yardım göstərir. Azərbaycanın milli donor institutu –Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) 2011-ci ildə təsis edilmişdir və həmin dövrdən Afrikanın, Asiyanın və Latın Amerikasının 30 ölkəsində humanitar yardım üzrə layihələr həyata keçirir, həssas qrupa məxsus olan insanlara humanitar yardım göstərir, habelə səhiyyə, təhsil, enerji, informasiya və kommunikasiya texnologiyaları sahələrində potensialların yaradılması proqramlarını təşkil edir. Məqsəd zərər çəkmiş bu cür ölkələrdə BMT-nin "2030 –Davamlı İnkişaf Gündəliyi"ndə əksini tapmış hədəflərə nail olmaqdır.

Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ildə Londonda keçirilən "Suriyaya və regiona dəstək" konfransındakı çıxışında demişdir ki, "Bu gün biz bir çox çıxışları və yardım çağırışlarını dinlədik. Azərbaycan Suriyada humanitar inkişafa artıq töhfə vermiş və verəcək ölkələr arasındadır. Lakin ən əsası sülh, atəşkəs, siyasi həllin tapılmasıdır. Yalnız bundan sonra iş yerləri açılacaq, təhsil istənilən səviyyədə olacaq və insanlar öz gələcəyinə inanmağa başlayacaqlar. Biz bu böyük iqtisadi və sosial çətinliklərdən əziyyət çəkmiş bir ölkə kimi buna necə nail olmağın yolunu bilirik. Biz iş yerlərinin yaradılmasında təcrübəmizi paylaşa bilərik. Son on illikdə Azərbaycanda 1,5 milyon

iş yeri yaradılmışdır. Biz təhsil sahəsindəki təcrübəmizi də paylaşa bilərik. Ölkəmizdə 3 mindən çox məktəb inşa edilmişdir və dediyim kimi, Azərbaycanda 100%-lik savadlılıq səviyyəsinə nail olunmuşdur. Humanitar böhranın idarə olunması üzrə təcrübəmizi də paylaşa bilərik və biz bunu edəcəyik. Lakin ən önəmlisi sülhdür. Buna görə də, Suriya böhranı üzrə siyasi həllin mümkün qədər tez tapılması bizim gündəliyimizdə duran bir nömrəli məsələdir".

2017-ci ildə ölkəmizdə səfərdə olan İsveç Krallığının Xarici İşlər naziri xanım Marqot Vallström fevralın 9-da Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov ilə görüşdə bildirib ki, "İsveç Avropada adambaşına düşən qaçqınların sayına görə birinci yerdədir. Bu ölkəyə pənah gətirən qaçqınların əksəriyyəti valideynləri olmayan uşaqlardır. Onların təhsil, səhiyyə və digər sahələrdə olan problemlərinin həlli bizə müəyyən çətinliklər yaradır. Ona görə də, Azərbaycanın bu sahədəki təcrübəsi bizim üçün çox önəmlidir. Bizə maraqlıdır, Azərbaycan bu problemlərin öhdəsindən necə gəlib? Bu sahədə bizim sizdən öyrənəcəyimiz çox şey var.

Müasir dövrdə Azərbaycan Respublikası üçün miqrasiya proseslərinin beynəlxalq normalara uyğun tənzimlənməsi və miqrantların hüquqlarının müdafiəsi, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli prioritet istiqamətlərdəndir. Bu gün Azərbaycan Respublikası əhalisinin hər 9 nəfərdən biri qaçqın və ya məcburi köçkündür. Bu da dünyada əhali nisbətinə olan qaçqın və ya məcburi köçkünlərin sayına görə ən yüksək göstəricilərdəndir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev qaçqınların problemlərinin həlli və işğal olunmuş torpaqların azad edilməsi uğrunda mübarizə məsələlərini Azərbaycanın ən böyük problemi kimi kompleks şəkildə aparılan strategiyanın tərkib hissəsi kimi hesab edirdi. Eyni zamanda, Azərbaycanda məcburi miqrasiyanın son dərəcə ağır miqyası, işğal və təcavüzə son qoyulması, qaçqınların öz tarixi torpaqlarına qaytarılması, tarixi ədalət və Qarabağ həqiqətlərinin dünya birliyinə çatdırılması Heydər Əliyevin siyasi kursunun ana xəttini təşkil etmişdir.

Ulu öndərimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən məcburi köçkünlərin həyat və yaşayış səviyyəsinin artırılması istiqamətində aparılan məqsədyönlü siyasət uğurlu olmuşdur. Ölkə başçısı qeyd etmişdir ki, "Qaçqın və məcburi köçkün soydaşlarımızın problemləri bizim üçün həmişə gündəlikdə duran bir nömrəli problemdir. Bizim qarşıda duran ən vacib və ən önəmli məsələ Azərbaycan torpaqlarının işğalçı qüvvələrdən təmizlənməsi, soydaşlarımızın, qaçqın-köçkün bacı-qardaşlarımızın öz doğma torpaqlarına qayıtmasıdır".

Öz doğma yerlərini tərk etməli olmuş insanların bütün problemlərini Azərbaycan hökuməti öz üzərinə götürmüşdür və bu insanların məşğulluq, təhsil, yaşayış, tibbi, sosial təminatı ilə əlaqədar tədbirləri mərhələli qaydada

və ən başlıcası daha ağır şəraitdə yaşayan ailələrin sosial, mənzil-məişət problemlərinin həllinin ardıcıllığı prinsipi əsasında həyata keçirilmişdir.

Ölkəmizin milli qanunvericiliyi qaçqın və məcburi köçkünlərlə bağlı tərəfdar çıxdığı beynəlxalq razılaşmalara tamamilə uyğunlaşdırılmış və hətta bəzi məqamlarda daha çox üstün hüquqlar müəyyən edir. Ötən illər ərzində Respublika Prezidenti tərəfindən 96 fərman və sərəncam imzalanmış, Nazirlər Kabineti tərəfindən 368 qərar və sərəncam, Milli Məclis tərəfindən isə 34 qanun qəbul edilmişdir. Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üzrə 2 Dövlət Proqramı və onlara 2 əlavə təsdiq edilərək, uğurla həyata keçirilmiş və nəzərdə tutulan digər tədbirlərin həyata keçirilməsi istiqamətində davamlı iş aparılır.

2007-ci ildə ölkədə mövcud olmuş 12 çadır düşərgəsi ləğv edilmiş və məcburi köçkünlər yeni qəsəbələrə köçürülmüşlər. Ümumiyyətlə, 2001-2015-ci illər ərzində 1,9 milyard manat vəsait hesabına 50 min ailə 200 min nəfərdən çox daimi məskunlaşmamış qaçqın və məcburi köçkünlər üçün 95 müasir yaşayış kompleksi inşa edilmişdir. Ümumilikdə, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə 1993-2016-cı illərdə 6 milyard manat həcmində vəsait xərclənmişdir.

Azərbaycan Respublikası bir milyondan çox qaçqının və məcburi köçkünün olmasına baxmayaraq, beynəlxalq hüquq normalarına, qoşulduğu beynəlxalq konvensiyaların tələblərinə hörmətlə yanaşır, götürdüyü öhdəlikləri layiqincə yerinə yetirir və üçüncü ölkələrdən olan sığınacaq axtaran şəxsləri qəbul edir, onlara ölkə ərazisində təhlükəsiz yaşamağa hər bir şərait yaradır.

Enerji-nəqliyyat sahələrində beynəlxalq və regional layihələrin həyata keçirilməsi, Azərbaycanda mövcud olan ictimai-siyasi və iqtisadi sabitlik, biznes sahəsində əlverişli şəraitin yaradılması, yüksək templi iqtisadi inkişaf əcnəbilərin ölkəmizə axınına səbəb olan əsas faktorlardır.

Həmçinin, ölkəmizdə tolerantlığın yüksək səviyyədə olması miqrasiya proseslərinə təsir edən heç də az əhəmiyyət kəsb etməyən amil kimi qeyd edilməlidir. Bununla əlaqədar olaraq, vurğulanmalıdır ki, bu günə qədər miqrantlara münasibətdə milli, etnik və dini zəmində hüquq pozuntusu qeydə alınmayıb.

Ölkəmizdə insan haqlarının təmin edilməsi, o cümlədən qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi sahəsində böyük irəliləyişlər üçüncü ölkələrdən olan miqrantların, onların sırasında sığınacaq axtaran şəxslərin Azərbaycana gəlməsini şərtləndirmişdir.

Azərbaycan Respublikası 1992-ci ilin dekabrında BMT-nin Qaçqınların statusuna dair 1951-ci il Konvensiyasına və 1967-ci il Protokoluna qoşulmuşdur. Qaçqın statusu almaq niyyətində olan şəxslərin müraciətlərinə 21 may 1999-cu il tarixli "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununu-

na və Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Qaçqın" statusu verilməsi haqqında vəsatətə baxılması Qaydası"na müvafiq olaraq baxılır. Sığınacaq axtaran şəxslərlə bağlı bir sıra məsələlər Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində də öz əksini tapmışdır.

2001-ci ildən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin tərkibində yaradılan Qaçqın Statusunun Müəyyənləşdirilməsi Departamenti 2008-ci ildən etibarən Dövlət Miqrasiya Xidmətinin strukturunda Qaçqın (sığınacaq axtaran) statusunun müəyyənləşdirilməsi şöbəsi kimi (2012-ci ildə Qaçqın statusunun müəyyənləşdirilməsi idarəsi yaradılmışdır) fəaliyyət göstərir.

Azərbaycan Respublikası DMX rəisinin 12 noyabr 2012-ci il tarixli müvafiq qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Qaçqın statusunun müəyyənləşdirilməsi İdarəsi haqqında Əsasnamə"yə əsasən idarə:

-Qaçqınlar (sığınacaq axtaranlar) haqqında Azərbaycan Respublikası qanunvericiliyinin icrasını təmin edir;

-Qaçqın statusu almaq niyyətində olan şəxslərin vəsatətlərini qəbul edir, qeydiyyata alır, araşdırır, statusunu müəyyənləşdirir;

-Bu statusdan irəli gələn məsələlərin həlli ilə məşğul olur;

-Qaçqınların yerli şəraitə uyğunlaşdırılması, işlə təmin edilməsi, peşə hazırlığı kurslarının təşkili və onların sosial problemlərinin həlli üzrə tədbirlərin həyata keçirilməsində iştirak edir.

Dövlət Miqrasiya Xidməti əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə qaçqın statusu almaq üçün müraciət etməyə lazımi şərait yaratmışdır. Onların vəsatətləri araşdırılması üçün qeydiyyata alınır və müvafiq prosedurlardan sonra hər birinə qaçqın statusunun verilib-verilməməsi barədə məlumat verilir.

"Qaçqın" statusu verilməsi və ya bundan imtina edilməsi məsələsinə Dövlət Miqrasiya Xidmətinin tərkibində yaradılmış "Qaçqın" statusunun verilməsi haqqında vəsatətə baxılması üzrə Komissiya" tərəfindən baxılır və qəbul edilmiş təkliflərə əsasən Xidmət rəisinin müavini tərəfindən müvafiq qərar imzalanır.

Qaçqınlıq meyarlarına uyğun gələn və təqib qorxusu səbəbindən başqa dövlətdən qanunzuz olaraq Azərbaycan Respublikasına gəlmiş və mümkün qədər tez müvafiq səlahiyyətli orqana (DMX) müraciət etmiş şəxs həmin orqanın əsaslandırılmış qərarı ilə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətdən azad edilir.

Qaçqının və qaçqın statusu almaq niyyətində olan (sığınacaq axtaran) şəxsin könüllü olaraq mənşə ölkəsinə qayıtmaq və yaxud da üçüncü ölkəyə getmək hüquqları təmin edilir. Qaçqın statusu almış şəxs onun həyat və azadlığını təhlükə gözləyən ölkəyə göndərilmir və ya məcburi qaytarılmır.

Miqrasiya Məcəlləsinin 79.3.-cü maddəsində qaçqın statusu verilmiş, habelə Azərbaycan Respublikası tərəfindən siyasi sığınacaq verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində kənara çıxarma haqqında qərar qəbul edilməməsi qeyd edilmişdir.

"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanunun 13-cü maddəsinin 3-cü hissəsində ərizəçinin "Qaçqın statusu verməkdən imtina edilməsi barədə qərardan inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilməsi" müddəası qeyd edilmişdir. Bundan başqa, "Qaçqın" statusu verilməsi haqqında vəsatətə baxılması Qaydası"nın 4-cü və 13-cü bəndlərində imtina haqqında qəbul edilmiş qərardan inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilməsi hüququ öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, Dövlət Miqarsiya Xidməti qaçqın statusu verilməsindən imtina edilmiş şəxslərə yazılı imtina qərarları təqdim edir və qərarda imtinanın səbəbləri izah edilməklə, inzibati və ya məhkəmə qaydasında (qərar təqdim olunduqdan sonra 30 gün müddətində) şikayət etmək hüququ göstərir.

Şikayət ərizələrinə baxıldığı dövrdə onların ölkə ərazisindən çıxarılması barədə qərarlar qəbul edilmir və qanuni əsaslarla yaşamalarına şərait yaradılır.

"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 1-ci hissəsinin 1-ci bəndinə əsasən qaçqın statusu almış şəxslər Azərbaycan Respublikasının Konstitusiyasında, bu qanunda və digər qanunvericilik aktlarında başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarından istifadə edir, onlarla eyni vəzifələri daşıyırlar.

Qanuna əsasən qaçqın statusu verilməsi haqqında ərizə təqdim etmiş şəxslərin (sığınacaq axtaranların) bu hüquqları vardır:

-Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq;

-tərcüməçinin xidmətlərindən pulsuz istifadə etmək;

-qaçqın statusu verilməsi məsələsi həll edilənədək, lakin ən çoxu üç ay müddətində müvəqqəti yerləşdirmə məntəqəsində verilmiş yaşayış yerindən pulsuz istifadə etmək;

-müvəqqəti işə düzəlmək;

-tibb yardımı almaq;

-öz dininə sərbəst etiqad etmək;

-BMT QAK-nın Azərbaycandakı Nümayəndəliyi ilə əlaqə saxlamaq hüquqları təmin edilir.

Qaçqın statusu almış şəxslərin hüquqları bunlardır:

-xüsusi ayrılmış yerlərdə, lakin ən çoxu üç ay müddətində haqq ödəmədən yaşamaq;

-işləmək;
-öz dininə sərbəst etiqad etmək;
-tibbi yardım almaq;
-dövlətin təyin etdiyi birdəfəlik və digər yardımı almaq;
-pozulmuş hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək;
-qaçqın statusunu almış şəxsin və onların uşaqlarının məktəbəqədər tərbiyə ocaqlarında, yeniyetmələrin və gənclərin müvafiq təhsil müəssisələrində təhsil almaq.

Qaçqın statusu almış şəxslərə yaşayış yeri seçməyə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada müvəqqəti yaşayış yerinə getməyə və əmlakını aparmağa şərait yaradılır.

Azərbaycanda hazırda 1500 nəfərədən çox 3-cü ölkələrdən "qaçqın" statusu almaq niyyətində olan, Beynəlxalq himaydə olan sığınacaq axtaran şəxs, həmçinin dövlət tərəfindən qaçqın statusu verilən əcnəbi vardır. Əvvəllər həmin şəxslərin sayı 11 min nəfər olmuşdur.

Hazırda İran, Əfqanıstan və Pakistandan olan 42 ərizəçi (ailə üzvləri ilə birlikdə 60 nəfər) qaçqın kimi Dövlət Miqrasiya Xidmətində qeydiyyatdadır. 2016-cı ildə Əfqanıstan İslam Respublikasından olan 4 ərizəçiyə, ailə üzvləri ilə birlikdə 16 nəfərə qaçqın statusu verilmişdir ki, bu da müraciət edənlərin 7,65 %-ni təşkil edir. DMX-ya 2008-2016-cı illər ərzində 26 ölkədən 869 (1685) nəfər sığınacaq axtaran şəxs müraciət etmişdir. Onların əsas hissəsi Əfqanıstan, Pakistan, İran, Ukrayna, İraqdan olan sığınacaq axtaran şəxslərdir. BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyinin himayəsində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin (2016-cı ilin noyabrına olan məlumat) sayı cəmi 1.536 nəfərdir.

Dövlət Miqrasiya Xidmətinin qeydiyyatında olan qaçqınların, vəsatətlə müraciət etmiş şəxslərin, həmçinin BMT QAK-ın himayəsində olan şəxslərin və övladlarının hüquq və azadlıqları tam şəkildə təmin edilmişdir.

Belə ki, onların respublikanın ümumtəhsil məktəblərində pulsuz və ali təhsil müəssisələrində mövcud qanunvericiliyə uyğun təhsil alması təmin edilmişdir.

"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanunun 16-cı maddəsində "Qaçqınların işə düzəlməsi, müvafiq icra hakimiyyəti orqanlarının iş yeri seçməkdə köməklik göstərilməsi" məsələsi əks olunmuşdur. Onların məşğulluğunun təmin edilməsi və əmək bazarının tələbatlarına uyğun iş yerlərinin tapılması istiqamətində müvafiq işlər həyata keçirilmişdir.

Miqrasiya Məcəlləsinin 64-cü maddəsinin 64.0.15-ci bəndində qaçqın statusunun verilməsi üçün vəsatət verən, qaçqın statusu almış və ya siyasi sığınacaq verilmiş şəxslərə iş icazəsi tələb olunmaması qeyd edilmişdir.

Qaçqınların sağlamlıqlarının qorunması və tibbi problemlərinin həlli ilə bağlı DMX tərəfindən zəruri tədbirlər həyata keçirilir, həmçinin Səhiyyə Nazirliyi ilə birgə bu məsələlər diqqət mərkəzində saxlanılır.

Əmək pensiyaları haqqında Azərbaycan Respublikasının Qanunun 3.2.-ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər əsaslarla (dövlət qulluğu istisna edilməklə) əmək pensiyası təminatı hüququ vardır.

Qaçqınların vətəndaşlıq əldə etməsi məsələləri müvafiq qanunvericilik aktlarında öz əksini tapmışdır. Belə ki, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanunun 7-ci maddəsində qaçqınların "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanununa müvafiq vətəndaşlıq əldə etməsi məsələləri qeyd edilmişdir.

Son illər ərzində DMX tərəfindən qaçqın statusu almış şəxslərin vətəndaşlıq əldə etmək imkanlarının artırılması, bu prosedurların sadələşdirilməsi istiqamətində uğurlu addımlar atılmış, xidmətin təşəbbüsü ilə qanunvericilik aktlarına əlavələr edilmişdir. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 24 iyun tarixli 302-VQD nömrəli Qanununa müvafiq olaraq 14-cü maddənin (Azərbaycan Respublikasının vətəndaşlığına qəbul) ikinci hissəsinə "icazə" sözündən sonra "və ya qaçqın statusu" sözləri əlavə edilmişdir.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2016-cı il tarixli Fərmanı ilə 1999-cu il 30 avqust tarixli 189 nömrəli Fərman ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilmişdir.

Qanunvericiliyə əsasən qaçqın statusu verilməsi haqqında ərizə təqdim etmiş (sığınacaq axtaranların) və qaçqın statusu almış şəxslərin Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq, müvəqqəti yerləşdirmə məntəqəsində verilmiş yaşayış yerindən pulsuz istifadə etmək hüquqları vardır.

Miqrasiya Məcəlləsinin 82-ci maddəsinə müvafiq olaraq əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (onunla birlikdə gələn ailə üzvləri) qaçqın statusu verilməsi barədə vəsatətlə müraciət etdikdə –qaçqın statusu verilməsi məsələsi həll edilənədək və qaçqın statusu aldıqda –iş və ya yaşayış yeri əldə edənədək, 3 aydan artıq olmamaqla, saxlama mərkəzlərində könüllü olaraq yerləşdirilə bilərlər.

Hazırda DMX-nin Bakı və Yevlax şəhərlərində miqrantların saxlanılması mərkəzləri fəaliyyət göstərir (2012-ci ildən etibarən). Azərbaycan Respublikasına qaçqın statusu almaq niyyəti ilə gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər yaşamaq üçün yerləri olmadığı təqdirdə könüllü olaraq həmin saxlanılma mərkəzlərinə yerləşdirilirlər. Həmin saxlama mərkəzlərində

Avropa ölkələrinin təcrübəsi nəzərə alınmaqla sığınacaq axtaran şəxslər üçün beynəlxalq standartlara uyğun olan şərait yaradılmışdır.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı özünün Azərbaycandakı Nümayəndəliyini 1992-ci ilin dekabrında, Azərbaycan hökumətinin müraciəti və BMT Baş katibinin təsdiqi ilə açmışdır. 1996-cı ilin iyulunda Azərbaycan Respublikası hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarı arasında əməkdaşlıq barəsində saziş imzalanmış və Milli Məclis tərəfindən təsdiq edilmişdir.

DMX ilə BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyi arasında yaxşı işgüzar münasibətlər yaranmışdır. BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyinin dəstəyi ilə DMX-nın əməkdaşları üçün həm ölkə daxilində, həm də xarici ölkələrdə miqrasiya prosesləri, sığınacaq axtaran şəxslər, qaçqınlar və vətəndaşsızlıq hallarının azaldılması ilə bağlı seminar və treninqlər keçirilmişdir və bu iş hazırda da davam etdirilir.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti 2013-cü ildə Avropa Komissiyası və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən birgə maliyyələşdirilən "Şərqi Avropada və Cənubi Qafqazda sığınacaq sistemlərinin keyfiyyətinin artırılması təşəbbüsü" layihəsinə qoşularaq, layihə çərçivəsində keçirilən bütün tədbirlərdə fəal iştirak etmişdir. Layihə milli sığınacaq sistemlərində keyfiyyətin artırılması (boşluqların müəyyən edilməsi və onların həlli yollarının tapılması), Avropa sığınacaq kurrikulumu vasitəsilə sığınacaqla əlaqədar təlim bacarıqlarının təkmilləşdirilməsi və mənşə ölkələri haqqında rus dilində məlumat bazasının yaradılması istiqamətində üç komponentdən ibarət olmuşdur.

2013-15-ci illəri əhatə edən layihənin tətbiqində başlıca məqsəd Şərq Tərəfdaşlığı ölkələrinin milli hakimiyyət orqanlarına sığınacaq prosedurlarının keyfiyyətinin yaxşılaşdırılmasına dəstək vermək olmuşdur. Sığınacaq sistemlərinin keyfiyyətinin artırılmasında əhəmiyyətli olması nəzərə alınaraq, iştirakçı ölkələr layihənin davam etdirilməsini məqsədəuyğun hesab etmiş və 2015-ci ilin dekabrından layihənin 2-ci fazası çərçivəsində tədbirlərin həyata keçirilməsinə başlanmışdır.

Dövlət Miqrasiya Xidməti sığıncaq məsələləri ilə bağlı bir sıra beynəlxalq qurumlar ilə də sıx əməkdaşlıq edir. Belə ki, 2015-16-cı illər ərzində QSM idarəsinin əməkdaşları Avropa İttifaqının TAİEX texniki yardım aləti çərçivəsində Portuqaliyanın Lissabon şəhərinə təlim səfərində olmuş, Minsk şəhərində keçirilmiş "Sığınacaq sahəsində təcrübə mübadiləsi (sığınacaq proseduru, qəbul şərtləri, sığınacaq sistemindən sui-istifadə barədə xəbərdarlıq)" mövzusu üzrə regional seminarda iştirak etmişlər.

Avropa İttifaqı Şərq Tərəfdaşlığının Miqrasiya və Sığınacaq Paneli çərçivəsində Ukraynada, Litvada, Niderland Krallığında və Belarus Respublika-

sında keçirilmiş ekspertlərin görüşlərində, həmçinin Praqa Prosesi çərçivəsində Sığınacaq və Beynəlxalq Himayə adlanan 7-ci Pilot layihəsinin Tbilisi və Berlin şəhərində seminarlarda və Qazaxıstanın Astana şəhərində Almatı prosesi çərçivəsində təşkil edilmiş "Qaçqınların müdafiəsi və beynəlxalq miqrasiya üzrə yüksək vəzifəli şəxslərin ikinci görüşü"ndə, 2016-cı ilin mayında İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Budapeşt prosesi çərçivəsində keçirilən "İpək yolu üzrə işçi qrupu"nun 8-ci müşavirəsində DMX əməkdaşları fəal iştirak edərək sığınacaq məsələləri ilə bağlı müzakirələrdə fəal iştirak etmiş, ölkəmizdə olan müsbət təcrübə barədə məlumatlar vermişlər.

2016-cı il ərzində Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin və layihənin digər benefisiarlarının iştirakı ilə həyata keçirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın İcrasına Dəstək MOBİLAZE" layihəsi çərçivəsində sığınacaq sisteminin keyfiyyətinin artırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. MOBİLAZE layihəsi çərçivəsində planlaşdırılmış fəaliyyətlər sığınacağın verilməsi sistemində müəyyən edilmiş prosedur və təşkilati boşluqların aradan qaldırılmasına töhfə verəcəkdir.

Dövlət Miqrasiya Xidməti Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birgə miqrantların və sığınacaq axtaran şəxslərin hüquqlarının təmin edilməsi, tələbatlarının ödənilməsi istiqamətində sıx əməkdaşlıq edir. 2013-cü il dekabrın 19-da Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında Birgə Əməkdaşlıq haqqında Razılaşma imzalanmışdır.

Ümumilikdə isə ötən illər ərzində Azərbaycanda sığınacaq sisteminin təkmilləşdirilməsində, beynəlxalq standarlara uyğun olaraq, qaçqın statusunun müəyyənləşdirilməsi prosedurunun tətbiq edilməsində, sosial-iqtisadi problemlərinin həll edilməsində, qaçqınların cəmiyyətə inteqraqsiya olunmasında Dövlət Miqrasiya Xidmətinin, əlaqədar dövlət qurumları və beynəlxalq təşkilatlarla birgə fəaliyyəti səmərəli olmuşdur.

**Ədəbiyyat:**

Abdullayev F. Müasir Azərbaycanda miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq.

**İstifadə olunmuş internet resursları:**

1. http://www.prezident.az.
2. http://www.migration.gov.az.
3. http://www.azertac.az.
4. http://www.unhcr.com.

# MİQRASİYA SİYASƏTİ VƏ İNSAN HÜQUQLARI

***Amid Şirxan oğlu ƏLİYEV,***
*Azərbaycan Respublikası Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*Siyasi Araşdırmalar İnstitutunun doktorantı*

## Qloballaşan dünyada miqrasiya siyasəti: mahiyyəti və məzmunu

Bəşəriyyətdə mövcud olan müxtəlif ölkələrin və xalqların ümumbəşəri mənafelərinə xidmət edən, onları beynəlmiləl prinsiplər əsasında bir-birinə yaxınlaşdıran və dünya birliyində iştirakını təmin edən dünyəvi proseslərdən biri qloballaşmadır. Qloballaşma prosesi ölkələrin təsərrüfat həyatının beynəlmilləşməsinin davamı olub, beynəlxalq miqyasda elmi-texniki tərəqqinin, qabaqcıl texnologiyaların yayılması, habelə məhsul və xidmətlərin, kapital axınının sürətlənməsi nəticəsində dünya iqtisadiyyatına daxil olan milli iqtisadiyyatların sayının artması və onlar arasında iqtisadi əlaqələrin güclənməsinin nəticəsi olaraq baş vermişdir. Beynəlxalq əmək bölgüsünün daha da genişlənib inkişaf etməsi ilə ölkələrarası iqtisadi əlaqələrin yeni formaları meydana gəlir və vahid dünya təsərrüfatı kimi fəaliyyət göstərir.

**Qloballaşma** (fr. *qlobal* –ümumi, lat. *qlobus* –kürə). Elmi ədəbiyyatlarda XX əsrin ikinci yarısından sonra dünya miqyasında baş verən fundamental prosesləri izah etmək üçün “qloballaşma” terminindən ilk dəfə 1967-ci ildə istifadə edilmişdir. Müasir anlamda termin kimi isə “qloballaşma” 1980-ci illərin ortalarında dövriyyəyə buraxılmış və intelektual elita tərəfindən qəbul olunmuşdur. Qloballaşma termininin meydana gəlməsini professsor Teodor Levitin adı ilə bağlayırlar. O, 1983-cü ildə “Harvard biznes revyu“ jurnalında çap etdirdiyi “Bazarların qloballaşması” məqaləsində bu terminlə transmilli korporasiyaların istehsal etdiyi ayrı-ayrı məhsulların bir-birinə qovuşması fenomenini ifadə etmişdir. “Qloballaşma” anlayışının akademik status alaraq geniş yayılmasında amerikalı sosioloq R.Robertsonun rolu xüsusi qeyd olunur (7). Belə ki, qlobal problemlərin daha çox kəskinləşməsi barədə müzakirələr 1960-cı illərdən başlamış, bu problemlər elmi ədəbiyyatların gündəliyinə “qlobalistika” anlayışı kimi daxil olmuş və onun təhlilinə dünya ədəbiyyatında çoxlu əsərlər həsr olunmuşdur. Ümumi qəbul olunmuş mövqe bundan ibarətdir ki, bu, təkcə ölkələrin və iqtisadiyyatların qarşılıqlı əlaqəsinin güclənməsi deyil, dünya bazar demokratiyasının yeni keyfiyyətidir. Həmçinin,

müasir dövrdə tərkisilah, istilik-nüvə fəlakəti təhlükəsi, ətraf mühitin tələf olması, qorxulu xəstəliklər, miqrasiya, zəif inkişaf etmiş və geridə qalan ölkələrdə həyat şəraitinin pisləşməsi onların həlli barədə qüvvələrin birləşdirilməsi, xalqların və dövlətlərin ittifaqının yaradılmasını zəruri etmişdir. Qoballaşma dünya xalqları üçün həlli zəruri olan müxtəlif istiqamətli kompleks problemləri: siyasi, iqtisadi, ekoloji, texniki, sosial, təhlükəsizlik, sağlamlıq, müharibə, sülh, müdafiə və digər problemləri əhatə edir. Buna görə də, qlobal problemlər dünya ölkələrinin və xalqlarının ümumbəşəri mənafelərinin uyğunlaşması və reallaşması prosesidir. XXI əsr daha çox informatika və bilik əsri olduğu üçün bu gün qloballaşma dünyada baş verən post sənayeləşmənin davamı olmaqla, getdikcə daha çox qarışıq və sosial təyinatlı xarakter alır.

Qloballaşma prosesi özünü 3 əsas sahədə göstərir: iqtisadi, siyasi və mədəni. Siyasi sahədə beynəlxalq və iqtisadi birlik formalarını, məsələn, Beynəlxalq Amnistiya Təşkilatı, Avropa İnsan Hüquqları Məhkəməsi, İnsan Hüquqları Komitəsi və s. kimi transmilli, Avropa Birliyi, NAFTA (Şimali Amerika Azad Ticarət Assosiasiyası), BMT kimi beynəlxalq qurumları təşkil edir. Mədəni sahədə qloballaşma elm, təhsili, informasiya, idman, səhiyyə və s. sahələri əhatə edir. İqtisadi sahədə qloballaşma milli iqtisadi sistemlərin vahid bir iqtisadi sistem halında birləşməsi, onların qarşılıqlı asılı vəziyyətə gəlməsi və bununla da ölkələr arasındakı iqtisadi əlaqələrin liberallaşdırılmasıdır. Siyasi sahədə qloballaşmanın daha çox təsir edə biləcəyi istiqamətlərdən biri də miqrasiya siyasəti və miqrasiya prosesləridir. Heç təsadüfi deyildir ki, ölkələr arasında mövcud olan sərhədlərin şəffaf olmasını və pasport-nəzarət, eləcə də, viza siyasətinin daha da liberallaşmasını tələb edən qloballaşma miqrasiya proseslərinə və siyasətinə əməli təsir etmək iqtidarındadır. Bu da öz növbəsində milli şəkildə miqrasiya siyasətini həyata keçirən müstəqil dövlətlər üçün təhlükə mənbəyinə çevrilir. Çünkü hər bir dövlət özünün milli maraq və təhlükəsizliyinə uyğun olaraq miqrasiya siyasətini hazırlayıb tətbiq edir. Qloballaşama prosesi isə ümumilikdə hər bir sahədə ümumiləşmənin tətbiqini, mövcud prosdurların sadələşməsini, milllikdən daha çox ümumbəşəri dəyərlərə üstünlük verilməsini tələb edir. Belə olan şəraitdə, müstəqil dövlətlərin qeyri-leqal miqrasiya, terrorizm, insan alveri və narkotraffik kimi problemlərlə daha tez-tez rastlaşma riski artır.

Qloballaşma prosesinin güclənməsi dünya miqyasında qlobal cinayətlərin, qlobal mənəvi aşınmaların getməsi üçün də şərait yaradır. Narkomaniya, beynəlxalq miqyasda mütəşəkkil cinayətkarlığın həyata keçirilməsi, böyük cinayətkar qrupların, beynəlxalq terrorun hərəkətə gəlməsi buna misal ola bilər. Bütün bunların hamısı qloballaşma məsələsinin birmənalı hadisə olmadığını göstərir. Mədəniyyətin qloballaşması dünya mədəni dəyərlərinin sintezini və yeni formada təşəkkülünü ehtiva edir. Müasir dünyamızda xalqlar arasında mədəni əlaqələrin genişləndirilməsi, onların ünsiyyəti və qarşılıqlı

şəkildə bir-birini dərk etməsi həmin xalqların yaxınlaşmasını şərtləndirir. Lakin belə yaxınlaşma heç də təsirsiz ötmür. Bu, azsaylı xalqların özünəməxsusluğunun böyük xalqların mədəniyyətinin təsiri altında unudulmasına, mədəni eyniliyin yer almasına şərait yaradır. Dünya əlaqələrinin qloballaşması bizim iradəmizdən asılı olmayaraq inkişaf edən bir prosesdir. Buna qarşı etiraz etmək, demək olar ki, mümkünsüzdür. Lakin vahid iqtisadi mədəniyyətin formalaşması prosesi öz-özlüyündə bir çox xalqlarda mədəni özünəməxsusluğun qismən və ya tam itirilməsinə real təhlükələr yaradır (7).

Qloballaşma dövründə miqrasiya proseslərinin və siyasətinin bir sıra özünəməxsusluqları vardır. Əvvəlcə, biz miqrasiya siyasəti dedikdə, ölkənin və ya dövlətin xarici və daxili miqrasiya proseslərinin idarə olunması zamanı əsas götürdüyü (rəhbər tutduğu) prinsipləri başa düşürük (6, s.64). Bu prinsiplər və ümumilikdə miqrasiya siyasəti bir sıra məqamlara görə dəyişə bilər. Belə ki, miqrasiya siyasətinin dəyişməsinə təsir edə bilən amillər kimi siyasi və iqtisadi böhranı, lokal və regional münaqişələri və sosial böhranı göstərmək olar. Məsələn: Son zamanlar Yaxın Şərqdə baş vermiş münaqişələr nəticəsində məcburi miqrantlara çevrilmiş ərəb mənşəli Suriya, İraq, Yəmən, Liviya və digər Şərq ölkələrinin vətəndaşları sığıncaq almaq ümidi ilə Avropa ölkələrinə üz tutmuşlar. Almaniya Federativ Respublikası başda olmaqla, bir sıra dövlətlər onların qəbulu və yerləşdirilməsinə daha loyal və demokratik yanaşdılar. Lakin sonradan həmin miqrantların törətdiyi cinayətlər və qayda pozuntuları nəticəsində həmin dövlətlərin onlara qarşı münasibətləri kəskin şəkildə dəyişmişdir. Almaniyanın kansleri A.Merkel bu barədə belə demişdir: “Siyasi təqiblərdən və ya müharibələrdən yaxa qurtarmaq üçün deyil, iqtisadi ehtiyaclar üzündən qaçanlar Almaniyada qala bilməyəcəklər”. O, açıq-aydın əsassız müraciətlərə baxılması və belə qaçqınların deportasiya olunması prosedurunun sürətləndiriləcəyini vəd edib. Kanslerin sözlərinə görə, Almaniyada qalmaq üçün icazə alanlar da alman cəmiyyətində qüvvədə olan qaydalara riayət etməyə borcludurlar” (8). Bir sözlə, Almaniya sərt olan miqrasiya qanunvericiliyini bir qədər də sərtləşdirməli oldu. Buna səbəb kimi isə Şimali Afrika və ərəb mənşəli şəxslərin Yeni il gecəsi Kölndə qadınlara qarşı cinsi zəmində kütləvi hücumlarının olması qeyd olunur.

Bir faktı qeyd etmək lazımdır ki, miqrasiya proseslərinin və siyasətinin əsasında 1885-ci ildə Ernst Georg Ravenşteyn tərəfindən işlənib hazırlanmış “Miqrasiya qanunları” dayanır. Bu qanunların sayı 11-dir:

1. Miqrasiya daha çox qısa məsafələrə baş verir;
2. Miqrasiya mərhələli olur: addım-addım baş verir;
3.Uzun məsafələrə miqrasiya əsasən iri ticarət və ya sənaye mərkəzlərinə baş verir;
4. Hər bir miqrasiya axınının özünəməxsus əks axını olur;

5. Əyalət əhalisi miqrasiya baxımından şəhər əhalisinə nisbətən daha çevik olur;

6. Miqrasiya proseslərində qadınlar daha çevik və fəal olurlar;

7. Miqrasiyanın əsas hissəsini ortayaşlı insanlar təşkil edir, ailələr çox nadir hallarda digər ölkələrə miqrasiya edirlər;

8. İri şəhərlərin yaranmasının əsas səbəbi onların əhalisinin təbii artımı deyil, oraya baş verən miqrasiyadır;

9. Miqrasiyanın miqyası sənayenin, ticarətin və xüsusilə də nəqliyyatın inkişafı ilə bərabər artır;

10. Əyalətdən miqrasiya əsasən iri sənaye və ticarət mərkəzlərinə baş verir;

11. Miqrasiya proseslərinin əsasını iqtisadi səbəblər təşkil edir (6, s.63-64).

Bəs bu qanunlar əsasında qurulan miqrasiya siyasəti qloballaşma dövründə hansı təsirlərə məruz qala bilər? Öncə qeyd etmək lazımdır ki, qloballaşma dünya əhalisinin hərəkətliliyinin aktivliyinə təsir edən amillərdəndir. Məhz qloballaşma dövründə müxtəlif mənşəli, dinlərə sitayiş edən, müxtəlif dünyagörüşlü olan dünya əhalisinin miqrasiya proselərində iştirakı daha da sürətlənmişdir. Burada artıq dünyada mövcud olan sizivilizasiyaların, mədəniyyətlərin, dinlərin və xalqların toqquşması baş verir. S.Hantinqton "Sivilizasiyaların toqquşması" adlı əsərində qeyd edir: "Güman edirəm ki, yeni yaranan dünyada münaqişələrin əsas mənbəyi nə ideologiya, nə də iqtisadiyyat olacaqdır. Bəşəriyyəti ayıran əsas sərhədlər və münaqişələrin əsas mənbələri mədəniyyətlər əsasında müəyyən olunacaq. Beynəlxalq işlərdə millət-dövlət əsas təsirli sima olacaq, qlobal siyasətin daha əhəmiyyətli münaqişələri millətlər və ayrı-ayrı sivilizasiyalara məxsus olan qruplar arasında baş verəcək. Sivilizasiyalar arasındakı parçalanma xətti gələcək cəbhələrin xəttidir" (1, s.6:22). Hazırda dünyada bu zəmində baş verən münaqişlərəin nə dərəcədə ciddi olduğunu və baş verən miqrasiya proseslərinə təsirini görürük.

Qloballaşma zamanı miqrasiya proseslərinə təsir edən amillər sırasında dünya əhalisinin demoqrafik göstəricilərini də göstərmək olar. Dünya üzrə əhalinin paylanması, bildiyimiz kimi, qeyri-proporsionaldır. Bu da dünyanın bəzi ölkələrinə ciddi surətdə işçi qüvvəsinin çatışmazlığı problemini yaradır. Dünya üzrə müsəlman ölkələrində əhalinin sayının artması daha çox müşahidə olunur. Təbii ki, bu da Qərb yarımkürəsinin bəzi ölkələrinin daha doğrusu dövlətlərini özünəməxsus şəkildə narahat edir. BMT-nin məlumatlarına görə, 2020-ci ildə əhalinin artımı əsasən müsəlman ölkələrində müşahidə olunacaq. Müsəlman ölkələrində gənclər 57% olacaq. Avropanın və Şimali Amerikanın əhalisi isə azalacaq və qocalacaq (3). Bir sıra mənbələrin məlumatlarına görə, təkcə Qərbi Avropada müsəlman əhalisinin sayı 25 milyon nəfərə çatıb. Beləliklə, dünyada müsəlman əhalisinin sayının çoxalması heç təsadüfi deyildir ki, Qərbdə ciddi qorxu hissi yaradır. Qərbin müsəlmanlar tərəfindən məskunlaşması digər

tərəfdən bu ölkələrdə irqi, dini dəyişikliyin miqyasının genişlənməsi qorxusu yaradır. Qərbdə yaranan islamofobiya ABŞ və Avropa ölkələrində müsəlmanlara qarşı cinayətkarlıq hallarının genişlənməsinə səbəb olub. İslama qarşı durmanın əsas səbəbi demoqrafik dəyişikliklərlə yanaşı, son 50 ildə Qərbdə (əsasən, Avropa ölkələrində) müşahidə edilən mənəvi deqradasiya, yerli əhali arasında bu dinə pənah gətirənlərin sayının çoxalması ilə bağlıdır. Din nəzəriyyəçilərinin böyük əksəriyyətinin demoqrafik göstəricilərə əsasən gəldikləri qənaətə görə, XXI əsrin ortalarında islam Yer kürəsinin ən böyük dini olacaq. Bu proses Qərbdə islamofobiyanın dərinləşməsinə səbəb olmaqdadır (5).

Qeyd olunan məlumatlar qloballaşan dünyada baverən siyasi, iqtisadi və miqrasiya proseslərinin keyfiyyət və məzmunca nə dərəcədə dəyişdiyini göstərir. Əgər ilkin başlanğıcda miqrasiyanın baş verməsinin təməl prinsipi kimi yaxşı həyat axtarışı idisə, müasir dövrdə miqrasiyanın baş verməsinin əsasında müharibə və münaqişələr, iqtisadi böhranlar, sosial bərabərsizlik və demoqrafik göstəricilər dayanır. Bura təbii fəlakətləri də aid etmək olar. Lakin təbii fəalkətlər nəticəsində baş verən miqrasiya prosesləri yuxarıda sadalanan digər amillər nəticəsində yaranan miqrasiya proseslərindən fərqli olaraq insanlığa və cəmiyyətə vurduğu zərbələri zəifdir. Buna görə də, qloballaşma dövründə hər bir dövlət miqrasiya siyasətini qurarkən təhdidləri və çağırışları, təhlükələri və riskləri real olaraq qiymətləndirməlidir. Çünki qloballaşma ümumbəşəri dəyərləri bizə verməklə yanaşı, bizə məxsus olan mədəni, milli, sosial, əxlaqi və qiymətli dəyərlərimizi də bizdən alır.

**Ədəbiyyat:**


1. Abdullayev F. Sivilizasiyalararası münasibətlərdə miqrasiya geosiyasətinin təzahürü. Strateji təhlil jurnalı. B. 2016. 6:22.
2. Т.Н.Юдина. Социология миграции. М. 2006.
3. Мухаметов А.Р. Почему Исламу объявлена война? / 08 августа 2011/. http://www.ansar.ru/analytics/pochemu-islamu-obyavlena-vojna.
4. Muslim World Population Statistics. –http://www.30-days.net/muslims/statistics/muslim_countries/.
5. Глобальные проблемы современности. Нижников С.А. Философия: курс лекций. М.: Изд-во "Экзамен". 2006, 383 с. – http://www.ecad.ru/f4/sem28-01.html.
6. Şirinov Ə. Miqrasiya və sığınacaq məsələləri üzrə terminlərin izahlı lüğəti.B. 2008.
7. https://az.wikipedia.org/wiki/Qloballaşma.
8. http://azertag.az/xeber/Angela_Merkel_Iqtisadi_miqrantlar_Almaniyada_qala_bilmeyecekler-884412.

***Sevda Rasim qızı ZEYNALOVA,***
*Gəncə Regional Miqrasiya İdarəsi*

**Miqrasiya siyasəti sahəsində insan hüquqlarının qorunması mexanizmləri və Azərbaycan təcrübəsi**

Miqrasiya təbii hadisə olub insan yarandığı zamandan yaranan, tarixən səbəbləri və nəticələri dəyişən mürəkkəb demoqrafik prosesdir. Ölkənin idarə olunmayan miqrasiya siyasəti onun üçün nəinki sosial-iqtisadi, həm də sosial zərbələr vurub xalqın milli genefondunun dəyişməsi, dövlətçiliyin, milli-mənəvi dəyərlərin məhvinə səbəb ola, ölkədə ekstremist, şovinist meyllərin yaranması ilə nəticələnə bilər. Ən son sosial statistikaya əsasən dünyada 250 milyondan artıq beynəlxalq miqrant vardır ki, bu da dünya əhalisinin 3,3%-ni təşkil edir. Əgər 1980-ci illərdə dünyada 100 milyon miqrant var idisə, 2010-2013-cü illərdə bu rəqəm 240 milyona çatıb və bəzi ekspertlər 2050-ci ildə bu rəqəmin 450 milyona çatacağını güman edirlər. Bütün bunlar miqrasiya probleminin nə qədər aktual olduğundan xəbər verir. Bəs miqrasiya siyasəti sahəsində miqrantların hüquqları necə qorunur? Hansı nəzarət mexanizmləri mövcuddur?

Miqrasiya və insan hüquqları bir-birləri ilə vəhdət təşkil edən sahələrdir. Bir tərəfdən hər bir insan, öz dövlətinin hüdudları daxilində sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququna malikdir. Hər bir insan, öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ insan hüquqlarının baza sənədi hesab edilən 1948-ci il dekabrın 10-da BMT-nin qəbul etdiyi "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"ndə də qeyd olunmuşdur (3, s.40). Deməli, əhalinin immiqrasiyası özü insan hüquqlarından biri kimi tanınır. İkinci tərəfdən, BMT-yə daxil olan hər bir suveren dövlət öz ərazisində yaşayan əhalinin-vətəndaşın, əcnəbinin, vətəndaşlığı olmayan şəxsin insan hüquqlarının qorunmasına dair öhdəlik götürür və bu öhdəliklərin icrasına mütəmadi olaraq dövlət və QHT-lər tərəfindən təqdim olunmuş illik məruzələrlə nəzarət olunur. Dövlətin əcnəbilər üçün müəyyən etdiyi hüquq və vəzifələrin məcmusu isə "əcnəbilərin hüquqi rejimi" kimi ifadə olunur. Əcnəbilərin rejiminin 3 növü vardır: milli rejim, ən əlverişli rejim və xüsusi rejim. Milli rejim –əcnəbilərə müəyyən məhdudiyyətlərlə dövlətin öz vətəndaşları ilə bərabər status verilməsidir. Ən əlverişli rejim –bu halda əcnəbilərə hər hansı bir sahədə istənilən üçüncü dövlətin vətəndaşlarına verilən hüquqlar verilir. Xüsusi

rejim –əcnəbilərə hər hansı bir sahədə dövlətin öz vətəndaşları üçün həmin sahədə nəzərdə tutulduğundan fərqli hüquqların verilməsidir. Lakin heç bir dövlətdə bu və ya digər ideal tip olmur, müxtəlif sahələr fərqli rejimlərlə tənzimlənir. Digər tərəfdən isə miqrasiya etmiş insanların hüquqları başqalarına nisbətən daha çox pozulur. Miqrant başqa əhali qruplarına nisbətən daha çox himayəyə möhtacı olan şəxsdir. Çünki o, vətəndaşı olduğu ölkəsindən kənardadır, başqa sözlə desək, yaşadığı ölkədə "qonaq"dır. İnsanların öz ölkələrini tərk etmələri səbəbləri müxtəlif olsa da, məqsəd demək olar ki, hamısında eynidir: daha yaxşı yaşamaq və müdafiə olunmaq. Lakin himayəyə möhtac olanlar daha çox məcburi miqrasiyanın qurbanlarıdır. Çünki məcburi miqrasiya özü ilə birlikdə beynəlxalq müdafiə axtaran böyük insan kütlələrinin nizamsız hərəkəti və miqrasiya böhranın yaranmasına səbəb olur. Belə bir şəraitdə isə ən çox rast gəlinən hal miqrantların hüquqlarının pozulmasıdır. Bura da söhbət birinci nəsil insan hüquqlarından gedir. Belə ki, hər bir insanın doğulduğu andan pozulmaz, ayrılmaz və bərabər hüquqları vardır ki, bunlar da insan hüquqları adlanır. İnsan hüquqlarının birinci nəsli heç bir senz (yaş, vətəndaşlıq, cins və s.) qoymadan bioloji fərd kimi bütün insanlara aiddir. Bu hüquqlara yaşamaq, azadlıq, heç cür ayrı seçkiliyə, işgəncəyə, məcburi əməyə məruz qalmamaq, şəxsi toxunulmazlıq, əmlaka sahib olmaq, bərabərlik və s. hüquqlar aiddir. Miqrantların hazırda pozulan hüquqları içərisində birinci nəsil hüquqların olması həyəcan təbili çalmağa əsas verir. Deməli, bu sahədə beynəlxalq təşkilatların mexanizmləri artıq köhnəlib və ya işə yaramır.

Təcrübə göstərir ki, tənzimlənməyən və ya idarə olunmayan miqrasiya daha çox qul əməyindən istifadəyə, ksenofobiyaya (əcnəbiyə qarşı nifrət), diskriminasiyaya, insan alverinə, xüsusilə də qadın və uşaq alverinə yol açaraq bu sahədə insan hüquqlarını kobudcasına pozur. Qeyri-qanuni və tənzimlənməyən miqrasiyanın mütəşəkkil cinayətkarlıq və terrorla mümkün əlaqəsi bütün dövlətlərin təhlükəsizliyi üçün real təhdid törədə bilər. Təəssüf ki, dövlətin inkişaf etmiş ölkə olması, demokratik dəyərlərə malik olması, insan hüquq və azadlıqlarına hörmət etməsi heç də həmişə miqrasiya sahəsində də ideal olması üçün əsas deyil. Belə ki, dünyaya demokratiya dərsi keçən ABŞ-da 1920-ci illərdə miqrasiya sahəsində kvotalaşma tətbiq edilmişdir ki, bu Avropadan gələnlərə şamil edilməyərək, yalnız irqi fərqlərə görə müəyyən edilmişdi. Yalnız 1952-ci ildə qəbul edilmiş Konqress "İmmiqrasiya və vətəndaşlıq barədə" "Makkaren-Uolter Aktı" kimi tanınan sənəd ilə irqi məhdudiyyətlər qismən aradan qaldırılmışdı (1, s.117). Digər inkişaf etmiş ölkələrdə olduğu kimi hazırda ABŞ da miqrantların hüquqlarını kəskin pozan, ayrı-seçkiliyə məruz qoyan dövlətlər siyahısına aiddir.

Əgər XX əsrin sonlarına doğru miqrasiyanın səbəblərinə sosial, siyasi, iqtisadi amillər daxil idisə çox təəssüf ki, hazırda bu məcburi xarakter almağa başlayıb. Bu gün dünyada 30-a yaxın tənzimlənməyən münaqişə ocağı var ki,

bunların da əksəriyyəti hansısa böyük dövlətlərin maraqlarına xidmət edən siyasətin nəticəsidir. Eyni zamanda, Qərb dövlətlərinin, eləcə də ABŞ-ın xüsusi dəstəyi ilə həyata keçirilən Afrika və Latın Amerikası ölkələrindəki müstəmləkə siyasəti, Yaxın şərq ölkələrindəki “Ərəb baharı” planı, İŞİD-ə və digər terror təşkilatlarına, separat rejimlərə dəstək artıq öz nəticələrini verməkdədir. Dünyanın valyuta ehtiyatlarının, iqtisadi resurslarının bir əldə cəmlənməsi də hazırda miqrasiya böhranını dərinləşdirir. Dünya müharibələrində olduğu kimi bu dəfə də ABŞ-ı məcburi miqrant böhranından coğrafi mövqeyi xilas edə bilmişdir. BMT QAK-ın 2016-cı ildəki hesabatına əsasən Latın Amerikasından gəlmiş və ABŞ-a keçmiş 3,5 milyon insan humanitar kömək gözləyir və bunların içərisində Haitidəki fırtınadan canlarını götürərək ABŞ-a qaçanlar da var. BMT QAK bunu heç də Avropadakı böhrandan fərqlənmədiyini və ABŞ-ın da bu sahədə çıxılmaz vəziyyətdə olduğunu göstərir. Lakin ABŞ-dakı vəziyyət fərqlidir. Əvvəla, ona görə ki, ABŞ immiqrantlar ölkəsidir və onun dövlət siyasətinin əsasını XX əsrin I yarısından etibarən digər qitələrdən “beyin axını”nı təmin etmək üzrə qurulub. Bundan gələn mənfəət isə ABŞ üçün milyard dollarla ölçülür. İkincisi, ABŞ-ın Avrasiyadakı münaqişə ocaqlarından uzaqlığı onu miqrantların “nizamsız axın”dan qoruyur. Üçüncüsü isə ABŞ-da Avropadakı kimi məcburi miqrantlar –qaçqınlar yoxdur, daha çox sosial-iqtisadi səbəblərdən gələn miqrantlarla qarşılaşır.

Avropada isə vəziyyət tamam fərqlidir. Yaxın Şərq ölkələrindəki acınacaqlı vəziyyət Avropaya təsirsiz ötüşmür. Bu böhranda əlbəttə ki, ən ağır əziyyəti həmin ölkələrin əhalisi çəkir. Dağılmış, qızğın müharibə baş tutan ölkələrindən çıxıb məcburi, uzun, əziyyətli, sonu bəlli olmayan yola baş qoyaraq daha yaxşı həyat üçün Avropaya üz tuturlar. Lakin Avropada onları nə gözləyəcəyindən xəbərsizdirlər. Təsadüfi deyil ki, təkcə 2010-2016-ci illərdə Avropaya üz tutan qaçqınların əksəriyyəti Suriya, Liviya, Eritrea, Somali, Yəmən, Əfqanıstan, İraq və s. ölkələrdən gələn qaçqınların 20 mindən artığı dənizdən keçən zamanı boğulub ölmüş, itkin düşmüşdür ki, bunların da əksəriyyəti uşaqlar və qadınlar olmuşdur. 2016-ci ildə Avropaya 364 mindən artıq qaçqın gəlib ki, onların da Aralıq dənizində 5079 nəfəri dənizdə batıb (www.iom.int). Lakin hazırda Avropa həyəcan təbili çalır. Beynəlxalq təşkilatların həlledici mövqe tuta bilməməsi, vaxtında münaqişə ocaqlarını söndürməməsi və əksinə “dəstək” göstərməsi bugün yüz minlərlə insanın sabahını sual altında qoyur. Avropa ölkələri bir tərəfdən sərhədlərini bağlamaqla, miqrantlara limit tətbiq etməklə onları özlərindən uzaqlaşdırmağa çalışırlar. 2015-ci ildə Almaniya Daxili İşlər Nazirliyinin açıqlamasına görə Əfqanıstandan, Suriyadan, Mərakeşdən, Əlcəzairdən olan həddi-buluğa çatmayan 6000-dən artıq qaçqın uşaq itkin elan olunub. Maraqlısı odur ki, vaxtında Suriyada, Əfqanıstanda, İraqda insan hüquqlarının kobudcasına pozulduğunu səbəb gətirən Avropa Birliyi indi o insanların

hüquqlarını təkcə pozmaqla kifayətlənmir, eyni zamanda, həmin insanların kütləvi surətdə məhvlərinə səbəb olur. Deməli, bu sahədə də ikili standartlar mövcuddur. İnsan hüquqları, demokratiya inkişafda olan ölkələrə təsir vasitəsindən başqa bir şey deyil. Çox təəssüf ki, SSRİ-nin süqutundan sonra dünya ikiqütblü mərkəzdən çoxqütblü mərkəzə çevrilmək yerinə Qərb mədəniyyətini və dəyərlərini dünyaya "yeridən" təkqütblü nizam formalaşdı. Artıq bir vaxtlar nəzəriyyə kimi formalaşmış "Sivilizasiyaların toqquşması" indiki zamanda özünü göstərməyə başlayıb. Niyə görə BMT-nin, Aİ-nin, AŞ-nin, ATƏT-in insan hüquqları üzrə ixtisaslaşmış qurumları hansısa ölkələrdə siyasi məhbus olub-olmadığını, insanların söz azadlığının nə dərəcədə təmin edildiyini bəşəri "fövqəladə" hal kimi böyüdə bilir, bütün dünyaya mediaları vasitəsilə yaya bilir, lakin öz sərhədlərində baş verən minlərlə insanların ölümünə göz yumur?! Hətta qaçqınlara qarşı ayrı-seçkilik edir?! Belə bir fakta baxaq. Çexiya prezidenti Miloş Zeman çıxışı zamanı bəyan etmişdi ki, qaçqınları Avropaya kimsə dəvət etməyib. O, birbaşa ayrı-seçkilik edərək bildirib ki, ölkəsi seçim qarşısında qalsa, daha çox ukraynalı qaçqınları qəbul edər, çünki ukraynalılarla din qardaşıdırlar və onlar müsəlmanlara nisbətən cəmiyyətə tez inteqrasiya olunurlar və dövlətin milli-etnik tərkibinin dəyişməsinə təhlükə törətməzlər. O, həmçinin müsəlman qaçqınlar arasında "terrorçu casusların olması təhlükəsini" də əsas narahatlıq kimi göstərməyə çalışıb. Göründüyü kimi, bütün Avropada "islamafobiya" cərəyanını tüğyan etdirməyə başlayıblar. Məqsəd isə qocalmaqda olan Avropanı müsəlmanlardan qorumaqdan ibarətdir. Bu da insan hüquqlarının necə pozulduğunu, dövlətlər səviyyəsində bu siyasətin ikili standartlarından xəbər verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu məsələni daim diqqət mərkəzində saxlayır, islamofobiyaya qarşı çıxaraq bunu hər zaman bəyan edir: "Biz islamofobiyaya qarşı açıq şəkildə mübarizə aparırıq. Ən yüksək səviyyədə –Prezident səviyyəsində bəyanatlar verilib. İslamofobiya çox böyük təhlükədir, böyük ədalətsizlikdir. Gələcəkdə sivilizasiyalararası münaqişələrə gətirib çıxara bilər". Çox təəssüf ki, hazırda dünyanın aparıcı mediaları, xəbər agentlikləri islamofobiyaya şərait yaradaraq miqrantlara qarşı mənfi rəylərin formalaşmasına səbəb olan informasiyalar yayırlar.

Ölkəmizdə isə vəziyyət tamamilə fərqlidir. XX əsrin 90-cı illərində ölkəmiz humanitar fəlakətlə qarşılaşmış, işğalçı Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ölkənin ən çətin vaxtlarında əhalisinin yeddidə biri qədər qaçqın və məcburi köçkün problemi ilə üzləşmişdi. Böyük dövlətlərin maraqlarının toqquşması, separatçı rejimə dəstək üzündən BMT Təhlükəsizlik Şurasının işğal olunmuş ərazilərin Ermənistan silahlı qüvvələrindən azad edilməsi ilə bağlı 1993-cü ildə qəbul etdiyi 4 qətnamə yerinə yetirilməmiş və bu da 1 milyondan artıq soydaşımızın öz tarixi torpaqlarından didərgin düşməsinə səbəb olmuşdur. Ümumilli lider Heydər Əliyevin rəhbərliyi dövründə miqrasiya siyasəti

sahəsində qəbul olunan qanunlar, verilən fərmanlar, imzalanan beynəlxalq sənədlərlə Azərbaycanda miqrasiyanın idarə olunmasının uzunmüddətli perspektivlər üçün milli strategiyasının müəyyənləşdirilməsinin və hazırda da həmin xəttin yüksək səviyyədə davam etdirilməsinin əsası qoyulmuşdu. Qaçqın və məcburi köçkünlər daim diqqət mərkəzində saxlanılmışdı. Qısa zamanda ölkəmizdən emiqrasiya azalmış, ölkəmiz miqrant qəbul edən ölkəyə çevrilmişdi. Hələ miqrasiya probleminin bu qədər aktual olmadığı bir vaxtda cənab Prezident İlham Əliyev tərəfindən 2007-ci il martın 19-da miqrasiya sahəsində idarəçiliyi təmin etmək məqsədilə Dövlət Miqrasiya Xidməti yaradılmışdı. Bu xidmətin humanizm, qanunçuluq, insan hüquq və azadlıqlarına hörmət prinsipi ilə öz fəaliyyətini həyata keçirməsi normativ statusa çevrilmişdi. Tolerant cəmiyyətin formalaşdırılması, ictimai-siyasi sabitlik, multikultural dəyərlərə hörmət edilməsi də bu siyasətin əsasını təşkil edir. Dövlət səviyyəsində daim miqrantların hüquq və azadlıqları diqqət mərkəzində saxlanılır. Bunun üçün ölkəmizdə insan hüquq və azadlıqlarına hörmət prinsipi ilə formalaşmış qanunvericilik bazası qurulmuş, müasir standartlara cavab verən Qanunsuz miqrantların saxlama mərkəzi yaradılmış və miqrantların təhlükəsiz yaşayışı üçün dünyada bərabəri olmayan real ictimai-siyasi sabitlik təmin olunmuşdu. Məhz bunun nəticəsidir ki, ölkəmiz son dövrlərdə gələn turistlərin sayı həddən artıq artmış, tolerant və multikulturalist cəmiyyət və miqrantların hüquq və azadlıqlarının təmin edilməsi sahəsində dünya təcrübəsində "Azərbaycan modeli" yaradılmışdır.

Beləliklə, dünyadakı miqrasiya problemini qısaca araşdırdıqdan sonra aşağıdakı nəticəyə gəlmək olar: tənzimlənməyən və ya idarə olunmayan miqrasiya daha çox pozulmuş insan hüquqları deməkdir; bu sahədə beynəlxalq təşkilatlar mexanizmləri gücləndirilməli və nəzarət xidməti aparılmalıdır; mövcud münaqişə ocaqlarına vaxtında ədalətli təsir göstərilməli, böyük dövlətlərin maraqları naminə digər dövlətlərin suveren hüquqları pozulmamalıdır; istənilən münaqişə ocaqlarına, miqrant axınına qarşı ikili standartlardan imtina edilməli və nəzərə alınmalıdır ki, bu problem indi həll olunmazsa, gələcəkdə daha böyük fəsadlara gətirib çıxardacaq; əhali daha çox maarifləndirilməli, xaricdə fəaliyyətlə bağlı vasitəçilik həyata keçirən şirkətlərə güclü nəzarət olunmalıdır; ən əsası isə istənilən dövlətdə tolerantlıq dövlət siyasətinin əsasını təşkil etməli və multikultural cəmiyyət formalaşdırılmalıdır.

**Ədəbiyyat:**

1. Abdullayev F.N. Müasir Azərbaycan Dövlətinin miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq. B.: Elm və Təhsil. 2009. 328 səh.
2. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. B.: Bakı Universiteti Nəşriyyatı. 2007, 484 səh.
3. Məmmədquliyev M.Ə. Miqrasiya bələdçisi. B.: BMqT. 2004. 117 səh.

4. Nəsibov E. M. Miqrasiyanın əsasları I Kitab. B.: Elm və Təhsil. 2014. 240 səh.
5. www.iom.int.
6. www.jstor.org.
7. www.migration.gov.az.
8. www.ec.europa.eu.

***Nargiz KARIMOVA***

## Where the rights of migrants start from?

I am still positive and would like to believe that "a human" was and remains to be the most important being of the Earth that we are living on. May be it is because "the human rights and liberties" is the mostly sounded phrase in the speeches and statements by world leaders and a priority subject in international dialogue among the participants of international community. Besides that the list of documents addressing this particular issue is remarkably long and is to reflect the attitude of international actors in this concern. Universal Declaration on Human Rights, European Convention on Human Rights, International Covenants on Civil and Political Rights, as well as Economic, Social and Cultural Rights and other international documents which have been adopted for the protection and provision of rights of different groups of people such as women, children, migrant workers, disabled and others are in the top of the list.

To say in words of the former Secretary General of UN, Ban Ki Moon "The Universal Declaration on Human Rights has become a yardstick by which we measure right and wrong. It provides a foundation for a just and decent future for all, and has given people everywhere a powerful tool in the fight against oppression, impunity and affronts to human dignity"[1]. UN High Commissioner for Human Rights Zeid Ra'ad Al Hussein appraised the phrase of "all human beings are born free and equal in dignity and rights" from the Declaration as a resonant and most beautiful word that could be added to the international document. All messages delivered from international tribunes demonstrate the world's common will and intention for the provision of rights of all human beings all around the world in an equal attitude and manner.

I believe that the application of this document which has been translated into the native languages of 501 nations is the genuine will and expectation of the world population. Taking the phrases proclaimed in this document into a higher consideration the world can succeed in the insurance of universal rights of human beings the considerable part of whom is contained by the

---

[11] http://www.un.org/en/udhrbook/foreword.shtml.




people migrating to different countries leaving their permanent dwellings because of various reasons.

In this short article, which included my personal perception, I would focus on black holes and lacking points concerning the declared and universally adopted provisions about the rights of migrants and would mainly touch upon the sides that have been overlooked during global discussions and dialogue. I would conclude my insights with some recommendation which I believe can make an asset if thoroughly developed and implemented.

Today we have extremely deploring data in hand. The recorded number of fatal death cases of migrants was 5267 in 2014, 5 740 in 2015, 7 495 in 2016 and approximately 67 percent of this number has been recorded in Mediterranean.[1]

More than 500 children who were perished in sea crossings alone will be remembered just as a numbers in the statistical data and in photos like below:

To consider that all the numbers represent only deaths that are reported by government entities, media, the UN or NGOs and countless others have died on migratory routes around the world; thus, the situation appears to be much more thoughtful.

There is no need for comprehensive analysis to understand that ordinary people under the bomb attacks and military aggression see no way in front other than going to this precarious –even perilous journey to reach intended destination understandding that they may not be among the ones who will see the coastline at the end. It hurts to see that only the survivors came enough to create the anxiety in the "democratic" countries. The countries laid the question of their border security on a discussion table immediately while forgot even talk about the life security of the men, women and toddlers on the migratory routes. Some countries even decided to construct "fences" not to see the drowned children washed up on the shore, some decided to hold a referendum on closing the door to refugees. The countries started competing with each other on accepting as less as possible migrants neglecting the causes of their displacement because they all were called as the same: "illegal migrants", "illegally crossing the international water", "violating the state borders security" and so on. They were marked as "the ones" bringing the "crisis" to prospered countries, damaging beautiful picture around a borderline.

[1] http://missingmigrants.iom.int/latest-global-figures.




Avropaya miqrant axınları artdığından, hazırda bu sahədə bir çox tədqiqatlar aparılır. Miqrasiya, onun növləri, miqasiya siyasəti, onun müsbət və mənfi təsirləri haqqında məqalələr və kitablar yazılır. Tədqiqatlar göstərir ki, 2010-cu il və 2015-ci il arasında Avropaya xüsusilə, Aralıq dənizi vasitəsilə gələn miqrantların sayı daha çox artıb. 2013-cü ildə Avropaya 60.000 miqrant gəldiyi halda, 2014-cü ildə bu rəqəm 219.000 olmuşdur. 2015-ci ilin altı ayında Aralıq dənizi vasitəsilə Avropaya gələn insanların sayı 137.000 olmuş və bu da 2014-cü illə müqayisədə miqrantların sayının 83% artdığını göstərir (3, s.11).

Müharibələrin çoxalması, dini münaqişələr, işsizlik və yoxsulluq hazırda dünyada miqrantlaın sayının artmasına səbəb olmuşdur. Düzdür, miqrasiya prosesi qədim zamanlardan başlayaraq, bugünədək davam edir, amma 2010-

cu ildən bəri bu son həddə çatmış və dünyada miqrasiya böhranı yaratmışdı. Bundan da ən çox əziyyət çəkən uşaqlardır.

Termin olaraq, miqrasiya sözü insanlara, heyvanlara, quşlara, balıqlara, həşəratlara, ağaclara və s. aid edilir. Ümumilikdə miqrasiya sözünün mənası bir yerdən digər yerə köçmə deməkdir. Hazırda ən aktual miqrasiya mövzusu insanların miqrasiyasıdır, yəni insanların bir yerdən digər yerə köç etməsidir. Bu hadisə qədim zamanlardan başlamış və bu günə kimi davam edir və əsas iki növə ayrılır: ölkədaxili (yerli) və ölkəxarici (beynəlxalq) miqrasiya.

"İnsan miqrasiyası"nın, xüsusilə də beynəlxalq miqrasiya və miqrantların tərifi və izahı haqqında müxtəlif izahlar vardır. Bu, ölkədən-ölkəyə, təşkilatdan-təşkilata fəqlənir. Beynəlxalq Miqrasiya Təşkilatının rəsmi saytında miqrasiya –bir şəxsin və ya bir qrup şəxsin ölkə daxilində və ya sərhəd keçərək hər hansı bir səbəbdən, uzun və ya qısa müddətə bir yerdən başqa yerə köç etməsidir. "Miqrant" dedikdə isə "hüquqi statusundan asılı olmayaraq, könüllü və ya məcburi halda bir şəxsin və ya bir qrup şəxsin ölkə daxilində və ya sərhəd keçərək hər hansı bir səbəbdən və ya hər hansı bir müddətə (uzun və ya qısa) bir yerdən digər yerə köçən şəxs nəzərdə tutulur".

Miqrasiya sözü kimi miqrasiyanın növləri haqqında da müxtəlif fikirlər mövcuddur. Əsasən miqrasiyanın növlərini aşağıdakı kimi bölmək olar:

*1. Qısamüddətli miqrasiya:*

- Müvəqqəti əmək miqrasiyası;
- İdman və incəsənətlə əlaqədar miqasiya;
- Təhsil miqrasiyası;
- Sağlamlıqla əlaqədar miqrasiya;
- Mövsumi miqrasiya;
- Təbiət hadisələri ilə əlaqədar miqrasiya.

*2. Uzunmüddətli və ya müddəti müəyyən olunmayan miqrasiya:*

- Daimi əmək miqrasiyası;
- Siyasi status ilə əlaqədar miqrasiya;
- Məcburi miqrasiya (qaçqınlar və məcburi köçkünlər);
- Cinsi statusu ilə əlaqədar miqrasiya;
- İqtisadi böhran ilə əlaqədar miqrasiya.

**Miqrasiyanın nizamlanması.** Qeyd etdiyimiz kimi, miqrant sözünün mənası və tərifi Avropa Birliyinin təşkilatlarında, tədqiqatlarında və məqalələrində müxtəlif formalarda izah olunur. Hazırda baş verən miqrasiya böhranı və sayı artmış miqrantların ölümü qabaqcıl dünya təşkilatlarını miqrantların hüquqları və onların müdafiəsi haqqında düşünməyə vadar edir.

Bütün dünyada baş verən böyük miqrasiya axını dövlətlərin həm ölkədaxili, həm də ölkəxarici miqrasiya siyasətlərinə və bu sahədə tədqiqatların aparılmasına daha çox diqqət ayırmağa vadar etmişdir (5, s.2). Xüsusilə, Avropa

Birliyinə daxil olan ölkələr miqrantların hüquqlarının qorunmasına və köç zamanı miqrantların ölümlərinin qarşısının alınmasına daha çox diqqət yetirməyə başlamışlar.

Avropa Parlamenti 2015-ci il aprelin 29-da qəbul etdiyi qətnamə ilə Avropa Birliyini və üzv dövlətlərini dənizdə ölənlərin qarşısını almaq üçün mümkün olan bütün addımları atmağa çağırıb. 2015-ci il sentyabrın 15-də isə Xarici Əlaqələr Komitəsi (AFET), Vətəndaş Azadlıqları, Ədalət və Daxili İşlər Komitəsi (LİBE) və İnsan Hüquqları üzrə Alt Komitənin (DROİ) “Aralıq dənizindən olan miqrasiya axını zamanı insan hüquqlarına hörmət etmək” məzmunlu birgə iclası baş tutmuşdur (3, s.9).

1919-ci ildə yaranan Beynəlxalq Əmək Təşkilatı azad, bərabər, təhlükəsiz və ləyaqətli şəraitdə layiqli və məhsuldar çalışmaları üçün qadın və kişilərə imkanların təşviq edilməsi məqsədilə Beynəlxalq Əmək Standartlarının Sistemini yaratmış və inkişaf etdirmişdir (6, s.7). Miqrantların hüquqlarının qorunması, həmçinin Beynəlxalq Əmək Təşkilatının konstitusiyasında da öz əksini tapmışdır: “...öz ölkəsindən başqa yerdə çalışan işçilərin hüquqlarının qorunması”.

Ölkədaxili və ölkəxarici miqrasiyanın hər ikisinin həm müsbət həm də mənfi cəhətləri vardır. Hər iki növ miqrasiya ölkənin iqtisadiyyatına təsir göstərir. Hər bir miqrantın heykayəsi digər miqrant, ölkəsində yaşayan və gedəcəyi ölkədə yaşayan insanlara müxtəlif təsir edir. Hər bir miqrant və onun həyatı ölkənin inkişaf prosesinə təsir göstərir (2, s.1). Buna görə, hazırda bütün inkişaf etmiş ölkələr və təşkilatlar miqrasiya məsələsinə çox önəm verir. Onun səbəbləri və təsirləri tədqiqatçılar və ekspertlər tərəfindən araşdırılır və mənfi təsirlərinin aradan qaldırılması yolları təklif olunur.

**Miqrasiyanın təhsilə təsiri.** Təhsil bütün insanların qanuni haqqıdır və bu haqq müxtəlif dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən qorunur. Onun sayəsində insanlar özlərini müstəqil və güclü hiss edirlər. Təhsilin insan həyatında önəmli rol oynamasına baxmayaraq, yenə də milyonlarla uşaq və gənc təhsil ala bilmir.

Təhsil almaq gənc miqrantların özlərini müstəqil şəxsiyyət kimi hiss etmələri üçün ən vacib addımlardan biridir. Təhsil insanların gələcək gözləntiləri, özlərini qavramaları və özlərinə yaxşı həyat qurmaları üçün önəmlidir. Lakin bunlara baxmayaraq, müxtəlif səbəblərdən bəzi miqrant uşaqlar və gənclər təhsil ala bilmirlər.

Əsas səbəblərdən biri, miqrant uşaqların aylarla sərhədlərdə qalmasıdır. Bu zaman onlar təhsildən, səhiyyə xidmətlərindən və digər xidmətlərdən məhrum olurlar.

Digər səbəblərdən biri də miqrant uşaqların valideynlərindən birinin və ya hər ikisinin olmamasıdır. Belə ki, bu zaman uşaqlar təhsilə vaxt ayırmaqdansa, ev işlərini görməyə və ya valideynlərinə maddi yardım etmək üçün işləməyə məcbur olurlar. Təhsilə cəlb olunduqları zaman isə çətinliklərlə üzləşirlər.

Müxtəlif mədəniyyət, yeni tanış olmayan dərs sistemi, qaydalar, dil biliklərinin olmaması və ya zəif olması miqrant uşaqların təhsil almalarına mənfi təsir göstərir (1, s.295). Onların bu vəziyyəti təhsil vermə, məsləhət və ya hər hansı bir dəstək zamanı təhsil orqanları üçün də problemlər yaradır (3, s.13).

Miqrasiya sözü özündə ədaləti, bərabərliyi, insanların inkişafını, qarşılıqlı hörməti, siyasəti, iqtisadiyyatı, mədəniyyəti və təhsili birləşdirir (1, s.9). Miqrasiya böhranını aradan qaldırmaq və insan hüquqlarının qorunmasını təmin etmək üçün aşağıdakı təklifləri nəzərdən keçirmək olar:

1. Miqrasiya sözünün mənası və tərifi ümumi qaydalara uyğun müəyyən edilməlidir. Bəzi ölkələr "miqrant" dedikdə yalnız könüllü olaraq və qanuni yolla ölkələrinə gəlmiş xarici vətəndaşları nəzərdə tutur və bu zaman həmin ölkəyə gələn qaçqınlar, məcburi köçkünlər və siyasi sığınacaq istəyən insanların hüquqları pozulur. Xüsusilə, məcburi miqrasiyaya daha çox diqqət ayırmaq, onlardan istifadə etməklə, iqtisadiyyatın inkişafına müsbət təsir göstərən yolları axtarmaq lazımdır.

2. Miqrant uşaqlarına yerli uşaqlarla eyni məktəbdə təhsil almalarına şərait yaratmaq. Hər iki tərəfə fərqlilik prinsiplərini aşılamaq lazımdır. Bu zaman miqrantların yaşadıqları cəmiyyətə uyğunlaşmasına daha tez nail olmaq olar. Həmçinin, təhsil ocaqlarında ayrıseçkiliyin, hörmətsizliyin, insanların alçaldılmasının qarşısını alan sərt qanunlar tətbiq olunmalıdır.

3. Orta məktəblərdə və ya universitetlərdə təhsil alan miqrantlar üçün xüsusi "orientasiya günləri" keçirilməlidir. Miqrant uşaqlara hazırda olduqları ölkənin mədəniyyəti, tarixi, həyat tərzi, dini və ictimaiyyəti haqqında məlumatlar verilməlidir.

4. Universitetlərə kifayət qədər bilikləri çatmayan miqrant uşaqları isə peşə məktəblərinə yönəltmək yaxşı olardı.

5. Miqrant uşaqları həvəsləndirmək üçün müvəfəqiyyət qazanmış miqrant şəxslər haqqında məlumat vermək və onları həvəsləndirmək lazımdır (1, s.28).

Yuxarıda qeyd edilmiş təkliflər miqrant uşaqların və gənclərin miqrasiya etdikləri ölkənin cəmiyyətinə uyğunlaşmasında mühum rol oynamaqla yanaşı, onların həmin ölkədə yaşadığı və ya öz ölkəsinə qayıtdığı zaman məşğul olmağa bir sənəti, peşəsi olacaq və özünü və ailəsini təmin edə biləcək. Təhsil vasitəsilə onlar öz ölkələrinin iqtisadi və siyasi baxımdan inkişaf etməsinə böyük dəstək göstərəcəklər.

**Ədəbiyyat**

1. Beckerman Z., Geisen T. International Handbook of Migration, Minorities and Education. (2012).
2. Clemens M.A., Özden Ç., Rapoport H. (2015). Reprint of: Migration and Development Research is Moving Far beyond Remittances. (World Development, 65, 1-5.).

3. Cogolati S., Verlinden N., Schmitt P. (2015). Migrants in the Mediterranean: protecting human rights.
4. Global Trends Forced Displacement in 2015. United Nations High Commissioner for Refugees (2016).
5. Isilda M. et al. Analysis of literature on the effects of remittances on education and health of family members left behind. Regional Research Promotion programme/ western Balkans (2012).
6. Rules of the Game: A brief introduction to the International Labour Standards. International Labour Organization (2014).
7. http://www.iom.int/key-migration-terms.
8. http://unesdoc.unesco.org/images/0014/001435/143557e.pdf
9. http://www.ohchr.org/EN/Issues/Migration/SRMigrants/ Pages/SRMigrantsIndex.aspx .
10. http://www.migrationpolicy.org/programs/data-hub/charts/largest-refugee-populations-country-destination?width=1000&height=850&iframe=true.
11. 11.http://www.ilo.org/dyn/normlex/en/f?p=1000:62:0::No:62:P62_LISt_eNtrIe_ID:2453907:No.

# QLOBALLAŞMA DÖVRÜNDƏ MİQRASİYA PROSESLƏRİ: ÇAĞIRIŞLAR VƏ CAVAB TƏDBİRLƏRİ

***Ильхам Рамиз оглы МАМЕДЗАДЕ,***
*доктор философских наук,*
*Директор Института Философии НАН Азербайджана*

## Философский анализ процессов миграции в условиях глобализации

С 90-х годов XX века стало понятным, что процессы глобализации и миграции неразрывно связаны, что требует от нас философов, исследующих общество, переосмысления многих устойчивых до той поры понятий. Более того, некоторые из ученых стали исходить из того, что следует анализировать не общество, а мобильность индивидов (1). Конечно, не все с этим соглашались и даже довольно долго размышляли и писали о едином глобальном, космополитическом обществе, которое значимей всех остальных явлений. У.Бек, правда, еще в начале XX1 века прозорливо подчеркнул, что глобализация явление многомерное, связанное с формированием транснационального социального пространства. (2). На наш взгляд, глобализация не только обусловила, но в той или иной степени сама стала зависеть от процессов миграции, мобильности индивидов. Анализ того, что происходит сегодня в Европе, того, как влияет миграция на процессы не только в каждой конкретной европейской стране, но и на Европу как единое интеграционное пространство, четко показывают, что миграция видоизменяет процессы глобализации. Во всяком случае, мы можем утверждать, что миграция становится одним из важных, главных факторов глобализации и изменений во всех странах мира. Если до 1990 года количество мигрантов в мире составляло около 2% всего мирового населения и уже увеличивалось быстрее, чем население земного шара, то в данный момент этот процесс стал идти намного в более скором темпе. Конфликты на Ближнем Востоке вообще привели к лавинообразному ее ускорению, к тому же среди мигрантов больше стало беженцев. Мы в Азербайджане с этим столкнулись еще в период распада Советского Союза и разворачивания нагорно-карабахского конфликта. В тот период глобализация как концепт употреблялся редко. Причем в этот период азербайджанцы в качестве беженцев вынуждены были покидать вначале свои дома в Армении, а потом и свои дома в Карабахе, оседая как в других районах Азербайджана, так и в других странах.

Понятно, что изменение соотношения между коренным и некоренным населением, а тем более в больших пропорциях оказывает серьезное воздействие на изменения в социальных отношениях, экономике, культуре, национальной политике и т.д. Миграционные процессы и это следует учитывать, влияют и на страны, которые принимают эти потоки и на тех, кто утрачивает часть своего населения, не говоря уже о том, что и внеплановая внутристрановая миграция оказывает не менее ощутимое воздействие на экономику, социальную политику, культуру общества.

Надо иметь в виду, что миграция как процесс изучалась на всем протяжении XX века, новизна и ее новая актуальность связаны, конечно, с возросшим воздействием на все сферы жизни. Поэтому сегодня феномен миграции нуждается в новых междисциплинарных исследованиях. Такие понятия как индивидуальная мобильность, миграционная цепь, беженцы, перемещенные лица, мультикультурализм и ассимиляция нуждаются в новых определениях, подходах. Мы считаем, что в такой ситуации происходит, прежде всего, реактуализации философского исследования этого понятия, феномена. Дело в том, что для комплексного изучения миграции необходимо определиться с понятийным аппаратом, так как без этого, не возможно, рассмотреть вопросы, связанные с ней комплексно. Пока, что даже нет четких границ среди понятий “мобильность”, “миграционное движение”, “переселение”, “эмиграция” и других, которые нередко используются как взаимозаменяемые.

Миграция уже в XX веке стала предметом исследования различных дисциплин, и мы не можем игнорировать наработок ученых того времени. Это понятие изучалось с точки зрения истории, психологии, демографии, экономики, социологии. Теперь настало время, когда следует использовать всю эту наработанную информацию, но переосмыслить ее в условиях глобализации. Потому и важно наличие единого философского понятийного инструментария, который положит основу междисциплинарного и информационного исследования всего комплекса проблем миграции. Но философия предлагает не только понятийный аппарат для всех остальных наук, но и акцентирует внимание на том, что мигрант меняет свое “картину и представление о мире, о своем месте в мире” переселяясь из одной страны в другую. Эта картина для него связана с тем, как он понимает в новых условиях свою идентичность, какую систему морали избирает, в конце концов, как выстраивает линию своего поведения, ее взаимодействие с системой ценностей, не говоря уже о том, чем будет заниматься, где работать. Этот выбор оказывается определяющим для его экономического, политического и культурного поведения. По существу, сложность этого феномена в том и состоит, что

поведение каждого мигранта трудно поддается изучению, что приводит к тому, что миграция как процесс трудно прогнозируется.

Надо иметь в виду, что, только, разобравшись с важностью философского подхода к миграции, мы сможем исследовать ее воздействие на экономические, политические и культурные аспекты жизнедеятельности государства, причем не только в то, в которое мигрант вселился, но и то, которое он покинул. И даже прогнозирование будущего также требует осмысления философии миграции. В принципе, все государства, культуры и цивилизации хотели бы достичь устойчивого развития, и оно неразрывно оказывается связано в наше время с миграцией. И стабильным и устойчивым мир не был, но с 1992 года после конференции ООН по окружающей среде и развитию такая цель, по крайней мере, ставится перед многими государствами. В энциклопедии "Глобалистика" в статье "Устойчивое развитие" оно определяется как "…развитие человечества, при котором удовлетворение потребностей настоящих поколений осуществляется без ущерба для будущих поколений; управляемое сбалансированное развитие общества, не разрушающее своей природной основы и обеспечивающее непрерывный прогресс цивилизации". (3, 1066). В принципе, концепция устойчивого развития пытается ограничить исключительность ориентацию на экономический рост. Но возрастающие процессы миграции приводят к тому, что устойчивое развитие становится труднодостижимым, а экономический рост опять оказывается приоритетным для большинства стран.

К примеру, Азербайджан исходит из того, что создание условий для человеческого капитала есть основа для устойчивого развития. В стране подготовлена "дорожная карта" развития экономики до 2030 года. Эта "карта" динамическая, открытая концепция, цели в которой поставлены для развития и инвестирования в экономику, но возможны в ней и определенные детализации в соответствие с постулатами устойчивого и культурного развития. В стране накоплен определенный материал, имеющий непосредственное отношение к устойчивому развитию и связан он с инвестированием в человеческий капитал. Ученые Азербайджана различают экономическое измерение человеческого капитала и экономическое измерение человека. Осмысление этих различий накоплено в решении проблем беженцев и перемещенных лиц. Отметим, что речь идет о льготах для них в сфере образования (приняты распоряжения об освобождении от платы за учебу), имеются также льготы в получении и строительстве жилья, для развития фермерских домохозяйств и т.д. Отметим, что теория человеческого капитала рассматривает образование и квалификацию как основу экономического роста и признает за их обладателями право на получение адекватных доходов. Однако, понятно, что в этой

сфере есть большое поле для размышлений и действий, так как человеческий капитал и человек есть качественно разные понятия. По-настоящему гуманным является общество, стремящееся к развитию всех качеств человека, в котором экономика лишь одно из измерений человека.

Такого развития можно достичь, сменив парадигму отношения к человеку и природе, от использования их как средств эффективного развития к отношению к ним как цели развития. За многие века развития более или менее устойчивой представлялась только современная европейская цивилизация, но и ее устойчивость ныне подвергается угрозам. Среди многочисленных угроз, как мы видим, вопрос с беженцами оказался одним из самых серьезных, грозящим распадом ЕС. Стены, границы, как будто бы, возвращаются в Европу.

Вначале о том, что в сегодняшнем мире существуют, на наш взгляд, три системы ценностей –цивилизаций. Это цивилизация территорий или земли (прошедшее). Человеческого капитала (капитализм) –настоящее, и человека –возможное будущее. Для современного Азербайджана, как и для многих других, все три системы ценностей представляют интерес и как теория, и как настоящая практика. Синтез теории и практики приводит к конкретной, реальной политике, к примеру, в сфере регулирования земельных отношений и собственности, проблем беженцев и перемещенных лиц и т.д. В стране многое сделано, чтобы решить первоочередные проблемы этой группы населения.

Ныне экономическое развитие Азербайджана предполагает развитие человеческого капитала. Представляется, что использование теории человеческого капитала только в целом будет происходить, как на Западе. Понятие, имеющее, в первую очередь, экономическое содержание, не будет сводиться исключительно к нему. Во-первых, потому, что успехи в экономике Европы не разрешили всех проблем, возникла потребность в реформировании и развитии социальной политики, образования, изменений в мультикультуральной политике и многом другом. Во-вторых, азербайджанское государство накопило огромный опыт в решении экономических, культурных, социальных проблем, учете не экономического измерения человека.

**Список использованной литературы:**

1. Urry J. Sociology beyond Society: Mobilities for Twenty-First Century. L.; N-Y.: Routledge, 2000.
2. Бек У. Что такое глобализация? Ошибки глобализации –ответы на глобализацию. М.: Прогресс-Традиция. 2001.
3. Космополитическое мировоззрение. М.,2008. Центр исследований постиндустриального общества.

***Xülasə***

## Qloballaşma şəraitində miqrasiya proseslərinin fəlsəfi analizi

Məqalədə miqrasiyanın 20-ci əsrdə araşdırılmasının, tədqiq olunmasının onun həyatın bütün sahələrinə təsirinin artması ilə əlaqəli olduğu vurğulanır. Buna görə də, miqrasiya fenomeninin yeni disiplinlərarası tədqiqatlara ehtiyacı vardır. Fərdi hərəkətlilik, miqrasiya zənciri, qaçqınlar, məcburi köçkünlər, multikulturalizm və assimilyasiya kimi anlayışlar yeni təriflərə, yanaşmalara ehtiyac duyur. Belə bir vəziyyətdə, ilk növbədə, bu konsepsiyanın fəlsəfi istintaqının gerçəkləşdirilməsi, fenomen olur. Məsələ ondan ibarətdir ki, miqrasiyanın hərtərəfli öyrənilməsi üçün konseptual aparatı müəyyənləşdirmək lazımdır. Çünki bunu etmədən onunla bağlı məsələləri hərtərəfli şəkildə nəzərdən keçirmək mümkün deyildir. Bu günə qədər “hərəkətlilik”, “miqrasiya hərəkatı”, “köçürmə”, “göç” və digər bir-birinə əvəzləyən ifadələr arasında aydın sərhəd yoxdur.

Hazırda Azərbaycanın iqtisadi inkişafı insan kapitalının inkişafını nəzərdə tutur. Görünür, insan kapitalı nəzəriyyəsinin tətbiqi yalnız Qərbdə olduğu kimi, baş verəcək. Bu ifadə, ilk növbədə, iqtisadi məna daşısa da, yalnız onunla məhdudlaşmır. Əvvəla, Avropa iqtisadiyyatının uğurları bütün problemləri həll etmədi, çünki sosial siyasətin, təhsilin, çoxmədəniyyətli siyasətdəki dəyişikliklərin və daha çox islahatların aparılması və inkişafı lazım idi. İkincisi, Azərbaycan dövləti iqtisadiyyat, mədəniyyət, sosial problemlərin həllində böyük bir təcrübəyə malikdir.

***Xəyalə ABBASOVA,***
*Dövlət Miqrasiya Xidməti*

## Qloballaşma dövründə miqrasiya prosesləri: çağırışlar və cavab tədbirləri

Müasir dünyada beynəlxalq miqrasiya yerdəyişməsi çoxşaxəli olub, cəmiyyətin inkişafının bütün aspektlərinə –iqtisadiyyata, siyasətə, demoqrafik proseslərə, milli münasibətlərə, ideologiyaya və ya dinə təsir edir.

Ayrı-ayrı şəxslərin və cəmiyyətin miqrasiyası sivilizasiyanın inkişafının mühüm xüsusiyyətidir. Bu əvvəlki cəmiyyətdə yeni keyfiyyət, yeni sima və yeni bir görünüş yaradır.

Dövlətlərin yaradılması, dağıdılması və transformasiyasında əhalinin miqrasiya prosesində, ümumiyyətlə, miqrasiya bəşər tarixində, həmişə mühüm rol oynamışdır. Məskunlaşma prosesi, kənd təsərrüfatı torpaqların ələ keçirilməsi, istehsal gücünün artırılması, təhsil, irqlərin, dillərin və xalqların qarışması miqrasiya prosesi ilə bağlıdır.

Bu gün yüz milyonlarla insan miqrasiya prosesində iştirak edir. Qeyd etmək yerinə düşərdi ki, dünyanın Amerika Birləşmiş Ştatları, Avstraliya, Yeni Zelandiya və Kanada kimi bir çox ölkələri yaradılmalarında miqrantlara borcludurlar.

Tarixə nəzər salsaq, görərik ki, XX əsr ərzində miqrasiya axınlarının intensiv genişləndirilməsi müşahidə olunurdusa, artıq XXI əsrin əvvəllərində miqrasiya fenomeni bütün qlobal dəyişikliyin əsas amili olmuşdur. Çünki qloballaşma miqrasiya prosesini əhəmiyyətli dərəcədə intensivləşdirdi. Bu da öz növbəsində miqrasiya siyasətinə yeni baxış tələb edirdi.

Hazırda əhalinin miqrasiyası qlobal xarakter alır və bu qloballaşmanın əlamətidir. Miqrasiyanın nəticələri özünü müxtəlif sahələrində: siyasi, sosial, iqtisadi, mədəni, psixoloji və digər sahələrdə biruzə verir. Bununla belə, bu nəticələr ziddiyyət və qarşıdurma mənbəyinə çevrilərək, həm müsbət, həm də mənfi ola bilir.

Son illər miqrasiya getdikdcə çağırış, hətta fərdlərin, cəmiyyətin, dövlətin təhlükəsizliyi üçün təhdidə çevrilir, regional və qlobal səviyyəni əhatə edir. Bu proses həm qəbul edən, həm də göndərən dövlətlər üçün ciddi dəyişikliklərə səbəb oldu və nəticədə, əsrlərin problemi olan miqrasiya problemi ictimaiyyətin diqqət mərkəzinə çevrildi.

Bu gün miqrasiya və onun tənzimlənməsi problemləri dünyada qızğın siyasi müzakirə mövzusuna çevrilmişdir.

Bildiyimiz kimi, miqrasiya problemi 2015-ci ilin ikinci yarısından başlayaraq, Avropa İttifaqının aparıcı siyasi dairələrinin, eləcə də, bütün kütləvi informasiya vasitələrinin əsas müzakirə mövzusu oldu. Çünki dünyanın bir sıra ölkələrində –Suriya, İraq, Liviya və Yəmən daxil olmaqla, Yaxın Şərqdə müharibə və zorakılıqların davam etməsi bu bölgədən Avropaya qeyri-leqal miqrant axınını genişləndirib.

Bu gün dünyada miqrasiya proseslərinin tənzimlənməsi və miqrantların hüquqlarının qorunması ən aktual problemlərdən birinə çevrilib.

Həqiqət isə budur ki, ötən əsr boyunca assimilyasiya Avropanın bəzi dövlətləri tərəfindən immiqrant mədəniyyətlərə münasibətdə istifadə edilən strategiya kimi bir çox hallarda özünü doğrultmadı və bu gün də belə əngəllər qalmaqdadır. Məsələn, minarələrin tikilməsinə, müxtəlif geyim növlərinə, dini simvollara qoyulan qadağalar, etnik əlamətə görə dövri təqiblər və s.

Belə bir dönəmdə Prezident İlham Əliyevin "Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib" fikri multikulturalizmin mahiyyət etibarilə Azərbaycanda, eləcə də multikulturalizmi gələcəkdə bəşəriyyətin inkişafının yeganə yolu hesab etməsi, bu anlayışın beynəlxalq əhəmiyyətini dərk etmək baxımından bütün məqamlara geniş spektrdə işıq salır.

Cənab Prezidentin imzaladığı Sərəncama əsasən ötən ilin Azərbaycanda "Multikultiralizm ili" elan edilməsi dövlətimizin nə qədər tolerant, dözümlülük prinsipləri əsasında idarə edildiyini bir daha sübut edir.

Əlbəttə, müasir dünyanın milli-dini zəmində toqquşmalar, məzhəb savaşları, dövlətlərarası etimadsızlıq halları ilə üz-üzə qaldığı bir vaxtda Azərbaycandakı milli həmrəylik və xalqlar arasındakı dostluq qürurverici bir haldır.

Xüsusilə qeyd edilməlidir kİ, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının miqrasiya siyasətinin yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsi nəticəsində son illər dünya ölkələrində baş verən miqrant böhranı fonunda ölkəmizdə həm xarici, həm də daxili miqrasiyanın mənfi təzahürlərinin qarşısının alınması istiqamətində səmərəli və məqsədyönlü tədbirlər görülmüşdür.

Demokratik dəyərlərə böyük önəm verən və dünya birliyinə inteqrasiya istiqamətində uğurlu addımlar atan Azərbaycan Respublikası üçün bu gün miqrasiya proseslərinin beynəlxalq normalara uyğun tənzimlənməsi, insan hüquqlarının, o cümlədən miqrantların hüquqlarının müdafiəsi prioritet istiqamətlərdəndir.

Azərbaycan insan hüquqları sahəsində əsas beynəlxalq hüquqi sənədlərə qoşulmuşdur. Dövlətimiz beynəlxalq sənədlərdən irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.

Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində görülən işlərin nəticəsidir ki, ölkədə insan hüquqlarının, o cümlədən miqrantların hüquqlarının müdafiəsi beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Ölkəmizdə tolerantlığın yüksək səviyyədə olması miqrasiya proseslərinə təsir edən əsas amil kimi qeyd edilməlidir. Xüsusilə vurğulanmalıdır ki, ölkəmizdə bu günə qədər miqrantlara münasibətdə milli, etnik və dini zəmində hüquq pozuntusu qeydə alınmamışdır.

Xidmətin yaradıldığı vaxtdan ötən 10 il ərzində miqrasiya idarəetmə mexanizminin təkmilləşdirilməsi, o cümlədən miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi məqsədilə bir sıra normativ hüquqi aktlar qəbul edilmiş, institusional və təşkilati tədbirlər həyata keçirilmişdir. Bu silsilədən Azərbaycan Respublikası Prezidenti tərəfindən 2009-cu il martın 4-də imzalanmış “Miqrasiya proseslərinin idarə olunmasında “bir pəncərə” prinsipinin tətbiqi haqqında” Fərmanın tətbiqi ölkəmizdə bu sahədə operativliyin təmininə, sənədləşmənin sadələşməsinə və həllini gözləyən problemlərin aradan qaldırılmasına səbəb olmuşdur.

Xidmətin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Prezident cənab İlham Əliyevin 2009-cu il aprelin 8-də imzaladığı 76 nömrəli Fərmanla Dövlət Miqrasiya Xidmətinə hüquq-mühafizə orqanı statusu verilmişdir.

Miqrasiya sahəsində qeydiyyat prosedurunun sadələşdirilməsi ilə bağlı “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilmiş və dəyişikliklərə əsasən 2013-cü ilin aprelin 1-dən Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilir. Bu zaman hər hansı dövlət rüsumunun ödənilməsi və ya vəsiqənin əldə olunması tələb olunmur.

Miqrasiya sahəsində qanunvericiliyin müasir tələblərə uyğunlaşdırılması, eləcə də, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə daxilində statuslarının müəyyənləşdirilməsi ilə bağlı prosedurların daha da sadələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi qəbul edilmiş və 2013-cü il avqustun 1-dən qüvvəyə minmişdir. Qeyd etmək istərdim ki, ilk dəfə olaraq ölkəmizdə qəbul edilmiş Miqrasiya Məcəlləsinə digər ölkələrin marağı olduqca böyükdür və bir sıra dövlətlər ölkəmizin bu sahədəki təcrübəsini öyrənir.

2009-cu ildə fəaliyyəti təmin edilmiş Dövlət Miqrasiya Xidmətinin Vahid Miqrasiya Məlumat Sistemi bu gün xidmətə hər bir əcnəbinin və vətəndaşlığı olmayan şəxsin hansı tarixdə ölkəyə daxil olduğuna, harada yaşadığına, işlədiyinə və nə vaxt ölkəni tərk etdiyinə tam nəzarət olunmasına imkan verir.

Bu gün dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə, həyata keçirilməsinin, vətəndaş məmnunluğunun

təmin olunmasının zəruriliyini nəzərə alaraq yaradılmış və Azərbaycan brendi olan ASAN xidmət mərkəzlərində də Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin respublikamızda müvəqqəti və yaxud daimi yaşama, onların ölkəmizdə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazələrinin verilməsi, şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi kimi müraciətlərin qəbul edilməsi ilə bağlı xidmətlər təqdim olunur.

Xidmət tərəfindən əhaliyə göstərilən 11 elektron xidmətin "Elektron hökumət" portalına inteqrasiyası təmin edilmişdir. Xidmətin 2013-cü ildən Hökumət Ödəniş Portalına qoşulması təmin edilərək, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, o cümlədən Azərbaycan Respublikası vətəndaşlarının cərimə və rüsumlarının real vaxt rejimində elektron formada ödənilməsi təşkil edilmişdir. 2016-cı ildə Dövlət Miqrasiya Xidməti tərəfindən təyin olunmuş cərimələrin "ASANPAY" ödəniş sistemi vasitəsilə ödənilməsinə başlanılmışdır. Bu da sərhəd buraxılış məntəqələrində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidinin təmin edilməsinə imkan verir.

Əsas insan hüquqlarından biri olan vətəndaşlıq hüququnun əhəmiyyəti nəzərə alınaraq, vətəndaşsızlıq hallarının azaldılması ilə bağlı Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq sənədlərdən irəli gələrək, milli qanunvericiliyin beynəlxalq sənədlərə uyğunlaşdırılması ilə bağlı Xidmət tərəfindən tədbirlər görülür. Vətəndaşsızlıq halları ilə mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədilə 2015-ci ildən Azərbaycan Respublikası BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının "10 ilə vətəndaşsızlığa son" kampaniyasına qoşulub. Vətəndaşsızlıq hallarının qısa zamanda aradan qaldırılması üçün zəruri tədbirlər görülür.

Qeyd etmək yerinə düşərdi ki, möhtərəm Prezident İlham Əliyevin diqqət və qayğısının nəticəsidir ki, bu gün Azərbaycanda uğurlu miqrasiya idarəçiliyi modeli qurulmuşdur. Bu faktı beynəlxalq təşkilatların, bir sıra ölkələrin müvafiq strukturlarının nümayəndələri də dəfələrlə qeyd ediblər.

Sonda vurğulamaq istərdim ki, 10 illik yubileyini qeyd edən Dövlət Miqrasiya Xidməti növbəti illərdə miqrasiyanın tənzimlənməsi və idarə edilməsi sahəsində daha yeni nailiyyətlər əldə etməyi hədəfləmişdir.

***Rafiq NƏCƏFQULIYEV,***
*DİN-in Polis Akademiyası*
*Daxili işlər orqanlarının inzibati fəaliyyəti kafedrasının dosenti,*
*polis polkovnik-leytenantı*

## Ekstremizm və separatizm məcburi miqrasiyanı şərtləndirən sosial təhlükələrdən biri kimi

Bütün ictimai-iqtisadi formasiyalarda insanları narahat edən bu və ya digər xarakterə malik hadisələr tarixdən hamımıza yaxşı məlumdur. Şübhəsiz ki, insanların narahatlığına səbəb olan həmin hadisələrin zərərli nəticələrinin aradan qaldırılması hər bir dövlətin prioritetlərinin və təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsini, həmin risklərin qabaqlanması və aradan qaldırılması üzrə aidiyyəti tədbirlərin həyata keçirilməsini şərtləndirir.

XX əsrin sonundan başlayaraq, dünyanın siyasi-hüquqi mənzərəsində baş verən irihəcmli dəyişikliklər şəraitində ayrı-ayrı dövlətlər və bütövlükdə bəşəriyyət sosial təhlükəli təzahürlərdən, əsasən də terror, ekstremizm, etnik separatizm, qanunsuz silah və narkotik dövriyyəsi, kütləvi qırğın silahlarının yayılması, insan alveri və məcburi miqrasiya kimi hadisələrlə üz-üzədir. 2016-cı il sentyabrın 16-da Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclasında ölkə prezidentimiz cənab İlham Əliyevin nitqində qeyd etdiyi kimi, biz təhdidlərin artdığı dövrdə yaşayırıq. Bu təhdidlərə hazır olmaq lazımdır. Yaxın tarixin göstərdiyi kimi, heç bir ölkə təhdidlərlə, beynəlxalq terrorçuluqla, ekstremizmlə, radikalizmlə təkbaşına bacara bilməz. Bizim ölkələri həm də bu meyillərin təhlükəsini dərk etməyimiz birləşdirir.

Qeyd edilməli məqamlardan biri də budur ki, cəmiyyətlərdə ümumi gedişata zidd olan, mahiyyət baxımından münaqişə yaradan, xarakter baxımından aqressiv və təsirinə görə dağıdıcı olan davranışlar sosial təhlükəli təzahürlər sayılır. Bir çox mənbələrdə qeyd olunduğu kimi, sosial təhlükəli təzahürlər sırasında ekstremizm və separatizm daha çox şaxəli hesab olunur. Müasir dövrümüzdə Azərbaycan Respublikasının hüquq elmində "ekstremizm" və "separtizm" anlayışları, onların izahı və hüquqi təbiəti haqqında vahid yanaşmanın mövcudluğu deyil, bu sahədə elmi-nəzəri tədqiqatların (monoqrafik tədqiqatların) olmamağı və ya qıtlığı diqqət çəkir. Təbii ki, qeyd edilən neqativ təzahürlərin və digər gərginliklərin ilkin olaraq azaldılması və gələcəkdə təkrarlanmaması üçün müvafiq elmi-nəzəri tədqiqatların aparılması,

zərurətdən irəli gələrək ali təhsil müəssisələrində tədris proqramlarına salınmaqla, mövzular şəkilində tədris edilməsi məqsəduyğundur. Aparılacaq elmi tədqiqatlar və tədris prosesində aidiyyəti sahə üzrə dünya təcrübəsinin öyrənilməsi hesabına yaradılacaq məlumat toplusundan müvafiq dövlət hakimiyyət orqanlarının təcrübi fəaliyyətində istifadə oluna bilər. Düşünürük ki, belə yanaşma da müvafiq fəaliyyət sahəsində nəticələrin effektivliyinin artmasına xidmət edəcək.

Qeyd etmək lazımdır ki, ölkəmizin ərazisində dini ekstremizm kimi neqativ təzahürün qarşısının alınması sahəsində zəruri sayılan normativ-hüquqi tənzimləmə mexanizmi yaradılmışdır. Belə ki, 2015-ci il dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununu imzalamışdır. Adı çəkilən qanun ilə Azərbaycan Respublikasında dini ekstremizmə qarşı mübarizənin hüquqi və təşkilati əsasları müəyyən edilməklə, dini ekstremizm əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının və vətəndaşların hüquq və vəzifələri müəyyən olunmuşdur.

Azərbaycan Respublikasının yerləşdiyi coğrafiya, həmsərhəd iri dövlətlərin strateji maraqları, iki əsrdən artıq azərbaycanlılara və Azərbaycana qarşı törədilən erməni qəsbkarlığı "ekstremizm" və "separatizm" kimi sosial-neqativ təzahürün xarakterini və məzmununu, habelə onu doğuran səbəb və şəraitin neytrallaşdırılmasının öyrənilməsini şərtləndirir. Bir çox ensiklopediyalarda qeyd edildiyi kimi, ekstremizm fransız sözü olan "extremisme" və ya latınca "extremus" sözündən olub, Azərbaycan dilinə tərcümədə son baxışlara və tədbirlərə tərəfdar çıxmaq mənasını verir. Digər neqativ təzahür kimi təhlilini aparamaq istədiyimiz "separatizm" məfhum olaraq fransızca "separizme", latıncadan isə "separatus" sözündən olub, dilimizə tərcümədə ayrı mənasını ifadə edir.

Ekstremizm mahiyyətcə mürəkkəb təzahürlərdən olub, başa düşülməsi və görsənməyi baxımından çətin olur. Ekstremizm cəmiyyətlərdə insanların qruplaşması tendensiyalarında özünü biruzə verir. Belə ki, bir çox cəmiyyətlərdə əhalinin böyük hissəsi nisbət etibarilə daha az sayı olan millətlərə münasibətdə ayrı-seçkiliyə yol verir, sosial və siyasi həyatda onların iştirak etmələrinə qarşı çıxırlar. Keçən əsrin əvvəllərindən başlayaraq öz əzəli yurdlarından deportasiya edilən soydaşlarımıza qarşı yönələn erməni ekstremizmi buna əyani misaldır. Bu kimi arzuolunmaz cəmiyyətlərdə qeyri-leqal metodların istifadəsinə üstünlük verilir və fiziki zorakılıqların həcmi kəskin genişlənir. Təbii ki, həmin cəmiyyətlərdə adi həyat ahəngi pozulur və nəticədə məcburi miqrasiya özünü büruzə verir. Qeyd edilməlidir ki, keçmiş SSRİ ərazisində meydana gələn həmin neqativ təzahürlərin və digər gərginliklərin əksəriyyətinin fəsadları məhz ölkəmizə öz mənfi təsirini göstərdi. Təəssüflə qeyd etməliyik ki, Azərbaycan Respublikası iki əsrdən artıq bir dövrdə coğ-

rafi baxımdan sərhədlərinə yaxın olan erməni ekstremizmi və separatizmindən əziyyət çəkir. Azərbaycana və azərbaycanlılara qarşı erməni ekstremizmi və separatizminin növbəti böyük dağıdıcı təsirləri 1988-ci illərə təsadüf edir. Həmin dövrdə Ermənistan SSR-də, həmçinin Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik 7 rayonunda başlanmış azərbaycanlıların kütləvi etnik təmizlənməsi, eləcə də nəticə etibarilə burada monoetnik tərkibdə yalnız ermənilərin yaşaması məhz uzun illər planlı şəkildə formalaşmış erməni ekstremizminə bariz nümunədir. Bu illərdə erməni ekstremizmi nəticəsində 20 min nəfər azərbaycanlı həlak olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuş, 4.499 nəfər itkin düşmüşdür. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində ölkəyə dəymiş ziyan təxminən 300 milyard ABŞ dollarından çoxdur.

Təəssüflə qeyd etməliyik ki, cəmiyyətimiz yalnız erməni ekstremizmindən deyil, həm də ölkəmizin işğal olunan ərazilərində siyasi idarəçiliyi sanki müstəqil həyata keçirmək istəyi formasında olan erməni separatizmindən də əziyyət çəkir. Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalı, işğal olunmuş ərazilərdə törətdiyi qanlı etnik təmizləmə nəticəsində yaradılmış qondarma rejim bütün dünyanın tanıdığı separatizm nümunəsidir.

Hesab edirik ki, Ermənistan tərəfindən müxtəlif səviyyələrdə "Dağlıq Qarabağın müstəqilliyinin tanınması" yönümündə həyata keçirilən kompaniyalara dövlətimizin aidiyyəti hakimiyyət subyektləri tərəfindən cavablar verilir. Həmin cavablar istər beynəlxalq tədbirlərdə, istərsə də regional səviyyələrdə olur. Bu yönümdə vurğulanmalı olan fikir ümumilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilən siyasi-hüquqi mövqe olaraq dövlət başçımızın erməni işğalına son qoyulması yönümündəki siyasətinin əsas xətti kimi "mövcud status-kvonun" və sonda bitmiş fakt vəziyyətini (*fait accompli*) qəbul edilməzliyidir. Söylənilən fikirlər cəmiyyətimizə təhdid olan risklərin tam deyil, bir qisminə aiddir. Bununla bərabər, digər narahatlıq yarada biləcək risklərin də aşkar edilməsi və qabaqlanması üçün onların elmi cəhətdən təhlili aparılmaqla öyrənilməsinin, habelə qabaqlanması sahəsində zəruri sayılacaq təşkilati, sosial, siyasi və hüquqi tədbirlərin hazırlanmasını məqsəduyğun hesab edirik.

***Sevinc İsa qızı MƏSTİYEVA,***
*Beynəlxalq Əməkdaşlıq İdarəsi*
*Beynəlxalq əlaqələr şöbəsinin inspektoru,*
*III dərəcəli miqrasiya xidməti qulluqçusu*

## Miqrasiya və inkişafın qarşılıqlı təsiri

*"Bizim ümumi hədəfimiz odur ki, miqrasiya həm miqrantlara,*
*həm də ölkələrə fayda gətirsin!"*
***Pan Gi Mun** (BMT-nin sabiq Baş katibi)*

Bu gün dünya ölkələrinin iqtisadi inkişaf tendensiyalarına nəzər yetirdikdə və inkişafa təsir faktorlarını araşdırdıqda fərqli fikirlər və müzakirələr meydana çıxır. Bir çox iqtisadçılar ölkələrin inkişafını təbii sərvətlər, coğrafi mövqe və ya hərbi güclə əlaqələndirsələr də, artıq son dövlərdə inkişafın mərkəzində əsasən insan amilinin dayandığı qənaətinə gəlinir. İnsan zəkası ilə yaradılan və qurulan inkişaf modelləri bir daha insan faktorunu və onun inkişafa təsirini müzakirə obyektinə çevirir.

Dünya əhalisinin hər 7 nəfərindən 1-nin miqrant və hər 4 miqrantdan 1-nin beynəlxalq miqrant olduğunu nəzərə alsaq, bu halda miqrantların da bu inkişafda rolu haqqında düşünməyə dəyər. Dünyanın iqtisadi güc mərkəzi olan Amerika Birləşmiş Ştatları, Birləşmiş Krallıq, Almaniya Federativ Respublikası, Kanada, Avstraliya İttifaqı kimi ölkələrdə miqrantların sayı və ölkənin iqtisadi, siyasi həyatında iştirak səviyyəsi nəzərəçarpan həddədir. Ölkə və qitə miqyasında, miqrasiya miqrantların iqtisadi inkişafına və sosial-iqtisadi maneələrdən, eləcə də məhdudiyyətlərdən yaxa qurtarmalarına xidmət edir.[1]

Miqrasiya və inkişafın qarşılıqlı əlaqəsi uzun müddət elmi ədəbiyyatlarda və tədqiqatçılar arasında çoxsaylı debatlara və müzakirələrə səbəb olmuşdur. Bu mövzuda bir çox beynəlxalq konfranslar keçirilmiş və hesabatlar hazırlanmışdır. Miqrasiya və inkişaf dəfələrlə Birləşmiş Millətlər Təşkilatının (BMT) sessiyalarında müzakirəyə çıxarılmış və yüksək səviyyəli görüşlərin keçirildiyi Miqrasiya və İnkişaf üzrə Qlobal Forumun yaradılması ilə nəticələnmişdir.

[1] Hein de Haas. Migration and development a theoretical perspective, 2008, page 30.

Bu gün nəzəriyyəçilər miqrasiyanın inkişafa müsbət və mənfi təsirləri ilə bağlı müxtəlif mülahizələr irəli sürürlər. Bu məqalədə miqrasiya və inkişaf arasında əlaqənin müsbət və mənfi cəhətlərinə aydınlıq gətiriləcəkdir. Amerikan sosioloq D.Massey 1998-ci ildə miqrasiya və inkişaf arasında qarşılıqlı təsirin izahını verərək, qeyd etmişdir ki, müsbət addımlarla yanaşı, bu münasibətlərdə bir sıra boşluqlar da mövcuddur.[1] Dünya Bankının Siyasi Araşdırma İşçi Sənədinə (2003) görə miqrasiya və inkişaf arasında əlaqə hələ də öz həllini tapmamışdır.[2] Bu faktların hər biri mürəkkəb və ziddiyyətlidir.

Miqrasiya sistemi nəzəriyyəsinə görə, o, həm təyinat, həm də mənşə ölkəsindəki sosial, iqtisadi, mədəni və institusional şəraiti dəyişir.[3] Bu təsirin nəticələri ilə bağlı yanaşmalar isə müxtəlifdir. Son dövrlər tədqiqatçılar arasında debatlarda miqrasiyanın inkişafa təsiri ilə bağlı optimist və pessimist fikirlər səsləndirilir.

Miqrasiya və inkişaf arasında optimist fikirlərin tarixi kökləri XIX əsrlərin sonu və XX əsrlərin əvvəllərinə söykənir. Bu dövrdə Avropa ölkələrinin kəndlərdə məskunlaşmış əhalisi sənayeləşmə prosesini öz ölkələrinə gətirmək ümidi ilə şəhərlərə miqrasiya etmiş və istəklərinə nail olmuşdurlar.[4] Məhz bu səbəbdən həmin dövlətlər hazırda yüksək iqtisadi inkişaf səviyyəsinə çatmışdırlar. Optimistlər miqrasiyanın inkişafa müsbət töhfələrini aşağıdakı aspektlərlə əsaslandırırlar:

- Miqrantların həyata keçirdikləri pul köçürmələri mənşə ölkələrinin iqtisadiyyatının inkişafına müsbət təsir göstərir;
- Miqrantların sosial köçürmələri, yəni bacarıq və davranışlarının ötürülməsi də inkişafa dəstək verir;
- Beyin axını beyin dövriyyəsi ilə əvəz olunduqda bu, həm mənşə, həm də təyinat ölkələrinin inkişafına fayda verir;
- Müvəqqəti əmək miqrasiyası inkişafa təkan verir;
- Miqrant assosiasiyaları da resursların və ideyaların ötürülməsi ilə inkişaf üçün güclü təsiredici qüvvəyə çevrilir;
- İqtisadi inkişaf emiqrasiyanın azalmasına xidmət edir.

Pessimistlərə görə isə miqrasiya mənşə ölkələrində kadr çatışmazlığı, iqtisadi geriləmə kimi hallara səbəb olmaqla, dövlətin inkişafına mənfi təsir göstərir. [5]

[1] Douglas Massey et al. 1998: 272.
[2] David Ellerman. A World Bank Policy Research Working Paper, 2003, page 37.
[3] Hein de Haas. Migration and development a theoretical perspective, 2008, page 21.
[4] Hein de Haas. Migration and development a theoretical perspective, 2008, page 29.
[5] Hein de Haas. Migration and development a theoretical perspective, 2008, page 23.

İlk vaxtlar dünya ictimaiyyətini belə bir məsələ narahat edirdi: mənşə ölkəsinin yüksək ixtisaslı fəal işçilərinin həyata keçirdikləri pul köçürmələri onların ölkəni tərk etmələri ilə baş vermiş potensial itkiləri üstələyə bilərmi?

Bu suala tədqiqatçılar müxtəlif aspektlərdən yanaşaraq fərqli şərhlər verirlər. Bildiyimiz kimi, miqrantların mənşə ölkələrini tərk etmələrinin əsas səbəbi işsizlik, sosial-iqtisadi vəziyyətin ağırlığı və ya münaqişələrin olmasıdır. Mənsub olduqları dövlətlərdəki məvacibdən və mövcud şəraitdən razı qalmayan miqrantlar əməklərinin layiqli qarşılığını almaq üçün inkişaf etmiş ölkələrə (İEÖ) üz tuturlar.

Bəzi ölkələrin liderləri emiqrantları "xalqından qaçan fərarilər" adlandırırlar. Bu ideyanın tərəfdarları emiqrasiyanın mənşə ölkəsində inkişaf üçün zəruri olan gənc və fəal işçilərin çatışmazlığına səbəb olduğunu iddia edirlər.[1] İnkişaf etməkdə olan ölkələrin (İEOÖ) məhdud imkanlarla yetişdirdikləri kadr ehtiyatının (alimlər, həkimlər, tibb işçiləri, mühəndislər və digər mütəxəssislər) əmək fəaliyyəti ilə məşğul olmaq məqsədilə İEÖ-lərə üz tutmaları və nəticə etibarilə bu təyinat ölkələrinin inkişafına töhfə vermələri mənşə ölkələrinin haqlı narazılığına səbəb olur. Hətta bəzi iqtisadçılar emiqrantlar tərəfindən edilən pul köçürmələrinin miqrantlar və yerli əhali arasında bərabərsizliyi artırmaq və qiymət inflyasiyasına səbəb olmaqla ölkənin inkişafına mənfi təsir göstərdiyi qənaətindədirlər. Lakin hesab edirəm ki, dövlətin məqsədləri olduğu kimi, miqrantların da özünəməxsus səbəblərinin olduğu nəzərə alınmalı və dünya dövlətləri tərəfindən hər bir insanın azad hərəkət etmək hüququnun həyata keçirməsinə şərait yaradılmalıdır.

Hindistan və Pakistan kimi mənşə ölkələrində isə miqrantlar "mələklər" və ya "inkişafın qəhrəmanları" kimi xarakterizə olunurlar. Bunun da əsas səbəbi kimi az inkişaf etmiş ölkələrdə pul köçürmələrinin sürətlə artması göstərilir.[2] Harvard Universitetinin, eləcə də Qlobal İnkişaf üzrə Mərkəzin professoru Devesh Kapur 2004-cü ildə BMT-nin Ticarət və İnkişaf Konfransında miqrantlar tərəfindən mənşə ölkələrində yaşayan ailələrinə göndərdikləri pul baratlarının yerli, regional və milli inkişafı təşviq etdiyini bildirmiş və bunu "yeni inkişaf mantrası" adlandırmışdır.[3] Həmçinin, qeyd etmək lazımdır ki, pul köçürmələri təhsil və səhiyyə standartlarının təkmilləşdirilməsi ilə işçi qüvvəsinin məhsuldarlığının artırılmasına da xidmət edə bilər.

Bu gün miqrantların göndərdiyi vəsaitlər bir çox İEOÖ-lərdə önəmli faktora çevrilmişdir. BMT-nin İnkişaf Proqramının hesablamalarına görə dünya

---

[1] Binod Khadria. The Future of International Migration to OECD Countries Regional Note South Asia, 2008, page 17.

[2] Binod Khadria. The Future of International Migration to OECD Countries Regional Note South Asia, 2008, page 17.

[3] Devesh Kapur. Remittances: The new development mantra?, G-24 Discussion Paper Series, UN Conference on Trade and Development, page 3).

əhalisinin 8%-i (500 milyon insan) xarici ölkələrdən pul baratı qəbul edir. Bu pullar əsasən az təminatlı evlərə ötürülür və yoxsulluğun səviyyəsini azaldılmasına xidmət edir. Dünya Bankının hesablamalarına əsasən 2016-cı ildə miqrantlar vasitəsilə ən çox pul köçürmələri qəbul edən dövlətlər Hindistan, Çin, Filippin, Hindistan, Meksika, Pakistan, Nigeriya, Misir, Banqladeş, Vyetnam və İndoneziya olmuşdur[1] (*Diaqram 1*).




***Diaqram 1.*** *Miqrantlar vasitəsilə ən çox pul baratları qəbul edən ölkələrin statistik göstəriciləri*

Bu ölkələrdə iş imkanlarının məhdud olması səbəbindən əmək bazarına daxil olan gənclər üçün iş tapmaq ümidilə emiqrasiya etmək adət halına çevrilmişdir. Beləliklə, miqrantların pul köçürmələri onların əməyinin bəhrəsi olmaqla yanaşı, mənsub olduqları ölkənin yaşayış səviyyəsinin artırılmasına da xidmət edir. Deməli, miqrasiyadan həm miqrant, həm də onun ölkəsi faydalanır.

Son elmi araşdırmalar göstərir ki, bəzi ölkələrin xaricdəki miqrant assosiasiyaları da əldə etdikləri gəlirlər vasitəsilə kollektiv köçürmələr edərək, öz ölkələrində yolların salınması, məktəblərin və təhsil ocaqlarının tikintisi kimi faydalı əməllərə imza atırlar. Məsələn, meksikalıların ABŞ-da, afrikalıların Avropada və ABŞ-da, həmçinin Filippindən, Malayziyadan və İndoneziyadan olan miqrantların Yaponiyada və digər Asiya ölkələrində bu tipli assosiasiyaları mövcuddur.[2]

Təbii ki, bütün bu faktlar miqrantlar tərəfindən həyata keçirilən pul köçürmələrinin mənşə ölkələrində səbəb olduğu müsbət nəticələrdir. Lakin

[1] http://blogs.worldbank.org/peoplemove/trends-remittances-2016-new-normal-slow-growth.
[2] https://www.oecd.org/dev/americas/42753222.pdf.

emiqrasiya heç də hər zaman mənşə ölkəsində davamlı sosial inkişaf ilə nəticələnmir. Belə ki, miqrantların bir qismi təhsil haqlarının ödənilməsi, investisiya qoyulması, yaşama icazələrinin alınması və s. məqsədlər üçün özləri ilə təyinat ölkəsinə çoxlu kapital gətirirlər. Bu isə artıq təyinat ölkəsinin iqtisadiyyatının inkişafına müsbət töhfə deməkdir.

Miqrantların mənşə ölkələrinə verdikləri töhfələrdən digəri isə sosial köçürmələrdir. Sosioloq və araşdırmaçı Peggy Levittə görə, sosial köçürmələr dedikdə ideyaların, davranışların və münasibətlərin təyinat ölkələrindən mənşə ölkələrinə ötürülməsi nəzərdə tutulur. Levitt bildirirdi ki, miqrantların sosial köçürmələri onların xaricdə üzləşdikləri şəraitdən asılıdır. Belə ki, qəbul edən ölkədə əldə olunan biliklərin faydalı olacağına və mənşə ölkəsinə müsbət təsir göstərəcəyinə heç kim zəmanət vermir, xaricdə istismar olunaraq işləyənlər, yoxsul şəkildə yaşayanlar və ya ayrıseçkiliyə məruz qalanlar öz ölkələrinə müsbət dəyərlər geri göndərmirlər.[1]Latın Amerikası ölkələri ilə bağlı araşdırmalar da göstərir ki, ABŞ-da olan miqrantların uşaqları bəzən zorakılıq dəstələrinin üzvlərinə çevrilirlər və ölkələrinə qayıtdıqda özləri ilə "narkotik mədəniyyəti"ni, zülmü və qanunsuzluğu aparırlar.

Bunlarla yanaşı, sosial köçürmələrin müsbət təsirlərini inkar etməyənlər də az deyil. Məsələn, Levitt öz əsərlərində transmilli cəmiyyətlərin formalaşmasında sosial köçürmələrin önəmini vurğulamışdır. O, bu fikri əhalisinin 65%-nin Bostona emiqrasiya etdiyi Dominikanda apardığı araşdırmanın nəticəsinə əsasən irəli sürmüşdür. Hindistan, Mərakeş və Türkiyənin elmi mənbələrinə görə də miqrasiyanın fonunda sosial köçürmələr mənşə ölkəsində bilik və bacarıqların dəyişməsinə və təkmilləşməsinə əlverişli şərait yaratmaqla, ümumilikdə inkişafa müsbət təsir göstərir.[2]

Lakin sosial köçürmələr inkişafa birbaşa təsir etmədiyindən hesab edirəm ki, mənşə ölkəsində iqtisadiyyatın inkişafına və sosial islahatların aparılmasına şərait yaradacaq yeni bilik və bacarıqların, eləcə də davranışların ötürülməsi üçün siyasi yanaşmanın formalaşdırılmasına ehtiyac var. Sosial köçürmələrin bir sıra növləri məqsədyönlü ola bilər, lakin bu mexanizm yalnız miqrasiyanın inkişafa faydasının artırılmasına yönəlmiş hərtərəfli siyasi yanaşma çərçivəsində işləyə bilər.

1950-ci illərdə ali təhsilli hindistanlıların emiqrasiyası (ilk vaxtlarda əsasən Birləşmiş Krallığa) insan kapitalının itirilməsi ilə bağlı narahatlığa, eləcə də "beyin axını" ifadəsinin yaranmasına gətirib çıxartdı. Bu kiçik addımlar 1965-ci ildə ABŞ-ın İmmiqrasiya və Vətəndaşlıq Aktına dəyişikliklər etməsindən sonra sürətli axına çevrildi. 1975-ci ilədək 100 minə yaxın mühəndis, müəllim, professor, alim və onların ailə üzvləri Hindistandan ABŞ-a miqrasiya etməyə

[1] Peggy Levitt. The International Migration Reviw, 1998, page 926-944.
[2] Stephen Castles and Mark J. Miller. The age of migration, 2009, page 62.

başladılar.[1] Sonralar Avstraliya və Kanada da özlərinin Avropayönümlü qanunvericiliyinə dəyişiklik edərək ixtisaslı miqrantların ölkəyə gəlmələri üçün həvəsləndirmə tədbirləri görməyə başladılar. Artıq 1990-cı illərdə İEÖ-lərdə 400 mindən çox mühəndis və alim sənaye ölkələrinin araşdırma və inkişaf sektorlarında işləməyə başladı.[2]

Bu gün insan kapitalının cəlb olunması üçün dünyada qlobal yarış gedir və bir çox immiqrasiya ölkələri menecment, mühəndislik, informasiya texnologiyaları, təhsil və səhiyyə sahəsində təcrübəsi və bacarığı olan insanların asanlıqla həmin ölkələrə gedə və orada yaşaya bilmələri üçün güzəştli giriş şərtləri təklif edirlər. Bu da yoxsul ölkələri əsas xidmətlərin göstərilməsində, eləcə də, iqtisadi və sosial inkişafın sadələşdirilməsində ehtiyac duyulan işçi qüvvəsindən və mühüm insani mənbələrdən məhrum edir. Bu amil xüsusilə səhiyyə sahəsində çalışan işçilərə şamil edilir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) hesabatına əsasən təşkilata üzv ölkələrdə xidmət edən tibb bacılarının 11%-i, həkimlərin isə 18%-i əcnəbidir.[3] Ən çox diqqəti isə Malavi cəlb edir: bu ölkədə HİV-AİDS (QİÇS) xəstəliyi ilə mübarizə aparılsa da, ölkənin tibbi heyətinin əksəriyyəti daha yaxşı əmək haqqı almaq üçün Birləşmiş Krallığa üz tuturlar.[4]

Yoxsul ölkələrdən zəngin ölkələrə insan kapitalının axını iqtisadi səbəblərlə yanaşı, akademik məqsədlər də daşıyır. Qərbə üz tutan miqrantların əksəriyyəti bakalavr və magistr pillələrində təhsil almaq məqsədilə bu ölkələrə pənah gətirir. Beləliklə, xarici tələbələr yüksək təhsil haqqı ödəyərək, İEÖ-lərin iqtisadiyyatının inkişafına təsir göstərmiş olurlar. Artıq son illər ərzində ABŞ, BK, Almaniya Federativ Respublikası və Avstraliya İttifaqı öz immiqrasiya qanunvericiliklərinə dəyişikliklər etməklə, ölkələrində fəaliyyət göstərən təhsil müəssisələrindən məzun olan miqrantların (xüsusilə, mühəndislik, elektronika və elm ixtisasları üzrə) ölkədə qalmalarına şərait yaradırlar. Yüksək ixtisaslı işçi heyətinin itirilməsi isə İEOÖ-lərin təhsilə qoyduqları sərmayənin iflasına və nəticə etibarilə ölkə iqtisadiyyatının zəifləməsinə səbəb olur.

Zənnimcə, belə olan halda İEOÖ-lər ümidsizliyə qapılmamalıdırlar, çünki miqrasiya etmək ehtimalı bir çox insanları təhsil almağa sövq edir. Bu insanlar öz güzəranlarını yaxşılaşdırmaq məqsədi və xarici ölkəyə getmək ümidi ilə təhsil alır, maariflənirlər. Lakin onların təhsil alması heç də hər birinin miqrasiya edəcəyi mənasına gəlmir. Hesab edirəm ki, dövlət öz vətəndaşlarının təhsil almasında maraqlı olmalıdır, çünki məhz miqrasiya etmək imkanı sayəsində dövlət üçün ixtisaslı mütəxəssislər yetişir.

---

[1] Stephen Castles and Mark J. Miller. The age of migration, 2009, page 63.
[2] Annual Report of International Organization for Migration 2005, page 173.
[3] OECD 2007, page 162, https://www.oecd.org/migration/mig/41515701.pdf.
[4] The Global Commission on International Migration, 2005, page 24.

Bu gün "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", eləcə də Çin Xalq Respublikası, Macarıstan Respublikası və Rusiya Federasiyası kimi ölkələrlə hökumətlərarası müqavilələr çərçivəsində Azərbaycanın fəal gənc vətəndaşları da xarici ölkələrdə təhsil almaqdadırlar *(Diaqram 2)*. Dövlətimizin yeritdiyi uğurlu siyasət nəticəsində bu tələbələrin əksəriyyəti məzun olduqdan sonra vətənlərinə geri qayıdaraq müxtəlif dövlət qurumlarında, mötəbər təşkilatlarda, eləcə də nüfuzlu özəl müəssisələrdə iş yerləri ilə təmin olunurlar. Onların İEÖ-lərdə əldə etdikləri bilik və bacarıqların tətbiqi nəticəsində dövlətimizin iqtisadi, siyasi, elmi və digər sahələrində inkişafa nail olmaq mümkün olur.




***Diaqram 2.** 2007-2016-cı illər üzrə Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazanan azərbaycanlı tələbələrin statistik göstəriciləri*

Belə bir nəticəyə gəlmək olar ki, istənilən halda emiqrasiya etmək insanın hüququdur və bunun qarşısını almaq olmaz. Belə ki, emiqrasiya edənlər yalnız əmək haqqına görə inkişaf etmiş ölkələrə üz tutmurlar, bu ölkələrdə mövcud olan yüksək iş və həyat şərtləri ilə yanaşı, işçinin özünü inkişaf etdirmək imkanları da genişdir.

Xaricdə işləyən və ixtisaslaşan miqrantları ölkəyə necə geri qaytarmaq olar? Bu suala dair ekspertlər müxtəlif təkliflər irəli sürür. Məsələn, miqrantların iş və yaşama icazələrinin müəyyən müddətdən sonra ləğv edilməsi onların geri qayıtmalarına səbəb ola bilər. Yaxud onların əldə etdikləri məvaciblərin bir qisminin mənşə ölkəsindəki əmanət hesablarına köçürmək və bu əmanətlərdən yalnız ölkələrinə geri qayıtdıqları təqdirdə istifadələrinin mümkünlüyünü təmin etmək olar. [1]

[1] Martin Ruhs. 2005, page 14.

Bütün bu müzakirələrin yekununda ortaya çıxan ən önəmli məsələ miqrasiyanın mənşə ölkəsində səbəb olduğu inkişafın həmin ölkələrdən emiqrasiyanın azalmasına töhfə verib-verməməsidir. 1994-cü ildə İnkişaf Əməkdaşlığı üzrə Avropa Nazirləri Avropa Komissiyasına müraciət edərək, inkişafın miqrasiya təzyiqlərini azalda bilmə ehtimalını araşdırmağı xahiş etmişdir. Bu ideya Danimarkanın keçmiş Baş naziri Rasmussenin çıxışında öz əksini tapmışdır: “Əgər siz üçünçü dünya ölkələrinə köməklik etməsəniz, o zaman bu yoxsul insanları öz cəmiyyətinizdə görəcəksiniz.” [1]

Miqrasiya axınlarını azaltmaq üçün inkişafdan istifadə etmək planlarına görə miqrasiyaya səbəb yoxsulluq, işsizlik və inkişafdan geri qalmaqdır. Məhz buna görə öncə həmin ölkələrdə bu kök səbəbləri aradan qaldırmaq lazımdır. Lakin bu addım da İEOÖ-lərdən emiqrasiyanın tam şəkildə azalmasına təminat vermir. Əksinə, resursları və seçim imkanları geniş olan yerlərdə insanların yerdəyişmə istəkləri də yaranacaqdır. Məsələn, Afrikadan miqrasiya edən şəxslərin əksəriyyəti aylıq gəliri ölkə üçün müəyyənləşdirilmiş orta səviyyədən yüksək ailələrin nümayəndələri olur.

Beləliklə, hazırda miqrasiya və inkişafın qarşılıqlı təsiri ilə bağlı fərqli və təzadlı müzakirələr aparılır və bununla əlaqədar hələ də vahid bir yanaşma formalaşmamışdır. Yuxarıda sadalananlardan belə qənatə gəlmək olar ki, miqrasiya təklikdə inkişaf gətirə bilməz. Əgər siyasi və iqtisadi islahatlar olmasa, pul və sosial köçürmələr müsbət dəyişiklik əvəzinə, böhran və bərabərsizlik gətirər. Lakin dövlətlər tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində miqrasiyanın baş verdiyi ölkələrdə idarəetmənin gücləndirilməsini, yeni infrastukturun qurulmasını, səmərəli institutların və investisiya yönümlü mühitin yaradılmasını təmin etmək olar.

Ölkədə yoxsulluğu azaltmaq və inkişafı təmin etmək üçün isə beyin dövriyyəsi ilə əldə olunan bacarıqları dəyərləndirmək və düzgün istiqamətdə tətbiq etmək lazımdır. Bu səbəbdən də, qlobal əməkdaşlığın qurulmasını önəmli addım hesab edirəm. Belə ki, qısamüddətli milli maraqlar əvəzinə, bütün dünya dövlətlərinin faydalanacağı bir sistemin qurulması üçün mənşə və təyinat ölkələri arasında uzunmüddətli əməkdaşlıq qurulmalı və təcrübə mübadiləsi aparılmalıdır.

İEÖ-lərdə yaşayan ixtisaslı mütəxəssislərin zəruri hallarda mənşə ölkələrinə geri qayıtmalarını təmin etmək üçün ilk vaxtlarda ölkə vətəndaşlarının xüsusilə çox axın etdiyi ölkələrlə əlaqələr qurmağı və xarici ölkələrdə yerləşən diplomatik nümayəndəliklərin yerləşmə ölkəsinin giriş-çıxış sisteminə inteqrasiya olunmalarını təklif edirəm. Bu zaman diplomatik nümayəndəliklər yerləşmə dövlətlərinə səfər edən və məskunlaşan ölkə vətəndaşlarının

[1] Hein de Haas. Turning the tide? Why development will not stop migration. 2007, p. 11.

uçotunu asanlıqla apara bilər və ehtiyac olduğu təqdirdə onların mənşə dövlətinə qayıtmalarını təmin etmək üçün müvafiq tədbirlər görə bilərlər.

Bu gün Azərbaycan Respublikasının fəal və savadlı gəncləri də dünyanın nüfuzlu ali təhsil müəssisələrində dövlət xətti və ya müxtəlif proqramlar çərçivəsində təhsil alırlar. Bu tələbələrin əksəriyyəti ölkəmizə geri qayıdaraq ölkədə sosial həyatın müxtəlif sahələrinin inkişafına müsbət töhfələr verirlər. Təbii ki, bunların arasında həmin ölkələrdə işlə təmin olunanlar da var. Belə olan halda hesab edirəm ki, həmin gənclərin ölkəyə qayıtmadan da mənşə ölkələrində inkişafa töhfə vermələrini təmin etmək lazımdır. Bu istiqamətdə müsbət nəticə əldə olunması üçün təklif edirəm ki, xüsusi "tələbə elektron portalı" yaradılsın və xarici dövlətlərdə təhsil alan və ya məzun olan tələbələr ilə mənşə ölkəsində oxşar ixtisaslar üzrə təhsil alan tələbələrin bu sistemə inteqrasiyası təmin olunsun. Həmin portal vasitəsilə tələbələr əldə etdikləri bilik və bacarıqları mütəmadi olaraq bölüşə, birgə layihələr həyata keçirə, eləcə də, onlayn video konfranslar təşkil edə bilərlər. Belə olan halda, bu şəxslər geri qayıtmadan da sistem vasitəsilə ölkənin inkişafı naminə töhfələr verə bilərlər.

***Mayis ƏLİYEV,***
*BDU Əmək və ekologiya hüququ*
*kafedrasının professoru, hüquq elmləri doktoru,*
*"Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin sədri*

## Əməkçi miqrantların əmək münasibətlərinin hüquqi tənzimlənməsi problemləri

Dünyada qlobal bir proses kimi xarakterizə edilən əhalinin miqrasiyası proseslərinin tənzimlənməsi ölkənin inkişafı və təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə dünyada baş verən qloballaşma prosesləri, dünya ölkələri və xalqları arasında iqtisadi, siyasi və mədəni sahələrdə inteqrasiya proseslərinin getdikcə daha da genişlənməsi bütövlükdə miqrasiya məsələlərini, o cümlədən bu təzahürlə bağlı bütün dəyişiklikləri daha aktual etmişdir.

Statistika miqrantlar içərsində əməkçi miqrantların xüsusi çəkiyə malik olduğunu göstərir. Bütövlükdə dünyada geden intensiv miqrasiya prosesləri Azərbaycandan da yan keçməmişdir. Öz müstəqilliyini yenidən bərpa etmiş, gənc suveren bir dövlət olan Azərbaycan Respublikası üçün miqrasiya yeni bir fenomen olsa da, onun geosiyasi mövqeyi və iqtisadiyyatının inkişafına təkan veren siyasət yürütməsi miqrasiya poseslərini xeyli sürətləndirmişdir.

Müstəqillik dövrünün əvvəllərində Azərbaycan miqrasiya proseslərində əsasən mənşə ölkəsi kimi iştirak edirdi, lakin son zamanlar müşayiət olunan iqtisadi inkişaf ölkəmizin getdikçə təyinat ölkəsinə çevrilməsinə təkan vermişdir və bu proses hazırda daha da genişlənir.

Azərbaycanın dünyada baş veren miqrasiya proseslərinin fəal iştirakçısına çevrilməsi, dünya miqyasında bu sahədəki təzahürlərin başvermə səbəblərinin, motiv və formalarının araşdırılması, proseslərin lazımi səviyyədə tənzimlənməsi işlrərinin aparılması üçün beynəlxalq təcrübənin öyrənilməsi olduqca önəmlidir və bu yöndə dünya miqyasında miqrasiyaya aid istifadə olunan termin və anlayışlar xüsusi əhəmiyyət kəsb edir.

Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşamış 250 min azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovularaq, Azərbaycana pənah gətirmişdir. Eyni zamanda, 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfərədək Məshəti türkü də Azərbaycanda sığınacaq tapmışdır.

Ermənistan silahlı qüvvələrinin 1988-ci ildən başlayaraq, ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20%-i –Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunmuş, Dağlıq Qarabağdan 60 min, digər ətraf rayonlardan isə 600 mindən çox azərbaycanlı öz daimi yaşayış yerlərindən məhrum olmuşlar.

Beləliklə, 1988-ci ildən başlayaraq, keçmiş SSRİ məkanında münaqişə ocaqlarının meydana çıxması, Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkünün olması, illərlə formalaşan iqtisadi əlaqələrin pozulması, müstəqilliyinin ilk illərində respublika daxilində siyasi qarşıdurmanın mövcud olması, keçid dövrü üçün xarakterik olan sosial-iqtisadi qeyri-sabitlik, Ermənistanın hərbi təcavüzü və digər səbəblərlə əlaqədar əhalinin məcburi yerdəyişmələrinin və kor-təbii kütləvi axınlarının meydana çıxması nəticəsində miqrasiya prosesləri daha da mürəkkəbləşmiş və dövlət səviyyəsində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri etmişdir.

Azərbaycan Respublikasında bazar münasibətlərinin inkişafı istiqamətində aparılan iqtisadi islahatlar, dünyanın aparıcı şirkətləri ilə imzalanmış və artıq öz bəhrəsini verməyə başlayan kontraktlar, tarixi "İpək yolu"nun bərpası və Azərbaycanın əlverişli geosiyasi mövqeyi respublikada miqrasiya axınlarının artmasına səbəb olmuşdur. Bu isə təbii olaraq, Azərbaycan Respublikasında əməkçi miqrantların əməyinin tənzimlənməsi və xaricdə olan Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının müdafiəsi problemlərini həll etmək zərurətini yaratmışdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin bütün çıxış və nitqlərində əhalinin miqrasiyası, ölkəmizdə onun tənzimlənməsinin çox ciddi bir məsələ olduğu hər dəfə vurğulanır. Bunun bariz sübutu isə 2003-cü ildən Azərbaycanda inkişaf etmiş ölkələrin tarixən formalaşmış miqrasiya siyasəti və təcrübəsinin dərin təhlili, dövlətimizin suverenliyi və milli maraqlarına əsaslanan fundamental xarakterli konsepsiyaların, dövlət proqramlarının, fərmanların, qanunların qəbul olunması və icrasına başlanılması olmuşdur.

Əməkçi miqrantların əmək münasibətlərinin hüquqi tənzimi məsələləri üzrə tədqiqatın mövzusunun aktuallığı Azərbaycan Respublikasının əmək miqrasiyası prosesləri ilə bağlı qarşılaşdığı problemlərlə şərtlənir.

Azərbaycan Respublikası "Bütün fəhlə miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında" Beynəlxalq Konvensiyanı 1998-ci il dekabrın 11-də ratifikasiya etmişdir. BMT və BƏT-in müvafiq konvensiyalarının ratifikasiya edilməsi Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiya etməsində mühüm rol oynayır.

Hazırda miqrantlar Azərbaycan Respublikasını tərk edərək, əsasən işləmək üçün xarici ölkələrə gedirlər. Bəzən xarici ölkələrdə onların hüquqları pozulur və onlar işədüzəltmə üzrə agentliklərin və əcnəbi işəgötürənlərin qanunsuz hərəkətlərinin qurbanlarına çevrilirlər. Belə hüquq pozuntusu

hallarının əsas səbəbləri kimi xarici ölkələrdə işədüzəltmə üzrə xüsusi agentliklərin fəaliyyətinin qanunvericiliklə kifayət qədər ətraflı şəkildə tənzimlənməməsi çıxış edir (Belə ki, bu sahədə azərbaycanlıların daha çox miqrasiya etdiyi dövlətlərlə ikitərəfli müqavilələrin olmaması miqrasiya proseslərinin səmərəliliyini aşağı salır). Xarici ölkələrdə işədüzəltmə üzrə təşkilatlar tərəfindən sui-istifadə hallarına yol verilməsinin qarşısının alınması üçün tədbirlərin görülməsi və digər dövlətlərdə Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının təmin edilməsi müstəqil Azərbaycan dövlətinin əsas vəzifələrindən biri kimi çıxış edir.

Müasir dövrdə Azərbaycan Respublikasında elm və informasiya tutumlu sahələrin (sənaye sahələrinin) getdikcə daha sürətlə inkişaf etməsi, bu sahədə beynəlxalq əməkdaşlığın geniş vüsət alması, Azərbaycana bir sıra yeni mürəkkəb və idarə və istifadə edilməsi yüksək ixtisas və peşəkarlıq tələb edən qurğuların və texnologiyaların gətirilməsi və bu sahədə kadr hazırlığının səviyyəsinin kifayət qədər yüksək səviyyədə olmaması hələlik əcnəbi işçi qüvvəsinin cəlb edilməsi zərurətini yaradır. Buna görə də, əməkçi miqrantların əmək münasibətləri problemi bir çox hüquq sahələrinin –beynəlxalq hüquq, beynəlxalq xüsusi hüquq, konstitusiya hüququ, inzibati hüquq, mülki hüquq, əmək hüququ, ailə hüququ, vergi hüququ və cinayət hüququnun norma və nəzəri aspektləri nəzərə alınmaqla, həll edilməlidir.

Qüvvədə olan qanunvericilik əsasən əcnəbi işçi qüvvəsinin cəlb edilməsi qaydalarını tənzim etsə də, onların əmək münasibətlərinin kompleks şəkildə tənzimində boşluqlar vardır. Azərbaycan Respublikası qanunvericiliyi əsasən Azərbaycan Respublikası ərazisində əmək müqaviləsi bağlamaqla haqqı ödənilən fəaliyyətlə məşğul olan işçilərin hüquq münasibətlərini tənzim edir və onların hüquqlarını müdafiə edir. Belə vəziyyət mülki-hüquqi müqavilələr üzrə fəaliyyət göstərən əcnəbilərin öz hüquqlarını dolğun şəkildə müdafiə etmək imkanından məhrum edir. Bu baxımdan hesab edirik ki, "əməkçi miqrant" anlayışına azərbaycanlı işəgötürənlərlə bağlanmış əmək müqavilələri üzrə işləyən əcnəbi vətəndaşlarla yanaşı mülki-hüquqi müqavilələr üzrə işləyənlərin də daxil edilməsi məqsədəmüvafiq olardı. Subyekt tərkibinin belə genişləndirilməsi qanunvericilik səviyyəsində bütün əcnəbi işçilərin tam həcmdə müdafiəsinin həyata keçirilməsinə imkan verir. Muzdlu işçilərin əməyi ilə bağlı məsələlərin tənzimlənməsi mövcud praktikada işəgötürənlərin faktiki əmək münasibətlərini mülki münasibətlərlə əvəz etməsinin və əcnəbi vətəndaşlarla onlara əmək qanunvericiliyində nəzərdə tutulmuş təminatları təqdim etmədən mülki-hüquqi müqavilələr bağlamasının qarşısını ala bilər.

İşçi miqrantların əməyindən istifadə üçün Azərbaycan Respublikasının qanunvericiliyində əcnəbi işçi qüvvəsinin cəlb edilməsinə razılığın verilməsinə görə haqq, əcnəbi işçi qüvvəsinin cəlb edilməsinə razılığın rəsmiləşdirilməsi tələb edilməyən hallarda əcnəbi vətəndaşların əmək fəaliyyəti ilə məşğul

olmaq hüququnun təsdiq edilməsi üçün illik haqq müəyyən edilmişdir. Bu isə Avropa Birliyinin normaları, əsasən də "Əməkçi miqrantların hüquqi statusu haqqında" 1977-ci il Avropa Konvensiyası ilə ziddiyyət təşkil edir. Bundan başqa, əmək münasibətlərində işçi miqrantlar üçün fərqli normalar mövcuddur. Məsələn, işəgötürən tərəfindən işçilərin sayı və ya ştatların ixtisarı həyata keçirilərkən əcnəbi işçinin cəlb edilməsi üçün verilən razılığın (lisenziyanın) qüvvəsi vaxtından əvvəl xitam olunur. Bu normaya əsasən məhz onun ştat üzrə vəzifəsinin ixtisar edilib-edilməməsindən asılı olmayaraq və işdə qalmaq üçün üstünlük hüququ nəzərə alınmadan əcnəbi işçi işdən azad edilməlidir. Bu sahədə dövlət tənzimetməsi əcnəbi işçi qüvvəsinin cəlb edilməsi məsələləri üzərində nəzarətin həyata keçirilməsinə və hər şeydən əvvəl öz vətəndaşlarının məşğulluğunun təmin edilməsi siyasətinin aparılmasına yönəlməlidir. Hesab edirik ki, əmək bazarının monitorinqinin aparılması və işçi qüvvəsinin çatışmadığı sahələrin və regionların müəyyən edilməsi məqsədəmüvafiq olardı. Bu əmək bazarında və iqtisadiyyatda disproporsiyanın qarşısının alınmasına müsbət təsir göstərə bilər. Məhz belə halda Azərbaycan Respublikası vətəndaşlarının və onun ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin əmək hüquqları effektiv şəkildə müdafiə oluna bilər. Əmək sferasında əməkçi miqrantlar üçün ayrı-seçkilik xarakterli müddəalar olmamalıdır, çünki bu onların əməyə olan hüquqlarının pozulmasına səbəb olur. Əmək münasibətləri sahəsində işçi miqrantlar üçün məhdudiyyətlər dövlətin təhlükəsizlik maraqlarından çıxış etməklə, müəyyən edilə bilər və əmək müqaviləsinin müddəti ilə bağlı xüsusiyyətlərdən və bu müddət başa çatdıqdan sonra ölkəni tərk etmək zərurətindən irəli gələ bilər. Əmək Məcəlləsinin 16-cı maddəsində əmək sahəsində ayrı-seçkilik hallarının daha geniş dairəsinin qadağan edilməsi ilə bağlı müddəalar təsbit edilmişdir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra əməkçi miqrantlarla bağlı bir sıra ikitərəfli sazişlər imzalamışdır. Lakin müasir dövrdə xarici əmək miqrasiyası daha geniş vüsət aldığından, onun hüquqi tənzimi ilə bağlı problemlər yaranmışdır. Bununla əlaqədar olaraq beynəlxalq müqavilələrdə əməkçi miqrantların hüquqi vəziyyəti (xüsusən də əmək sahəsində) ilə bağlı normalar daha kompleks şəkildə təsbit edilməlidir. Eyni zamanda, BMT və BƏT-in əməkçi miqrantlarla bağlı konvensiyalarının ratifikasiya edilməsi də olduqca zəruridir. Bu daha çox xarici ölkələrdə əmək fəaliyyəti ilə məşğul olan azərbaycanlı işçilərin maraqlarına uyğundur. Konvensiyaların ratifikasiyası xaricdə işləyən azərbaycanlı işçilərin beynəlxalq aktlarda nəzərdə tutulan bütün hüquqlardan istifadə etmələrinə və müəyyən edilmiş qaydada həmin hüquqların müdafiəsinə imkan yarada bilər. Lakin bəzi hallarda işədüzəltmə agentlikləri tərəfindən yol verilən sui-istifadə halları nəticəsində əmək faliyyəti ilə məşğul olmaq üçün müvəqqəti olaraq xarici ölkələrə getmək istəyən azərbaycanlı işçilərin hüquqları pozulur. Bunun qarşısının alınması üçün müvafiq qanunlarda xaricdə

işədüzəltmə üzrə agentliklərin fəaliyyətinin dövlət tərəfindən daha əhatəli şəkildə tənzimlənməsinin nəzərdə tutulması zəruridir. Belə ki, xaricdə işədüzəltmə fəaliyyətinə lisenziya verilməsindən başqa qanunvericilikdə vətəndaşları aldadan və sui-istifadə hallarına yol verən məşğulluq agentliklərinin fəaliyyətinin qadağan edilməsini nəzərdə tutan normanın təsbit edilməsi məqsədəmüvafiq olardı. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının BƏT-in “Xüsusi məşğulluq agentilikləri haqqında” Konvensiyasını ratifikasiya etməsi əcnəbi firmaların Azərbaycan Respublikasının işədüzəltmə üzrə agentliklərini cəlb etməklə yol verdikləri sui-istifadə hallarının qarşısının alınmasında mühüm rol oynaya bilər.

Azərbaycan Respublikasının vətəndaşı olan əməkçi miqrantların əsas hissəsi Rusiya Federasiyasında işləyir. Rusiya Federasiyasında Azərbaycan Respublikasından olan əməkçi miqrantların sayı 37 min nəfərdən çoxdur. Müqayisə üçün qeyd edək ki, başqa heç bir dövlətdə bu qədər Azərbaycanlı əməkçi miqrant yoxdur. Əməkçi miqrantların əmək və sosial hüquqlarının mühafizəsi məqsədilə Azərbaycan Respublikası hökuməti ilə Qırğızıstan, Moldova, Qazaxıstan, Belorus və Türkiyə Respublikalarının hökumətləri arasında əməkçi miqrantların əmək fəaliyyəti və sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında hökumətlərarası sazişlər imzalanmışdır. Lakin Rusiya Federasiyası ilə analoji saziş indiyə qədər imzalanmamışdır. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkçi miqrantların əmək fəaliyyəti və sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında hökumətlərarası sazişin bağlanması üçün tədbirlərin görülməsi məqsədəmüvafiq olardı.

Göstərmək lazımdır ki, qüvvədə olan hüquqi norma və vasitələr (mexanizmlər) sistemi əmək miqrasiyası proseslərinin effektiv tənzimini həyata keçirməyə imkan vermir. Məsələn, “Beynəlxalq xüsusi hüquq haqqında” Azərbaycan Respublikasının Qanununda (7) konkret olaraq əmək münasibətləri sahəsində kolliziyalar və onların həlli qaydası təsbit edilməmişdir.

Bununla əlaqədar Fransanın “əməkçi miqrantlarla bağlı” qanunvericilik təcrübəsinin bəzi müsbət hallarını göstərə bilərik. Fransanın Əmək Məcəlləsinə 1973-cü il yanvarın 2-də edilmiş dəyişikliklər əsasında “Xarici iş qüvvəsi maraqlarının müdafiəsi” adlı fəsil daxil edilmişdir. Həmin Məcəllənin 341-1-ci maddəsində göstərilir ki, bu fəslin müddəaları lazımi qaydada ratifikasiya edilmiş və ya bəyənilmiş və dərc edilmiş beynəlxalq müqavilə, konvensiya və sazişlərin müddəalarının zəruriliyi nəzərə alınmaqla tətbiq edilir. Belə müddəalar beynəlxalq ümumi hüquq normalarının milli hüquq normaları üzərində üstünlüyünü nəzərdə tutur.

Azərbaycan Respublikasında miqrantların əmək hüquqlarının reallaşdırılması baxımından hesab edirik ki, əməkçi miqrantların daha az müdafiə olunduğunu və işəgötürənlərin onlara qarşı qanunları pozmaq imkanlarının daha çox olmasını nəzərə alaraq, belə şəxslərlə qanunda nəzərdə tutulmuş qaydada

əmək müqavilələrinin bağlanması üzərində xüsusi nəzarət təmin olunmalıdır. İşəgötürən tərəfindən birtərəfli qaydada əmək müqaviləsinə xitam verildikdə əməkçi miqranta müəyyən müddət ölkədə qalaraq öz hüquqlarının bərpası üçün ölkədaxili mexanizmlərdən (məhkəmə, İnsan hüquqları üzrə müvəkkilə şikayət və s.) istifadə imkanı verilməlidir. Əməkçi miqrant ölkədaxili hüquqi müdafiə mexanizmlərindən tam şəkildə istifadə edənə qədər ölkədə qalmaq hüququna malik olmalıdır. Eyni zamanda, ölkəni tərk etmək istəyən, lakin buna vəsaiti olmayan əməkçi miqrantlar üçün könüllü ayırmalar hesabına xüsusi fondların təşkili məqsədəuyğun olardı. Belə fondların mövcudluğu təminatsız əməkçi miqrantlar arasında cinayətkarlığın qarşısının alınmasında müsbət rol oynaya bilər. Fikrimizcə, Azərbaycan Respublikası miqrasiya ilə bağlı digər dövlətlərlə bağladığı ikitərəfli sazişlərdə belə bir normanın həmin dövlətin ərazisində Azərbaycan Republikasının vətəndaşları olan əməkçi miqrantlara da tətbiq edilməsinə dair müddəanın nəzərdə tutulması məqsədəmüvafiq olardı.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində işçi-miqrantların əməyinin tənzimlənməsinə həsr edilmiş fəsil nəzərdə tutulmamışdır. Əmək münasibətlərini tənzim edən əsas qanununa əcnəbi işçilərin əməyinin tənzimlənməsinə dair fəslin daxil edilməsi yalnız müsbət hal kimi xarakteriza oluna bilər. Belə ki, bu, bilavasitə əmək fəaliyyəti sahəsində əməkçi miqrantlarla bağlı hüquq normalarının tətbiqini asanlaşdırmaqla yanaşı, əcnəbilərin əməyinin tənzimlənməsi sferasında ayrı-ayrı normativ aktlar arasında ziddiyyətlərin aradan qaldırılmasına imkan verə bilər.

Fikrimizcə, fiziki şəxs tərəfindən əcnəbi işçilərin yalnız şəxsi təsərrüfat işlərinə cəlb edilməsi ilə bağlı müddəa qanunvericiliyə daxil edilməməlidir. Ona görə ki, bu əsassız olaraq işəgötürən kimi çıxış edən fiziki şəxslərin hüquqlarının pozulmasına gətirib çıxara bilər.

Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 70-ci maddəsinə görə hüquqi və fiziki şəxslər xüsusi razılıq əsasında işə cəlb etdikləri əcnəbiləri yalnız öz yanlarında işlə təmin etməli və bu barədə əcnəbilərlə əmək müqaviləsi bağlamalıdırlar (4, s. 29). Əcnəbilərin başqa hüquqi və ya fiziki şəxsin yanında işlə təmin etmək məqsədi ilə Azərbaycan Respublikasında işə cəlb olunmasına yol verilmir. Burada belə bir vəziyyət yaranır: müəssisənin yenidən təşkil edilməsi və ya mülkiyyətçinin dəyişməsi zamanı işəgötürən yenidən xarici işçi qüvvəsini cəlb etmək üçün icazə almaq və müvafiq rüsum ödəmək məcburiyyətində qalır. Buna görə də, əgər işəgötürən yeni icazə ala bilməzsə, əvvəlki icazə artıq öz qüvvəsini itirdiyindən işçini işdən azad etməlidir. Bu isə qanunvericiliyə, xüsusən də Azərbaycan Respublikası Əmək Məcəlləsinə ziddir. ƏM-nin 63-cü maddəsinin ikinci hissəsinə əsasən yeni mülkiyyətçi tərəfindən müəssisənin işəgötüreninin (rəhbərinin), onun müavinlərinin, baş mühasibin və bilavasitə idarəetmə funksiyasını yerinə yetirən digər struktur

bölmələri rəhbərlərinin əmək müqavilələrinə mülkiyyətçinin dəyişməsi ilə əlaqədar Məcəllənin 68-ci maddəsinin “ç” bəndi ilə xitam verilə və ya bu Məcəllənin 56-cı maddəsində nəzərdə tutulan qaydada onların əmək müqavilələrinin şərtləri dəyişdirilə bilər. Müəssisənin mülkiyyətçisinin dəyişməsi müəssisənin digər işçiləri ilə əmək müqaviləsinə xitam verilməsi üçün əsas ola bilməz. Müəssisənin mülkiyyətçisi dəyişdikdə qalan bütün işçilərlə əvvəlki mülkiyyətçi arasında bağlanmış əmək müqavilələri və onların şərtləri yeni mülkiyyətçi tərəfindən qüvvədə saxlanılır (ƏM-nin 63-cü maddəsi). Nəzərə almaq lazımdır ki, müəssisənin mülkiyyətçisinin dəyişdiyi halda, əgər əməkçi miqrant müəssisənin işəgötürəni (rəhbəri), onun müavini, baş mühasibi və bilavasitə idarəetmə funksiyasını yerinə yetirən digər struktur bölməsinin rəhbəri kimi çıxış edirsə yeni icazə almaq tələb olunmur. Hesab edirik ki, müəssisə yenidən təşkil edilərkən və ya onun tabeliyi sahəsində dəyişiklik baş verərkən razılıq əsasında əcnəbi işçi ilə əmək münasibətləri davam etdirilməlidir.

Əmək miqrasiyası barədə Azərbaycan Respublikasının və digər dövlətlərin milli qanunvericiliyinin, o cümlədən hüquq ədəbiyyatında mövcud olan müxtəlif fikirlərin ətraflı təhlili nəticəsində aşağıdakı nəticələrə gəlmək olar:

-İnkişaf etməkdə olan digər ölkələr kimi Azərbaycan Respublikasının da məhz mənfi miqrasiya saldosuna malik olması daha çox onun vətəndaşlarının xarici ölkələrə əmək fəaliyyəti ilə məşğul olmaq üçün getməsinə gətirib çıxarır ki, bu zaman da Azərbaycan Respublikası tərəfindən həyata keçirilən mühüm fəaliyyət istiqamətlərindən biri də Azərbaycan Respublikası vətəndaşlarının xaricdə əmək fəaliyyətinin tənzimlənməsinə yönəlməlidir;

-Əmək miqrasiyasının dövlət daxili tənzimlənməsi elmi cəhətdən əsaslandırılmış kompleks dövlət miqrasiya siyasəti əsasında həyata keçirilməlidir. Bu zaman həmçinin dövlətin iqtisadi vəziyyəti, əhalinin məşğulluq səviyyəsi nəzərə alınmalıdır. Nəzərə almaq lazımdır ki, immiqrasiya daha çox iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərə edilir və məhz inkişaf etmiş ölkələrdə əhali daha yüngül sahələrdə əmək fəaliyyəti ilə məşğul olur, əməkçi miqrantların böyük hissəsi isə ən ağır və həyat üçün zərərli olan işlərdə daha uzun müddətlt iş vaxtlarında və daha az əmək haqqı ilə çalışırlar;

-Əmək miqrasiyası haqqında dövlətdaxili qanunvericilik aktları əmək miqrasiyası sferasında dövlət siyasətinin əsas prinsipləri, müxtəlif kateqoriya əməkçi miqrantların statusu və s. məsələlərlə yanaşı əməkçi miqrantların hüquqlarının və qanuni maraqlarının müdafiəsi üzrə dövlət təminatlarının daha geniş dairəsini də təsbit etməlidir;

-Xaricdə yaşayan vətəndaşlarının hüquq və maraqlarının müdafiəsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi çıxış etməlidir.

Təəssüf hissi ilə qeyd etmək olar ki, Azərbaycan Respublikası “Əməkçi miqrantlar haqqında” 97 nömrəli (1949-cu ildə yenidən baxılmış) və “Miqrasiya sahəsində sui-istifadə və əməkçi miqrantlar üçün bərabər imkanların və

münasibətin təmin edilməsi haqqında" 4 iyun 1975-ci il tarixli 143 nömrəli BƏT konvensiyalarını hələ də ratifikasiya etməmişdir. Müəllif Azərbaycan Respublikası tərəfindən bu konvensiyaların ratifikasiya olunmasını məqsədəmüvafiq hesab edir. Belə ki, "Əməkçi miqrantlar haqqında" (1949-cu ildə yenidən baxılmış) BƏT Konvensiyasında göstərilir ki, onu ratifikasiya edən hər bir Təşkilat Üzvü qanuni əsaslarla onun ərazisində olan immiqrantlara öz vətəndaşlarının istifadə etdiyindən əlverişsiz olmayan şərait yaratmalıdır. "Miqrasiya sahəsində sui-istifadə və əməkçi miqrantlar üçün bərabər imkanların və münasibətin təmin edilməsi haqqında" 4 iyun 1975-ci il tarixli Konvensiyada isə nəzərdə tutulur ki, bu Konvensiyanın qüvvədə olduğu hər bir təşkilat üzvü bütün işçi miqrantların əsas insan hüquqlarına əməl etməyi öz öhdəsinə götürür. Yuxarıda göstərilən konvensiyalar ratifikasiya olunduqdan sonra Azərbaycan Respublikası vətəndaşı olan əməkçi miqrantlar üçün bu konvensiyaları imzalayan ölkələrdə əlverişli şərait və əsas hüquqlarının mühafizəsi təmin olunacaqdır.

Beynəlxalq sənədlərdə "qeyri-leqal miqrasiya" və "qeyri-leqal əmək miqrantı" məfhumları mövcud olsa da, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində "qeyri-leqal miqrasiya" və "qeyri-leqal əmək miqrantı" anlayışları öz əksini tapmamışdır. Fikrimizcə, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 3-cü maddəsində qeyri-leqal miqrasiyana və qeyri-leqal əmək miqrantına aşağıdakı kimi anlayışların verilməsi məqsədəmüvafiq olardı: "Qeyri-leqal miqrasiya" –ölkə qanunvericiliyini pozan miqrasiyadır; "Qeyri-leqal əmək miqrantı" –ödənişli əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslar olmadan bir ölkədən digərinə miqrasiya edən fiziki şəxsdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. B.: Qanun. 2016.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin Kommentariyası. (Red. A.M.Qasımov). B.: Qanun. 2009, 844 səh.
3. Azərbaycan Respublikasının Konstitusiyası. B.: Qanun, 2016, 100 səh.
4. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. B.: Qanun. 2016.
5. Beynəlxalq Əmək Təşkilatı. Konvensiyalar və tövsiyələr. B.: Şərq-Qərb. 1996. 642 səh.
6. Beynəlxalq xüsusi hüquq. (Dərs vəsaiti). B.: Bakı Universiteti Nəşriyyatı. 2007. 952 səh.
7. "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının Qanunu. B.: Hüquq ədəbiyyatı. 2016.

***Əfsanə Məzahir qızı HÜSEYNOVA,***
*Dövlət Miqrasiya Xidməti*

## Avropada miqrasiya böhranı: mövcud reallıqlar və problemlər

Bu gün kütləvi miqrant axını qarşısında aciz qalan Avropaya II Dünya müharibəsindən sonra rekord sayda miqrant axını baş vermişdir. Bu baxımdan, 2015-ci il Avropanın cənub və cənub-şərq sərhədlərində misilsiz miqrasiya böhranı dövrü kimi tarixdə yadda qalacaq. 2014-cü illə müqayisədə 2015-ci ildə 60% daha çox miqrant həyatlarını risk altına alaraq, Afrika və Yaxın Şərqdən Aralıq dənizi vasitəsilə Avropaya daxil olmuşdur. Onlar qeyri-stabil hərbi siyasi vəziyyətin hökm sürdüyü regionlardan –Əfqanıstan, İraq və Suriyadan münaqişə, müharibə və aclıq üzündən qaçaraq məcburi köç etmiş miqrantlardır. Son dövrlərdə 660 mindən çox sığınacaq üçün vəsatətlə müraciət edən qaçqın qeydiyyata alınmışdır. Axırıncı dəfə Avropa bu qədər kütləvi məcburi miqrant axını ilə 1990-cı illərin ortalarında Yuqaslaviyada müharibə zamanı üzləşmişdir. Kütləvi miqrant axını səbəbindən bir çox Avropa ölkələri sərhədlərinin mühafizəsi məqsədilə hasarlar çəkməyə və Şengen ərazisində sərhəd yoxlamalarının tətbiqinə məcbur olmuşdur. Bu gün çox ciddi problem olan kütləvi miqrasiya axını bütün Avropa ölkələrini ciddi düşündürür. Artıq milyonlarla qaçqını qəbul etmək iqtidarında olmayan Avropa İttifaqı öz təməl prinsiplərinə, hər zaman yüksək tribunalardan səsləndirdiyi insan hüquq və azadlıqları dəyərlərinə qarşı çıxmaq məcburiyyətində qalmışdır.

Həqiqətən bu gün Avropa bir dilemma qarşısındadır. Avropa Komissiyasının sədri Jan Klod Yunker bəyanatlarının birində Avropa İttifaqında yaranmış vəziyyəti haqlı olaraq "çox tərəfli böhran" (*polycrisis*) adlandırmışdı.

Hazırda Avropada maraqların toqquşması səbəbindən miqrasiya fenomeninin həll olunması çətin bir məsələyə çevrilmişdir. Bir yandan yaşlı əhalinin üstünlük təşkil etdiyi Avropa ölkələri immiqrasiyaya tələb yaradır və bu səbəbdən də Avropa miqrasiyaya pozitiv fenomen kimi yanaşaraq açıq miqrasiya siyasəti yürütmək, miqrantlara yaşıl işıq yandırmaq məcburiyyətində qalır. Digər bir tərəfdən isə qlobal iqtisadi böhranın təsiri ilə iş tapmaqda çətinlik çəkən avropalıların miqrantları problemin əsas səbəbkarı kimi görmələri, daxillərində miqrantların onlara məxsus iş yerlərini əllərindən almaq qorxusu olması, ölkədə irqçilik, ksenofobiya meyllərinin güclənməsi Avropanı daha məhdudlaşdırıcı, seçici miqrasiya siyasəti yürütməyə vadar edir.

Bu gün Avropa ölkələri əhalinin və iqtisadiyyatın təkrar istehsalını miqrasiya olmadan təmin etmək iqtidarında deyil. Çünki bu ölkələrdə sosial-təminat sistemini təşkil etmək, yaşlı əhalinin tələbatlarını ödəmək üçün mütləq miqrant əməyinə ehtiyac vardır.

Bununla yanaşı, miqrantlara qarşı "açıq qapı" siyasətinin yürüdülməsi nəticəsində bu məsələ ilə bağlı Avropada mərkəzdənqaçma tendensiyaları, siyasi fikir ayrılıqları, Brexitə səbəb olan proseslər müşahidə edilir.

Tarixçi Devid Engels Avropada mövcud real vəziyyəti bu cür izah edir: "Avropada mövcud sistem hazırda sabitliyi pozacaq iki seçim qarşısındadır. Ya universallıqla sonadək gedərək Avropanı nəhəng qaçqın düşərgəsinə çevirməli və nəticədə yalnız miqrantların deyil, yerli avropalıların da dəhşətli şəraitdə yaşamasına yol açmalı, ya da əsas prinsip və dəyərlərindən imtina etməli, Berlin divarlarının dağıdılmasından sonra meydana çıxmış ultraliberal və multikulturalizm sistemini məhv etməlidir."

Bu gün Avropada tolerantlıq və dözümlülük ənənəsi ciddi böhran keçirir. İnsanlar daim qorxu içində yaşayır. 2015-ci ildə Parisdə törədilmiş terror aktlarından sonra heç bir günahı olmayan çoxsaylı müsəlmanlara qarşı təqiblər və hədələr Avropa cəmiyyətində dözümsüzlüyün artmasına dəlalət edir.

2015-ci il mayın 27-də 34 ölkə ərazisində keçirilmiş Avrobarometr araşdırmasının nəticələrinə əsasən sorğu edilən vətəndaşların 27%-i iqtisadi problemi, 24%-i işsizliyi və 17%-i terrorizmi Avropa ölkələrinin üzləşdiyi başlıca problem hesab etdiyi halda, onların 38%-i miqrasiya problemini ən ümdə problem –həll edilməsi vacib olan bir məsələ hesab etmişdir. (1)

Avrobarometr araşdırmasının digər bir nəticəsinə əsasən isə üçüncü ölkələrdən olan miqrasiyaya qarşı mənfi münasibətin yaşla paralel olaraq artması müşahidə edilmişdir. Belə ki, sorğu edilən 15-24 yaş arası şəxslərin 52%-i, 25-39 yaş arası şəxslərin 58%-i, 40-54 yaş arası şəxslərin 63%-i, 55 yaş və ondan yuxarı olan şəxslərin isə 68%-i miqrasiyaya mənfi münasibət göstərmiş, onu Avropa üçün əsas problem hesab etmişdir.

Əvvəlcə, Avropaya kütləvi qaçqın axınına yol açan qanunsuz miqrasiya marşrutlarına nəzər salaq.

Avropa İttifaqının xarici sərhədlərin təhlükəsizliyi üzrə agentliyi (FRONTEX) Avropa İtifaqına qanunsuz miqrasiyanın aşağıdakı əsas marşrutlarının mövcud olduğunu qeyd edirlər: (2)

**Qərbi Afrika marşrutu** –Qərbi Afrikadan (Seneqal, Mavritaniya) Kanar adalarına olan yol. Daha çox Mərakeş, Seneqal, Niger və Nigeriya vətəndaşları bu marşrutdan istifadə edirlər. 2015-ci ildə bu marşrutdan istifadə etməklə, 874 nəfər Avropaya keçmişdir.

**Qərbi Aralıq dənizi marşrutu** –İspaniya anklavları olan Seuta və Melilya vasitəsilə Şimali Afrikadan Periney yarımadalarına olan marşrut. Bu marş-

rutdan daha çox Əlcəzair və Mərakeş vətəndaşları İspaniya, Fransa və İtaliyaya keçmək üçün istifadə edirlər. 2015-ci ildə bu marşrutdan 7.164 nəfər istifadə etmişdir.




| | |
|---|---|
| Qərbi Balkan | Qərbi Aralıq dənizi |
| Aİ-nin Şərq sərhədlər | Qərbi Afrika |
| Mərkəzi Aralıq dənizi | Şərqi Aralıq dənizi |

***Mənbə**: FRONTEX, 4 yanvar 2017.*

**Mərkəzi Aralıq dənizi marşrutu** –Liviyadan İtaliya və Maltaya olan marşrut. Bu marşrutdan 2015-ci ildə Afrika burnu və Qərbi Afrika ölkələrinin 153.946 sakini, 2016-cı ildə isə 181.126 sakini istifadə edərək, Avropaya daxil olmuşdur.

**Albaniyadan Yunansıtana dairəvi marşrut** –Yunanıstan və Albaniya arasında quru sərhədlər boyu marşrut uzun müddət qanunsuz miqrantların istifadə etdikləri yol olmuşdur. 2015-ci ildə bu yoldan istifadə etməklə, 8.932 nəfər qanunsuz olaraq Avropaya daxil olmuşdur.

**Qərbi Balkan marşrutu** özündə iki əsas miqrasiya axınını ehtiva edir: 1) Qərbi Balkan ölkələrindən istifadə etməklə keçən miqrantlar (Albaniya, Bosniya və Hersoqovina, Serbiya, Monteneqro); 2) Bolqarıstan-Türkiyə və ya Yunanıstan-Türkiyə quru və su sərhədlərini keçməklə, Qərbi Balkan dövlətləri vasitəsilə Macarıstana keçirlər. 2015-ci ildə bu marşrutdan 764.038 nəfər, 2016-cı ildə isə 122.779 nəfər qanunsuz miqrant istifadə etmişdir.

**Şərqi Aralıq dənizi marşrutu** –Miqrantlar bu marşrutdan istifadə etməklə, Türkiyə vasitəsilə Yunanıstan, Bolqarıstan, Kiprə daxil olurlar. Bu marşrutdan daha çox Suriya, Əfqanıstan və Somalidən olan qaçqınlar istifadə edirlər. 2015-ci ildə bu marşrutdan 885.386 nəfər, 2016-cı ildə isə 182.534 nəfər qanunsuz miqrant istifadə etmişdir.

**Aİ-nin şərq sərhədləri** –Belarus, Moldova, Ukrayna və Rusiya Federasiyası ilə Aİ-nin şərq quru sərhədləri (Estoniya, Finlandiya, Macarıstan, Latviya, Litva, Norveç, Polşa, Ruminiya və Slovakiya) arasındakı marşrut nəzərdə tutulur. Bu marşrutdan istifadə edən miqrantlar digər marşrutlarla daxil olan qanunsuz miqrantların cəmi 0,1%-ni təşkil edir. Belə ki, 2015-ci ildə bu yoldan cəmi 1.920 nəfər istifadə etmişdir.

Artıq 2015-ci ildən Rusiya ərazisindən Norveç və Finlandiyanın quru sərhədləri arasında **Arktik marşrut** adlanan yeni bir yol meydana gəlmişdir. Təkcə 2015-ci ilin sonuncu rübündə bu marşrutdan 6.000-ə yaxın miqrant istifadə etmişdir. Onlar daha çox Əfqanıstan və Suriyadan olan qaçqınlar olmuşlar.

Göründüyü kimi, bu marşrutların əksəriyyəti heç də təhlükəsiz marşrutlar deyil. Bu yollarla qanunsuz olaraq həyatları bahasına Avropaya üz tutan miqrantların taleləri çox acınacaqlıdır. Belə ki, vaxtaşırı olaraq Avropaya istiqamətlənən həddindən artıq yüklənmiş gəmilər yarıyolda qəzaya uğrayır. Araşdırmalar nəticəsində əldə edilən statistik rəqəmlər bunu açıq-aydın əks etdirir.

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) miqrant ölümlərinə dair "Faciəli səyahətlər" adlı hesabatında qeyd edildiyi kimi, bu gün dünyanın bəzi yerlərində miqrasiya heç də təhlükəsiz deyil. Son üç il ərzində təxminən 12 min miqrant miqrasiya edərkən Aralıq dənizində həyatını itirmişdir. Son 20 il ərzində dünyada 60 mindən çox miqrant ölümü qeydə alınmışdır. (3)

Qeyd olunan marşrutlar vasitəsilə Avropaya gələn qaçqınlar arasında Suriyadan olan qaçqınlar (29%) üsünlük təşkil etmişdir ki, onların yarısı Almaniyada sığınacaq üçün müraciət etmişlər. Avropaya gələn qaçqınlar 14%-ni isə Əfqanıstandan, 10%-ni İraqdan olan qaçqınlar təşkil etmişlər. (*Şəkil 1*)

Bugünkü reallıqlar göstərir ki, Avropa İttifaqı bu qurumun təməlini qoyanların ilkin ideya, prinsip və hədəflərindən çox uzaqlaşıb. Bu gün Avropa İttifaqında mənəviyyatın, ümumbəşəri dəyərlərin və sağlam ideyaların deqradasiyası göz önündədir. Vaxtilə başqalarına tolerantlıq dərsi verməyə cəhd edən Avropa öz daxilində müsəlmanlara qarşı dözümsüz münasibət haqda susur.

Yaxın Şərqdən və Şimali Afrikadan olan miqrantların sıxışdırılması, sərhədlərin onların üzünə bağlanması, onlara qarşı qeyri-insani münasibət göstərilməsi bir çox məqamlardan xəbər verir. Maraqlıdır ki, Avropa ölkələri öz sərhədlərini qaçqınların üzünə bağlamaqla yanaşı, digər dövlətlərdən onları öz ərazilərində yerləşdirməyi tələb edirlər. "Söz azadlığı"nın rəmzi olan, Mə-

həmməd Peyğəmbərin karikaturaları ilə bağlı qalmaqal sayəsində məşhurlaşmış "Charlie Hebdo" jurnalı həlak olmuş miqrant uşağın təhqiramiz karikaturası ilə nömrə buraxır.




***Şəkil 1****. Vətəndaşı olduqları ölkələr üzrə qaçqınların sayı (Avrostatın məlumatı)*

Akademik Ramiz Mehdiyev 2015-ci ildə işıq üzü görmüş "Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikilistandartlar siyasəti. Dünya nizamından nizamsızlığa doğru" adlı kitabında Avropa məkanında baş verən böhranın doğurduğu acı nəticələrə kəskin etirazını bu cür ifadə edir: "Avropa İtttifaqının bəzi üzv ölkələrinin rəsmiləri bəyan edirlər ki, onlar yalnız xristian qaçqınları qəbul edəcəklər. İş o yerə çatıb ki, bəzi qaçqınlar bu ölkələrdə sığınacaq tapmaq xatirinə öz dini etiqadını dəyişməyə məcburdurlar. Bəs Avropa "demokratiyaları"nın əvvəlki tolerantlığı və dini dözümlülüyü harada qaldı? Nə üçün avropalı "QHT-çilər" və "hüquq müdafiəçiləri" dağılmaqda olan dövlətlərdə vəziyyət barədə məruzələr tərtib etmirlər. Aralıq dənizindən üzüb keçməyə çalışarkən boğulan və ya "cəza düşərgələrində" əzab-əziyyət çəkən qaçqınların hüquqları necə olsun? Başqa ölkələrdə insan hüquqları barədə hər ay çoxsəhifəli məruzələr yazmağa hazır olan Aİ-nin rəsmi şəxsləri nə üçün bu qaçqınların hüquqları ilə az maraqlanırlar? Bəlkə elə onların özlərinin təhrik etdiyi problemlərin həllindən başlamaq daha məntiqli olar?" (4, s.26)

Avropa İttifaqı üzv dövlətləri və onların rəsmiləri böhranla mübarizə istiqamətində bir sıra addımlar atmağa çalışmış və bir sıra bəyanatlar vermişlər.

2015-ci il iyunun 25-də Aİ-nin dövlət və hökumət başçıları Yunanıstan və İtaliyaya daxil olmuş 40 min qaçqının qəbul edilməsi ilə bağlı razılığa gəldilər. Bu razılaşmanın dövlətlər tərəfindən məcburi deyil, könüllü şəkildə icra edilməsi ilə bağlı qərar qəbul edildi.

2015-ci ilin sentyabrında Aİ Şurası İtaliya və Yunanıstanda olan qaçqınların digər Aİ ölkələri arasında bölüşdürülərək yerləşdirilməsi ilə bağlı mexanizm işləyib hazırladı. Bu mexanizmə müvafiq olaraq qaçqınları yerləşdirən hər bir ölkə hər yerləşdirilən şəxsə görə 6 min avro məbləğində pul vəsaiti almalı idi.

Bəzi ölkələrdə miqrasiya böhranı daha kəskin özünü göstərdi. Belə ki, Dublin razılaşmasına əsasən qaçqınlara görə daha çox məsuliyyəti miqrantın ilk daxil olduğu ölkə daşıyırdı. Nəticədə, miqrantları ilkin olaraq qəbul edən ölkə kimi İtaliya, Yunanıstan, Fransa və Macarıstanda miqrasiya böhranı kəskin şəkildə özünü biruzə verdi. Miqrantlar Makedoniya, Serbiya və Macarıstan vasitəsilə sosial hüquqların yüksək səviyyədə təmin olunduğu və müsəlman cəmiyyətlərinin çoxluq təşkil etdiyi ölkələrə –Avstriya, Almaniya və ya İsveçə keçməyə cəhd etdilər. Almaniya Daxili İşlər Nazirliyinin rəsmi məlumatına əsasən 2015-ci ildə 1,1 milyona yaxın qaçqın statusuna müraciət etmiş şəxs qeydə alınmışdır.

Miqrasiya böhranı ilə üzləşən Belçika, Danimarka, Almaniya, Macarıstan, Avstriya, Sloveniya, İsveç və Norveç sərhəd zonalarında müvəqqəti yoxlanışlar həyata keçirdi. Makedoniya və Sloveniya öz qapılarını qaçqınların üzünə bağladı. Xorvatiya qaçqınların onun ərazisindən tranzit olaraq istifadə etməsini qadağan etdi. Bolqarıstan qaçqın axınının daha da genişləndiyi halda isə Türkiyə ilə sərhədlərə ordu cəlb edəcəyi barədə qərar qəbul etdi.

Miqrantların kütləvi axını probleminin həlli yollarından biri kimi Avropa İttifaqı Misirdə və Tunisdə xüsusi mərkəzlərin fəaliyyətini təşkil etdi ki, bu mərkəzlərdə qaçqın statusu almaq arzusunda olan şəxslər vəsatətlərini təqdim edə bilərdilər. Bu mərkəzlərin fəaliyyəti qismən də olsa axının qarşısını almış oldu və beləliklə də miqrantların dənizi üzüb keçməsinə ehtiyac qalmadı.

Hələlik böhranın aradan qaldırılması istiqamətində atılan ciddi addımlardan biri Türkiyə ilə imzalanan razılaşma olmuşdur. Türkiyə və Avropa İttifaqı arasında 2016-cı il martın 18-də əldə edilmiş “miqrasiya sövdələşməsi”nə əsasən Türkiyə 2016-cı il martın 20-dən onun ərazisindən Yunanıstana gedən miqrantları qəbul etmək, müəyyən mənada, bufer rolunu yerinə yetirmək kimi öhdəliklər götürmüşdür. Sazişə görə artıq bu tarixə qədər Avropaya keçən hər qaçqın qarşılığında isə Aİ Türkiyədə miqrasiya düşərgələrindən bir nəfər Suriya vətəndaşını mübadilə etməli idi. Bu miqrantlar isə Avropa İttifaqında qəbul edilmiş kvotalar üzrə paylaşdırılmalı idi ki, Şərqi və Mərkəzi Avropa ölkələri (Macarıstan, Çexiya və ya Polşa) bunun yekdilliklə əleyhinə çıxırlar.

Sazişin şərtlərindən digəri isə Türkiyə ərazisində yerləşdirilən miqrantların yaşama şəraitinin yaxşılaşdırılması və eyni zamanda, kütləvi miqrant axınına nəzarətin təşkil edilməsi məqsədilə Aİ-nın Türkiyə tərəfinə 2017-2018-ci il ərzində 6 mlrd avro maliyyə ayırması idi.

Aİ və Türkiyə arasında “miqrasiya razılaşması”nın arxasında daha praqmatik və bugünkü reallıqlarla bağlı maraqlar dayanır. Belə ki, Avropa İttifaqı bu sazişlə fasiləsiz qaçqın axını ilə bağlı vətəndaşlar arasında narazılıq meyllərini azaltmağa çalışır. Türkiyə isə Aİ-yə üzv olmaqla bağlı danışıqlara yenidən başlanılmasına, Türkiyə ilə Aİ arasında viza rejiminin liberallaşdırılmasına can atır.

Qeyd edək ki, Türkiyənin Avropa İttifaqına üzvlüyü ilə bağlı danışıqlar hələ 1960-cı ildən başlamışdır. Bu günə qədər bu danışıqların heç bir nəticəsi olmamışdır. Bu prosesin gecikməsinin iqtisadi aspektdən tutmuş sosial-mədəni aspektlərə qədər bir sıra səbəbləri vardır.

Heç şübhə yoxdur ki, Avropa İttifaqının genişlənməsinin gündəliyində “Türkiyə ilə nə etməli” sualı öz aktuallığını saxlamaqdadır. Avropa İttifaqı etiraf etməsə də onu həmişə qapalı “Xristian klubu” adlandırıblar. Ənənəvi “biz” və “onlar” prizmasından yanaşanda avropalıların çoxu getdikcə güclənməkdə olan Türkiyəni “onlar” kateqoriyasında görürlər. Bu səbəbdəndir ki, Türkiyənin Aİ-yə daxil olması arzuedilməzdir.

Almaniyanın keçmiş kansleri Helmut Kolun “xristian klubu” haqqında ideyası hələ də Aİ siyasətində öz sözünü deyir. Türkiyənin Strateji Baxış İnstitutunun rəhbəri Yusuf Çınar bu barədə qeyd etmişdir ki, Türkiyənin Aİ-yə üzv qəbul edilməməsinin səbəbi 76 milyonluq müsəlman əhaliyə sahib olmasıdır: “Avropa İttifaqı müsəlman çoxluğa sahib bir ölkənin qərarverici olmasını istəmir və Türkiyəyə hər istədiklərini qəbul etdirə bilməyəcəklərini özləri də yaxşı bilirlər. Çünki Türkiyə Avropa nəzdində həzm edilib, udulacaq tikə deyil. Avropa Birliyi Türkiyəni içəri alıb Yaxın Şərqlə qonşu olmaq istəmir. Təkcə iqtisadi vəziyyətinə baxsaq, Türkiyə Polşa, Bolqarıstan və Yunanıstan kimi ölkələrdən daha güclü iqtisadiyyata malikdir.” (5)

Bundan əlavə bu danışıqların bərpası üçün Aİ ölkələrinin bütün üzvlərinin konsensusunun olması vacibdir. 1974-cü ildə iki hissəyə parçalanmış Kiprin yunan tərəfi isə hər zaman bu məsələnin əleyhinə çıxış edir.

Rəcəb Tayyip Ərdoğan bəyanatlarında vurğulayır ki, əgər Avropa İttifaqı razılaşmanın şərtlərinə sadiq qalmasa, Türkiyə 2017-ci ilin martında Aİ sammitindən sonra sazişin icrasını dayandıra bilər ki, bu da Türkiyə ilə sərhədlərin avtomatik olaraq açılması və Yaxın Şərqdən Avropa istiqamətinə minlərlə qaçqının axın etməsi ilə nəticələnəcək.

Göründüyü kimi, Avropa İttifaqı daxilində qəbul edilmiş istənilən qərar və eyni zamanda, rəsmi Ankara ilə danışıqlar xəstəliyin səbəblərini deyil, ancaq onun simptomlarını sağaltmaq üçün atılan bir addımdır.

Bu gün rəsmi Brüssel qaçqın böhranının həlli modeli kimi daha çox iki variant üzərində dayanır: 1) Ölkələr arasında qaçqınların kvotalar üzrə paylanması; 2) Qaçqınların axının qarşısının alınması üçün sədlərin möhkəmləndirilməsi, tranzit kimi istifadə olunan ölkələrdə, habelə Türkiyə, İordaniya və Livanda mövcud qaçqın düşərgələrinin dəstəklənməsi və yenilərinin yaradılması.

Avropa Komissiyasının sədri Jan Klod Yunker Avropa İttifaqı ərazisində miqrantların kvotalar üzrə bölüşdürülməsini, kvotaların isə əhalinin sayını, işsizlik səviyyəsini və başqa faktorları nəzərə almaqla qəbul olunmasını təklif etmişdi.

Kvota planı çərçivəsində iki il ərzində 20 min qaçqının qəbul edilməsi nəzərdə tutulur. Qaçqınların qəbul edilməsi üzrə kvotalar Ümumi Daxili Məhsulun həcmi, əhalinin sayı, işsizlik səviyyəsi və artıq qəbul edilmiş qaçqınların sayı kimi meyarlara əsasən müəyyən edilir. Hesablamalara əsasən qaçqınların 18,4%-ni Almaniyanın, 14%-ni Fransanın və 11,8%-ni İtaliyanın qəbul etməsi nəzərdə tutulur. Sözügedən kvotalar Böyük Britaniya, İrlandiya və Danimarkaya şamil olunmur. Avropa İttifaqı üzv ölkələrinin bir çoxu, o cümlədən Böyük Britaniya, Macarıstan, Çexiya, Slovakiya və Baltikyanı ölkələr bu planı dəstəkləmir.

2016-cı ilin sentyabrında Nyu Yorkda miqrasiya ilə bağlı məsələlərin həllinə daha humanist və razılaşdırılmış yanaşmaya nail olmaq məqsədilə BMT-nin qaçqınlar və miqrantlarla bağlı sammiti keçirilmişdir. Sammitdə quruma üzv 193 ölkənin təmsilçiləri tərəfindən "Qaçqın və miqrantlarla bağlı Nyu York Bəyannaməsi" qəbul edilmişdir. Bəyannaməni imzalayan ölkələr 2018-ci ilədək miqrasiya probleminin həllinə yönəlmiş qlobal razılaşma işləyib hazırlamaq öhdəliyi götürmüşlər. Tövsiyə xarakteri daşıyan sənəddə konkret tələblər irəli sürülməsə də, ölkələr qaçqınların hüquqlarını müdafiə etməyə, humanitar yardımın həcmini artırmağa və miqrantların yerləşdirilməsini təmin etməyə çağırılmışdılar. Dünya liderləri bu məqsədlə ayrılan maliyyə vəsaitinin həcmini artırmağa və bu cür böhranların səbəblərini aradan qaldırmaq üçün səyləri gücləndirməyə, miqrantların üz tutduqları təyinat ölkələri ilə yanaşı, onların mənşə ölkələrində də vəziyyəti yaxşılaşdırmağa hazır olduqlarını bəyan etmişdilər. (6) Sammitdə çıxışı zamanı BMT-nin Baş katibi Pan Ki Mun miqrantların böyük potensiala malik olduqlarını və onları ağır yük kimi qəbul etməyin doğru olmadığını bildirmişdir.

Daha sonra BMT-nin Nyu Yorkda keçirilən Dayanıqlı İnkişaf Sammitində üzv ölkələr 2030-cu ilədək yoxsulluğa son qoyaraq, qlobal iqtisadi rifahı, sosial inkişafı və ətraf mühitin qorunmasını təşfiq edəcək yeni 17 məqsədin müəyyən edildiyi "Davamlı inkişaf üçün 2030 Gündəliyi"adlı saziş imzalamışlar.

BMT-nin Baş katibi Pan Ki Mun bu sənədi bu cür xarakterizə etmişdir: "Bu, İnsanların Gündəliyidir, bütün aspektlərdə yoxsulluğa bir dəfəlik son qoymaq və heç kəsi unutmamaq üçün fəaliyyət planıdır. Sənəd sülh və əmin-amanlığı təmin edir, insanlarla və mahiyyətcə planetlə tərəfdaşlığı formalaşdırır. İnteqrə edilmiş, bir-biri ilə əlaqəli və ayrılmaz olan 17 Dayanıqlı İnkişaf Məqsədi (DİM) insanların məqsədlərini və bu yeni Gündəliyin miqyasını, universallığını və iddiasını nümayiş etdirir" (7).

Baş Assambleyanın həmin Qətnaməsində dövlətlər təhlükəsiz, nizamlı və qanuni miqrasiyasının, insanların təhlükəsiz mobilliyinin təmin edilməsində beynəlxalq səviyyədə əməkdaşlıq edəcəklərinə, statuslarından asılı olmayaraq, miqrantlarla humanist davranacaqlarına, onların hüquq və azadlıqlarını təmin edəcəklərinə dair razılığa gəlmişlər. Bunun üçün dövlətlər bu sahədə balanslaşdırılmış və yaxşı düşünülmüş miqrasiya siyasətini işləyib hazırlayacaqlarını da bəyan etmişlər.

Ötən dövr ərzində Avropaya üzv dövlətlərin rəsmiləri bəyanatlarında miqrasiya böhranından çıxmaq üçün bir sıra təklif və ideyalarla çıxış etmişlər.

BMT-nin Qaçqınlar üzrə Ali komissarı Antonio Quterreş Ali Komissarların yüksək səviyyəli dialoqunda çıxışında hökm sürən mövcud vəziyyəti bu cür şərh etmiş və bu problemdən çıxış yollarını irəli sürmüşdür: "Doğurdan da bu gün mövcud olan vəziyyətdən çıxış yolu elə də asan deyil. Kim miqrantlara qapılarını bağlamağı bu problemdən çıxış yolu hesab edirsə, bu düzgün çıxış yolu deyil. Bunu unutmaq lazımdır. Əgər qapılar bağlanacaqsa, insanlar pəncərədən daxil olacaqlar. Pəncərəni bağlayacaqsınızsa, bu zaman insanlar başqa çıxış yolu tapıb tunel qazacaqlar. Yunanıstan Türkiyə ilə sərhədə 10 kilometrlik istinad divarı tikdi. Buna cavab olaraq miqrantlar Bolqarıstandan keçən yeni marşrut açdılar. Daha sonra Bolqarıstan da hasarlar tikməyə başladı. Təcrübə göstərir ki, istinad divarlarının tikilməsi problemi həll etmir. Sonu görünməyən miqrasiya fəlakətindən qloballaşan dünyada heç bir süni yaradılmış "dəmir-beton" divarlarla" qorunmaq mümkün deyil. Əgər insanların yaşam savaşı verməsinə, müdafiə olunmasına ehtiyac varsa, onların qarşısında hansı maneə yaradılmasından asılı olmayaraq, onlar miqrasiya edəcəklər. Onların yolunda yaradılan istənilən maneə yalnız onların səyahətini daha dramatik edəcək, onlar daha təhlükəli marşrutlar seçmək məcburiyyətində qalacaqlar. Təcrübəmə əsaslanaraq qeyd etmək istəyirəm ki, əgər yaranan problem mürəkkəb xarakter daşıyırsa, bu zaman ən yaxşı çıxış yolu prinsiplərə sadiq qalmaqdır". (8)

Avropa İttifaqının Miqrasiya, daxili məsələlər və vətəndaşlıq üzrə komissarı Dimitris Avramopulos bəyanatında Avropa İttifaqının bu problemi çözməsi üçün bir sıra çıxış yollarını göstərmişdir: "Bu gün Avropa yoxsulluq səbəbindən və iş axtarışı niyyəti ilə köç edən böyük sayda qaçqın və qanunsuz miqrant axını ilə üz-üzədir. Biz ilk növbədə bu iki kateqoriyaya daxil olan

insanları –ölkəyə qanunsuz daxil olanları və həqiqətən də müdafiəyə ehtiyacı olan qaçqınları ayıra bilməliyik. Bunun üçün biz Avropada qalmaq icazəsi olmayan şəxslərin vətəndaşları olduqları ölkələrlə sazişlər imzalamalıyıq ki, şəxsləri operativ şəkildə öz ölkələrinə geri qaytara bilək. Ərəb ölkələri həmrəyliyin nişanəsi olaraq öz qapılarını münaqişə, müharibə və aclıqdan qaçaraq məcburi köç etmiş miqrantların üzünə açmalıdır. Qaynar nöqtələrdə xüsusi mərkəzlərin yaradılmasına davam etmək lazımdır. Avropa sərhədlərinə yaxınlaşan hər kəs dərhal qeydiyyatdan keçməli və onların barmaq izləri götürülməlidir".

Avropa İttifaqının qəbul etdiyi əksər qərarlar onu göstərir ki, Avropa ölkələri bu günün reallığında vahid cəbhədən çıxış edə bilmir. Rəsmi Brüssel miqrant probleminin həllində həmrəyliyin olacağına ümid etsə də, hələlik böhrandan çıxmaq üçün heç bir plana mailk deyil. Problemlərdən çıxış yolunu tapmaq Aİ-də həmrəylik əvəzinə, parçalanmaya səbəb olur. Bu da Avropa İttifaqında böhranın daha da kəskinləşməsinə təkan verir.

Bu gün Şərqi Avropa ölkələri baş verən miqrasiya böhranında qərbi günahlandırır. Tarixən müstəmləkəçilik siyasəti yürüdən qərbi Avropa ölkələrindən fərqli olaraq, "gənc" Avropa ölkələri hesab edirlər ki, onlar bu məsələdə heç bir məsuliyyət daşımırlar. Bu baxımdan, Slovakiyanın Baş naziri Robert Fitsonun müsahibələrinin birində verdiyi sual çox səciyyəvidir: "Mənim bir sualım var: Liviyanı kim bombalayıb? Şimali Afrikada problemləri kim yaradıb? Slovakiyamı? –Xeyr!" (9)

Macarıstanın Baş nazirin çıxışlarının birində səsləndirdiyi ifadə –"Bu, Avropanın problemi deyil, Almaniyanın problemidir". –Avropa ölkələri arasında fikir ayrılıqlarının bariz nümunəsidir.

Çexiyanın baş nazirinin müavini Andrey Babiş də öz çıxışlarının birində belə demişdir: "Qoy bu problemlə (alman siyasətçilər) özləri məşğul olsunlar, kimlərisə qəbul etməklə bağlı qərarlarını bizə aid etməsinlər. Qaçqınlar bizim üçün təhlükə təşkil edirlər. Onlar assimilyasiya etməyə deyil, avropa mədəniyyətini məhv etməyə cəhd edirlər".

Bu gün Avropa ölkələri açıq-aydın öz aralarında qaçqınlara münasibətdə qanunvericiliyin tələblərini sərtləşdirmək uğrunda mübarizə aparırlar. Avstriya Aİ qanunlarına zidd gedərək gün ərzində sığınacaq verilməsi ilə bağlı ən çox 80 ərizə qəbul edəcəyini elan edib. Danimarkada polislər tərəfindən miqrantların 10 min danimarka kronu (təxminən 1,5 min dollar) məbləğində pul və dəyərli əşyalarının alınaraq qaçqınların yaşamalarının təmin edilməsi üçün xərclənəcəyi ilə bağlı qanun qüvvəyə minmişdir. Bu praktika artıq İsveçrə və Almaniyanın bəzi ərazilərində tətbiq olunmuşdur. Daha sonra Danimarkada qaçqın statusu əldə etmiş şəsxlərə bu statusu əldə etdikləri vaxtdan 3 il ərzində ailələrini bu ölkəyə gətirə bilməmələri barədə qanun da qəbul edilmişdir.

Bütün bunlar onu sübut edir ki, avropa ölkələri Avropanın ümumi dəyərlərini, inteqrasiya prinsiplərini nəzərə almadan yalnız milli maraqlarından çıxış edərək siyasət yürüdürlər. Avropa ölkələri bu gün problemlərini kollektiv şəkildə həll edə bilmirlər, çünki onlar bu gün buna hazır deyillər. Dəhşətlisi də odur ki, bu ölkələr miqrantlardan, baş verən problemlərdən qaçmaq məqsədilə öz ətraflarında hündür sədd çəkməklə böhranın aradan qaldırılması istiqamətində dövlət olaraq, özlərinin ayrıca layihələrini də irəli sürə bilmirlər.

Bu gün Aİ rəsmilərinin əksəriyyəti etiraf edir ki, İttifaqda əsaslı islahatların aparılmasının vacibliyi danılmaz faktdır. Buna görə də, cəsarətlə belə bir proqnoz vermək olar ki, Avropa İttifaqının gələcəyi çox cəhətdən ortamüddətli perspektiv üçün qəbul edilən siyasi qərarların adekvat, ölçülüb-biçilmiş və uzaqgörən olmasından asılıdır.

Bu gün Avropanın üzləşdiyi problemi həll edə bilməməsinin əsas səbəbi mövcud sistemin effektiv işləməməsi, ittifaq ölkələri arasında bu məsələ ilə bağlı fikir ayrılıqlarının olması, bu sahədə yürüdülən siyasətin parçalanmış xarakter almasıdır.

Bunun üçün effektiv beynəlxalq əməkdaşlıq olmalıdır. Çünki bu problemlə yalnız bir dövlət və yaxud da hər hansı bir təşkilat təkbaşına mübarizə apara bilməz. İlk növbədə, bütün dövlətlər –mənşə ölkələri, ilkin sığınacaq ölkələri, təyinat və tranzit ölkələri arasında sıx əməkdaşlıq qurulmalıdır (Xartum Prosesi). Daha sonra regional əməkdaşlıq mexanizmi işlənilməlidir (Bali Prosesi). Çünki elə problemlər var ki, onların həlli yalnız regional əməkdaşlıqdan keçir. Suriya, İraq və Əfqanıstanda hərbi və humaniar böhranlar davam edir və bu böhranlar öz-özünə aradan qalxacaq bir məsələ deyil. Bunun üçün dünya birliyi bu sahədə birgə addım atmalı, birgə fəaliyyət göstərməlidirlər.

Bundan əlavə, dövlətlər arasında həmrəylik və inam olmalıdır. Bu yolla ölkələr arasında məsuliyyətin ədalətli bölüşməsi reallaşa bilər. İnsanları onların qarşılaşa biləcəyi risklər barədə məlumatlandırmaq məqsədilə mənşə ölkələrində və diasporalar arasında güclü informasiya təbliğatı aparılmalıdır.

Bir sözlə, Avropa İttifaqına üzv dövlətlər bu böhran ətrafında bütün güclərini səfərbər etməli, məsuliyyət, həmrəylik və inama əsaslanan birgə strategiya işləyib hazırlamalıdır. Avropa dövlətləri kütləvi miqrasiya axınlarının qarşısını almaqla yanaşı, eyni zamanda, bu axınların yaranmasına səbəb olan amilləri də aradan qaldırmağa çalışmalıdır.

**Ədəbiyyat:**

1. Consensus reached on new sustainable development agenda to be adopted by World Leaders in September 2015: http://www.az.undp.org/content/azerbaijan/en/home/presscenter/pressreleases/2015/08/07/consensus-reached-on-new-sustainable-development-agenda-to-be-adopted-by-world-leaders-in-september/.

2. High Commissioner's Dialogue on protection challenges, protection at sea. Closing remarks by Mr. AntónioGuterres, United Nations High Commissioner for Refugees. Geneva, 11 Dec. 2014. http://www.unhcr.org/admin/hcspeeches/549988e19/high-commissioners-dialogue-protection-challenges-protection-sea-closing.html.
3. Illegal migration Routes: http://frontex.europa.eu/static/images/map2.gifuropa.eu/static/images/map2.gif.
4. International Organization for Migration (IOM) 2016 Fatal Journeys Vol. 2: Identification andTracing of Dead and Missing Migrants. IOM, Geneva.
5. Mehdiyev R. Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikilistandartlar siyasəti. Dünya nizamından nizamsızlığa doğru. B.: Şərq-Qərb. 2015-ci il. s.26
6. Standard Eurobarometer Spring 2015: Citizens see immigration as top challenge for EU to tackle, Brussel. 2015. http://europa.eu/rapid/press-release_IP-15-5451_en.htm.
7. Мигранты: Что делать Европе? http://ru.euronews.com/2015/08/31/eu-migration-policy-long-on-diversity-short-on-diversity-short-on-unity/.
8. Nyu-Yorkda BMT-nin qaçqın və miqrantlarla bağlı sammiti keçirilib. 20 sentyabr 2016: http://www.aztv.az/readnews.php?lang=az&id=26803
9. Əmin olun, artıq Avropa Birliyi genişlənməyəcək: https://sputnik.az/expert/20160429/404918845.html.

***Cəmil Xalid oğlu HÜSEYNOV,***
*Dövlət Miqrasiya Xidməti*

## Azərbaycanda multikulturalizm modeli miqrasiya fonunda

Dünyada mədəniyyətlərarası dialoqun mövcudluğu, millətlər və xalqlar arasında sözdə və əməldə birliyin olması bəşəriyyətin qlobal problem və təhdidlər qarşısında təhlükəsizliyini təmin edə bilməsi üçün vacib amillərdən biridir. Bu gün dünyada cərəyan edən proseslər müxtəlif dinlərin və mədəniyyətlərin bir-birinə yaxınlaşmasını və birgə addımlamasını tələb edir. Bu yerdə Etno-siyasi Araşdırmalar Mərkəzinin Baş direktoru Emil Painin sözlərini qeyd etmək yerinə düşərdi: "Mədəniyyət siyasətdən daha vacibdir, çünki mədəniyyət stereotipləri siyasi doktrinaların əsasını təşkil edir" (1).

Tarixi təcrübələr sübut edir ki, məkanından asılı olmayaraq, hər bir multikultural cəmiyyət özündə çoxçalarlılığın inkişafını, müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirini təmin etməklə, tolerantlığın meydana gəlməsində, sosial münaqişələrin sivil yolla həll edilməsində, cəmiyyətdə sülh və əmin-amanlığın bərqərar olmasında böyük rol oynayır.

Multikulturalizm siyasətinin əsasını xalqların qarşılıqlı əməkdaşlığı, mədəniyyətlərarası və dinlərarası dialoq, tolerantlıq ideyaları və sülh şəraitində birgə, dinc yaşama prinsipləri təşkil edir. Əlverişli iqlimə, münbit torpağa və səfalı təbiətə malik olması Azərbaycanı bütün dövrlərdə cəlbedici məkana çevirmiş və Azərbaycan hər zaman diqqət mərkəzində olmuşdur. Bu fakt öz növbəsində tarixin müxtəlif mərhələlərində Azərbaycan ərazilərində çoxsaylı etnik qrupların, müxtəlif mədəniyyətlərə malik nümayəndələrin məskunlaşmasına təkan verən amil olmuşdur. Ancaq bütün bu qeyd edilənlər yeganə səbəb deyil. Müxtəlif mədəniyyətlərə, adət-ənənələrə malik, müxtəlif dinlərə mənsub insanlar üçün Azərbaycanın daha cəlbedici olmasının digər bir səbəbi isə azərbaycanlıların qonaqpərvər və xoşməramlı olması, tolerantlıq xüsusiyyətləri və mədəniyyəti olmuşdur. Əsrlər boyu sivilizasiyaların qovşağında yerləşən bu diyarda fərqli mədəniyyətlərə malik xalqlar və müxtəlif etnik qruplara və dinlərə mənsub insanlar sülh və qarşılıqlı anlaşma şəraitində yaşamışdır.

Hazırda Azərbaycan Respublikası ərazisində xeyli sayda azsaylı xalqlar yaşayır. Onlara udiləri, ingiloyları, xınalıqlıları, qırızları, buduqları, tatları, talışları, rusları, ləzgiləri, yəhudiləri və digərlərini misal göstərmək olar. Onların bir hissəsi qədim dövrlərdən bəri Azərbaycanda yaşayaraq, onun köklü

əhalisinə çevrilmiş, başqa bir hissəsi isə tarixin müxtəlif mərhələlərində baş verən sosial-siyasi proseslərin nəticəsi olaraq, Azərbaycan ərazisində məskunlaşmışlar. Bu gün Azərbaycan əhalisinin böyük əksəriyyətinin müsəlman olmasına baxmayaraq, respublikamızda katolik kilsəsi, pravoslav kilsəsi, yəhudi sinaqoqu, məscidlər sərbəst və təhlükəsiz şəkildə, tolerantlıq şəraitində qarşılıqlı hörmət prinsipinə əsaslanaraq fəaliyyət göstərir. Roma Patriarxı I Varfolomeyin hələ 2003-cü ildə ölkəmizə rəsmi səfəri zamanı səsləndirdiyi fikirlər bunun bariz nümunəsidir: "Burada dini dözümlülüyün səviyyəsindən məmnun qaldım. Azərbaycanda hər kəs öz arzusuna görə, dininə etiqad edə və ayinlərini keçirə bilər" (2).

Azərbaycanın multikulturalizm sahəsindəki təcrübəsi kifayət qədər zəngin və qədim tarixi köklərə əsaslanır. Multikulturalizm ideyaları ölkəmizdə keçmiş əsrlərdən bəri mövcud olsa da, onun siyasi banisi ulu öndər Heydər Əliyev olmuşdur. H.Əliyevin yürütdüyü siyasətin nəticəsi idi ki, Azərbaycanda yaşayan hər bir xalq öz etnik xüsusiyyətlərini, milli dəyərlərini, adət və ənənələrini qoruyub saxlaya bilmiş və hər bir xalqın, etnik qrupun nümayəndələrinin qarşılıqlı anlaşma şəraitində yaşamasına və inkişaf etməsinə təminat yaranmışdır.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın daxili və xarici siyasətində əsaslı dəyişikliklər dərhal özünü göstərdi. Təməlini multikultural, tolerant və humanist dəyərlər təşkil edən məqsədyönlü siyasət nəticəsində Azərbaycan vətəndaş müharibəsindən xilas olundu, hətta Azərbaycanda dünyaya nümunə ola biləcək multikultural dəyərlər sistemi və uğurlu modeli formalaşdı, azsaylı xalqların hüquq və azadlıqlarının qorunması, onların sosial rifahının artırılması, millətlərarası münasibətlərin demokratik prinsiplər əsasında inkişaf etdirilməsi dövlət siyasətinin ümdə vəzifəsinə çevrildi. Azərbaycan Respublikasında millətlərarası münasibətlərin hüquqi bazası dövlətin ali qanunu olan Konstitusiyaya əsaslanır. Multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipləri aydın şəkildə bu ali qanunda təsbit edilmişdir. Belə ki, ali qanunun 25-ci maddəsinin 3-cü bəndində qeyd olunur ki, insan və vətəndaş hüquq və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Azərbaycan Respublikasının Konstitusiyasının 44-cü maddəsində isə azsaylı xalqların milli mənsubiyyət hüququnun qorunması barədə qeyd olunur: "Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz". Konstitusiyasının 69-cu maddəsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Onlar sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, dilindən, dinə

münasibətindən, fəaliyyətinin növündən, xarakterindən və digər hallardan asılı olmayaraq, Azərbaycan Respublikasında qanun və məhkəmə qarşısında bərabər hüquqludurlar.

Azərbaycanda milli və dini azadlığın inkişafı üçün hər cür şərait yaradılmışdır. Qanunvericiliyin müddəalarında əksini tapmaqla yanaşı, qeyd olunanlar reallıqda da öz təsdiqini tapır. Belə ki, azsaylı xalqların hüquqlarının qorunması üzrə ardıcıl siyasət aparan dövlətimiz onların etno-konfessional inkişafına hərtərəfli köməklik göstərir. Göz önündə bariz nümunələr var. Ölkədə milli azlıqların öz milli mərkəzlərini, assosiasiyalarını yaratmaq hüquqlarından tam istifadə edə bilmələri üçün geniş imkanlar yaradılmışdır. Bununla yanaşı, ən qədim kilsələrdən biri –qədim Qafqaz Albaniyası dövrünə aid kilsə də məhz Azərbaycanda yerləşir. Hökumətimiz məscidlərin, pravoslav və katolik kilsələrinin, habelə, sinaqoqların inşası və təmiri üçün maliyyə vəsaiti ayırır. Əsrlər boyu Azərbaycan ölkəmizdə mövcud olan siyasi və sosial vəziyyətə, keçdiyi keçməkeşli yollarda üzləşdiyi çətinliklərə baxmayaraq, bu sərvətləri qoruyub saxlamışdır.

İşğal edilmiş ərazilərimizdə bütün tikililərimiz, tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız viran edilmişdir. Ancaq bunun əksi olaraq, Bakının mərkəzində erməni xalqının dini mirası tərəfimizdən bərpa edilmiş və qorunub saxlanılmışdır.

Hələ XVIII-XIX əsrlərdə Avropada I Dünya müharibəsinin getdiyi bir dönəmdə çoxlu sayda alman dünyanın müxtəlif ölkələrinə miqrasiya etməyə başlamışlar. 1917-ci ildə Qafqazdakı 200-dən artıq alman koloniyasında (“Annenfeld”, “Georqsfeld”, “Helenendorf”) 160 mindən çox alman yaşayırdı. Həmin dövrdə Azərbaycan ərazisindəki almanların ümumi sayı 6 min nəfər təşkil edirdi. Azərbaycanda yaşayan almanlar protestantlığa etiqad edir və çox rahat şəkildə dini ibadətlərini həyata keçirə bilirdilər, hətta almanlar tərəfindən kilsələr də inşa olunmuşdu. Azərbaycanda yaşayan almanlara din, məişət azadlığı ilə yanaşı, öz dillərində qəzet nəşr etmək kimi imkanlar yaradılmışdır. Buna 1924-cü ildə Bakıda çap olunan “Bauer und Arbeit” adlı qəzetin adını misal çəkmək olar.

Müharibə dövründə vaxtilə almanlar Azərbaycana miqrasiya etmişdilərsə, 1990-cı illərdə Azərbaycanda hökm sürən siyasi və sosial vəziyyətə görə bəzi qaçqınlar Almaniyaya köç etmişdilər. Almaniyada baş alan ksenofob, dini, etnik, milli ayrı-seçkilik zəminindəki düşüncə səbəbindən digər xalqların nümayəndələrinə qarşı mənfi münasibət Azərbaycandan olan mühacirlərə qarşı da müşahidə olunurdu. 2015-ci ildə Bavariya əyalətində yerləşən Azərbaycandan olan 19 miqrantın, həmçinin 3 azyaşlı uşağın məşkunlaşdığı sığınacağa millətçilər od vuraraq yandırmışdılar. (3)

Bu gün də bəzi Qərbi Avropa ölkələrində, Yaxın Şərqdə, keçmiş Sovet İttifaqı ölkələrində son dövrlərdə etnik, irqi, milli və dini zəmində qarşıdurma

və toqquşmalar kimi çox təhlükəli meyillərin şahidi oluruq. Misal olaraq, Norveçdə Breyvik adlı şəxs əsasən müsəlman olan 69 gənc oğlan və qızı vəhşicəsinə qətlə yetirmişdir. Almaniyada ekstremist qruplar tərəfindən ölkədəki türklərə qarşı mütəmadi terror aktları törədilir.

Bunlar onu deməyə əsas verir ki, hazırda dünyanın müxtəlif bölgələrində ksenofobiya, diskriminasiya kimi halların artdığı bir dövrdə, Azərbaycanda dünyanın bir çox ölkələri üçün örnək olan sivilizasiyalararası, dinlərarası dialoq və dözümlülük modeli formalaşmışdır.

Ralf Darendorfun fikrinə görə, institusional mühitin, yəni qanunların dəyişməsi üçün aylar kifayətdir, iqtisadi şəraitin dəyişməsinə bir-iki il tələb olunur, amma şüurun, mədəniyyətin dəyişməsinə onilliklər, yüzilliklər tələb olunur. Həqiqətən də, hansısa qanunu, siyasi quruluşu və ya idarəetmə formasını qısa müddət ərzində dəyişmək mümkündür. Ancaq hər hansı bir xalqın mədəniyyətini yüz illər keçsə də, dəyişmək çətindir. Hazırda dünyada xalqların sayı dövlətlərin sayından çoxdur. Əgər hər bir xalqın öz mədəniyyətini qoruyub saxlamaq hüququ olmasaydı, dünyada etnik münaqişələrin qarşısını almaq mümkün olmazdı. Bu nöqteyi-nəzərdən multikulturalizm siyasətinin alternativi ksenofobiya, antisemitizm, islamofobiya, irqçilik, diskriminasiya və nifrətdir ki, bu da cəmiyyət üçün, onun inkişafı üçün ciddi təhlükə və təhdid təşkil edir. Bu səbəbdən multikulturalizm dəyərlərinin gücləndirilməsi, multikulturalizm siyasətinin dövlətin siyasətinin ayrılmaz hissəsinə çevrilməsi müasir dövrün əsas tələblərindən və şərtlərindəndir. Bunun üçün bütün dövlətlər, dünya siyasətçiləri bu amal ətrafında birləşməli, güclərini səfərbər etməlidirlər.

Dəyişən dünyada hər bir ölkə öz inkişafının davamlığının təmin edilməsi üçün mövcud imkanlarını, ətrafında cərəyan edən hadisələri dəyərləndirərək preventiv tədbirləri, adekvat addımları özündə ehtiva edən müvafiq strategiya formalaşdırır. Multikulturalizm və multikultural cəmiyyət də özü təkbaşına inkişaf edə bilməməsi səbəbindən siyasi idarəetmə və dövlət dəstəyinin mövcud olması mütləq şərtlərdəndir.

Azərbaycan Respublikasının miqrasiya siyasətinin fəlsəfəsi dövlətin milli təhlükəsizliyini və maraqlarını qorumaqla miqrasiya axınlarının tənzimlənməsi, tənzimlənməyən miqrasiya proseslərinin mənfi nəticələrinin qarşısının alınması, miqrantların öz hüquqlarını həyata keçirmək üçün şəraitin yaradılmasından ibarətdir.

Dövlət Miqrasiya Xidmətinin rəisi cənab Firudin Nəbiyev çıxışlarının birində vurğulamışdır: "Bu gün dünyada miqrasiya proseslərinin tənzimlənməsi, miqrantların hüquqlarının qorunması ən aktual məsələlərindən biridir. Çünki təəssüf hissi ilə deməliyik ki, miqrasiya mənfi qlobal proseslər –milliyyətçilik, ultramilliyyətçilik, populizm, iqtisadi mühafizəkarlıq və artan antimiqrant düşüncələri və siyasətləri fonunda baş verir" (4).

Prezident İlham Əliyev hər zaman çıxışlarında bəyan edir ki, Azərbaycanın miqrasiya siyasəti qanunlara riayət edilməsi və miqrantlar arasında irqi, dini, cinsi mənsubiyyətinə, vətəndaşlığına, yaşına, hər hansı sosial qrupa mənsubluğuna və ya siyasi baxışlarına görə, diskriminasiya hallarının yolverilməzliyi prinsipləri əsasında həyata keçirilməlidir.

Qeyd olunan prinsip Dövlət Miqrasiya Xidməti tərəfindən yürüdülən miqrasiya siyasətinin qayəsini təşkil edir. Xidmət hər zaman əməli fəaliyyəti ilə miqrantların hüquq və azadlıqlarını üstün tutur, onların mənafeyini qoruyur və yerli şəraitə uyğunlaşdırılmasına dəstək olur.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 №-li Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"nin 9.14-cü bəndinə əsasən öz səlahiyyətləri daxilində miqrantların sosial müdafiəsi üçün zəruri şərait yaratmaq, onların yerli şəraitə uyğunlaşdırılması üçün tədbirlər görmək və həmin tədbirləri əlaqələndirmək, hüquqlarını müdafiə etmək Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əsas vəzifələrindən biridir.

Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 77-ci maddəsinə əsasən Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerli şəraitə uyğunlaşdırılmasına dair tədbirlər onların öz arzusu ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən əlaqələndirilərək, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları ilə birgə həyata keçirilir.

Azərbaycan Respublikasında miqrantların yerli cəmiyyətə inteqrasiyasına dəstək olaraq onların Azərbaycan dilini, tarixini, mədəniyyətini, özlərinin hüquq və vəzifələri ilə bağlı qanunvericiliyi öyrənmələri üçün Dövlət Miqrasiya Xidmətinin Təlim-Tədris Mərkəzi fəaliyyət göstərir.

Bundan əlavə, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" 1999-cu il 21 may tarixli Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində qaçqınların yerli şəraitə uyğunlaşması, təbəəliyə keçməsi, dil öyrənməsi, öz hüquq və vəzifələri ilə tanış olması üçün də şərait yaradılması nəzərdə tutulmuşdur.

Miqrasiya proseslərinin tənzimlənməsinin əsas prinsiplərindən biri "qaçqın" statusu almaq niyyətində olan və sığınacaq axtaran şəxslərə və digər məcburi miqrantlara beynəlxalq təşkilatlar və dövlət tərəfindən maddi və hüquqi yardımların göstərilməsi, miqrantların özünütəminat məsələlərinə şəraitin yaradılması və könüllü şəkildə öz ölkələrinə qayıtmalarının və 3-cü ölkəyə getmələrinin təşkilidir.

"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə

əsasən qanunda göstərilmiş səbəblərə görə başqa dövlətdən qanunsuz olaraq Azərbaycan Respublikasına gəlmiş və mümkün qədər tez müvafiq səlahiyyətli orqana müraciət etmiş şəxs həmin orqanın əsaslandırılmış qərarı ilə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan məsuliyyətdən azad edilir. Qaçqın göstərilmiş bu səbəblərə görə, onun həyat və ya azadlığını təhlükə gözləyən ölkəyə heç bir halda göndərilmir və ya məcburi qaytarılmır.

Azərbaycan Respublikasına qaçqın statusu almaq niyyətilə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər şəxsiyyətlərini təsdiq edən heç bir sənədləri olmadıqda belə, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə qaçqın statusunun verilməsi ilə bağlı vəsatətlə bilavasitə, yaxud dövlət orqanları (Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Dövlət Sərhəd Xidməti və onların struktur bölmələri, habelə yerli icra hakimiyyəti orqanları) vasitəsi ilə müraciət edə bilərlər. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 noyabr tarixli 419 №-li Fərmanı ilə təsdiq edilmiş "qaçqın" statusu verilməsi haqqında vəsatətə baxılması Qaydası"nın 1-ci bəndinə əsasən şəxsiyyətini təsdiq edən müvafiq sənədləri və ya Azərbaycan Respublikasının ərazisinə qanuni girişə əsası olmayan qaçqın statusu almaq niyyətində olan şəxs, beynəlxalq hüquq normalarına uyğun olaraq eyniləşdirmə və daktiloskopiya prosedurlarını keçir. Qanunvericilikdə nəzərdə tutulan şəxsiyyəti təsdiq edən sənədlərin (pasport, yol sənədi və s.) olmaması "qaçqın" statusu verilməsi barədə qəbul ediləcək qərara təsir etmir. Dövlət Miqrasiya Xidməti həmin şəxsin vəsatətinə baxılan müddətədək ona və ailə üzvlərinə şəxsiyyətini təsdiq edən müvəqqəti şəhadətnamə verir.

Adıçəkilən Qanunun 15-ci maddəsinə əsasən qaçqın statusu almaq üçün ərizə vermiş şəxs onun məsələsi həll edilənədək, başqa ölkəyə göndərilə, verilə və ya məcburən qaytarıla bilməz. Qaçqın statusundan məhrum etmək, qaçqını, eləcə də qaçqın statusu istəyən şəxsi başqa ölkəyə göndərmək, vermək və ya məcburən qaytarmaq yalnız məhkəmənin qərarı əsasında mümkündür. Qaçqın statusu verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul edilmir.

Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 79.3-cü maddəsinə əsasən qaçqın statusu verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində kənara çıxarma haqqında qərar qəbul edilmir.

"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanunun 6-cı maddəsində qaçqın statusu almış şəxslərə verilən təminatlar sadalanmışdır. Belə ki, qaçqınların haqq ödəmədən müvəqqəti yaşayış yerinə getmək və əmlakını aparmaq, müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, əlillərin, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada

lazımi dərman və tibb yardımı almaq, uşaqların məktəbəqədər tərbiyə ocaqlarında, yeniyetmələrin və gənclərin müvafiq təhsil müəssisələrində təhsil almaq, yaşayış məntəqələrində daimi yaşayan vətəndaşlarla eyni əsaslar üzrə ərzaq və sənaye malları almaq, dövlətin təyin etdiyi birdəfəlik və digər yardım almaq, tək pensiyaçıların və əmək qabiliyyəti olmayan əlillərin xüsusi sosial təminat müəssisələrində ilk növbədə yerləşdirilməsi, qanunla müəyyənləşdirilmiş müddətdə qaçqın statusunu almaq, dəymiş maddi və digər ziyanın ödənilməsi məsələsini qaldırmaq, pozulmuş hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək, əvvəlki yaşayış yerlərinə qayıtmaq hüquqları vardır.

Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər əhalinin sağlamlığının qorunması sahəsində Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər hüquqlara malikdirlər.

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş qaydada əcnəbilərin sağlamlığını qorumaq hüququ vardır. Adıçəkilən Qanunun 33-cü maddəsinə əsasən təcili və təxirəsalınmaz tibbi yardım təcili tibbi müdaxilə tələb edən hallarda (bədbəxt hadisələr, travmalar, zəhərlənmələr və digər xəstəliklər) mülkiyyət formasından asılı olmayaraq, təcili yardım tibb müəssisələri, eləcə də, qanunvericilikdə müəyyən edilmiş qaydada ilkin tibbi yardım etməyə borclu olan şəxslər tərəfindən göstərilir. Dövlət tibb müəssisələrində təcili və təxirəsalınmaz tibbi yardım pulsuzdur.

Qaçqın statusu almış şəxslərin ölkə əraizisində işləmək hüquqları təmin edilir. Belə ki, Miqrasiya Məcəlləsinin 64.0.15-ci maddəsinə əsasən qaçqın statusunun verilməsi üçün vəsatət verən, qaçqın statusu almış şəxslərə iş icazəsi tələb olunmur.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin həmin Qanunla nəzərdə tutulmuş şərtlərlə Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər əsaslarla əmək pensiyası təminatı hüququ vardır.

İnsanın immunçatışmazlığı virusu ilə yaşayan Azərbaycan Respublikası vətəndaşları ilə yanaşı, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və Azərbaycan Respublikası tərəfindən qaçqın statusu verilmiş şəxslərə tibbi yardım (o cümlədən ixtisaslaşdırılmış tibbi yardım) dövlət tibb müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş həcmdə dövlət büdcəsinin vəsaiti hesabına göstərilir.

Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzlərində qaçqın statusu verilməsi barədə vəsatətlə müraciət etmiş şəxs (onunla birlikdə gələn ailə üzvləri) –qaçqın statusu verilməsi məsələsi həll edilənədək, habelə qaçqın statusu almış şəxslər yaşamaq üçün yerləri

olmadığı təqdirdə –iş və ya yaşayış yeri əldə edənədək, lakin 3 aydan artıq olmayan müddətə könüllü olaraq yerləşdirilirlər.

"Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən qaçqının müvəqqəti və ya daimi yaşayış sahəsi ilə təmin edilməsi mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. Müvəqqəti yaşayış yerindən daimi yaşayış yerinə köçməsi ilə əlaqədar qaçqının çəkdiyi xərclər ona müəyyənləşdirilmiş qaydada və məbləğdə ödənilir. Qaçqının və məcburi köçkünün arzusu ilə ona on il müddətinə məqsədli faizsiz ssuda, habelə yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə və qaydada istifadəsi üçün torpaq sahəsi verilir. Qaçqın mənzil və ya ev satın alarkən əməliyyatlar notarial rüsumlar ödənilmədən icra edilir.

Azərbaycan Respublikasının 24 iyun 2016-cı il tarixli Qanunu ilə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna dəyişiklik edilməklə, qaçqınlara vətəndaşlıq verilməsi ilə bağlı müddəalar öz əksini tapmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 9 dekabr 2016-cı il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilməklə, Azərbaycanda qaçqınların vətəndaşlıq əldə etməsi proseduru müəyyənləşdirilmişdir.

Əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır.

Eyni zamanda, əməkçi miqrantların ailə birləşməsi hüququ da təmin edilir. Əməkçi miqrantların müvəqqəti yaşamaq icazəsinin müddətinə onların ailə üzvlərinə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilir.

2006-cı il oktyabrın 10-da qəbul edilmiş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasında cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyi (o cümlədən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər arasında) təmin edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşları ilə yanaşı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin də hüquq və azadlıqlarının məhkəmədə müdafiəsi hüququna təminat verilir. Eyni zamanda, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət orqanlarının, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilərlər.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşları ilə yanaşı ölkə ərazisində yaşayan xarici vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunlarda nəzərdə tutulmuş hüquq və azadlıqlarının, hüquqi şəxslərin qanuni mənafelərinin hər cür qəsdlərdən və qanun pozuntularından məhkəmə icraatının istənilən mərhələsində məhkəmə müdafiəsi hüququ təmin olunur. Heç kəs məhkəmə müdafiəsi hüququndan məhrum edilə bilməz.

"Vətəndaşların hüquq və azadlqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) məhkəməyə şikayət edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən də dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin vəzifəli şəxslərin qərar və hərəkətləri (hərkətsizliyi) nəticəsində öz hüquq və azadlıqlarını pozulmuş hesab edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa bu Qanunla müəyyənləşdirilmiş qaydada məhkəməyə müraciət edə bilərlər.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 44-cü maddəsinə əsasən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsilin hər hansı pilləsində təhsil alması və ya ixtisas artırması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, dövlət tərəfindən müəyyən edilmiş kvota və təhsil müəssisəsinin, hüquqi və fiziki şəxslərin birbaşa bağladıqları müqavilələr əsasında həyata keçirilir.

Azərbaycan Respublikasının milli qanunvericiliyində bu sahədə nəzərdə tutulmuş müddəalar Prezident cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin uğurlarının, diqqət və qayğısının təzahürü və Azərbaycanda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sərbəst hərəkət etmək və yaşayış yeri seçmək, təhsil almaq, əmək fəaliyyəti ilə məşğul olmaq, səhmdar və sahibkar kimi fəaliyyət göstərmək, şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, istirahət etməsi, sağlamlığın qorunması kimi hüquq və azadlıqlarının, qaçqın və sığınacaq axtaran şəxslərin inteqrasiyasının tam təmin olunmasının bariz nümunəsidir.

Həmçinin, ölkəmizdə tolerantlığın yüksək səviyyədə olması miqrasiya proseslərinə təsir edən əsas amillərdəndir. Bununla əlaqədar olaraq

vurğulanmalıdır ki, bu günə qədər Azərbaycanda miqrantlara münasibətdə milli, etnik və dini zəmində hüquq pozuntusu qeydə alınmamışdır. Multikultural dəyərlərə sadiq qalan dövlətimiz mədəniyyətlər və sivilizasiyalararası dialoqun inkişafına, mədəni plüralizmin qorunub saxlanmasına və sivilizasiyalar arasında qarşılıqlı münasibətlərin tənzimlənməsinə hər zaman öz töhfələrini verməkdədir.

Bu gün dünyada qaçqın və məcburi köçkün problemi çox kritik bir həddə çatıb. Əlbəttə bu cür həssas qrupa daxil olan miqrantların ağır vəziyyəti və ehtiyaclarına laqeyid yanaşılmamalı, bu hallar heç cür diqqətdən kənarda qalmamalıdır. Buna görə də, beynəlxalq ictimaiyyətin bu problemin həllinə münasibətdə ümumi və vahid yanaşmadan çıxış etməsi mütləqdir. Kütləvi qaçqın axını ilə üzləşmiş ölkələr dəstəklənməli, yalnız sözdə deyil, əməldə də onlara hərtərəfli yardımlar göstərilməlidir.

**Ədəbiyyat:**

1. Azərbaycan tolerantlığın məkanıdır. http://migration.gov.az/post.php?pageid=6105.
2. Multikulturalizm: Avropanın səhvi və Azərbaycan modeli. http://multiculturalism.preslib.az/az_c1-8.html.
3. Miqrantların hüquqlarının müdafiəsi və onların cəmiyyətə inteqrasiyası sahəsində əsaslı tədbirlər görülür. https://migration.gov.az/post.php?pageid=6519&009-458-6519
4. The Decline of Multiculturalism: http://eng.globalaffairs.ru/number/The-Decline-of-Multiculturalism-15143.

***Azər Kərim oğlu ALLAHVERƏNOV,***
*DMX yanında İctimai Şuranın sədri,*
*"Həyat" Humanitar Dəstək İctimai Birliyinin sədri, fəl.ü.f.d.*

## Qloballaşma şəraitində Azərbaycanda miqrasiya proseslərinin aktual məsələləri

Son iyirmi beş ildə Azərbaycanda geniş miqyas almış miqrasiya prosesləri həm kəmiyyət, həm keyfiyyət göstəricilərinə görə müxtəlif determinantlarla zəngin və bundan irəli gələn aktuallığı ilə xarakterizə edilən fenomenə çevrilmişdir. Həmin dövrə təsadüf edən miqrasiya axınlarının mahiyyətinə və təzahür formalarına nəzər saldıqda miqrasiya proseslərinin mərhələli şəkildə baş verdiyi təxmin edilir (3, s.30-32) və bu prosesləri şərti olaraq üç mərhələyə bölünür: 1) I mərhələ –1990-1995-ci illər; 2) II mərhələ –1996-2003-cü illər; 3) III mərhələ –2004-2016-cı illər.

Hər bir mərhələ üzrə baş vermiş miqrasiya axınlarının məzmunu təhlil edilərkən, həmin mərhələnin mahiyyəti barədə müəyyən təsəvvürlər yaranır. Belə ki, birinci mərhələ Sovet İttifaqının dağılması və xüsusilə, Cənubi Qafqazda ən uzun sürən Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsinin baş verməsi, həmçinin, Özbəkistanın Fərqanə əyalətində Məhsəti türklərilə münasibətdə qanlı hadisələrin büruzə verməsi, 90-cı illərin əvvəllərində Ermənistandan etnik azərbaycanlıların, Özbəkistandan Məhsəti türklərinin, Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Dağlıq Qarabağ və ətraf yeddi rayondan məcburi köçkünlərin respublikanın ərazisində məskunlaşması həmin mərhələyə etnik rəng qatdı. Məhz bu məqam birinci mərhələdə baş verən miqrasiya proseslərinin sırf etnik səciyyə daşıdığını göstərir.

Miqrasiya proseslərinin ikinci mərhələsi daha çox əmək miqrasiyası ilə əlaqədar olduğundan, iqtisadi mahiyyət daşıdığı təxmin edilir və bu dövrə aid statistik rəqəmlər əsasən Rusiyada, Ukraynada, Türkiyədə və digər dövlətlərdə əmək fəaliyyəti ilə məşğul olan bir milyondan artıq azərbaycanlı miqrantlarla bağlıdır. İl ərzində bir neçə dəfə Azərbaycana gəlib və buradan yenidən çalışdığı ölkəyə gedən, qazandıqları vəsait hesabına Azərbaycanda qalan ailələrinə maddi dəstək göstərən əməkçi miqrantların bu formada dinamik yerdəyişməsi miqrasiya proseslərinin xarakterinə əhəmiyyətli dərəcədə təsir göstərmiş və nəticədə Azərbaycan hökumətinin bu mərhələdə həyata keçirdiyi

miqrasiya siyasətinin məhz həmin kateqoriyaya aid miqrant qruplarının maraqlarına uyğun həyata keçirilməsinə səbəb olmuşdur.

Miqrasiya proseslərinin birinci və ikinci mərhələləri məzmununa görə, fərqli mahiyyət daşısa da, digər bir vacib indikator hesab olunan miqrasiya saldosuna görə eynidir. Çünki əməkçi miqrantlarla yanaşı, miqrasiya proseslərində fəal iştirak edən digər miqrant qrupları –emiqrantlar və immiqrantlar olmuşlar. Belə ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə (1), 1990-2005-ci illərdə Azərbaycan Respublikasının ərazisini 432,1 min nəfər tərk etdiyi halda, buraya 251,6 min nəfər gəlmişdir ki, bu da miqrasiya saldosunun mənfi olduğunu göstərir. Azərbaycanda emiqrasiya və immiqrasiya göstəricilərinə görə miqrasiya axınlarının əsas hissəsi məlum münaqişələr səbəbindən məhz 90-cı illərin birinci yarısına düşür. Həmin dövrdə gedənlərlə gələnlər arasında kəmiyyət göstəriciləri təqribi bərabər olduğu halda, 90-cı illərin ikinci yarısı gedənlərin sayı gələnlərdən bir neçə dəfə artıq idi (2, s.6).

Lakin 2004-cü ildən etibarən, yəni şərti bölgüyə görə, miqrasiya proseslərinin üçüncü mərhələsi tamamilə fərqli məzmunda dəyişməyə başladı. Bu mərhələnin xüsusiyyəti dövlətin bu sahədə həyata keçirdiyi siyasətinin daha da məqsədyönlü və institutlaşdırılmış səpkidə olması ilə şərtlənir. Belə ki, Azərbaycanın geosiyasi cəhətdən əlverişli məkanda yerləşməsi, siyasi sabitlik, dinamik inkişaf, demokratiya, geniş beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, neft və qeyri-neft sektorunun inkişafına yönələn məqsədyönlü siyasət nəticəsində xarici və daxili investisiyalar üçün yaradılan əlverişli şərait sərmayələrin həcminin əhəmiyyətli dərəcədə artmasına imkan verdi (6). Təbii ki, bu faktorlar Azərbaycanı xarici sərmayəçilər və miqrantlar üçün cəlbedici ölkəyə çevirdi və qısa müddət ərzində Azərbaycan miqrantların mənşə ölkəsindən təyinat ölkəsinə çevrilməyə başladı. Məhz bu səbəbdən, 2004-cü ildə Azərbaycan Respublikasında miqrasiya siyasətinin həyata keçirilməsində iştirak edən icra qurumları qarşısında əsas məqsədləri müəyyən edən "Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası" qəbul edildi. Bu Konsepsiyanın gerçəkləşdirilməsi və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün 2006-cı il iyulun 25-də "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramının təsdiq edilməsi haqqında (2006-2008-ci illər)" Azərbaycan Prezidentinin Sərəncamı imzalandı. Dövlət Proqramı əsasında miqrasiya sahəsində vahid dövlət siyasətini həyata keçirən xüsusi dövlət orqanının yaradılması da obyektiv zərurət kimi meydana çıxmışdı. Bu zərurəti nəzərə alan Prezident İlham Əliyev 2007-ci il martın 19-da Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında Fərman imzaladı (5). Xüsusilə qeyd olunmalıdır ki, 2008-ci ildən etibarən miqrasiya proseslərinin dinamikası Azərbaycana gələnlərin xeyrinə dəyişməyə başlayıb. Belə ki, həmin dövrdən etibarən Azərbaycana gələn

şəxslərin sayı buranı həmişəlik tərk etmək istəyən şəxslərin sayından çox olmuşdur. 2008-2015-ci illərdə 20,2 min nəfər daimi yaşamaq məqsədilə Azərbaycana gəldiyi halda 8,6 min nəfər buranı tərk etmişdir (1).

Miqrasiya proseslərinin üçüncü mərhələsində həyata keçirilən dövlət siyasəti həm də bir sıra yeniliklərin tətbiq edilməsi ilə xarakterizə olunur. Belə ki, miqrasiya proseslərinin vahid və çevik prosedurlar əsasında tənzimlənməsi, sənədləşmənin sadələşdirilməsi məqsədilə 2009-cu il iyulun 1-dən miqrasiya proseslərinin idarə olunmasında “bir pəncərə” prinsipinin tətbiq edilməsi, miqrasiya sahəsində vahid informasiya sistemi –Vahid Miqrasiya Məlumat Sistemi (VMMS), onun “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin qurulması və nəhayət, 2013-cü il iyulun 2-də Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin qəbul edilməsi miqrasiya proseslərinin effektiv idarə olunması üçün zəmin yaratdı. Bu tədbirlər bir daha göstərdi ki, miqrasiya siyasəti Azərbaycan hökumətinin prioritet sahəsi hesab olunur. Xüsusilə qeyd edilməlidir ki, bu tədbirlər Azərbaycan Respublikasında miqrasiya proseslərinin daha çevik və işlək mexanizmlər əsasında idarə edilməsinə, bu sahədə operativliyin təmininə və həllini gözləyən problemlərin aradan qaldırılmasına səbəb oldu, burada baş verən miqrasiya proseslərinin dinamikası barədə tam təsəvvürün yaradılmasına imkan verərək, qeyri-qanuni miqrasiya ilə mübarizə və təhlükəsizliyin təmini sahəsində müvafiq tədbirlərin görülməsi üçün əlverişli şərait yaratdı, miqrasiya sahəsində normativ hüquqi aktlarda müəyyən boşluqları aradan qaldırdı və miqrasiya qanunvericiliyini müasir tələblərə uyğunlaşdırıldı.

Şübhəsiz ki, miqrasiya proseslərində fəal və dinamik şəkildə daim hərəkətdə olan və miqrant axınının əsas hissəsini təşkil edən əmək miqrasiyasıdır. Elə müstəqillik illərində baş verən miqrasiya proseslərinin xarakterik xüsusiyyəti miqrasiya mübadiləsinin 90%-nin MDB-yə daxil olan ölkələrlə, xüsusilə də Rusiya Federasiyası və Ukrayna ilə əlaqədar olmuş və daha çox əmək miqrasiyası müstəvisində büruzə vermişdir. Belə ki, Azərbaycan Respublikasında gedən iqtisadi proseslərlə birbaşa bağlı olan əmək miqrasiyası fenomeninin təsiri nəticəsində ölkənin istər demoqrafik vəziyyətində, istərsə də etnik mənzərəsində bir sıra dəyişikliklər baş vermişdir. İqtisadi sahədə aparılan islahatların nəticələri ölkə ərazisindən gedən miqrasiya axınlarının xarakterinə təsir etdi. Bir tərəfdən, 90-cı illərdə Azərbaycan üçün xarakterik urbanizasiya (kənd əhalisinin şəhərlərə miqrasiya etməsi) 2013-cü ildən etibarən ruralizasiya ilə əvəz olunmağa başladı. Digər tərəfdən isə iqtisadi sahədə əldə olunmuş uğurlar xarici əmək miqrasiyasında iştirak edənlərin sayının azalmasına, respublikaya minlərlə xarici əmək miqrantının gəlməsinə səbəb oldu.

Potensial miqrantlarla və ölkəyə qayıtmış insanlarla söhbətlərdən məlum olur ki, onlar hər hansı bir təyinat ölkəsi seçərkən öz qərarlarını getdikləri ölkədə vəziyyətə uyğun olaraq verirlər. Bu zaman əsasən, ölkəyə daxil olmaq

qaydaları, məsafə, səfərin xərcləri, viza tələbinin olması, ölkədə qalmaq və iş tapmaq imkanları da nəzərə alınır. Rusiya Federasiyası, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və bir sıra Avropa ölkələri (xüsusilə də Almaniya, Yunanıstan, Skandinaviya ölkələri və s.) Azərbaycan əmək miqrantlarının əsas təyinat ölkələridir.

Miqrasiya proseslərinin xüsusilə əmək miqrasiyası kontekstində düzgün dəyərləndirilməsi və həmin əsasda proqnozların verilməsi üçün bu proseslərdə fəal iştirak edən əməkçi miqrantların portret cizgilərinin müəyyən edilməsi olduqca vacibdir. Aparılmış müşahidələr və təhlillərdən məlum olur ki:

- xaricdə əmək fəaliyyəti ilə məşğul olmaq məqsədilə ölkə ərazisini əsasən 20-45 yaşlarında olan şəxslər tərk edirlər;
- risk qrupuna aid edilən qaçqınlar, məcburi köçkünlər, yoxsul ailələrin üzvləri daha fəal şəkildə əmək miqrasiyasında iştirak edən insanlardır;
- əmək miqrantlarının böyük hissəsini Azərbaycanın bölgələrindən olan şəxslər təşkil edirlər;
- kişilər qadınlara nisbətən miqrasiyaya daha çox meyilli olurlar.

Bununla yanaşı, son zamanlar xarici ölkələrə səfər edən azərbaycanlı miqrantlar arasında qadınların da sayı artır. Azərbaycandan olan qadın miqrantlar əvvəllər əsasən Türkiyəyə getdikləri halda, son illər daha çox Rusiyaya üz tutduqları məlumdur. Kişi miqrantlar təyinat ölkələrində tikinti, ticarət, sənaye və humanitar sahələrdə çalışdığı halda, qadın miqrantlar isə daha çox ticarət və servis sahələrində təmsil olunurlar. Ailə, qohum və tanışlardan ibarət sosial əlaqə və şəbəkənin səviyyəsi və keyfiyyəti miqrasiya barədə verilən qərarlara təsir edən əsas amillərdən hesab edilir. Miqrantın qanuni miqrasiya ilə bağlı məlumatı və bilikləri onun hansı ölkəyə getməsini şərtləndirir. Əmək miqrantları səfər, viza və geridönmə ilə əlaqədar xərcləri nəzərə alaraq qərar verirlər. Vasitəçilər miqrasiyanın təşkil edilməsində mühüm rola malikdirlər. Vasitəçi qismində formal qeydiyyatdan keçmiş özəl məşğulluq agentlikləri və fərdi şəxslərdir. Əmək miqrantlarının əksəriyyəti təyinat ölkələrində öz ixtisaslarına uyğun olmayan işlə təmin olunurlar. Proseslərin bu səpkidə inkişaf etməsi əmək miqrantının əvvəllər malik olduqları peşə sahəsində bacarıqlarının itirilməsinə, bunun əvəzində, yeni peşə bacarıqlarının əldə olunmasına səbəb olur.

Dünyanın müxtəlif və fərqli müddətdə əmək fəaliyyəti ilə məşğul olan azərbaycanlı əmək miqrantlarının böyük əksəriyyəti müəyyən dövr keçdikdən sonra Azərbaycana qayıdırlar. Onların geri qayıtmasına: a) miqrasiya qanunvericiliyinin sərtləşdirilməsi; b) ağır iş şəraiti, aşağı məvacib; d) qeyri-qanuni status olması və qeyri-qanuni əmək fəaliyyəti ilə məşğul olması; e) iqtisadi böhranın nəticəsi olan tikinti-inşaat, istehsalat sahələrində iş yerlərinin bağlanması; f) yerli əhali arasında gəlmələrlə münasibətdə aqressiv davranışların meydana çıxması və bu əsasda təqiblərin artması kimi hadisələr səbəb

olur. Digər tərəfdən, əmək miqrantlarının səhhətində yaşanan problemlər onların geri qayıtmasına səbəb olan amildir. Lakin bu sahədə də dövlət siyasətinin fəal iştirakının ilk çalarlarını görmək mümkündür. Belə ki, 2014-cü il fevralın 28-də “Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında Saziş” imzalandı və həmin il sentyabrın 1-dən qüvvəyə mindi (7). Təkcə bu Saziş çərçivəsində 2014-2016-cı ilin birinci yarısınadək Avropa İttifaqı ərazisində qeyri-qanuni əsaslarla yaşayan 423 Azərbaycan Respublikasının vətəndaşının geri qaytarılması təmin edildi.

Azərbaycanda miqrasiya siyasəti geniş və əhatəli fəaliyyətlərlə həyata keçirilir ki, bunların arasında institusionallaşma, miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi və qeyri-qanuni miqrasiya ilə bağlı mübarizənin gücləndirilməsini göstərmək olar. Dövlət strukturları ilə yanaşı, bir sıra beynəlxalq və yerli qeyri-hökumət təşkilatları miqrasiya siyasətinin hazırlanmasında, miqrasiya proseslərinin idarə olunmasında yaxından iştirak edirlər. Bu təşkilatlar miqrant kateqoriyalarına aid edilən insanların müvəqqəti məskunlaşması, ərzaq və ilkin tələbat malları ilə təmin olunması, onlara yeni iş yerlərinin açılması və başqa sahələrdə əvəzsiz köməkliklər göstərirlər.

Son illər Azərbaycana gələn əmək miqrantlarının sayı kəskin şəkildə artmışdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi məlumatında 2017-ci ilin yanvar ayı üçün Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində 33.940 əcnəbinin qeydiyyatda olduğu göstərilir (4). Bu rəqəmlərdən bəlli olur ki, əcnəbi əmək miqrantlarının sayı ötən illərlə müqayisədə hiss olunacaq dərəcədə artmışdır. Təbii ki, bu hal əmək miqrasiyası və əmək bazarı sahəsində həyata keçirilən dövlət siyasətinin yerli işçi qüvvəsinin maraqlarına uyğun gücləndirilməsini zəruri edir. Məhz bu səbəbdən, əmək ehtiyatlarından daha dolğun istifadə etməklə, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi 2007-2015-ci illərdə icra olunmuş “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı”nın da əsas məqsədidir. Yeni müəssisələrin yaradılması, iş yerlərinin açılması, nəhəng infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində fundamental addımlar atılır. Həmin addımların nəticəsidir ki, 2016-cı ildə Azərbaycanda 100 mindən artıq yeni iş yeri açılmış (8) və ümumilikdə, 2004-cü ildən bugünədək böyük əksəriyyəti daimi əsaslarla olan yeni iş yerlərinin sayı 1,6 milyona çatmışdır.

Dünyanın bir sıra dövlətlərində baş verən miqrasiya böhranı milli hökumətlər qarşısında yeni və həllini dərhal tələb edən vəzifələrin yaranmasına səbəb olmuşdur. Bu vəzifələrin öhdəsindən gəlmək üçün bəşəriyyətin mütərəqqi qüvvələri yeni çağırışlara adekvat cavab verən yanaşmanın formalaşdırmalı və bu əsasda həm dövlətlərin, həm də miqrantların maraqlarına

uyğun siyasətinin həyata keçirilməsinə nail olmalıdır. Azərbaycan Respublikası miqrasiya sahəsində çox zəngin təcrübə toplamağa və bu sahədə özünün yeni modelini qurmağa müvəffəq oldu. Qaçqın və məcburi köçkünlərlə, sığınacaq axtaranlarla, həmçinin ölkənin hüdudları daxilində əmək fəaliyyəti ilə məşğul olan və burada yaşayan əcnəbilərlə, o cümlədən xaricdə yaşayan və orada çalışan azərbaycanlılarla bağlı həyata keçirilən siyasətin əsas komponentləri həmin modelin tərkib elementləridir. Məhz bu elementlər hesabına Azərbaycan Respublikasında miqrasiya sahəsində həyata keçirilən dövlət siyasəti miqrasiya müstəvisində büruzə verən və aktuallığı ilə xarakterizə edilən məsələləri effektiv şəkildə həll edir və daima yeni çağırışlara cavab verəcək səviyyəyə qədər təkmilləşdirir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. http://www.stat.gov.az/source/demoqraphy/.
2. Allahveranov A., Aliyeva R., Sadigov T. (2012): Social Impact of Emigration and Rural-Urban Migration in Central and Eastern Europe. Final Country report: Azerbaijan, GVG/European Commission: http://ec.europa.eu/social/BlobServlet?docId=8833&langId=en
3. Allahveranov A., Huseynov E. (2013): Costs and Benefits of Labour Mobility Between the EU and the Eastern Partnership Countries. Country Report: Azerbaijan. CASE Network Studies and Analyses, No.460/2013, Center for Social and Economic Research, W. https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=2322655.
4. Fərdi uçot sistemində qeydiyyatda olan əcnəbilərin sayı ötən il 6.078 nəfər artaraq 33.940 nəfərə çatıb: http://www.mlspp.gov.az/az/pages/17/39/ information/913.
5. Nəbiyev F. Azərbaycan miqrasiya proseslərinin yüksək səviyyədə idarə olunması əcnəbilərin ölkəmizə marağını artırıb: https://migration.gov.az/post.php?pageid=5736.
6. Nəbiyev F. Avropanın miqrant problemi qarşısında acizliyi fonunda miqrasiya sahəsində idarəetmənin mütərəqqi Azərbaycan modeli – https://migration.gov.az/post.php?pageid=5389.
7. Nəbiyev F. Miqrasiya siyasətinin həyata keçirilməsinin səmərəliliyi artırılır. https://migration.gov.az/post.php?pageid=4956.
8. Nəbiyev V., Müslümov S.: Bu il Azərbaycanda daha 154 min yeni iş yeri açılıb. http://apa.az/sosial_xeberler/bu-il-azerbaycanda-daha-154-min-yeni-is-yeri-acilib.html.

***İslam İsgəndər oğlu HİDAYƏTOV,***
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*Beynəlxalq münasibətlər və xarici siyasət kafedrası*

## Qloballaşma dövründə Azərbaycan Respublikasının miqrasiya siyasətinin milli təhlükəsizlik aspektləri

XX əsrin sonlarından başlayaraq, müasir beynəlxalq münasibətlərin əsas tendensiyalarından biri olan qloballaşma prosesi dünya politoloqlarının müzakirə mövzusuna çevrildi. Müzakirə olunan əsas mövzular sırasında: qloballaşma nədir və onun reallaşmasında obyektiv və subyektiv faktorların rolu necə müəyyən olunur; qloballaşma və milli dövlətlər; insan cəmiyyətləri, qloballaşmanın insanlıq qarşısında dayanan iqtisadi, sosial, işsizlik, siyasi inkişaf məsələlərinə təsiri; qloballaşmanı şərtləndirən onun tendensiyalarını, perspektivlərini müəyyən edən amillər; qloballaşma və antiqloballaşmanın nisbəti problemləri və s. xüsusi qeyd etmək olar.

Qloballaşma hadisəsi yeni hadisə deyil. Bəşəriyyət tarix boyu həmişə inteqrasiyaya, vahid siyasi, iqtisadi, sosial, yaxud mədəni məkanın bir hissəsi olmağa can atmışdır. Tarix belə nümunələr yaradaraq, bu və ya digər imperiyaya öz hərbi-siyasi və iqtisadi nüfuz dairəsini iki, bəzən isə üç qitəyə genişləndirmək imkanı vermişdir. Üç dünya dininin meydana gəlməsi dünya məkanının qlobal inteqrasiyasının yeni nümunəsini yaratmışdır. Qısa şəkildə demək olar ki, qloballaşmanın aşkar meyllərinə və təzahürlərinə bunlar daxildir:

1. Transmilli korporasiyaların (TMK) kütləvi surətdə yaranması və fəaliyyət göstərməsi;
2. Öz siyasi və iqtisadi maraqları olan və onları müdafiə edən qeyri-hökumət təşkilatlarının, fondların, assosiasiyaların kütləvi surətdə meydana gəlməsi;
3. Gömrük sədlərinin zəifləməsi, transmilli kapital, xidmətlər, əmtəə, işçi qüvvəsi axınının kəskin surətdə artması;
4. Yükdaşımaların, qazın, neftin nəqlinin, elektrik enerjisi ötürülməsinin transmilli dünya şəbəkəsinin yaranması;
5. Təkcə siyasi (BMT və onunla bağlı qurumlar) deyil, həm də iqtisadi (Beynəlxalq Valyuta Fondu və Dünya Bankı) münasibətlərin tənzimləyicisi kimi dövlətlərarası təsisatların yaranması və onların rolunun artması;

6. Dünya İnternet informasiya şəbəkəsinin yaranması və ondan siyasi, kommersiya, mədəniyyət, informasiya məqsədləri üçün istifadə olunması, vahid informasiya məkanının təşəkkülü;

7. Amerikan həyat tərzinin və kütləvi mədəniyyətinin dünya standartı kimi təbliği;

8. Roma klubunun qloballaşma konsepsiyalarının təbliği;

9. "Açıq cəmiyyət" ideologiyasının ixracı;

10. Liberal dövlət siyasi modelinin təbliği və yayılması və s.

Qloballaşmanın müsbət nəticələrinə bunları aid etmək olar:

a) müasir sivilizasiyanın nailiyyətlərinə qovuşma;

b) milli və etnik qapalılığın aradan qaldırılması üçün şəraitin meydana gəlməsi;

c) informasiya əldə etmək imkanlarının genişləndirilməsi;

d) yüksək əmək məhsuldarlığının təmin edilməsi və beynəlxalq əmək bölgüsü hesabına istehsal olunan məhsulun maya dəyərinin aşağı salınması,

e) transmilli inhisarların fəaliyyəti sferasına daxil olmuş əhalinin həyat səviyyəsinin yüksəldilməsi.

Lakin müsbət effektlərinə baxmayaraq, qloballaşma prosesinin mənfi nəticələri getdikcə daha tez-tez hiss olunmaqdadır. Mənfi nəticələrə ümumi şəkildə bunları aid etmək olar:

a) informasiyadan istifadə olması imkanlarının bərabərsizliyi;

b) məhsuldar kapitalla kommersiya və maliyyə kapitalı arasında güclənməkdə olan parçalanma;

c) öz suverenliyinin bir hissəsini itirməkdə olan millət-dövlətin zəifləməsi;

d) milli mədəniyyətlərin bərabərləşdirilməsi;

e) milli vətəndaş institutlarının muxtariyyatlarının məhdudlaşdırılması;

f) vətəndaşların öz hüquqlarının bir hissəsini praktik olaraq itirmələri;

g) artıq informasiya erasına daxil olmuş cəmiyyətlərlə əvvəlki tarixi mərhələlərdə inkişafdan ləngimiş cəmiyyətlər arasında ayrılığın genişlənməsi.

Müasir politoloji ədəbiyyatda qloballaşma prosesində milli mənafe anlayışından geniş istifadə olunur. Bunun səbəbi ondan ibarətdir ki, qloballaşma milli mənafeyi sıxışdırır, onu dünya maraqları ilə əvəz edir. Məhz buna görə, milli mənafe ölkənin milli təhlükəsizliyinin qorunması kimi başa düşülür. Milli mənafe dövlət siyasətinin başlıca məqsədidir, onun siyasi strategiyasıdır. Milli mənafe vətəndaşların məqsədlərini və fəaliyyətini birləşdirir, insanların fəaliyyətini, ərazinin bütövlüyünü, siyasi, mənəvi sərvətlərini qoruyur, tarixi idrak yaddaşını qaytarır, gələcək inkişaf istiqamətlərini müəyyənləşdirir, dövlətçilik inamı yaradır.

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 80-ci illərin sonu –

90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. Yeni dönəmdə Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin Dağlıq Qarabağda erməni separatizmi və Ermənistanın hərbi təcavüzü ilə dərinləşən ciddi siyasi və iqtisadi problemlərlə müşayət olunması onun diplomatiyası qarşısında çox mühüm vəzifələr qoyurdu. Təcavüzün və millətçi separatizmin qarşısını almaq, onların ağır nəticələrini aradan qaldırmaq, dövlətin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünya birliyi ilə siyasi və iqtisadi inteqrasiyaya girmək zərurəti məqsədyönlü, ardıcıl və fəal xarici siyasətin həyata keçirilməsini tələb edirdi. Hazırda müstəqil Azərbaycan Respublikasının qarşısında duran ən mühüm problemlərdən biri milli təhlükəsizliyin təmin edilməsidir. Bu məqsədlə, Azərbaycan Respublikası özünün milli təhlükəsizlik strategiyasını hazırlayır və həyata keçirir. Milli təhlükəsizlik strategiyası Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, Azərbaycan vətəndaşlarının həyatının qorunması və şəxsi təhlükəsizliyin təmin edilməsi, suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanılması, ölkənin, onun xalqının rifahının və inkişafının təmin edilməsi kimi fundamental məqsədlərə xidmət edir.

Siyasi sahədə ən böyük təhdid Ermənistanın Azərbaycana qarşı təcavüzü və ölkə ərazisinin 20%-nin Ermənistan tərəfindən işğalıdır. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı dövlətimizin həyati əhəmiyyətli milli mənafeyi olan dövlət suverenliyi və ərazi bütövlüyünü təhlükə altına qoymuşdur. Belə ki, işğal olunmuş torpaqlar faktiki olaraq, Azərbaycanın nəzarətindən kənarda qalmış və bu ərazilərdə Azərbaycan dövlətinin suveren hüquqları məhdudlaşdırılmışdır. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində 20 mindən artıq insan qətlə yetirilmiş, 50 mindən artıq insan əlil olmuş, 7 minə yaxın insan əsir və itkin düşmüş, 1 milyona yaxın Azərbaycan vətəndaşı isə öz doğma torpaqlarından qovulmuş, qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Bu münaqişə Azərbaycanın milli təhlükəsizliyi baxımdan böyük problemlər yaratmış, ölkənin ictimai həyatının bütün sahələrində, mənfi meyllərin meydana çıxmasının ən təsirli səbəblərindən birini təşkil etməklə, bütövlükdə Azərbaycanın tərəqqisi və inkişafı yolunda ən böyük problemə çevrilmişdir.

Azərbaycanın iqtisadi təhlükəsizliyi iqtisadi potensialının artırılması və bazar münasibətlərinin inkişaf etdirilməsi yolu ilə iqtisadi müstəqilliyin möhkəmləndirilməsi və sağlam milli iqtisadiyyatın yaradılması əsasında təmin edilir. Azərbaycanın malik olduğu zəngin təbii ehtiyatları, onun əlverişli coğrafi mövqeyi və tranzit imkanları ölkə iqtisadiyyatının inkişafının etibarlı vasitələrindən biri kimi çıxış edir. Xüsusilə, Azərbaycanın zəngin neft və qaz

ehtiyyatları ölkə iqtisadiyyatının bütün sahələrinin dirçəldilməsi üçün böyük imkanlar açır. Azərbaycanın Avropa ilə Asiya, şərqlə qərb arasında nəqliyyat dəhlizi rolunu oynamasına imkan verən əlverişli mövqeyi ölkə iqtisadiyyatının inkişafı üçün böyük imkanlar yaradır. Ölkənin tranzit imkanlarından düzgün və səmərəli istifadə iqtisadi təhlükəsizliyin təmin edilməsinin mühüm amillərindən biri kimi çıxış edir. Bu baxımdan, Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarına çıxaracaq Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Trans-Xəzər boru kəmərlərinin tikilişi strateji əhəmiyyət kəsb edir. Eyni zamanda Avropa-Qafqaz və Asiyanı birləşdirəcək TRASSEKA, İpək yolu kimi proyektlər də Azərbaycanın nəqliyyat infrastrukturunun yenidən qurulması və modernləşdirilməsində yeni imkanlar açaraq, son nəticədə ölkə iqtisadiyyatının bir çox sahələrdə inkişafına təkan verməkdədir. Bu layihələr Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası prosesini sürətləndirməklə, dövlətimizi beynəlxalq və regional təhlükəsizlik sisteminin mühüm tərkib hissələrindən birinə çevirməkdədir.

Beləliklə, qloballaşma və antiqloballaşma prosesi haqqında şərhlərimiz bir sıra obyektiv nəticələr çıxarmağa imkan verir. Bu proses haqda nə demək olar? Qloballaşma obyektiv yoxsa idarəolunan prosesdir? Qloballaşmanın mənfi və müsbət cəhətləri hansılardır? Proseslərdən kim daha çox faydalanır, kimlər maddi və mənəvi deqredasiyaya məruz qalır? Azərbaycanın bu prosesdə uğurları və inkişafını təhdid edən amillər hansılardır və s. bu kimi sualların cavablandırılması qloballaşma haqda fikirlərə müəyyən qədər aydınlıq gətirə bilər. Fikirlərimizi aşağıdakı formada ümumiləşdirə bilərik:

-Qloballaşma tarixi və obyektiv prosesdir, xalqlar və dövlətlər arasında əsrlərlə gedən beynəlxalq əmək bölgüsünün formalaşması və dərinləşməsi nəticəsində baş vermişdir;

-Qloballaşma istehsal münasibətlərinin dəyişməsi və inkişaf etmiş ölkələrin yeni sosial-iqtisadi münasibətlərinin vahid iqtisadi model kimi bütün dünyada tətbiqidir;

-Dünya dövlətlərinin siyasi quruluşunda baş verən dəyişikliklər, sosializmin süqutu nəticəsində ölkələrin demokratik transformasiyası, dünya siyasətinin transmilliləşməsi qloballaşmanın əsas faktorlarından biri hesab olunur;

-Qloballaşma insanların ağlının, qabiliyyətinin ümumiləşdirilməsi və bütün bəşəriyyətə müxtəlif variantlar şəklində təqdim edilməsidir;

-Qloballaşma dünyanın və insanların universallaşması, həyat tərzi və davranışların vahid standartlarının yaranması, istehsal, istehlak və ticarətin unifikasiyasıdır;

-Dünyanın vahid və universal mədəni dəyərlərə, texnologiya, nəqliyyat arteriyaları və vasitələrilə, informasiya, kommunikasiya, ticarət və maliyyə sistemi ilə bir-birinə bağlanmasının nəticəsidir;

-Dünyada yaranan ümumdünya əmtəə, xidmət və maliyyə bazarının, iqtisadiyyatın, ticarətin, əmək resurslarının, kütləvi informasiya vasitələrinin və demokratik institutların qloballaşması və s.

Qloballaşma prosesi müasir dövrdə bütün dünyanı əhatə edən prosesdir. İqtisadi sahədə inteqrasiya, transmilli korporasiyaların genişlənməsi, nəqliyyat dəhlizlərinin açılması qloballaşmanın mühüm göstəriciləridir. İnkişafla yanaşı müasir dünyada problemlər də yaranır. Problemlərin bir-iki dövlət tərəfindən həll edilməsi mümkün deyildir. Yaranmış problemlər dünyanın qabaqcıl ölkələrinin iştirakı ilə həll oluna bilər. Qloballaşma vasitəsi ilə dünyanı təhlükəli vəziyyətdən qurtarmaq mümkündür. Dünya üçün təhlükəli vəziyyətlərdən biri də bir çox dövlətlərin bir-biri ilə münaqişəsidir. Qloballaşma iqtisadi inteqrasiya münaqişələrinin aradan qaldırılmasına imkan verir. Lakin müsbət cəhətlərlə yanaşı qloballaşmanın mənfi cəhətləri də vardır. Qloballaşma nəticəsində əldə olunan gəlir inkişaf etmiş ölkələr tərəfindən mənimsənilir, orta və kiçik dövlətlər isə daha da kasıblaşır. Azərbaycan dövləti müstəqillik qazandıqdan sonra beynəlxalq hüququn subyekti kimi dövlətin suverenliyi və müstəqilliyinin qorunub saxlanılması, onun möhkəmləndirilməsi kimi fundamental və təxirəsalınmaz vəzifələrlə qarşılaşdı. Bu vəzifələr yalnız Azərbaycanın milli mənafeyinin təmin edilməsinə yönəlmiş düzgün daxili və xarici siyasət strategiyasının hazırlanması və həyata keçirilməsi, milli mənafelərin qorunmasının etibarlı sisteminin yaradılması ilə reallaşdırıla bilər. Azərbaycanın milli mənafeləri onun beynəlxalq hüququn azad və suveren subyekti kimi mövcudluğu və inkişafının obyektiv tələbatlarından irəli gəlməklə, reallaşdırılması və təmin edilməsini tələb edir. Bu baxımdan, insanın cəmiyyəti və dövlətin təhlükəsiz yaşayışını və inkişafını təmin edən həyati əhəmiyyətli milli mənafelər sıralamada birinci yerdə durur. Bu mənafeləri təmin etmədən dövlətdə və cəmiyyətdə sabitlik yaratmaq, onun normal inkişafına nail olmaq olmaz. Azərbaycanın milli mənafelərinin reallaşdırılması ilk növbədə təhlükəsizlik şəraitinin yaradılmasını, dövlətin müstəqilliyinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün bütün istiqamətlərdə və formada milli təhlükəsizliyin təmin edilməsini tələb edir. Milli təhlükəsizliyin təmin edilməsi ölkənin inkişaf səviyyəsi, onun şəxsiyyətin, cəmiyyətin və dövlətin inkişaf üçün bütün zəruri şərtləri yaratmaq qabiliyyəti ilə xarakterizə olunur. Bu baxımdan müasir şəraitdə Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsi, şəxsiyyətin, cəmiyyətin və dövlətin normal inkişafına etibarlı təminat yaratmağa qadir olan bütün aspektlərin paralel inkişafına nail olmağı, onun siyasi, iqtisadi, sosial, hərbi, informasiya, elmi-texniki, mənəvi-mədəni və s. əsaslarının yaradılmasını tələb edir.

Qloballaşmanın mənfi təsirlərini aradan qaldırmaq, miqrasiya sahəsində dövlət siyasətini, miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 19

mart 2007-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti yaradılmışdır. Xidmətin həyata keçirdiyi tədbirlər sırasına miqrasiya proseslərinin təhlili, proqnozlaşdırılması və monitorinqinin təşkili, miqrasiya sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, immiqrant statusunun verilməsi, o cümlədən vətəndaşlıq, qaçqın statusunun müəyyənləşdirilməsi kimi məsələlər daxildir. Yuxarıda sadalanan işləri həyata keçirmək üçün Dövlət Miqrasiya Xidməti Daxili İşlər, Xarici İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, digər mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə fəaliyyət göstərir və bu orqanların fəaliyyətini əlaqələndirir. Keçən on il ərzində Azərbaycan Respublikasında miqrasiya proseslərinin tənzimlənməsinin Dövlət Miqrasiya Xidmətinin nümunəsində vahid dövlət orqanı tərəfindən həyata keçirilməsi ölkəmizin milli təhlükəsizliyinin, milli maraqlarının, iqtisadi sahədə daxili əmək bazarının qorunmasında, qanunsuz miqrasiya, insan alverinin mənfi təzahürlərinə qarşı mübarizə sahəsində müsbət nəticələr əldə etməyə imkan vermişdir. Mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, sahəvi normativ hüquqi aktların unifikasiya edilərək, daha da inkişaf etdirilməsi sayəsində əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələrinin həyata keçirilməsinə geniş imkanlar yaradılmışdır. Eyni zamanda, keçən dövr ərzində miqrasiya sahəsində qabaqcıl dünya ölkələrinin müasir hüquqi və praktiki fəaliyyətləri öyrənilərək, yerli şəraitə uyğunlaşdırılaraq, milli maraqlar nəzərə alınmaqla, geniş tətbiq edilir. Böyük imkanlara malik olan vahid elektron informasiya sistemlərinin yaradılaraq tətbiq edilməsinin uğurlu nəticəsi olaraq çoxaspektli, hərtərəfli və dəqiq miqrasiya uçotu aparılmış, əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə bağlı geniş məlumat bazası yaradılmışdır. Beynəlxalq sahədə bağlanmış readmissiya sazişləri sayəsində emiqrasiya etdikləri ölkələrdə qanunsuz yaşayan Azərbaycan Respublikası vətəndaşlarının vətənə qayıtmalarına şərait yaradılmışdır. İndiyədək görülən və hazırda uğurla davam etdirilən məqsədyönlü, ardıcıl tədbirlər nəticəsində Azərbaycan Respublikasının miqrasiya siyasəti ölkənin ümumi inkişafının xarakterinə uyğunlaşdırılaraq uğurlu vəhdət əldə edilmişdir.

Azərbaycanın əlverişli geosiyasi mövqeyi və zəngin karbohidrogen ehtiyatları onun milli təhlükəsizliyinin etibarlı təminatının yaradılmasının mühüm amillərindən biri kimi çıxış edir. Azərbaycanı qərb dövlətlərinə maraqlı edən neft amilinə təkcə iqtisadi yönümdən qiymət verməyib, xüsusilə də, siyasi-hərbi nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Başqa sözlə, neft diplomatiyasının uğurlu gedişləri respublikamızda təkcə iqtisadi sosial problemlərin həllinə deyil, habelə, hərbi potensialın artırılmasında, regional və beynəlxalq təşkilatlarla əməkdaşlığının genişləndirilməsində, müstəqil Azərbaycanın etibarlı tərəfdarlar qazanmasında mühüm rol oynamaqla, regionda ölkənin

siyasi iqtisadi üstünlüyünün təmin edilməsinin əsas amillərindən biri kimi çıxış edir. Qloballaşma probleminin elmi aktuallığı barədə bir şeyi əminliklə deyə bilərik. Qloballaşma haqqında bütün yazılanlar heç də son hədd deyil və zaman keçdikcə, dəyişən şəraitə uyğun olaraq, bu problem yenə də yeni çalarları ilə birgə araşdırılacaq, müəllim və tələbələri, elmi ictimaiyyəti düşündürən əsas mövzulardan biri kimi öz əhəmiyyətini saxlayacaqdır.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitutsiyası.
2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi.
3. Azərbaycan Respublikasının qanunvericilik toplusu. Parlament. B. 1999. 238 səh.
4. Azərbaycan Respublikası hökuməti ilə Ümumdünya iqtisadi formu (Davos formu) arasında mövcud əməkdaşlıq əlaqəsi. B. 2008.
5. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanunu. B.: Qanun. 2004.
6. Həsənov Ə. Azərbaycanın xarici siyasəti. Avropa dövlətləri və ABŞ. B.: Azərnəşr. 1998. 315 səh.
7. Həsənov Ə. Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B.: Azərnəşr. 2006. 725 səh.
8. Həsənov Ə. Geosiyasət. "Aypara. B. 2010.
9. Şükürov A. Fəlsəfə və qloballaşma. B. 2001.
10. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. B.: BDU Nəşriyyatı. 2005. 544 səh.
11. www.president.az.
12. www.migration.gov.az.

***Xəyalə Akif qızı MƏMMƏDOVA,***
*PhD, Xəzər Universiteti*

## Qloballaşma dövründə miqrasiya: nəzəriyyə və təhlillər

Miqrasiya və onu yaradan səbəblərin araşdırılması, dünya dövlətləri tərəfindən miqrasiya proseslərinin tənzimlənməsi sahəsində lazımi qaydaların müəyyənləşdirilməsi qloballaşma dövrünün vacib və aktual məsələlərdən birinə çevrilmişdir. Layiqli həyat, iş axtarışında olan insanların əmək haqqı və əmək şəraiti yüksək olan dövlətlərə can atmalarının tarixi qədim dövrlərə gedib çıxır. Tarixə nəzər salsaq, hələ ötən əsrin 70-ci illərindən etibarən inkişaf etmiş ölkələrə, xüsusilə Avropaya və Amerika Birləşmiş Ştatlarına miqrasiya axınının intensivləşdiyini görərik. Beynəlxalq miqrasiya anlayışının mahiyyəti insanların vətəndaşı olduqları və yaşadıqları ölkədən ayrılıb, daha yaxşı şərtlərdə yaşamaq düşüncəsi ilə başqa ölkəyə köçməsi kimi açıqlanır. Ancaq bu həqiqət günümüzdə dəyişikliyə uğrayır desək, yanılmarıq. Qloballaşma prosesi beynəlxalq miqrasiyanın günü-gündən fərqli istiqamətlərə doğru inkişaf etməsinə və inkişaf etmiş ölkələrdən digər ölkələrə miqrasiyanın meydana gəlməsinə səbəb olur. Qloballaşma ilə birlikdə, ölkələrarası əlaqələrin artması, rabitə və nəqliyyat sahəsində inkişaf edən texnoloji inkişaf, iş, turizm və təhsil məqsədi ilə həyata keçirilən səyahətlər milyonlarla insanın miqrasiya etməsinə zəmin yaradır. Müasir dövlətlərarası münasibətlər sistemində qeyri-qanuni miqrantların statusunun tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Bütün dövlətləri əhatə edən qeyri-qanuni miqrasiyanın geniş vüsət alması bu problemin həllinin əhəmiyyətini daha da artırır. Beynəlxalq miqrasiya 80-ci illərin sonu 90-cı illərin əvvəllərində yeni fazaya daxil oldu və bu müasir miqrasiya dalğası: onun genişlənmiş ölçüləri və intensivliyi; miqrantların cins, yaş və təsnifat strukturunun dəyişməsi; miqrantlar sırasında qaçqınların sayının kəskin artması kimi xüsusiyyətləri ilə səciyyələnir. Beynəlxalq Əmək təşkilatları və qurumlar tərəfindən aparılan tədqiqat işləri də onu sübut edir ki, miqrant işçilər aşağı zəhmət haqqı, pis iş şəraiti, sosial müdafiənin olmaması kimi son dərəcə ağır problemlərlə üzləşirlər. Miqrant işçilər tez-tez 3D (*difficult, dangerous, degradin*) –çətin, təhlükəli və alçaldıcı işi icra edirlər.

**Miqrant işçilərin hüquqlarının qorunması = bütün işçilərin hüquqlarının qorunması**

Təbii ki, əhalinin yerdəyişməsinin baş verməsi üçün müəyyən təsiredici səbəblər olmalıdır. Bu səbəbləri 2 qrupa bölmək olar: 1) iqtisadi-sosial; 2) qeyri-iqtisadi sosial.

İqtisadi-sosial amillərə yaşayış səviyyəsinin aşağı olması, işsizlik, əmək haqqının azlığı, yaşayış tərzləri arasındakı fərqlər və s. daxildir. Qeyri-iqtisadi amillər sırasına isə müharibələri, zəlzələləri, xəstəlikləri, dini və irqi ayrı-seçkiliklər zəminində münaqişələri, siyasi baxışların müxtəlifliyi, aclığı, iqlim əlverişsizliyini, köçəri həyat tərzini və s. daxil etmək olar. (7) *(Şəkil, 1.)*




***Şəkil 1****.Miqrasiyanın müxtəlif növləri (Qanuni və qeyri-qanuni miqrasiya, insan alveri və qaçaqmalçılıq arasında qarşılıqlı əlaqələr)*

Miqrasiya prosesi aşağıdakı mərhələlərdən ibarətdir:




Aydındır ki, miqrasiya hər şeydən əvvəl əmək məsələsidir və miqrasiya proseslərinə nəzarətin edilməsi beynəlxalq səviyyədə ictimai-siyasi sabitliyin qorunmasında böyük rol oynayır. Miqrasiya axınları yalnız milli səviyyədə deyil, həmçinin regional və qlobal səviyyədə üçtərəfli formada idarə olunmalıdır. Əks halda, miqrasiya siyasətinin tənzimlənməsi və bu proseslərlə bağlı qəbul olunan qanunlar səmərəsiz ola bilər.

**Miqrasiya Avropada ən mürəkkəb problem kimi.** Miqrant axınlarının cəmiyyətin sosial infrastrukturuna və vəziyyətinə təzyiqi nəticəsində yaranan təhlükələr müasir Avropanın ən mürəkkəb problemləri sırasındadır. 1970-ci illərin əvvəllərində Avropada müvəqqəti miqrant işçi proqramlarının başa çatmasına baxmayaraq, üçüncü ölkə vətəndaşlarının miqrasiya prosesi hələ də davam edir. Avropada bugünkü miqrasiya sistemlərinə baxdıqda, bir çox ölkələrdə miqrant işçilərin işləmək və yaşamaq icazəsinin bir ya da iki illə məhdudlaşdırılmış şəkildə həyata keçirildiyini görə bilərik. Son dövrdə isə sirkulyar miqrasiya anlayışının meydana çıxması ilə bərabər, məhdudlaşdırılan miqrasiya prosesi bu yeni anlayışla əvəzlənməyə başlanmışdır. Sirkulyar miqrasiya, bir tərəfdən işçi göndərən ölkə və digər tərəfdən işlənəcək olan ölkə arasında davamlı olaraq, gediş-dönüşdən ibarət olan bir sistem, eyni zamanda isə sadəcə gəliş və dönüşdən ibarət olan, davamlılığı olmayan bir proses kimi ifadə edilir. Avropa Şurasının 2006-cı ildə sirkulyar miqrasiyanın həyata keçirilməsini mümkün hala gətirəcək vasitələrin araşdırılması mövzusunda işə başlaması nəticəsində, 2007-ci ildə hazırladığı təbliğatında sirkulyar miqrasiyanı müəyyən bir mərhələyə qədər gediş və dönüş istiqamətində həyata keçirən miqrasiya forması olaraq tanıtmışdır. Müvəqqəti və sirkulyar miqrasiya anlayışları Avropanın əsas mövzularından biri səviyyəsinə gəlmişdir.

Bunun səbəbi isə Avropanın son dövrdə yaşamaqda olduğu demoqrafik dəyişmə nəticəsində, getdikcə artan yaşlı əhali və iş həyatında azalan əhali nisbətləridir. Bu da çalışan əhalinin yaşlı əhalini nə dərəcədə dəstəkləyəcəyinə, təqaüd aylıqlarının, sosial müavinətlərin və digər ictimai-sosial xidmətlərin necə ödəniləcəyinə aid vacib qayğıları da özü ilə bərabər gətimişdir. Avropanın bu gün 240 milyon olan aktiv işçi qüvvəsinin 2050-ci ildə 207 milyona düşməsi nəzərdə tutulur. AB-nə üçüncü ölkələrdən həyata keçirilən miqrasiyaların qarşısı alınsa, bu rəqəmin 169 milyona düşəcəyi təxmin edilir. Bu gün yaşı 65-dən

yuxarı olan əhali/ işləyən əhaliyə nisbəti ¼ ikən 2050-ci ildə isə bu rəqəmin ½ olması gözlənilir. Bu hesablamalar önümüzdəki dövrdə Avropanın yaşlanan əhalisi və azalan işçi qüvvəsi ilə nisbətində mövcud sosial və iqtisadi tarazlığını qoruya bilməsi üçün miqrant işçi qüvvəsinə ehtiyac duyacağı təxmin edilir. Yuxarıda bəhs etdiyimiz demoqrafik problemlərə bir həll yolu olsun deyə, Avropa pensiya yaşının yüksəltməyi, qadın, kişi və uzunmüddətli işsizlərin iş həyatında iştirak nisbətlərini artırmağı, aktiv proqramların həyata keçirilməsi vasitəsilə doğum nisbətlərini artırmasını düşünür. Bu həll yollarından digəri də miqrasiya nisbətlərinin artırılması mövzusudur ki, bu da çox həssas və işlənilməsi xüsusi diqqət tələb edən bir məsələdir. Bu məsələyə bu cür həssas yanaşılmasının səbəbi Qərbi Avropa ölkələrində II Dünya müharibəsinin sonundan 1973-cü ilədək baş verən neft böhranı əmək ehtiyaclarını qarşılamaq üçün "qonaq işçi" (*guest worker*) proqramları vasitəsilə İtaliya, Yunanıstan, İspaniya, Portuqaliya, Türkiyə, Yuqoslaviya və Şimali Afrika ölkələri ilə ikitərəfli razılaşmalar əldə olunaraq, ölkələrinə işçi qəbul etmələri nəticəsində yaşadıqları təcrübədən irəli gəlir. Rotasiya prinsipi əsasında hazırlanmış "qonaq işçi" sistemində, yaşlanan işçi qüvvəsinin gəldiyi ölkəyə geri dönməsi və yerinə gənc işçi qüvvəsinin gəlməsi planlaşdırılır. Əvvəldən planlaşdırılaraq həyata keçirilən bu miqrasiya prosesi 1973-ci ildəki neft böhranı ilə əlaqədar olaraq, işçilərin ölkələrinə geri dönmələri ilə bir daha işlədikləri ölkəyə yenidən gələ bilməyəcəyi düşüncəsi və ölkədə böhranın aradan qalxmasına qədər onlara qalmağa qərar vermələri nəticəsində, bu proses yerləşmə halına çevrilmişdir. Bu vəziyyət qiymətləndirildiyində, miqrant işçilərin geri qayıtmalarına təşviq edəcək mexanizmlərin olmaması və siyasətçilərin, işəgötürənlərin davamlı işçi dəyişməsinin gətirdiyi əlavə xərclərdən şikayətçi olmaları, bunun nəticəsində işçilərə mütəmadi iş icazəsinin verilmiş olması, müvəqqəti işçi kimi gəlmiş işçilərin ölkədə qalmasının asanlaşmış olması kimi ifadə edilir. Həyata keçirilən bu siyasətin bir miqrasiya çalışması, yoxsa bir miqrant çalışması olduğu dəqiq şəkildə müəyyən edilməlidir. Miqrasiya və miqrant əlaqələrinin problemli, dolaşıq və qavranılmasının çətin bir hala gəlməsi açıq bir həqiqətdir. Bu da danılmaz bir faktdır ki, qloballaşma prosesi miqrasiya və miqrant əlaqələrinin yüksək səviyyədə qurulmasını daha da təcrübəli hala gətirir.

**Miqrasiya nəzəriyyələrnin fərqi və tətbiqi.** "Miqrasiya" anlayışının ilk elmi tərifini 1885-1889-cu illərdə Qərb sosioloqu E.Ravenşteyn vermiş, nəzəri əsaslarını və qanunauyğunluqlarını müəyyən etmişdir. E.Ravenşteynin miqrasiya qanunları William Farr-ın miqrasiya haqqındakı düşüncələrini alt-üst etmişdir. Belə ki, Farr "miqrasiyanın, heç bir kəsin qanuna bağlı olmadan getməsi və yaşaması" (3) fikrini yürüdürdü. Bu çərçivədə, E.Ravenşteynin göstərdiyi səy, miqrasiya faktının beynəlxalq ümumi qanunlarına tabe olması kimi dəyərləndirildi. E.Ravenşteyn öz araşdırmasını 1871-ci və 1881-ci ilin ingilis əhalisinin statistik göstəricilərinin əsasında yazmış və bu məlumatlardan istifadə edərək, yeddi

miqrasiya qanunu hazırlamışdır. E.Ravenşteynin bu qanunlarının yüksək dərəcədə qiymətləndirilməsinin səbəbi, bundan sonra yazılacaq miqrasiya qanunlarına və modellərinə rəhbərlik etməsi idi.

**Miqrant işçilərə hüquqi əsaslı yanaşma bütün işçilərin qorunmasının ən yaxşı üsuludur.**

Çünki E.Ravenşteynin 1885-ci ildə nəşr olunan bu araşdırması, miqrasiya ilə əlaqədar olan ilk addım kimi tanınırdı, həmin dövr və daha sonrakı illər üçün həyata keçiriləcək olan miqrasiya araşdırmaları ilə bağlı önəmli bir xüsusiyyət daşıyırdı. Araşdırmanın nəzəri baxımdan analizi sənayeləşmə və şəhərləşmə faktorları əsasında yazılmış və 19-cu əsrin sonlarına yaxın bu sahədə baş verən inkişaf mərhələləri araşdırmanın əsas mahiyyətini təşkil etmişdir. Belə bir zamanda, araşdırma aparan E.Ravenşteyn 1885-ci və 1889-cu illərdə nəşr etdirdiyi "Miqrasiya Qanunları" (*The Laws of Migration*) başlıqlı iki məqaləsində müəyyən etdiyi 7 miqrasiya qanununu müzakirəyə çıxartmışdır: (4, səh 14)

1. Miqrasiya və məsafə haqqında; 2. Miqrasiya və mərhələləri haqqında; 3. Miqrasiyanın yayılması və oturuşması haqqında; 4. Miqrasiya zəncirləri haqqında; 5. Birbaşa miqrasiya haqqında, 6. Kənd və şəhərlərdə məskunlaşanların fərqi haqqında; 7. Miqrasiyada qadın və kişinin fərqi haqqında.

E.Ravenşteynin miqrasiya qanunları, dövrünə aid iqtisadi inkişaf göstəriciləri haqqında əsaslı məlumat versə də, günümüzdə daha vacib və önəmli bir mövzu olan miqrasiya problemlərinin həllində qeyri-kafi səviyyəsində qalmaqdadır. E.Ravenşteynin ortaya qoyduğu miqrasiya qanunlarının üstünlüyü, bundan sonra meydana çıxan miqrasiya işləri ilə bağlı yaranan miqrasiya nəzəriyyələrinə və modellərinə zəmin yaratmasıdır.

**Uzaqlaşdırma və cəzbetmə qaydası:** Bu qaydanın düsturunu və məzmununu ilk olaraq, 1966-ci ildə Everett Lee yazmışdır. Lakin daha sonrakı illərdə bu qaydaya müxtəlif insanlar fərqli əlavələr olunmuş və inkişaf etdirilmişdir. Lee 1966-ci ildə "Miqrasiya nəzəriyyəsi" (*A Theory of Migration*) adı ilə nəşr etdirdiyi məqaləsində E.Ravenşteynin işinə istinad edərək, araşdırma aparmışdır. (6, s.16). Lee ilk dəfə miqrantların xarakterik olaraq ortaq xüsusiyyətlərini ortaya qoymağa çalışmış və bunun üçün də miqrasiyaya aid uzaqlaşdırırcı və cəzbedici faktorları təyin etmiş, araşdırmasına dörd təməl faktoru təyin etmişdir. Bunlar: 1) yaşadıqları yerlə bağlı faktorlar; 2) gedilməsi düşünülən yerlə bağlı faktorlar; 3) işə mane olan əngəllər; 4) fərdi faktorlardır. Leenin öz qaydasına aid olaraq təyin etdiyi bu faktorlar, "Uzaqlaşdırma və cəzbetmə" qaydasının əsasını təşkil edir.

Qloballaşma prosesi miqrasiya prosesinin həyata keçirilməsində təsiri olmuş və miqrasiyanın yeni formalarını üzə çıxarmışdır. Məsələn, beynəlxalq miqrasiyanın siyası quruluşu, iqtisadi əsaslı miqrasiyaların sənayeləşmiş ölkələrə doğru istiqamətlənməsi, beynəlxalq miqrasiyanın yeni formaları, eyni

zamanda, miqrantların üz tutduqları olkələrdəki uyğunlaşma problemləri qloballaşma prosesi ilə birlikdə yeni bir ölçü qazanmışdır. Bütün bu faktorlar miqrasiya işlərini alt-üst etməklə yanaşı, miqrasiya və miqrant nəzəriyyəsinin yaradılması qarşısında bir maneə təşkil etməkdədir. Belə bir faktorları əhatə edən, Miqrasiya nəzəriyyəsinin yaranması üçün digər bir maneə, miqrasiya faktının dinamik bir şəkildə davamlı yenilənən bir struktur olaraq ortaya çıxmasıdır. Bu məqamda, qloballaşmanın miqrasiya faktını və müddətini dinamik edən bir faktor olması yaddan çıxarılmamalıdır. Günümüzdə mövcud olan bu faktor miqrasiya edən kimsənin kim olduğundan başlayaraq, miqrasiya edilən yerin xüsusiyyətlərinə qədər, bu sahə üzrə araşdırma aparan elmi araşdırmacıların ümumiləşdirilmiş ehtimallarını belə zəiflədə bilir. Bu səbəbdən, kompleksləşən struktur həyata keçirilən işlərdə miqrasiya və miqrasiya bölgülərini yox etmək dərəcəsinə gətirir. Beləliklə, insan fəaliyyətinin müxtəlif təzahürləri baxımından, miqrasiyanın mahiyyəti və sosial-ictimai əhəmiyyəti nəzərdən keçirildikdə, miqrasiya anlayışının, onun növlərinin nəzəri təhlili bir daha onu göstərir ki, müasir dünyada qloballaşma şəraitində baş verən miqrasiya proseslərinin tədqiqi və tənzimlənməsi olduqca vacib bir məsələdir.

**Ədəbiyyat:**

1. Crisp J. (2006). Policy Challenges of the New Diasporas: Migrant Networks and Their Impact on Asylum Flows and Regimes. www.jstor.org.
2. Friedman, J. (2003). Eski Dünya Sistemlerinde “Sermaye” Emperyalizmi ve Sömürü. Dünya Sistemi. (Der. Frank, G. Gills, B. İmge). Ankara.
3. Corbett J. (2005). Ernest George Ravenstein: The Laws of Migration 1885. http://www.csiss.org/classics/content/90.
4. Jackson J.A. (1986), Migration., New York: Logman.
5. Jansen C.J. (1970). Migration: A Social Problem. Readings in the Sociology of Migration. New York: Pergamon Press. Pages 12-37.
6. Jackson, J. A. (1986), Migration, Logman, New York.
7. Todaro, M. P. (1980), Internal Migration in Developing Countries, International Labour Office. Geneva. Pages, 10-67.
8. Гольдин Г. Миграция населения: проблемы политико-правового регулирования. Ав-реф. дис. на соиск. уч. ст. док. полит. наук. Москва, 2001, 46с.
9. “Международная миграция”. Научная студенческая конференция. МГИМО (университет) Мид России, Москва, 2013, с.3-4.
10. United Nations High Commission for Refugees, 2015 report.

***Nəriman Əziz oğlu PAŞAYEV,***
*AMEA Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*

# Müasir miqrasiya formalarının elmi-nəzəri əsasları və Azərbaycan ərazisində əhali miqrasiyasının yaratdığı iqtisadi-coğrafi problemlərin tədqiqi

Əhalinin miqrasiyası (latınca "migratio" –"köçmə") yaşayış yerini daimi və ya müvəqqəti dəyişməklə bağlı bu və ya digər ərazilərin sərhədlərini keçmək deməkdir. Bəzən onu qeyd etmək üçün "əhalinin mexaniki hərəkəti" (onun təbii hərəkətindən fərqli olaraq) terminindən istifadə edirlər. Əhalinin ölkə hüdudlarından xaricə getmələri emiqrasiya, başqa ölkələrdən bu ölkəyə köçüb gəlmələr immiqrasiya, ölkə hüdudundan xaricə gedənlərin sonradan vətənə qayıtmaları reemmiqrasiya, əsirlikdən və ya məcburi köçürülmədən sonra vətənə qayıtmalar repressiya adlandırılır (14).

Öz növbəsində əhalinin beynəlxalq miqrasiyası bir neçə müxtəlif meyarla təsnif edilir. Bu baxımdan, əhali köçürülmələri, deportasiyalar, köçkünlük və əhali yerdəyişmələrinin iqtisadi-sosial coğrafi problemlərinin tədqiqi ilk növbədə anlayışların elmi problematikası, proseslərin xüsusiyyətləri və tipologiyası ilə bağlı bir sıra nəzəri-metodoloji aspektlərə münasibət tələb edir.

Qeyd etmək lazımdır ki, köçürülmə, deportasiya, köçkün, qaçqın, didərgin anlayışları eyni adlı proseslərin mühüm xassələri, əsas cəhətləri və əlamətlərinin məcmusunu ifadə edir. Köçürülmə, köçkünlük, qaçqınlıq və didərginlik anlayışlarının aşkar əyaniliyi isə arxaik xüsusiyyət daşımalarından irəli gəlir. Çünki ictimai, iqtisadi inkişafın aşağı pilləsində olan cəmiyyətlərdə anlayışlar daha əyani olmaqla, insanların təsəvvürlərinə daha yaxın olmuşdur. Deportasiya məfhumu isə Azərbaycan elminin leksikonu üçün yeni bir termindir.

Ümumiyyətlə, bir çox ədəbiyyatlarda motivlərindən, stimullarından və digər kriteriyalarından asılı olmayaraq, əhalinin hər cür məkan yerdəyişmələri ümumi miqrasiya məfhumu altında nəzərdən keçirilsə də, bu məfhumun təsvirinə birmənalı münasibət olmamışdır. S.A.Kovalyov, N.Y.Kovalskayanın qənaətlərinə görə, miqrasiyalar ayrı-ayrı ərazilər və məntəqələr arasında əhalinin məkan yerdəyişmələrinin müxtəlif formalarını əhatə edir. S.Kovalyov və N.Kovalskayanın əhalinin məkan yerdəyişmələrinin müxtəlif formaları içərisində yaşayış yerlərinin birdəfəlik və ya az-çox uzun müddətə dəyişməklə, sərhədaşırı (istər inzibati, istərsə də dövlət sərhədi) əhali yerdəyişmələrini

miqrasiya adlandırırlar. Onun qənaətinə görə, miqrasiyalar ayrı-ayrı ərazilər və məntəqələr arasında əhalinin məkan yerdəyişmələrinin müxtəlif formalarını əhatə edir. Tədqiqatçı əhalinin məkan yerdəyimələrinin müxtəlif formaları içərisində yaşayış yerlərinin birdəfəlik, yaxud xeyli uzun müddətə dəyişmələri ilə bağlı yerdəyişmələri; müvəqqəti və mövsümi yerdəyişmələri; bir yaşayış məntəqəsindən digərinə işə getmələri və s. qeyd edir (13).

Əhali mütəxəssislərinin əksəriyyəti V.V.Pokşişevskinin miqrasiyalara dair təfsirinə daha üstünlük verirlər. V.V.Pokşişevskiyə görə, "yalnız daimi yaşayış yerlərinin dəyişilməsi ilə əlaqədar olan əhali yerdəyişmələrini miqrasiyalara aid etmək olar. Şəhər kənarı sakinlərin iş üçün, yaxud gündəlik işləmək üçün yaxınlıqdakı şəhərlərə və geriyə qısa müddətli hərəkətlərini isə miqrasiya hesab etmək olmaz (15).

Polşa coğrafiyaçısı A.Yagelski miqrasiya məfhumunu fərqli olaraq, geniş və dar mənada fərqləndirir. Geniş mənada miqrasiya məfhumuna əhalinin hər cür məkan yerdəyişmələrinin məcmusu daxil edilir. Buraya, həmçinin şəhər əhalisinin gündəlik miqrasiyaları, iş yerlərinə və geriyə yerdəyişmələr, ticarət məqsədli gedişlər, əhalinin istirahəti ilə bağlı mövsümi miqrasiyalar da aid edilir. Dar, yaxud xüsusi mənada miqrasiya məfhumuna isə əhali köçmələri və köçürülmələri məcmusu, başqa sözlə, əhali tərəfindən yaşayış yerlərinin nisbətən uzun müddətə dəyişilməsi ilə bağlı olan ərazi üzrə məkan yerdəyişmələri daxil edilir (19).

Göründüyü kimi, qeyd edilən müəlliflər miqrasiya məfhumu üçün konkret kriteriya təklif etmir, təsvirlər isə köçürülmə, deportasiya, qaçqınlıq, köçkünlük və digər qəbildən olan proseslərin yalnız zahiri tərəfini bu və ya digər dərəcədə əks etdirir. Bütövlükdə isə proseslərin əsas cəhət və əlamətlərini əyani şəkildə ifadə etmir. Bunun üçün, hesab edirik ki, miqrasiyalar üçün konkret kriteriya məfhumun klassik mənasında ifadə olunmuşdur. Bu baxımdan, əhalinin hər cür mexaniki məkan yerdəyişmələri deyil, yalnız köçürülmə, köçmə ilə bağlı ərazi yerdəyişmələri miqrasiyalara aid edilməlidir. Digər tərəfdən, bir sutkadan artıq olmaqla, əhali yerdəyişmələrinin miqrasiya hesab edilməsi və ümumiyyətlə, prosesin davamlılığının miqrasiyalar üçün kriteriya seçilməsi prinsipial əhəmiyyət daşımır. Çünki insanları daimi yaşayış yerlərini tərk etməyə (köçməyə, köçürülməyə, qaçqın və ya köçkün düşməyə) sövq etmiş stimullar aradan qalxmayınca, onların əvvəlki yaşayış yerlərinə tezliklə təkrar köçüb gəlmələri real deyil. Müşahidələr göstərir ki, itələyici stimullar sutkalarla deyil, aylarla və əksər hallarda illərlə öz təsir qüvvəsində qalır.

Qeyd edilən prinsipləri nəzərə alaraq, hesab edirik ki, miqrasiyalar (klassik mənada) müxtəlif xarakterli stimullardan təzahür edən və bilavasitə köcmə və ya köçürülmələrlə müşayiət olunan, əhalinin ərazi yerdəyişmələri məcmusudur.

Əhali miqrasiyaları tarixinin təhlili göstərir ki, dünyada baş vermiş miqrasiyalar real olaraq: a) köçmələr; b) köçürülmələr; c) deportasiya və repressiyalar; ç) köçkünlük və d) qaçqınlıq formalarında təzahür etmişdir.

Miqrasiyaların bütövlükdə müxtəlif əlamətlərə görə (istiqamətinə, davamlığına, formasına, səbəblərinə və s.) təsnifatı verilə bilər. Lakin hesab edirik ki, əhalinin daimi yaşayış yerlərini tərk etmələrində itələyici effekt rolu oynamış stimulların nomenklatur tərkibinə görə, tipoloji təsnifatının verilməsi daha prinsipial elmi əhəmiyyət kəsb edir. Yalnız bu cür təsnifatda məcburi köçürülmələrin, deportasiyaların, qaçqınlıq və köçkünlük proses lərinin miqrasiya sistemindəki mövqeyini aşkar etmək olar.

Faktiki olaraq, köçürülmələr, deportasiyalar, qaçqınlıq və köçkünlük prosesləri müxtəlif ölkə alimlərinin miqrasiyaların səbəblərinə görə verdikləri təsnifatda: a) təbii; b) iqtisadi; c) demoqrafik; ç) etnik; d) sosial-psixoloji; e) siyasi –formasına görə: a) könüllü (kortəbii və mütəşəkkil); b) məcburi miqrasiya tipləri fərqləndirilsə də, buradakı etnik, siyasi və məcburi miqrasiyalar bir qayda olaraq sosializmdən əvvəlki formasiyalara aid edilir. A.Yagelski Sovet alimlərindən fərqli olaraq, kütləvi köçkünlüyü, məcburi köçürülmələri və müharibəyə cəlb edilmiş rayonlardan kütləvi qaçqınlığı siyasi motivli miqrasiyalara aid etməklə, onları müasir miqrasiya proseslərinə xas olan əsas xüsusiyyətlərdən biri kimi səciyyələndirir.

Köçmələr, köçürülmələr və qaçqınlıq prosesləri Amerika sosioloqu U.Petersonun müasir miqrasiyalara dair təklif etdiyi tipologiyada da öz əksini tapmışdır. Onun miqrasiya tipologiyası bir sıra konseptual cəhətləri ilə yanaşı, nöqsansız da deyil. Xüsusilə də, tipologiyada azadlıqdan məhrum edilərək, əmtəə obyektinə çevrilən insanların köçürülmələrin və miqrasiyaların yenilik axtarışı tipinə aid edilməsi şübhə doğurur. Digər tərəfdən, insan-təbiət münasibətlərinin nəticəsi olaraq, yaranan ekoloji böhran sxemdə göstərilən qaydada qaçqınlıq yox, adi köçmələr və ya köçürülmələr doğura bilərdi (*Cədvəl 1*).

***Cədvəl 1***

**U.Petersona görə miqrasiyaların tipologiyası (1958)**

| Miqrasiyaların motivləri | Miqrasiyaların stimulları | Miqrasiyaların sinfi | Miqrasiyaların tipi | |
|---|---|---|---|---|
| | | | Konservativ | Yenilik axtarışı |
| 1.İnsan-təbiət münasibətləri | Ekoloji təzyiq | Primitiv | Xalqların köçü, köçərilik | Kənddən qaçma |
| 2.Dövlət-vətəndaş münasibətləri | Miqrasiya siyasəti | Vadaredici və məcburi | Köçürülmələr, qaçqınlıq | Qul alveri, qara fəhləlik |
| 3.İnsan və mövcud ictima norma münasibətləri | Daha yüksək tələbat | Sərbəst | Qrup halında | Pioner |

Şübhəsiz U.Petersonun digər əhali məsələləri ilə məşğul olan müəlliflərdən fərqli olaraq, köçkünlüyü, qaçqınlığı və məcburi əhali köçürmələrini miqrasiya tipi kimi təqdim etməsi və onun miqrasiyalara motiv, stimul, sinif,

tip təsnifatı verməsi böyük elmi əhəmiyyətə malikdir. Bununla yanaşı, onun təklif etdiyi sxem ciddi korrektura tələb edir.

Tədqiqatlar göstərir ki, miqrasiyalar tarixində fiziki məcburiyyətlər daha çox rol oynamış və bu zaman milyonlarla insanlar köçkünlüyə, qaçqınlığa məruz qoyulmuş, məcburi köçürülmüş, həbs və ölüm düşərgələrinə sürgün edilmiş, həmçinin məcburi işlər aparılmışdır. II Dünya müharibəsi zamanı məcburi və əlacsız mühacirət üstünlük təşkil edib. Müharibədən sonra isə beynəlxalq mühacirətin coğrafiyası tədricən dəyişməyə başlayıb. Qitələrarası mühacirətlə yanaşı, materikdaxili mühacirət də artıb. Əsasən, iqtisadi faktorlara əsaslanan, tamamilə yeni mühacirləri cəlb etmə və onların axını mərkəzləri peyda olub. İlk növbədə, ona diqqət yetirmək lazımdır ki, beynəlxalq miqrasiyalarda coğrafi dəyişikliklər onların sürətli say artımı fonunda baş verir. Hələ 1965-ci ildə beynəlxalq mühacirlərin dünyadakı ümumi sayı 75 milyon nəfər təşkil etmişdir. 1975-ci ildə bu rəqəm 85 milyon, 1985-ci ildə 105 milyon, 1990-cı ildə 120 milyon nəfərə çatmış, sonra isə daha da artmışdır. Bu zaman 1990-cı ildə bütün beynəlxalq mühacirlərin 55 milyon nəfəri inkişaf etmiş ölkələrin, 65 milyon nəfəri isə inkişaf etməkdə olan ölkələrin payına düşürdü. Mühacirlərin sayının artmasının orta illik sürəti isə 2,5% təşkil edib (14, s.136-137). Hazırda isə bu proses Yaxın və Orta Şərq ölkələrinin çərçivəsindən çıxaraq, daha qlobal xarakter almışdır. Bununla belə, məcburi miqrasiyalar elmi ədəbiyyatlarda zəif öyrənilmişdir. Hesab edirik ki, məcburiyyətdən doğan və məcburi miqrasiya problemlərinin elmi ictimaiyyətin diqqətindən kənarda qalması, əslində məcburi köçürmə və deportasiyaların, köçkünlük və qaçqınlıq proseslərinin tədricən qloballaşmasına şərait yaratmışdır.

Problemin aktuallığını nəzərə alaraq, köçürmə, köçürülmə, deportasiya, köçkünlük və qaçqınlıq proseslərinin obyektiv elmi təhlili məqsədilə –a) səbəblərinə; b) itələyici stimullarına; v) xarakterinə və q) forma xüsusiyyətlərinə görə müasir miqrasiyalara aşağıdakı redaktədə tipologiya təklif edirik (*Cədvəl 2*).

***Cədvəl 2***

**Müasir miqrasiyanın tipologiyası**

| Miqrasiyaların səbəbləri | Miqrasiyaların itələmə effektləri | Miqrasiyaların xarakteri | Miqrasiyaların forması |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. İnsan-təbiət münasibətləri | 1. Ekoloji böhran<br>2. Təbii və texnogen fəlakətlər<br>3. Yüksək əhali sıxlığı nəticəsində torpaq çatışmazlığı | 1.vadaredici<br>2. məcburi<br>3. vadaredici | 1. köçmə-köçürülmə<br>2. ekoloji qaçqınlıq<br>3. köçmə |
| 2. İqtisadi-sosial münasibətlər | 1. Adambaşına orta aylıq və orta illik gəlirlərin aşağı səviyyəsi<br>2. İşsizlik | 1. vadaredici<br>2. vadaredici<br>3. vadaredici | 1. köçmə<br>2. köçmə<br>3. köçmə |

| | | | |
|---|---|---|---|
| | 3. Sosial infrastrukturun səviyyəsinin aşağı olması. İqtisadi sosial problemlərlə bağlı psixoloji sıxıntılar | | |
| 3. Dövlət vətəndaş münasibətləri | 1. Ərazinin mənimsənilməsi və məskunlaşdırılması ilə bağlı miqrasiya siyasəti<br>2. Sərhədlərin tənzimlənməsi<br>3. Etnik təmizləmələr<br>4. Milli ayrıseçkilik<br>5. Dövlət terrorizmi<br>6. Dini təriqətlərin sıxışdırılması<br>7. Demokratik prinsiplərin boğulması | 1. vadaredici<br>2. məcburi<br>3. məcburi<br>4. vadaredici<br>5. məcburi<br>6. məcburi<br>7.vadaredici | 1. köçürülmələr<br>2. köçürülmələr, deportasiyalar<br>3. deportasiya<br>4. köçkünlük<br>5. qaçqınlıq<br>6. köçürülmə-köçkünlük<br>7. köçkünlük |
| 4. Milli-etnik münasibətlər | 1. Etnik və qəbilələrarası münaqişələr<br>2. Dini zəmində münaqişəıər<br>3. Vətəndaş müharibələri | 1.vadaredici, məcburi<br>2. məcburi<br>3. məcburi | 1. köçkünlük-qaçqınlıq<br>2. qaçqınlıq<br>3. qaçqınlıq |
| 5.Beynəlxaıq münasibətlər | 1. Dövlətlərarası münasibətlərin pisləşməsi<br>2. Dövlətlərarası münasibətlər<br>3. Beynəıxalq antiterror əməliyyatları | 1. vadaredici<br>2. məcburi<br>3. məcburi | 1. köçkünlük<br>2. qaçqınlıq<br>3. köçkünlük-qaçqınlıq |
| 6. İnsan və mövcud ictimai normalar arasında münasibətlər | 1. Sosial davranış məhdudiyyətləri<br>2. daha yüksək tələbat | 1. könüllü<br>2. könüllü | 1. köçmə<br>2. köçmə |
| 7. Dövlət daxili ictimai-siyasi münasibətlər | 1. konservativ, mühafizəkar siyasət<br>2. Ölkənin ayrı-ayrı regionlarında separatizmin güclənməsi və s. | 1.vadaredici<br>2.vadaredici-məcburi | 1. köçkünlük<br>2. köçkünlük-qaçqınlıq |

Aşağıda göstərilən tipologiya və orada verilmiş təsnifatlar Azərbaycan üçün də xarakterikdir. Bu mənada miqrasiyaya aid olan köçürmə, deportasiya, köçkünlük, qaçqınlıq problemlərinin nəzəri məsələlərindən biri də elmi aprobasiya ilə bağlıdır. Qeyd etməliyik ki, əhali coğrafiyası ilə məşğul olan alimlər məcburi əhali köçürmələri, deportasiya, köçkünlük, qaçqınlıq və didərginlik proseslərini təhlil etməklə, bu barədə hər hansı elmi-nəzəri və metodoloji xarakterli təsvir verməkdən də çəkinməmişdir. Bu kimi səbəblərdən bu proseslərin hər biri geniş elmi-nəzəri arqumentləşdirmə tələb edir.

**I. Köçürülmələr**: Aparılan təhlillər göstərir ki, SSRİ-nin təşkilindən dərhal sonra ittifaq hökumətinin həyata keçirdiyi geniş miqyaslı tədbirlərdən biri kütləvi əhali köçürülmələri ilə bağlı olmuşdur. Bu köçürülmələrin zəruriliyi

ümumittifaq II Sovetlər Qurultayında (Yanvar, 1924) irəli sürülmüş, konkret məqsəd və vəzifələr isə SSRİ XKS tərəfindən SSRİ MİK-nın İV çağırış, III sessiyasına təqdim edilən layihədə göstərilmisdir. Həmin layihədə əhali köçürülmələri aşağıdakı redaksiyada təsvir verilir: "Köçürülmələr –ölkənin məskunlaşmamış və zəif məskunlaşmış rayonlarının planlı surətdə mənimsənilməsi, onların təbii sərvətlərindən kənd təsərrüfatı və sənaye məhsulu istehsalının artırılması, həmçinin, ittifaqın ayrı-ayrı yerlərində əhali artıqlığının zəiflədilməsi və orada qalan əhalinin təsərrüfat şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilir. Köçürülənlərin yaşaması üçün aşağı tarif dərəcələrinin tətbiqi, köçürülənlərin müəyyən müddətə vahid kənd təsərrüfatı vergilərindən azad edilmələri və onlara güzəştli imtiyazların verilməsi nəzərdə tutulur" (6; 8).

SSRİ MİK-nın məlum sessiyasında köçürülmə işlərinə rəhbərlik edəcək direktiv orqan, SSRİ MİK yanında ümumittifaq köçürmə komitəsi təsis edilmişdir. Hadisələrin təhlili göstərir ki, ittifaq hökumətinin "köçürülmə məsələsinə" münasibəti ildən-ilə daha sərt xarakter almışdır. Belə ki, 1925-ci ilin mayında keçirilən ümumittifaq III Sovetlər qurultayı aztorpaqlı rayonlardan kəndlilərin köçürülməsi işinin sürətləndirilməsini operativ olaraq irəli sürür. Direktiv orqanlar isə bu zərurəti əsas götürərək, aşağıdakı cari məsələləri müəyyən edirlər: 1) Əhali artıqlığı olan rayonların, xüsusilə sərhəd rayonlarının boşaldılması; 2) İttifaq üçün iqtisadi və siyasi əhəmiyyət kəsb edən əhalisiz rayonlardan istifadə edilməsi; 3) özbaşına köçmə hərəkatına istiqamət verilməsi və onlar tərəfindən salınmış zərərli yaşayış məntəqələrinin ləğv edilməsi.

Faktlar sübut edir ki, 1920-ci illərin köçürülmə əməliyyatları Azərbaycandan da yan keçməmişdir. Bu məqsədlə, 1925-ci il yanvarın 27-də Azərbaycan xalq torpaq komissarlığı nəzdində köçürülmə şöbəsi yaradılmışdır. Bu şobənin məlumatında 1924-cü ildən 1927-ci ilin oktyabrınadək Muğanda 3.382 ailədən ibarət 16.509 nəfər köçkünün məskunlaşdırıldığı bildirilir. O cümlədən, Rusiya və Ukraynadan Azərbaycana ən geniş miqyaslı əhali köçürülməsi 1926-1939-cu illər arasındakı dövrdə həyata keçirilmişdir. Hesablamalar göstərir ki, bu dövrdə Azərbaycana 300 min nəfərədək rus və ukraynalı köçürülmüşdür. Yeni köçürülmələr hesabına Azərbaycanda rusların sayı 1926-cı ildə 220.600 nəfər idisə, 1939-cu ildə 528.300 nəfərə çatmışdır (artım 24%). Azərbaycanda rusların xüsusi çəkisinin artması (1926-da 9,6%-dən 1939-da 16,5%-ə) azərbaycanlıların xüsusi çəkisinin azalması ilə müşayiət olunmuşdur. 1940-cı ildə Rusiya və Ukraynadan Azərbaycana köçürülənlərin miqdarı 9,7 min nəfər təşkil etmişdir. Təkcə 1945-ci ildə Azərbaycana köçürülən rusların miqdarı 28,1 min nəfər təşkil etmişdir. Həm də bu dövrdə Rusiya və Ukraynadan Azərbaycana köçürülənlərin əksəriyyəti qadınlar olmuşdur. Rusiyadan Azərbaycana, xüsusilə də Bakı, Sumqayıt, Şirvan və Mingəçevir şəhərlərinə əhali köçürülməsi 50-ci illərdə də davam etdirilmişdir.

1960-cı illərin əvvəllərindən başlayaraq, Azərbaycanda rus əhalisinin sayının azalması müşahidə olunmuşdur. Xüsusilə kəndlərdə rus əhalisinin gənclərdən ibarət hissəsinin Bakı, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərinə, eyni zamanda, Rusiya və Ukraynaya axını güclənmişdi. Bunun nəticəsində, Azərbaycandakı rus kəndlərində yaşayan əhalinin miqdarı 1959-cu ildə 61,8 min nəfərdən 1970-ci ildə 40,8 minə, 1979-cu ildə isə 27,1 min nəfərə enmişdir. 1970-ci illərdən başlayaraq, bütövlükdə Azərbaycanda yaşayan rusların Rusiyaya deportasiyası güclənmişdir. 1970-ci ildə Azərbaycanda 510,1 min rus əhalisi yaşayırdısa, bu rəqəm 1979-cu ildə 475,3 minə, 1989-cu ildə 392,3 min nəfərə enmişdir. 1990-1997-ci illər arasındakı dövrdə 177.398 nəfər rus əhalisi Azərbaycandan emiqrasiya etmişdir. Bu isə Azərbaycanda yaşayan rusların 45,3%-ni təşkil edirdi (1; 10).

Sovet dövrü köçürülmələrinin könüllük prinsipi yalnız deklorativ, formal xarakter kəsb etmiş, real həyatda isə 1920-1950-ci illər arasındakı köçürülmələr zamanı məcburi forma və metodlar daha geniş şəkildə tətbiq edilmişdir.

Ümumiyyətlə, dünya ölkələrində, həmçinin Azərbaycanda həyata keçirilmiş köçürülmələrin spesifik xüsusiyyətlərinin təhlili göstərir ki, əhali köçürülmələri tarixən hakim ictimai istehsal münasibətlərindən və konkret dövlətlərin siyasətlərindən irəli gəlmişdir. Bu baxımdan, köçürülmələr: ictimai istehsal münasibətlərindən və ayrı-ayrı dövlətlərin daxili siyasətlərindən təzahür edən, əhalinin coğrafi yerdəyişmələri məcmusu kimi səciyyələndirilə bilər.

Bütövlükdə köçürülmə proseslərini bu əlamətlərinə görə fərqləndiririk:

–səbəblərinə görə (iqtisadi, siyasi, hərbi, dini, deportasiya məqsədli, ekoloji, təbii, texnogen, evakuasiya);

–icra üsullarına görə (könüllü, vadaredici, məcburi);

–nəticələrinə görə (konstruktiv, destruktiv).

**II. Deportasiyalar**. Deportasiya (lat: “deportation” –“sürgün etmə”) ilk dəfə Fransada sürgünün xüsusi növü kimi şübhəli şəxslər haqqında 1791-ci il qanuni ilə tətbiqinə başlanmışdır. Həmin qanuna əsasən, siyasi cəhətdən səbatsız sayılan şəxslər Qviana yaylasına sürgün olunurdular. Deportasiya haqqında maddə 1810-cu ildən Fransanın cinayət məcəlləsinə daxil edilmişdir. Qitə hüdudlarından kənarda sürgündə olmağı və ömürlük orada qalmağı nəzərdə tutan 1872-ci il tarixli Fransa qanununa görə isə yaşayış üçün möhkəm olmayan ucqar müstəmləkə ərazilərində deportasiya olunanlar üçün möhkəmləndirilmiş düşərgələrin yaradılması zəruri sayılmışdır. Deportasiyadan təkcə cinayətkarları cəzalandırmaq üçün deyil, həm də inqilabçılara divan tutmaq məqsədi ilə istifadə olunmuşdur (2).

Hadisələrin təhlili göstərir ki, yeni qurulmuş ittifaq dövlətinin iqtisadi bazası bərbad halda olmuşdur. Fabrik, zavod, nəqliyyat infrastrukturu, kənd təsərrüfatı I Dünya və vətəndaş müharibələri illərində dağıdılmış, ölkə kütləvi aclıq, işsizlik problemi qarşısında qalmışdır. İqtisadi geriliyin ardan qaldırılması,

texniki-iqtisadi müstəqilliyin etibarlı müdafiə sisteminin yaradılması, Sovet dövləti üçün digər tale yükü məsələlərin həyata keçirilməsi nəhəng maliyyə ehtiyatları tələb edirdi. Xarici ölkələr borc vermədiyindən, valyuta əldə etməyin yeganə çıxış yolu Ural, Sibir və Uzaq Şərqin zəngin təbii sərvətlərini istehsal dövriyyəsinə cəlb etməklə, xammal ixracatının (xüsusilə oduncaq və s.) artırılması idi. Qeyd edilən regionlarda isə tələb olunan səviyyədə əmək resursları yox idi. Mənimsənilməmiş ərazilərə köçürülənlərin sivil məskunlaşdırılması isə kompleks iqtisadi-sosial tədbirlərin həyata keçirilməsini tələb edirdi. Faktlar sübut edur ki, 1927-ci ildə Sovet dövlətinin maliyyə imkanı yalnız 248 min nəfərin köçürülməsi və məskunlaşdırılmasına imkan vermişdi. Bunlardan 50 min nəfəri Volqaboyu, 45 min nəfəri Ural, 104 min nəfəri Sibir, 51 min nəfəri Uzaq Şərq rayonlarında yeləşdirilmişdir. Ümumiyyətlə, 1930-cu illərədək köçürülmələrin sürəti dövlətin iqtisadi-siyasi mənafelərinə cavab verməmiş və faktiki olaraq könüllü köçürmə ideyası iflasa uğramışdı. Mövcud vəziyyət, köçürülmə işinin metod və üsullarının dəyişilməsini tələb etmiş, bu səbəbdən də 1930-cu illərdən başlayaraq könüllülük prinsipində represiv üsulla, sivil məskunlaşdırmadan hərbi kazarma sisteminə, haqqı ödənilən azad əməkdən icbari əməyə, adi inzibati idarəçilikdən ifrat hərbi komendant sisteminə keçid real çıxış yolu seçilmişdir. Lakin təzadlı faktdır ki, 1930-cu illərin represiv köçürülmə praktikası 1940-1950-ci illərdə hərbi, siyasi, dini motivlərlə bağlı kütləvi köçürülmələr zamanı daha geniş miqyasda tətbiq edildi. Mənbələrə əsasən, 1926-1939-cu illər arasında Ural, Sibir, Şərqi Sibir, Qazaxıstan və Uzaq Şərq rayonlarına 4,7 mln. nəfərdən artıq, 1939-1959-cu illər arasındakı dövrdə isə 8,6 mln. nəfərədək əhali köçürülmüşdür.

Akdemik B.Budaqov isə obyektiv mənbələr əsasında azərbaycanlıların Qərbi Azərbaycandan (indiki Ermənistan) kütləvi deportasiyalarında 6 əsas mərhələ ayırmış və hər bir mərhələlərin səciyyəvi xüsusiyyətlərini xarakterizə etmişdir (*Cədvəl 3*).

***Cədvəl 3***

**Azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyaların mərhələləri**

| Deportasiya ərhələləri | İllər | Deportasiya edilmiş azərbaycanlılar, nəfərlə |
|---|---|---|
| I | 1828-1832 | 50 000 |
| II | 1877-1878 | 180 000 |
| III | 1905-1907 | 50 000 |
| IV | 1918-1920 | 200 000 |
| V | 1948-1953 | 130-150 000 |
| VI | 1988 | 210 000-dən çox |

Araşdırmalar göstərir ki, istər çarizm, istərsə də Sovet dövründə azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyalarının həyata keçirilmə metodları və üsulları bir-birinin eyni olmuşdur. Hətta çarizm dövründən fərqli olaraq

sovet dövrü deportasiyaları qərbi imperativ xarakteri ilə seçilmişdir. Bu baxımdan, azərbaycanlıların Qərbi Azərbaycandan (Ermənistan SSR) 1948-1953 və 1988-ci illərdə kütləvi deportasiyaları daha səciyyəvidir.

SSRİ-də repressiv üsullarla həyata keçirilən kütləvi köçürülmə və deportasiyaların mürtəce xarakteri və fəlakətli sosial nəticələri, bu barədə məlumatların tam məxfiləşdirilməsinə və aşkar əyani anlayışların konspirativ xarakterli terminlərlə əvəz edilməsinə rəvac vermişdi. Bu səbəblərdən də, repressiv köçürülmə və deportasiyalara dair rəsmi sənədlər arxivlərdə məxfi şriftlər altında saxlanılaraq, istifadəsinə icazə verilməmişdi. Bunun üçün problemə dair faktoloji materialların təhlili göstərir ki, deportasiyalar tarixən bu və ya digər dövlətin daxili siyasətinin, əhali ilə bağlı müəyyən məqamların repressiv üsullarla həyata keçirilməsi vasitəsi olmuşdur və indiyə qədər Azərbaycan ərazisində coğrafi xarakterli həyata keçirilmiş kütləvi deportasiyaları motivlərinə görə –iqtisadi, hərbi-siyasi, siyasi, qisas, ekspansionizm və dini qruplara bölmək olar.

**III. Köçkünlük**. Coğrafi xarakterinə görə, spesifik miqrasiya forması olan köçkünlük problemi elmi ədəbiyyatda zəif öyrənilmişdir. Köckünlük prosesinin stimul və meyarlarının konkret qiymətləndirilməməsi, elmi tərifinin verilməməsi bu anlayışın bəzi hallarda digər miqrasiya terminləri ilə eyniləşdirilməsinə zəmin yaradır. Hesab edirik ki, hər iki şərh qeyri-obyektiv səciyyə daşıyır. Çünki köçkün anlayışı hadisədəki (köçdəki) ziddiyyətli sosial-psixoloji əlaməti (könülsüzlüyü) aşkar şəkildə əks etdirir. Köç anlayışı ilə köçkünlük anlayışı arasındakı sosial əlamət fərqi ondan ibarətdir ki, könüllü köçən şəxs bütün hallarda daşınmaz əmlakını sərbəst realizasiya edir və bütün daşınar əmlakını istəyinə uyğun olaraq yeni yaşayış yerinə aparır. Köçkünlük zamanı köçkün daşınar əmlakını əsas hissəsini aparsa da, daşınmaz əmlakının realizasiya edə bilmir, buna şərait imkan vermir.

Ümumiyyətlə, köçkünlük əsasən fərdi və qismən qrup xarakteri daşıyır. Məsələn: 1989-cu ilin mayından 1993-cü il martın 27-dək mühasirədə olmuş Kəlbəcər rayonundan məhdud sayda, yəni rayon üzrə 14.780 ailədən cəmi 10-dək ailə köçkün düşmüşdür. Yaxud Cəbrayıl (23.08.1993) və Füzuli (23.08.1993) rayonlarının işğalından sonra Qubadlı (31.08.1993) və Zəngilan (29.10.1993) rayonları tam mühasirəyə düşdüyündən bu rayonlardan hər hansı köçkünlük də mümkün deyildi.

Köçkün anlayışının ilk tərifi rəsmi status mahiyyəti daşıyır. Bu tərif “Qaçqınların və məcburi köçkünlərin statusu haqqında” Azərbaycan Respublikası qanununun 1992-ci il (29 sentyabr) redaksiyasında verilmişdir. Həmin qanuna görə, Azərbaycan Respubliksı ərazisində daimi yaşayış yerini tərk etməyə məcbur olub, başqa yerə köçən şəxslər və ya başqa ölkədə daimi yaşayış yerini tərk etməyə məcbur olub Azərbaycan Respublikasına gəlmiş, Azərbaycan Respublikası vətəndaşları “məcburi köçkün” sayılır. Hesab edirik ki, bu tərif

Ermənistanın Azərbaycana qarşı açıq hərbi təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş əhalini ümumi xaraterizə etmək zərurətindən yarandığı halda, əhalini daimi yaşayış yerlərini tərk etməyə məcbur etmiş hərbi təcavüz aksiyası öz əksini tapmamışdır. Digər tərəfdən, başqa ölkədə daimi yaşayış yerini tərk etməyə məcbur olub Azərbaycan Respublikasına gəlmiş şəxslər beynəlxalq təlimatlara əsasən köçkün deyil, qaçqın hesab edilirlər.

Köçkün anlayışının digər bir tərəfi "qaçqınların və məcburi köçkünlərin statusu haqqında Azərbaycan Respublikası qanununun 1999-cu il redaksiyasında ifadə olunmuşdur. Həmin tərifə görə "məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) Azərbaycan Respublikası ərazisində hərbi təcavüz, təbii və texnogen fəlakət nəticəsində daimi yaşayış yerini tərk etməyə məcbur olub, başqa yerə köçmüş şəxsdir" (7; 8).

Qeyd etmək lazımdır ki, köçkünlər üçün xüsusi hüquqi statusun ayrılmasına ehtiyacın olmaması köçkünlük probleminin əhəmiyyətini azaltmır. Belə ki, köçkünləri daimi yaşayış yerlərini tərk etməyə vadar edən səbəblər qaçqınlığı doğuran səbəblərlə çox vaxt oxşarlıq təşkil edir. Burada yalnız itələyici effektlərin təsir qüvvəsi arasında fərq vardır. Köçkünlüyü doğuran itələyici effektlər aradan qaldırılmadıqda onların təsir qüvvəsi də inkişaf edərək, qaçqın axınları doğurur. Köçkünlük probleminə də bu aspektdən yanaşılmalıdır.

**IV. Qaçqınlıq**. XX əsrin əvvəllərindən başlayaraq, dünya ictimaiyyətinin diqqətini cəlb edən qaçqınlıq problemi müasir dövrdə tədricən qloballaşmaqdadır. Əgər 1975-ci ildə dünyada 5 mln. qaçqın var idisə, hazırda onların sayı 100 mln. nəfərdən çoxdur. BMT QAK məsullarının məlumatına görə, hazırda hər gün orta hesabla 23 min nəfər qaçqın düşür. Yer kürəsi əhalisinin hər 120 nəfərindən, Azərbaycan Respublikası əhalisinin isə hər 8 nəfərindən biri qaçqınlıq həyatı keçirir. Dünya ictimaiyyətinin problemə münasibəti hələlik humanitar mülahizələrdən uzağa getmir. Qaçqınlıq probleminin elmi tədqiqi başlanğıc mərhələsində olduğundan, problemin elmi mahiyyətinə dair konseptual ideya da formalaşmamışdır. Bu vaxtadək qaçqın anlayışına verilən təsvir və təriflər ya elmi publisistik səciyyə daşıyır, ya da siyasi-hüquqi prosedurlar məcmusundan ibarətdir.

Qaçqın anlayışı beynəlxalq siyasi sənədlərdə hüquqi anlayış kimi xarakterizə edilir. Bu qəbildən olan sənədlərə 1962-ci il 12 may, 1928-ci il 30 iyun sazişlərini, 1933-cü il 28 oktyabr, 1938-ci il 10 fevral konvensiyalarını, 1939-cu il 14 sentyabr protokolu, 1951-ci il 28 iyul konvensiyası, 1967-ci il 31 yanvar protokolu, 1969-cu il 10 sentyabr konvensiyası (Afrika Birliyi təşkilatının konvensiyası), beynəlxalq qaçqınlar təşkilatının nizamnaməsi və s. misal göstərmək olar. Bu siyasi sənədlərdə qaçqın anlayışına verilən təriflər, bir növ qaçqın olan xariciləri qaçqın olmayan xaricilərdən fərqləndirmək üçün tətbiq edilən hüquqi prosedurları ifadə edir (5; 11).

Beynəlxalq miqyaslı qaçqınlıq statusunun müəyyən olunmasının əhəmiyyəti ondan ibarətdir ki, bu gün dünyada çox adam öz vətənini təqib qorxusundan deyil, başqa səbəblərə görə (müharibələrdən, maddi vəziyyətini yaxşılaşdırmaq və ya cinayət işlətdikləri üçün məhkəmə ittihamından qurtarmaq və s.) tərk edir. Təbii ki, bu insanların beynəlxalq qanuna görə qaçqın kimi müdafiə olunmaq hüququ yoxdur. Deməli, qaçqınlıq statusunun düzgün müəyyən olunması müvafiq ölkəyə imkan verir ki, yalnız müdafiəyə ehtiyacı olanları himayə etsin, iqtisadı və digər səbəblərlə bağlı bu ölkəyə gələn adamları qəbul etməsin və onları ölkədən çıxarsın.

Lakin nəzərə almaq lazımdır ki, 1951-ci il konvensiyasının və 1967-ci il protokolunun beynəlxalq ratifikasiyasından keçən dövr ərzində dünyada baş verən ciddi ictimai-siyasi dəyişikliklər nəticəsində qaçqınçılığın forma və stimullarında yeni xarakter yaranmışdır. Xüsusilə, son illərdə (1988-2017) vətəndaş müharibələri, etnik və qəbilələrarası toqquşmalar, dini zəmində münaqişələr, sürətlə həyata keçirilən etnik təmizləmələr, separatizm, elan olunmamış müharibələr nəticəsində ölkə ərazilərinin müəyyən hissəsinin işğalı və s. hadisələr kütləvi qaçqınlıqlar doğurmuşdur. Həm də bu qaçqınların əsas hissəsi ölkələrin daxilində lokallaşmış, bir hissəsi isə milli sərhədlərdən kənara çıxmışdır. Müşahidələr göstərir ki, ölkə daxilindəki qaçqınlığa beynəlxalq etinasızlıq göstərilməsi son nəticədə problemin daha da qloballaşmasına və sərhədaşırı qaçqınlığa səbəb olur. Bu mənada, BMT QAK-ın qanuni mandatının yalnız sərhədi keçən qaçqınlara şamil edilməsi problemin son nəticəsində əhəmiyyət verilməsi kimi qiymətləndirilə bilər.

Qaçqın anlayışına yalnız beynəlxalq hüquqi status kimi baxılması Azərbaycan Respublikasının qaçqınların statusuna dair milli qanunvericiliyində də əks olunmuşdur. "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" qanunun 21 may 1999-cu il redaksiyasına görə, qaçqın –Azərbaycan Respublikasının vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni zamanda, həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalan ehtiyac üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir.

Azərbaycan Respublikasında bu tərifin müddəalarına uyğun olaraq, qaçqınların sayı 287.854 nəfər hesablanır. Bunlardan 239.296 nəfəri Ermənistan azərbaycanlıları, 2.359 nəfəri ermənistanlı kürd, 1.239 nəfər ermənistanlı rus, 3.900 nəfəri Özbəkistandan çıxarılmış Məhsəti türkləri, 2.960 nəfəri Rusiya azərbaycanlıları olmuşdur. Azərbaycan Respublikası 1951-ci il konvensiyası və 1967-ci il protokoluna qoşulmaqla, qaçqınların müdafiəsi sahəsində öz

üzərinə beynəlxalq öhdəliklər götürmüşdür. Bu öhdəliklərə görə, Azərbaycan, hüquqları öz ölkələri tərəfindən pozulmuş insanlara əsas hüquqlarına hörmət etdiyini nümayiş etdirməlidir (6; 8; 10).

Qaçqınlıq probleminin elmi mahiyyətinə gəldikdə burada iqtisadi-sosial coğrafi aspektlər xüsusi aktuallıq kəsb edir. Hesab edirik ki, kütləvi qaçqınlıq düşmən cəbhəsinin yaxınlaşmasından, intensiv hərbi hücumlardan, soyqırımından, habelə təbii kataklizmlər və təbii fəlakət və texnogen hadisələrdən təzahür edən məcburi miqrasiyadır. Kütləvi qaçqınlıq insanların daimi yaşayış yerlərini tərk etməyə məcbur etmiş elə bir məqamıdır ki, bu zaman yaranmış məhv olmaq təhlükəsi qarısında hərəkət tərzinin qaçqınlıqdan başqa alternativi olmur.

Azərbaycan ərazisində 1920-ci ildən 1990-cı ilə qədər davam edən miqrasiyaya anlayışı altında həyata keçirilmiş əhali köçürülmələri, köçkünlük, deportasiya və qaçqınlıq kimi proseslərin kompleks təhlilindən aşağıdakı nəticələr əldə olunmuşdur:

–İlk dəfə olaraq köçürülmə, deportasiya, köçkünlük, qaçqınlıq və s. anlayışlarına konstruktiv elmi şərh verilmişdir;

–Əhali yerdəyişmələrinin miqrasiya sistemindəki yeri geniş şərh edilmiş, köçürülmə, deportasiya, köçkünlük, qaçqınlıq və digər proseslərin hər birinin təsir effektlərinə uyğun təsnifatı aparılmışdir;

–Təklif edilən təriflər, tipoloji təsnifatlar metodoloji kəmiyyət kəsb edir.

–Son 100 ildə Rusiyanın ermənilərlə birgə Azərbaycan ərazisində apardığı miqrasiya prosesləri siyasi, iqtisadi, hərbi, ekoloji, dini və s. motivlər əsasında həyata keçirilməklə, 1900-1955-ci illərdə 27,4 min km$^2$ (İrəvan, Göycə, Zəngəzur, Dərbənd və Borçalı daxil olmaqla), 1990-cı ildən sonra isə 17,3 min km$^2$ (Yuxarı Qarabağ və Laçın-Kəlbəcər iqtisadi-coğrafi rayonları) tarixi torpaqlarımızın işğal olunması müəyyənləşdirilmişdir.

## Ədəbiyyat

1. Babaxanov N.A., Əhmədov V.İ. Əhali köçürülmələri və onun nəticələri./ Bakı Universitetinin Xəbərləri,Təbiət elmləri seriyası , 2002 №3, səh. 214-231.
2. Deportasiya. Bakı. 1998. səh. 5; 80.
3. Hacılı A. Axısqa türklərinin etnik mədəniyyəti. B. 1992. səh. 25-26.
4. Müasir mərhələdə Azərbaucanın sosiaı-iqtisadi inkişafının əsas meyilləri. VI buraxılış. B.: Elm. 2000. səh 22-23.
5. Qaçqınlar və köçkünlər./ "Qanun" jurnalının xüsusi buraxılışı. 1997. № 2. səh. 13, 25.
6. "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında". Azərbaycan Respublikasının Qanunu. 1992.
7. "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında". Azərbaycan Respublikasının Qanunu. 1999.

8. Qaçqınlara daur qanunvericilik, insan hüqyqlari və miqrasiya məsələlərinə həsr olunmyş beynəlxalq konfrans. 22-24 noyabr, 1994. B. Mart, 1995. səh. 10-12. 58-59; 10.
9. Qaçqınların statusunu müəyyənləşdirməyin prosedurаları bə meyarları haqqında təlimat. B. İyul, 1997. səh. 7-16; 30.
10. Paşayev N.Ə., Əhmədov V.İ. Müasir miqrasiya formalarının elmi-nəzəri, tipoloji və terminoloji problemləri./ Bakı Universitetinin Xəbərləri, Təbiət elmləri seriyası, 2002 №4, səh. 160-177.
11. Бабаханов Н.А. Хозяйственная деятельность и условия жизни переселенцев в мильской и муганской степях Азербайджанской ССР. "уч. зап." АГУ. 1969.
12. Будагов Б.А. О событиях в Нагорном Карабахе и вокруг него. Основные этапы депортации азербайджанцев с территории современной Армении. Б. 2001. стр. 66-75.
13. Ковалев С.А., Ковальская Н.Я. География населения СССР. М. Изд. МГУ. 1980. стр. 232.
14. Максаковский В.П. Географическая картина мира. Книга I. М. 2004, стр. 136-137
14. Миграция населения в странах СНГ. Издание 1999. стр.30.
15. Покшишевский В.В. География населения ССР. М.1980. стр. 21.
16. Peterson W. General tipology of miqration. "American sosioligy review" 3. 28.1958.
17. Шувалов Е.А. География населения. Учеб. пос. М. 1977. стр. 92, 105.
18. Ягельский А. География населения ССР. М., 1971. стр. 365-366. 256-257.

***Eldar İkram oğlu ASLANOV,***
*Azərbaycan Turizm və Menecment Universitetinin*
*rektor səlahiyyətlərini icra edən,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

## Miqrasiya və turizm: qarşılıqlı əlaqə və təsirlənmə

İnsanların daimi yaşadıqları yerdən başqa bir yerə getmələri, tarixin ilk dövrlərindən bəri görülən ən böyük ehtiyaclarından biri olmuşdur. Çünki insanlar həyatları boyunca, daima daha yaxşı həyat şərtlərini düşünmüşdür. Bu düşüncələrini reallaşdırmaq üçün müxtəlif vasitələrdən faydalanaraq məqsədlərinə çatmışdır.

İnsanları bir yerdən başqa bir yerə səyahəti və ya miqrasiyası, eyni vaxtda getdikləri ölkənin və ya regionun iqtisadi və turizm baxımından inkişafına, o zonanın sosial həyatının hərəkətlilik əldə etməsinə da yol açmışdır. Həqiqətən, dünyada çox ölkənin iqtisadi və turizm baxımından inkişafı, oraya xidmət təmin edən sektorlardan asılıdır.

Son illərdə Azərbaycanda turizmə, xüsusilə xarici turistlərin ölkəmizə gəlişinə böyük diqqət yetirilir. Qeyri-neft sektorunun aparıcı istiqaməti kimi turizmin hərtərəfli inkişafı üzrə Pezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət sayəsində bu sahə ölkə iqtisadiyyatının prioritetlərindən birinə çevrilib. Hazırda dövlət turizm infrastrukturunun dünya standartları səviyyəsinə çatdırılması üzrə tədbirlər gerçəkləşdirir. Ümumdünya Turizm Təşkilatı da 2017-ci ili dünyada davamlı turizm ili elan etmişdir.

Müasir turizm anlayışını ilk olaraq II Dünya müharibəsi dövründə isveçrəli iqtisadçılar Walter Hunziker və Kurt Krapf qələmə almışlar. Buna görə, "turizm insanların daimi iş və evlərinin yerləşdiyi yer xaricində etdikləri səyahət və gecələmələrdən meydana gələn əlaqə və hadisələrin bütünü deməkdir". Bu tərif daha sonra Turizm üzrə Elmi Mütəxəsislərin Beynəlxalq Assosiasiyası (AIEST) tərəfindən də qəbul edilmişdir. Eyni şəkildə, 1963-cü ildə toplanan Dünya Turizm Təşkilatı (WTO) bu tərifi qəbul etmişdir.

Turizm bir-biri ilə sıx əlaqəsi olan müxtəlif sahələrin (tarixi, coğrafiyası, demoqrafiyası, inkişaf siyasəti və planlaşdırılması, marketinq və reklam-informasiya təminatı, menecment və s.) kompleks şəkildə öyrənilməsidir. Xüsusilə, 20-ci əsrin sonunda formalaşan turizm elmi, az əvvəl sadalanan sahələrin biri-birinə inteqrasiyası nəticəsində əmələ gəlmişdir. Olduqca sadə görünən

turizmin tək bir cəhətdən öyrənilməsi gözlənilən nəticəni vermir. Turizmin müxtəlif sahələri zəncirvari bir-birinə bağlı olan vahid sistem yaratmışdır. Bu sistemdən hər hansı bir halqanın xaric olması, bütün sistemin axsamasına səbəb olur.

Miqrasiya dedikdə isə “insanların bu və ya digər ərazi hüdüdlarını keçməklə, yaşayış yerlərini birdəfəlik, yaxud müəyyən müddətə dəyişməsi” başa düşülür. Miqrasiya proseslərinin intensivliyi daha çox iki amildən –insanların həyat şəraitindəki fərqlərlə bağlı iqtisadi və yeni dövlətlərin yaranması, sərhədlərin dəyişməsi, digər ölkələrdə siyasi-iqtisadi dəyişikliklərlə əlaqədar siyasi amillərdən asılıdır.

BMT-nin məlumatına görə, 2015-ci ildə öz vətənindən kənarda yaşayan beynəlxalq miqrantların sayı 200 milyon nəfərdən çox olmuşdur. Miqrasiya beynəlxalq iqtisadi münasibətlərin (BİM) ən klassik formalarından biridir və BİM-in obyektinə daxildir. BİM-in inkişafında böyük rola malikdir. Müəyyən ölkə üçün miqrasiya prosesinin 2 tərəfi vardır: 1) emiqrasiya –xaricə köçmək; 2) immiqrasiya –xaricdən gəlmək.

Neoklassik yanaşmanın tərəfdarları belə hesab edirlər ki, emiqrasiya işçi qüvvəsini qəbul edən ölkənin rifah səviyyəsinin artımına gətirib çıxarır. Emiqrasiyanın mənşə ölkəsi kimi çıxış edən ölkənin iqtisadi artım tempi isə pisləşməyərək, əvvəlki səviyyədə qalır.

Əsasən miqrasiyanın 5 növü fərqləndirilir:

1. Müqavilə əsasında işləməyə gedənlər. Bu növ miqrasiya əsasən mövsümi xarakter daşıyır, kənd təsərüfatı ilə bağlı olur, az ixtisaslı işçiləri nəzərdə tutur.

2. Yüksək ixtisaslı işçilərin miqrasiyası. İxtisaslı professor müəllim heyəti buraya daxildir.

3. Qeyri-leqal miqrantlar. Turist adı ilə, müxtəlif yollarla gedib xaricdə qalıb işləyənlər.

4. Müxtəlif səbəblərdən, xüsusilə, inkşaf etmiş ölkələrə köçənlər.

5. Qaçqınlar –müəyyən qorxu, təhlükə, sıxışdırılma və s. hallarla üzləşən miqrantlar.



Milli iqtisadiyyatın hər tərəfli inkişafı və beynəlxalq əmək bölgüsünün genişlənməsi prosesində işçi qüvvəsinin fəal sürətlə bir ölkədən digər ölkəyə sərbəst hərəkəti böyük rol oynayır. Əhalinin bu cür yüksək cəm halında hərəkəti olmadan bir çox millətlərarası əlaqələrin intensivləşməsi qeyri-mümkündür. Müasir şəraitdə əhalinin hərəkətinin ümumi miqrasiyanın artmasında, əmək miqrasiyası və yaxud işçi qüvvəsinin miqrasiyası daha böyük əhəmiyyət kəsb edir. Əhalinin beynəlxalq hərəkəti müxtəlif formalarda mövcuddur: əmək üzrə, ailəvi, qeyri-müntəzəm, turizm şəklində və s.

Sadə bir sistem şəkilində diqqətə alınsa, həm turizm, həm də miqrasiya 3 məkan ünsüründən əmələ gəldiyi məlum olar:

a) Turistlərin yaşadığı yerlər (turist göndərən regionlar);

b) İnsanların gəzmək üçün getdikləri yerlər (turistlərin çatdıqları yerləri);

c) Turist göndərən və turist qəbul edən yerlər arasında edilən səfərlər.

Turizm və miqrasiya məkan şərtləri ilə son dərəcə əlaqəlidir. Bu səbəbdən, məkan fərqlilikləri olmasaydı, məşhur coğrafiyaçı Jean Gottmannın sözü ilə “Dünya bir beysbol sahəsi kimi dümdüz bir sahəyə sahib olsaydı, coğrafiya deyə bir elm sahəsi olmayacaqdı”; eyni səbəblə, nə turizm, nə də miqrasiya deyilən hadisə də meydana gəlməyəcəkdi.

***Cədvəl***

**Miqrasiya və turizm: qarşılıqlı oxşar və fərqliliklər**

| Miqrasiya | Turizm |
|---|---|
| Daimi miqrasiyalar | Turizmdə daimilik ola bilməz. Əgər daimi olarsa, artıq bu turistik səfər sayıla bilməz. Ən azı 1 il ərzində geriyə dönüş nəzərdə tutulmalıdır. |
| Mövsümi miqrasiyalar dedikdə, daha çox işçi miqrasiyaları nəzərdə tutulur | Mövsümi turizm səyahətləri daha geniş yayılmışdır |
| Məcburi miqrasiyalar | Turizmdə məcburilik yoxdur |
| Urbanizasiyalaşma və suburbanizasiya daha geniş yayılmışıdır | Şəhər əhalisinin şəhərətrafı səyahətləri, şəhər əhalisinin kənd turizminə meylliliyi |
| Müasir dövrdə daha çox işsiz əhali miqrasiya edir | Müasir dövrdə daha çox əhalinin işlə təmin olunmuş təbəqəsi turistik səyahətlərdən istifadə edir |
| Əhali daha çox qrup halında məcburi miqrasiya edir | Turistlər fərdi və qrup halında səyahət edir |
| Miqrasiya hərəkətlərində müasir dəyişikliklər çoxalmışdır | Turisttik səyahətlərdə zövqlərin dəyişməsi artmışdır |
| Miqrasiya zamanı eyni istiqamət üzərində bir neçə məkana gedə bilərlər | Turist qrupları şəraitdən asılı olaraq, istiqaməti müəyyən edə və dəyişə bilərlər |
| Miqrasiya zamanı iş və ya qeyri-iş günü amili nəzərə alınmır | Turistik səyahətlər iş günləri xaricindədir |

Xarici miqrasiya dövlət sərhədinin keçilməsi ilə bağlıdır. O, həm də əhalinin beynəlxalq miqrasiyası adlandırılaraq, qitələrarası və qitədaxili miqrasiyaya

bölünür. Əhalinin iri ərazi vahidləri hüdudlarında və onlar arasında miqrasiyası da fərqləndirilir. Əhalinin işləmək və təhsil almaq üçün bir yaşayış məntəqəsindən digərinə müntəzəm gediş-gəlişi kəfgirsayağı miqrasiya adlanır. Kəfgirsayağı miqrasiyanın əsas istiqamətləri kənddən şəhərə, kiçik şəhərdən böyük şəhərədir. Aydındır ki, miqrasiyanın bu növü böyük şəhərlərin və aqlomerasiyanın şəhərətrafı zonaları üçün səciyyəvidir.

Regional və regionlararası miqrasiya və turizm dünyanın bütün regionlarına xasdır. Bu əməyin xarakterindəki, səviyyəsindəki və həyat tərzindəki fərqlərlə bağlıdır. Həmin fərqlər şəhər və kəndin müqayisəsində daha qabarıq təzahür etdiyindən əhalinin kənd yerlərindən şəhərlərə axını dünya ölkələrinin əksər hissələri, xüsusilə sənaye təsərrüfatı yoluna təzəcə qədəm qoymuş, habelə torpağa daha güclü antropogen təzyiq göstərildiyi ölkələr üçün səciyyəvidir.

Turizm ölkədaxili və beynəlxalq səviyyədə, iqtisadi, mədəni və sosial istiqamətli bir fəaliyyət olub, ölkələrin iqtisadi və sosial inkişafına çoxistiqamətli köməyi olan bir sektordur. Turizmin iqtisadiyyat baxımdan mühüm cəhətləri aşağıda göstərilmişdir:

–İqtisadiyyatı inkişaf etdirən xidmət sektorudur.

–Milli gəlirə dəstək verən perspektivli sektordur.

–Milyonlarla insanı əlaqələndirən bir istehsal və istehlak hadisəsidir.

–İş yeri meydana gətirmə xüsusiyyətinə malikdir.

–Əldə etdiyi valyuta ilə tədiyyə balansına müsbət istiqamətdə təsir edir.

**Əhalinin beynəlxalq miqrasiyasını yaradan və onun inkişafına təsir edən amillər.** Əhalinin miqrasiyası 2 qrup amillərin təsiri altında baş verir:

1. Qeyri-iqtisadi amillər (Məsələn, siyasi-hüquqi, dini, etnik, ailəvi amillər). Son onillikdə ekoloji, təhsil-mədəni və psixoloji amillərin də miqrasiyaya təsiri artıb.

2. İqtisadi amillər.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, sənayecə inkişaf etmiş ölkələrdə miqrasiyanın vacib motivi kimi özünütəsdiq məqsədilə konkret iş yerinin axtarışı da çıxış edir.

Nəticədə, əhalinin beynəlxalq miqrasiyası-beynəlxalq turizm səyahətləri inkişaf etdikcə və genişləndikcə miqrasiya-turist axınlarının dövlət idarəetmə metodları yaranmış və təkmilləşmişdir.

Beynəlxalq miqrasiyanın və turizmin yaratdığı problemlər dövlət və dövlətlərarası tənzimləmənin geniş sisteminin yaranmasına gətirib çıxarmışdır.

Beynəlxalq miqrasiyanın və turizmin həm "ixrac", həm də "idxal" ölkələr üçün mənfi və müsbət nəticələrə gətirib çıxarması onun tənzimlənməsi üçün tədbirlər planının işlənməsini tələb edir. Milli iqtisadiyyatın normal fəaliyyətinin təmin edilməsinə yönəlmiş bu tədbirlər dövlət miqrasiya-turizm siyasəti çərçivəsində həyata keçirilir.

Xüsusilə, son dövrlərdə rifah səviyyəsi yüksək, adambaşına düşən milli gəliri çox olan qabaqcıl və inkişaf etmiş ölkələrin hamısı turizm sahəsində çəkisi çox olan ölkələrdir. Buna nəzərən, təbii sərvətləri çox olsa belə, inkişaf etməmiş ölkələr isə turizm potensialı yaxşı dəyərləndirilməmiş, turizm gəlirləri az olan ölkələrdir, həm də bu ölkələrdən inkişaf etmiş ölkələrə miqrasiya hərəkətləri daha çoxdur. Nəticədə, inkişafın ən mühüm göstəricilərindən biri –turizm müəssisələrinin ölkə daxilində planlı yerləşməsi və miqrasiyanın tənzimlənməsidir.

**Ədəbiyyat**

1. Александрова А.Ю. Международный туризм. М:. У.П.М. Аспент Пресс. 2001.
2. Əfəndiyev V., Nağıyev S. Əhali coğrafiyası. B. 2006.
3. Harvey J., Jowsey E. (New York, 2007), Müasir Ekonomiks. (Tərc.: Abdullayeva Ə., Orucova P.) B.: Kitab klubu nəşri. 2008.
4. Məmmədov C., Rəhimov S., Turizmin termin və anlayışların izahlı ensiklopedik lüğəti. B. 2003.
5. Özgüç N. Turizm coğrafiyası. İst. 2003.
6. Akkayan T. Göç ve değişme. İst. 1989.

***Rövşən Nəriman oğlu KƏRİMOV,***
*Azərbaycan Milli Elmlər Akademiyasi Coğrafiya İnstitutu*

## Təbii fəlakətlərin səbəb olduğu əhali miqrasiyasının tənzimlənməsi

Təbii fəlakətlərin baş verməsi nəticəsində insanlar özlərinin və ailələrinin həyatını xilas etmək üçün, yaxud da evlərinin yararsız hala düşməsi səbəbindən qonşu ərazilərə, rayonlara köç etməyə məcbur olurlar. Bir çox hallarda təbii fəlakətin nəticələri sonrakı müddətdə də onların yaşayışına, dolanışığına mənfi təsir etmiş olur. Evlər qəzalı və ya yarımqəzalı vəziyyətə düşə bilir, ev təsərrüfatlarındakı dağıntılar, həmçinin bağların, əkin sahələrinin yararsız vəziyyətə düşməsi insanları çox çətin vəziyyətdə qoyur. Əvvəlki vəziyyəti bərpa etmək üçün isə heç də qısa zaman tələb olunmur.

Əlverişsiz təbii-dağıdıcı proseslərin, o cümlədən iqlimlə bağlı olan təbii proseslərin (quraqlıq, su hövzələrinin səviyyəsinin qalxması və s.) nəticəsində, baş verən ekoloji miqrasiya prosesləri, yaşayış yerini tərk etməyə məcbur olmuş insanların sosial müdafiəsi və adaptasiyası məsələləri bütün dünyada bir çox elmi tədqiqatların və layihələrin predmetidir (2; 3, s.54,55).

Elmi ədəbiyyatlarda Azərbaycandakı ekoloji miqrasiya məsələlərinin yalnız ayrı-ayrı aspektlərinə baxılmış (5, 7, 8), bu problem ölkədə ayrıca tədqiqat mövzusu kimi geniş araşdırılmamışdır. Bu baxımdan, beynəlxalq təcrübəni nəzərə alaraq, ekomiqrasiyanın bir sosial və demoqrafik proses kimi əsaslandırılması və öyrənilməsi aktual olan məsələlərdəndir.

Beynəlxalq praktikada miqrasiya prosesi ilə məşğul olan təşkilatlar təbii fəlakətlərdən xilas olmaq üçün kütləvi şəkildə öz yaşayış yerlərini, evlərini tərk edərək, qonşu regionlara və ya ərazilərə miqrasiya etmək məcburiyyətində qalan əhalini "*internally displaced persons*" (IDP), yəni "daxildə miqrasiya etmiş insanlar" kateqoriyasına aid edirlər. Beynəlxalq Miqrasiya Təşkilatının 2007-ci ildə təklif etdiyi tərifə görə, "ekoloji miqrasiya –ətraf mühitdə əsasən qəflətən, həmçinin tədricən baş verən dəyişikliklər səbəbindən həyat şəraiti pisləşən, bununla əlaqədar ölkə daxilində və ya onun xaricində yaşadıqları yeri müvəqqəti və ya daimi olaraq tərk edən, yaxud bunu etməyə qərar vermiş insanlar, yaxud insanlar qrupudur" (6, s.10). Dünya praktikası göstərir ki, ekomiqrantlar –ekoloji miqrasiya prosesinin subyektləri hətta öz əvvəlki yaşayış yerlərinə qayıtdıqları halda belə, cəmiyyətin sosial baxımdan nisbətən imkansız təbəqəsi olaraq qalırlar (4).

Azərbaycan Respublikasında mövcud olan qanunvericiliyə görə, təbii fəlakətlərin baş verməsi səbəbindən öz yaşayış yerini dəyişən insanlar “daxildə miqrasiya etmiş insanlar” (IDP) kateqoriyasına aid edilmirlər. Bununla belə, “Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası”nda təbii fəlakətlərdən zərər çəkmiş insanların əhalinin ayrıca kateqoriyası olaraq göstərildiyi qeyd olunmalıdır. Dövlət konsepsiyasında ekoloji təhlükəyə malik bölgələrdən əhalinin köçürülməsi və yeni yaşayış yerlərində məskunlaşdırılması işinin proqnozlaşdırılması, onların adaptasiyası və reabilitasiyası üzrə konkret proqramların hazırlanması “Miqrasiya proseslərinin idarə olunması sisteminin təkmilləşdirilməsi” fəaliyyətinin (bənd 2.4.1) əsas istiqamətlərindən biri kimi göstərilmişdir. Konsepsiyada qeyd olunur ki, ekomiqrantlar –Xəzər dənizinin səviyyəsinin dəyişməsi, torpaq sürüşmələri, sel və digər təbii fəlakətlərlə, habelə meliorasiya işlərinin həyata keçirilməsi üçün lazımi vəsait və texnikanın olmaması üzündən, torpağın şoranlaşması ilə əlaqədar olaraq, yaşayış yerlərini dəyişməyə məcbur olan insanlardır (1).

1988-2007-ci illər ərzində Azərbaycanda təbii fəlakətlərin təsirinə məruz qalmış insanların sayı 1,9 milyon nəfər olmuşdur. Müvafiq göstərici Gürcüstanda 719,3 min nəfər, Ermənistanda isə 1,944 min nəfər təşkil etmişdir (6, s.14).

Azərbaycanda son illərdə qeydə alınmış ekomiqrasiya prosesləri arasında 2010-cu ilin yazında Kür və Araz çaylarında baş vermiş daşqınlar nəticəsində insanların müvəqqəti və ya daimi olaraq, öz yaşayış yerlərini tərk etmək məcburiyyətində olması faktı xüsusi qeyd olunmalıdır. Həmin proses nəticəsində qeydə alınmış əhali miqrasiyası həm öz coğrafiyasına, həm də ekomiqrantların sayına görə müstəqillik dövründə baş vermiş bütün digər ekomiqrasiya proseslərini qabaqlayır. Həmin vaxt daşqından ən çox ziyan çəkmiş İmişli, Sabirabad və Saatlı rayonlarında ekomiqrasiya prosesləri özünü daha qabarıq büruzə vermişdir. Belə ki, 2010-cu ilin yazında Kür-Araz ovalığında daşqın suları ilə 70.012 ha sahə örtülmüş, bunun 67.422 ha sahəsi Saatlı, Sabirabad və İmişli rayonlarında baş vermişdi. Rəsmi məlumata görə, dövlətin əhaliyə götərdiyi yardım çərçivəsində bu üç rayonda 1.500-ə yaxın ev tikilmişdi. 27 məktəbdə, 6 uşaq bağçasında, 15 məsciddə, 12 xəstəxanada, 1 tibb məntəqəsində təmir işləri aparılmışdı.

Həmin vaxt Saatlı rayonunda 4.863 ekomiqrant qeydə alınmış, onlardan 695 nəfəri ilk aylarda məktəb binalarında yerləşdirilmişdi. Saatlı rayonu üzrə 1.028 ev və 5.479 zərərçəkmiş insan qeydə alınmışdı.

Sabirabad rayonunda daşqından 39 kənd zərər çəkmişdi. Rayon ərazisində 18.255 ekomiqrant qeydə alınmış, 90 min evə ziyan dəymişdi. Həmin evlərin sakinləri müvəqqəti olaraq, 5 məktəbdə və 1 çadır şəhərciyində yerləşdirilmişdi.

İmişli rayonunda 14.770 hektar ərazi su altında qalmış, 528 ev ya tamam dağılmış, ya da qəzalı vəziyyətə düşmüşdü. Rayonda 45 yaşayış məntəqəsi daşqından müxtəlif dərəcədə ziyan çəkmişdi.

2010-cu il daşqınlarının mənfi nəticələrinin aradan qaldırılması tədbirləri çərçivəsində 5 yeni qəsəbə salınmış, 3 mindən artıq ev, 100-ə yaxın sosial və infrastruktur obyekti inşa və ya təmir edilmiş, 5 min evdə təmir işləri aparılmışdır. Daşınmaz əmlaka və əkin sahələrinə dəyən zərərə görə əhaliyə ödənilmiş kompensasiyanın həcmi 20,5 milyon manat təşkil etmişdi.

Qeyd olunan təbii fəlakət nəticəsində digər yaşayış məntəqələrinə köç etmiş ekomiqrantların sosial-iqtisadi problemlərinin tədqiqi əsasında tərəfimizdən müəyyən nəticələrə gəlinmişdir. Onları qısa şəkildə aşağıdakı kimi şərh etmək istərdik.

Təcrübə göstərir ki, iqtisadi zərər təkcə ekomiqrantlara deyil, zərər çəkmiş regionun ümumən kənd əhalisinə ağır zərbə vura bilir. Sakinlərin illərlə əziyyət çəkərək saldığı bağlar, üzümlük sahələri məhv olur ki, bu ağır vəziyyət qarşıdakı bir neçə il ərzində də onların həyatında iz buraxır –məşğulluq aşağı enir, gəlirlər azalır və s. təsir göstərir. Zərər çəkmişlər yaranmış vəziyyətdən çıxmaq üçün yollar axtarır, bəzi hallarda kəndi tərk edir, şəhərə üz tuturlar. Eyni zamanda, ekomiqrantlar sosial baxımdan arzuolunmaz şəraitə düşə bilirlər, onların uşaqları təhsil alma imkanından məhrum olurlar və ya məhrum olmasalar belə, keyfiyyətli təhsildən kənarda qalırlar.

–Təbii fəlakətlər nəticəsində yaşayış məntəqələrinin yeni tipləri meydana çıxır, yeni salınmış qəsəbələr, nisbətən iri kəndlər formalaşır, kənd məskunlaşmasının formaları dəyişir. Təhlillər göstərir ki, təbii fəlakət baş verdikdən sonra dövlət strukturları ilə təbii fəlakətə məruz qalmış əhali arasında sıx və geniş konsultativ xarakterli görüşlərin keçirilməsi fəlakətin nəticələrinin səmərəli və məqsədəuyğun şəkildə aradan qaldırılmasına müsbət təsir göstərir. Məsələn, təbii fəlakətə məruz qalmış sakinlər bəzən obyektiv və ya subyektiv səbəbdən görülən bərpa-inşaat işlərinə müxtəlif cür münasibət göstərə bilirlər. Bu baxımdan, yaşayış binaları ilə əlaqədar tikinti və rekonstruksiya işlərinin aparılmasında, yeni salınmalı olan yaşayış məntəqələrin yerinin, tipinin, məskunlaşma formalarının müəyyən edilməsində və s. fəlakətə məruz qalmış əhali arasında ictimai rəyin öyrənilməsi vacib əhəmiyyət kəsb edir.

–Ekomiqrantlar üçün yeni potensialın yaradılması məsələsində problemin sosial-demoqrafik aspektlərinin nəzərə alınması zəruridir. Xüsusən, ekomiqrantların yerləşdirilməsi və reabilitasiyası fəaliyyəti üzrə kompleks –demoqrafik, iqtisadi və mədəni-sosial nöqteyi-nəzərdən yanaşma vacib əhəmiyyət kəsb edir. Ekomiqrantlar üçün yaşayış məntəqəsinin tipinin əvəzlənməsi, yəni kənddən qəsəbəyə çevrilməsi həmişə birmənalı qarşılanmır. Məsələn, on illərlə kənddə yaşamış və kənd həyat tərzinə alışmış əhali üçün şəhər tipli (qəsəbə) məskunlaşma formasında yaşamaq və yeni mühitə adaptasiya olmaq

çətin gələ bilər. Xüsusən, orta və yaşlı əhali, aşağı təhsilli, həyat fəaliyyəti birbaşa kənd təsərrüfatı işlərinə bağlı olan insanlar həmin adaptasiya prosesini daha çətin keçirir. Yeni qəsəbələrdə sakinlər üçün əkinçilik və heyvandarlıqla məşğul olmaq üçün əvvəlki müvafiq şərait olmur.

–Adaptasiya və reabilitasiya üzrə müdaxilə tədbirlərinin aparılmasında resipiyent rayonunun mədəni xüsusiyyətləri, doğum və təbii artım əmsalı və s. nəzərə alınmalıdır. Bu baxımdan, ekomiqrantlar üçün salınan qəsəbələrdə müvafiq zəruri infrastrukturun yaradılması aktualdır. Həmin yaşayış məntəqələrindəki evlərdə olan otaqların sayı da vacib əhəmiyyət kəsb edən məsələdir. Nəzərə almaq vacibdir ki, kənddən qəsəbəyə köçmə prosesi çoxuşaqlılıq ənənəsini saxlayan ailələr üçün çətinlik (ev şəraitinin darısqallığı və s.) yaratmamalıdır.

–Miqrasiya siyasətinin nəzəri olaraq işlənməsi multidisiplinar xarakter daşıyır, ona görə də, miqrasiya ilə bağlı məsələlərlə ekoloqlarla yanaşı, demoqraflar, coğrafiyaçılar, sosioloqlar, hüquqşünaslar, tarixçilər, psixoloqlar məşğul olmalıdırlar. Belə sahələrarası yanaşma ekomiqrasiya probleminin də iqtisadi, siyasi, ekoloji, psixoloji aspektlərini üzə çıxarmaqla, eyni zamanda, təbii fəlakət zonasındakı vəziyyətin obyektiv qiymətləndirilməsini, məskunlaşma areallarında hüquqi tənzimlənmə, sosial-adaptasiya fəaliyyətlərinin təkmilləşdirilməsini asanlaşdırır. Dövlət isə maliyyə vəsaiti ayırmaqla və ekomiqrantların problemləri ilə məşğul olan tərəflərə müvafiq səlahiyyət və imkanları verməklə bütün bu tədbirlərin reallaşması üçün zəmin formalaşdırır.

–Hazırda miqrasiya problemi ilə müxtəlif nazirliklər və dövlət idarələri məşğul olsalar da, miqrantların sosial adaptasiyası, maarifləndirilməsi istiqamətində proqramlar hələ işlənib hazırlanmamışdır. Qeyd olunanlar əsasında belə qənaətə gəlinmişdir ki, ekoloji miqrasiya probleminin effektiv həlli üçün dövlətin, ictimai və beynəlxalq təşkilatların, həmçinin qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsi vacibdir.

–Ekomiqrantların problemlərinə kompleks, realistik yanaşmaqla mühüm dövlət sənədi kimi milli miqrasiya proqramının hazırlanması zəruri hesab olunur. Miqrasiya sahəsində sosial-psixoloji profilli kadrların hazırlığı üzrə proqramın reallaşdırılması, bunun üçün müvafiq mexanizmlərin müəyyənləşdirilməsi mümkündür. Bu zaman ekomiqrantların psixologiyasının nəzərə alınması tövsiyə edilir.

–Ekomiqrantların adaptasiyası üzrə tədbirlərin hüquqi əsaslarının formalaşdırılması üçün beynəlxalq təcrübənin nəzərə alınması və tətbiqi, ölkəmizlə Avropa Birliyi ölkələrinin milli qanunvericiliyin müvafiq istiqamətinin uzlaşdırılması mümkün görünür. Bu baxımdan, Azərbaycanda təbii fəlakət riski təhlükəsi altında yaşayan əhalinin həmin hadisələrdən sığortalanması, bu işin geniş miqyasda təşkil edilməsi olduqca vacibdir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası. 13 iyul 2004-cü ildə AR Nazirlər Kabineti tərəfindən təsdiqlənmişdir (№94).
2. Бондырева С.К., Колесов Д.В. Миграция (сущность и явление). Москва-Воронеж. 2004.
3. Евтушенко В.И. Экологическая миграция как механизм снижения социальной напряженности// Труд и социальные отношения. 2009, №3, с. 54-58.
4. Eco-миграция в Азербайджане –тенденция, динамика и проблемы. Разработанный проект Caucasus Environmental NGO при поддержке ЕС. Б. 2013.
5. Керимов Р.Н. Экологическая миграция в Кура-Аразской низменности Азербайджана: проблемы адаптации и реабилитации экомигрантов/ Научная перспектива. (Научно-аналитический журнал). Уфа, 2015, №7, с. 58-62.
6. Kərimov R.N., Nəcəfova Q. İqlim dəyişmələri, daşqınlar və ekomiqrasiya. B:. Müəllim. 2016. 48 səh.
7. Musayeva M.R. Daşqınların təsərrüfatın inkişafı və ərazi təşkilinə təsiri. B. 2014.
8. Paşayev N.Ə. Azərbaycan Respublikasında təbii fəlakətlər zamanı əhaliyə maddi yardım göstərilməsində sosial sığortanın perspektivliyi. Coğrafiya: nəzəriyyə, praktika və innovasiya. B. 2015. s. 205-210.

***Zakir Namin oğlu EMİNOV,***
*AMEA H.Ə.Əliyev ad. Coğrafiya İnstitutu;*
***İlqar Bəxtiyar oğlu MƏMMƏDOV,*** *BDU;*
***Leyla İslam qızı ƏLİYEVA,*** *ADPU,*
***Elvira Həsən qızı HÜSEYNOVA,*** *ADPU*

## Azərbaycan Respublikasında miqrasiyanın əsas istiqamətləri

XX əsrin sonu, XXI əsrin əvvəllərində ölkədə keçid dövrünün çətinlikləri, milli münasibətlərin gərginləşməsi, istehsal müəssisələri və xidmət obyektlərinin fəaliyyətində müşahidə edilən problemlər, həyat səviyyəsinin aşağı düşməsi ilə əlaqədar əhalinin miqrasiya intensivliyi artmışdır. İlkin vaxtlarda Abşeronun şəhər əhalisi, Qarabağ və ətraf rayonlarda olan müharibə şəraiti bu ərazilərdən əhalinin köçməsinə səbəb olmuşdur. Sonrakı dövrlərdə kənd təsərrüfatında başlanan aqrar islahatlar kənd əhalisinin gəlirlərinin azalmasına, əksər hallarda, sahələrin tənəzzülünə və kənd əhalisinin də miqrasiyasına gətirib çıxarmışdır.

1990-cı illərin ikinci yarısından sonra başlanan iqtisadi islahatlar, neft müqavilələrinin bağlanması xeyli sayda xarici mütəxəssislərin və işçi qüvvəsinin ölkəyə cəlb edilməsinə imkan verdi. Ona görə, miqrasiya proseslərinin davamlı olaraq, öyrənilməsi və nizamlanması tələb olunur.

Müstəqilliyin ilk mərhələsində ölkəni rusdilli əhali olan ruslar, ermənilər, yəhudilər daha çox tərk edirdi. Ona görə, Azərbaycandan miqrasiya edən əhalinin əsas hissəsi Rusiyaya üz tuturdu. Rusiyanın geniş ərazilərə malik olması, işçi qüvvəsinə böyük tələbat, uzun illər ərzində vahid siyasi, iqtisadi və mədəni məkanda yaşamaq və bu sahələrdə olan yaxınlıq yerli əhalinin də bu ölkəyə, daimi və müvəqqəti yaşayış üçün bu ölkəyə axınına səbəb odu.

1989-cu ildən sonra respublikada gedən ictimai-siyasi proseslər nəticəsində rusların sayı 250,6 min nəfər və ya 63,9% azalmış, 1999-cu ildə onların respublika əhalisi arasında payı 1,8%-ə enmişdir (1, s. 54). 1999-2009-cu illərdə isə onların sayı daha 22,4 min nəfər (15,8%) azalaraq 119,3 min nəfərə enmiş, əhali arasında payı 1,3 təşkil etmişdir (2, s. 20). Rusların miqrasiya səviyyəsinin yüksək olmasını 1990-1995-ci və 1996-2000-ci illərin miqrasiya göstəricilərindən də izləmək olar. 1990-1995-ci illərdə Azərbaycandan Rusiyaya 205,4 min nəfər, sonrakı 5 ildə 45,2 min nəfər köç etmişdir. Lakin miqrantların hamısı ruslardan ibarət olmamış, onlar arasında ermənilər, ukraynalılar, çoxlu sayda azərbaycanlılar da olmuşdur (10, s. 55).

2000-ci illərin ikinci yarısından sonra ölkəni tərk edənlərin sayı, o cümlədən Rusiyaya miqrasiya axını azalır. 2006-2010-cu illərdə Rusiyaya gedənlərin sayı əvvəlki beşillik dövrə nisbətən 2 dəfə az olmuşdur. Onların mütləq göstəriciləri müvafiq olaraq 2001-2005-ci illərdə 17.800 nəfər, 2006-2010-cu illərdə 8.221 nəfər olmuşdur. 2011-2015-ci illərdə isə Azərbaycanda iqtisadi islahatlar aparılması, yeni iş yerlərinin açılması, Rusiyada miqrasiya sahəsində olan ciddi qeydiyyat rejimi və məhdudiyyətlər nəticəsində nəinki, əhali axını azalmış, hətta geri qayıdanların sayı artmışdır. Ona görə, miqrasiya saldosu +3.941 nəfər təşkil etmişdir (1, s. 449-450).

Azərbaycana köçənlər arasında Rusiyadan gələnlər üstünlük təşkil etmişdir. Ölkənin müstəqillik əldə etməsi, Rusiyada iş yerlərinin azalması, gəlmələrə olan mənfi münasibət, qeyri-qanuni yaşayanlara nəzarətin gücləndirilməsi, miqrantların qeydiyyata alınmasının zəruriliyi, miqrasiya haqqında yeni qanunun tətbiqi azərbaycanlıların bir hissəsinin vətənə dönməsi ilə nəticələndi. Onların sayı Rusiyaya gedənlərin sayından az olsa da, digər keçmiş respublikalara nisbətən həmişə çox olmuşdur. 1990-1995-ci illərdə Rusiyadan köç edənlər MDB və Baltikyanı ölkələrdən gələnlərin 39,9%-ni, Rusiyaya gedənlər Azərbaycandan bu ölkələrə miqrasiya edənlərin 61,6%-ni təşkil etmişdir. 1996-2000-ci illərdə bu göstəricilər ölkəyə gələnlər 54,2%, gedənlər isə 83,9% təşkil etmişdir. 2001-2005-ci illərdə Rusiya Federasiyasına miqrasiya hesabına ölkədə əhalinin sayı 11,1 min nəfər, sonrakı beş ildə 250 nəfərə qədər azalmışdır. Son dövrlərdə Rusiyaya gedənlərin sayının azalması ilə yanaşı, gələnlərin də sayı aşağı enmişdir. Nəticədə miqrasiya saldosu müsbət qiymətə malikdir. 2011-2015-ci illərdə Azərbaycandan Rusiyaya 1.993 nəfər getsə də, gələnlərin sayı 5.934 nəfər olmuş, miqrasiya saldosu 3.941 nəfər qeydə alınmışdır (1, s. 449-450).

Ukrayna və Belarus ilə miqrasiya əlaqələri Rusiyaya nisbətən aşağı səviyyədədir. 1989-1999-cu illərdə respublikada ukraynalıların sayı 3,4 min nəfər və ya 10,4% azalaraq, 29 min nəfərə çatmışdır (1, s. 54). Onların sayının azalması 1999-2009-cu illərdə də müşahidə edilmiş və 7,5 min nəfər (25,9%) təşkil etmişdir. Digər rusdilli əhaliyə nisbətən ukraynalıların ölkədən miqrasiyası az olsa da, Ukraynaya gedənlərin sayı çoxdur. 1990-1995-ci illərdə Azərbaycandan Ukraynaya 31,3 min nəfər getmiş, miqrasiya saldosu –20,1 min nəfər təşkil etmişdir. 90-cı illərin əvvəllərində hər il Ukraynaya 5,0-8,0 min nəfərdən çox, o cümlədən 1990-cı ildə 12,8 min, 1991-ci ildə 8,7 min, 1992-ci ildə 5,7 min nəfər getmişdir. Son illərdə gedən və gələnlərin sayı 100-200 nəfər təşkil edir, 2006-2010-cu illərdə miqrasiya saldosu müsbət kəmiyyətlidir (129 nəfər). 2011-2015-ci illərdə Azərbaycandan Ukraynaya 166 nəfər getmiş, ölkəyə buradan 520 nəfər gəlmişdir. Deməli, miqrasiya saldosu +354 nəfər olmuşdur. Ukraynaya gedənlərin sayı 3,0 dəfəyə qədər azaldığına görə, 5 il ərzində miqrasiya saldosu kifayət qədər artmışdır (2, s. 59-60).

Ölkədən Belarusa gedənlərin sayı həmişə gələnlərə nisbətən çoxluq təşkil etmişdir. 2000-2010-cu illər ərzində saldo 530 nəfər olmuşdur. 2011-2015-ci illərdə bu ölkəyə gedənlərin və gələnlərin sayının azalması ilə yanaşı, miqrasiya saldosu müsbət qiymətlər (+47 nəfər) alır. Azərbaycanın Baltikyanı respublikalar və Moldova ilə miqrasiya əlaqələri zəifdir. Son illərdə bu respublikalara gələn və gedənlərin sayı bir neçə on nəfərdir, Baltikyanı ölkələrlə miqrasiya əlaqələrində saldo mənfi, Moldova ilə əlaqələrdə müsbət kəmiyyət alır.

Gürcüstan Azərbaycanın sıx miqrasiya əlaqələri olan ölkələrdən biridir. Bu ölkədə soydaşlarımızın yaşaması miqrasiyada iştirak edənlərin sayının artmasına səbəb olur. MDB ölkələri ilə müqayisədə gələnlərin sayına görə Gürcüstan Rusiyadan sonra ikinci yeri tutur. 1990-1995-ci illərdə onların sayı 20,2 min nəfər olmuşdur. Lakin müsbət saldoya görə Gürcüstan MDB-dən irəlidə durur. Azərbaycana ən çox miqrant buradan gəlir (+15,4 min nəfər). Azərbaycanlıların işlə təminatında, dövlət dilinin öyrənilməsində, yaşayış şəraitinin təşkilində, təhsil almaqda müəyyən problemlər vardı. İnsanların Gürcüstandan Azərbaycana köç etməsini şərtləndirən əsas səbəblər də məhz bunlardır. 2000-ci illərdən bu ölkə ilə əlaqələrdə miqrasiya saldosunun illik qiyməti müsbət 200-250 nəfər təşkil edir. 2001-2005-ci illərdə Gürcüstandan Azərbaycana gələnlərin sayı 1,1 min nəfər, 2006-2010-cu illərdə 966 nəfər, sonrakı 5 ildə 1.972 nəfər çox olmuşdur (1, s. 449-450). Son 5 ildə Gürcüstandan daimi yaşamaq üçün ölkəyə 2,0 min nəfərdən çox insan gəlmişdir.

XX əsrin 90-cı illərində Özbəkistan və Qırğızıstanda etnik münasibətlərin gərginləşməsi zamanı burada yaşayan Məhsəti türklərinin bir hissəsi Azərbaycana pənah gətirmişdir. 2002-ci ildə Özbəkistandan 16,5 min nəfər qaçqının gəldiyi qeydə alınmışdır. 1990–1991-ci illərdə hər il Özbəkistandan Azərbaycana 7.000 nəfər gəlmişdir. 1991-1995-ci illərdə onların ümumi sayı 17,5 min nəfər olmuş, miqrasiya saldosu +14,0 min nəfər təşkil etmişdir (9, s. 45).

Hər iki respublikadan sonrakı dövrlərdə də Azərbaycana gələnlərin sayı üstünlük təşkil etmişdir. 2006-2010-cu illərdə Özbəkistan ilə miqrasiya əlaqələrində miqrasiya saldosunun illik qiyməti +368 nəfər, sonrakı 5 ildə +288 nəfər qeydə alınmışdır. Qırğızıstan ilə əlaqələrdə bu göstəricilər müvafiq olaraq +44 nəfər və +107 nəfər olmuşdur.

Qazaxıstan isə Azərbaycandan miqrantların üz tutduğu mühüm ölkələr sırasındadır. Hər 5 illik dövrdə bu ölkəyə Azərbaycandan 700-900 nəfər gedir, miqrasiya saldosu 200-300 nəfər arasında dəyişir. 2011-2015-ci illərdə ölkədən Qazaxıstana 890 nəfər getmiş, buradan 726 nəfər gəlmişdir, miqrasiya saldosu 164 nəfərdir.

Ümumilikdə, MDB ölkələri ilə uzun illər ərzində olan yaxınlıq miqrasiya edən insanların da bu ölkələrə üz tutmasına səbəb olur. 2000-ci illərin ikinci yarısından sonra bu qrupa daxil olan ölkələrlə əlaqələrdə gələnlər üstünlük

təşkil edir, onların sayı getdikcə artır. 2006-2010-cu illərdə MDB ölkələrindən 10,8 min nəfər, 2011-2015-ci illərdə 8,2 min nəfər Azərbaycana gəlmişdir (2, s. 449-450).

Müstəqillik illərində sayı kəskin azalan millətlər arasında yəhudilər də vardır. 1989-1999-cu illərdə onların sayı 2,8 dəfə və ya 16,3 min nəfər azalmışdır. Yəhudilər əsasən İsrailə və ABŞ-a köç etmişlər. Belə ki, 1990-1995-ci illərdə Azərbaycandan İsrailə 19.306 nəfər, 1996-2000-ci illərdə 2.427 nəfər getmişdir (9, s. 47). Onlar arasında digər millətlərin nümayəndələri, daha doğrusu, qarışıq nikahda olanlar da vardır. Son illərdə bu ölkəyə gedənlər və gələnlərin sayı 20-30 nəfərə qədərdir.

Göstərmək lazımdır ki, MDB və Baltikyanı ölkələrdən savayı başqa ölkələrə köç edənlərin 1990-1995-ci illərdə 77,5%-i, 1996-2000-ci illərdə isə 53,1%-i İsrailə getmişdir. Qalanları ABŞ-a, Almaniyaya və b. ölkələrə sığınmışlar (10, s. 56).

Hazırda ölkədən əhalinin ABŞ və Almaniyaya axını davam edir. Onların sayı az olsa da, davamlı olaraq, mənfi saldoya malik olur.

Ölkədə xarici miqrasiyanın nizamlanması, əhalinin, xüsusilə əmək qabiliyyətli əhalinin və ixtisaslı kadrların xaricə axınının qarşısının alınması və bu prosesin nizamlanması üçün yeni iş yerlərinin yaradılması, əhalinin mənzillə təminatına şərait yaradılması, sosial-mədəni xaidmət səviyyəsinin yüksəldilməsi istiqamətində islərin genişləndirilməsi zəruridir. Bu tədbirləri regionlarda daha geniş miqyasda həyata keçirmək tələb olunur. Ona görə ki, bu ərazilərdə olan problemlər əhalinin daimi yaşayış yerlərini tərk etməsinə səbəb olur, onların böyük bir qismi Abşeronda cəmlənir, az bir hissəsi xarici ölkələrə üz tutur. 2011-2014-cü illərdə ölkədaxili miqrasiya prosesində Abşeronun miqrasiya saldosu +16,1 min nəfər olmuşdur.

Beləliklə, uzun illər ərzində xarici miqrasiya hesabına ölkədə əhalinin sayı azalmışdır. 2000-ci illərin ikinci yarısından başlayaraq, ölkəyə gələnlərin sayı gedənləri üstələyir. Miqrasiya saldosu 2006-2010-cu illərdə +1,9 min nəfər olmuşdursa, 2011-2015-ci illərdə bu göstərici +8,2 min nəfərə yüksəlmişdir.

**Ədəbiyyat:**

1. Azərbaycanın demoqrafik göstəriciləri –2015. B.: DSK. 2016. 480 səh.
2. Azərbaycanın əhalisi –2015. B.: DSK. 2016. 133 səh.
3. Azərbaycanın regionları –2015. B.: DSK. 2016.
4. Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, cins-yaş tərkibi. B.: DSK. 2000. 565 səh.
5. Azərbaycan Respublikası əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. B.: DSK. 2010. 629 səh.

6. Azərbaycan Respublikasının coğrafiyası. II cild. İqtisadi, sosial və siyasi coğrafiya. B. 2015. 328 səh.
7. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı. // Respublika. B. 26 iyul, 2006.
8. Eminov Z.N., Abbasova V.Z. Müstəqillik illərində Azərbaycan Respublikasında miqrasiya prosesləri. Coğrafiya və təbii resurslar. B. 2015. № 2. s. 91-94.
9. Eminov Z.N. Azərbaycanın əhalisi. B.: Çıraq. 2005. 560 səh.
10. Paşayev N.Ə., Əyyubov N.H., Eminov Z.N. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. B.: Çıraq. 2010, 416 səh.

***Etibar Sənan oğlu BƏDƏLOV,***
*AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*

## Qloballaşma və Azərbaycanda miqrasiya proseslərinin dinamikası

Qloballaşma prosesinin ictimai-siyasi proses olub XX əsrin sonunda sosializm sisteminin dağılması ilə inkişaf etməyə başlamış, 1991-ci ildə dövlət müstəqilliyini yenidən qazanan Azərbaycanın inkişafında təkan verici amillərdən biri olmuşdur. Azərbaycan Yaxın Şərq regionunda əlverişli iqtisadi-coğrafi mövqeyinə və karbohidrogen ehtiyatlarına görə strateji əhəmiyyətı ilə fərqlənir. Bu səbəbdən də, qloballaşma prosesi ölkənin iqtisadiyyatına, siyasətinə, mədəniyyət, incəsənət və idman mübadiləsinə, ticarət və miqrasiyanın sürətlə artmasına təsir edir. Qloballaşma dünyada açıq iqtisadiyyatın forlaşması və ölkələr arasında xarici əlaqələrin inkişafı üçün dövlətlər tərəfindən yaradılan məhdudiyyətləri aradan qaldıran prosesdir. İqtisadiyyatın qloballaşması, dövlətin quruculuq işlərində sərmayə qoyulmasına və xarici ticarətdən böyük miqdarda gəlir əldə olunmasına səbəb olur. Beynəlxalq əlaqələrin inkişafında xarici miqrasiyanın özünəməxsus rolu olmuşdur. Azərbaycan miqrasiya məsələləri sahəsində beynəlxalq konvensiyalara qoşulmuş və milli miqrasiya qanunvericiliyi çərçivəsində qəbul edilmiş beynəlxalq öhdəliklərdən irəli gələn tədbirləri reallaşdırılır. Bu baxımdan, 2007-ci ildə Dövlət Miqrasiya Xidmətinin yaranması miqrasiya proseslərinin tənzimlənməsi baxımından böyük əhəmiyyətə malikdir. Müasir dövrdə Yaxın Şərq regionunun tərkib hissəsi olan Azərbaycan geosiyasi və iqtisadi-coğrafi mövqeyi, strateji əhəmiyyəti, iqtisadi, mədəni və digər əlaqələr üçün Şərq və Qərb, Cənub və Şimal ölkələri arasında məkan olması ilə özünəməxsus miqrasiya proseslərini formalaşdırır.

Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni inkişafında bütün tarixi dövrlərdə ən mühüm rol oynayan amillərdən biri miqrasiya prosesləri olmuşdur. Miqrasiya coğrafi, demoqrafik, sosial, siyasi və iqtisadi amillərin təsiri ilə baş verir. XX əsrin sonuna qədər Azərbaycan ərazisində miqrasiya proseslərinə siyasi və iqtisadi amillərin təsiri çox olmuşdur. Xüsusilə, Azərbaycan Rusiyanın tərkibində olduğu XIX-XX əsrlərdə, əvvəllər çarizm, sonra isə sovet rejimi tərəfindən miqrasiya idarə olunurdu. XX əsrin əvvəlində çarizmin apardığı müstəmləkə siyasəti nəticəsində Bakı şəhəri miqrasiya proseslərinin nüvəsini təşkil edir və bu səbəbdən, artıq yerli əhalinin payı şəhər əhalisinin cəmi 10%-ə yaxınını təşkil etmişdı (6, s.340) Çarizm siyasətinin davamı kimi

sovet dövrünün ilk onilliklərində beynəlmiləl şüarı altında və kadr çatışmazlığı adı ilə rus, erməni, ukraynalı, belorus və digər xalqların Bakıya miqrasiyası təşkil edilir və onlar şəhərin mərkəzi, yeni salınmış qəsəbələrdə hazır mənzillə təmin edilirdilər. Bakının müharibə dövründə boşalmış mənzillərində də gəlmə əhali yerləşdirilirdi. Bu proses Azərbaycanın yeni salınan şəhərlərində baş verirdi. Bununla yanaşı, Sovet dövründə soydaşlarımızın Ermənistandan kütləvi deportasiyaları nəticəsində 1948-1953-cü illərdə 150 min nəfər, 1987-1988-ci illərdə 250 min nəfər Azərbaycana gəlmişdi. 1991-ci ildə SSRİ-nin suqutu ilə Azərbaycanda miqrasiya sahəsində hərc-mərclik şəraiti yaranmışdı (8, s.34). Qarabağ müharibəsi nəticəsində ərazimizin 20%-nin işğal olunması nəticəsində bu ərazilərdən köçkün düşənlərin sayı 700 min nəfərdən çox olmuş, bu proses ağır vəziyyəti daha da gərginləşdirmişdi.

XX əsrin sonunda MBD məkanında böyük miqrasiya prosesləri və qaçqın problemləri üzləşən ilk ölkə Azərbaycan olmuşdur. Lakin yeni yaranan dövlətimiz bütün çətinliklərə baxmayaraq, ilk dəfə müstəqil miqrasiya siyasəti həyata keçirməyə başladı. Ölkəmizdə az vaxt ərzində zoraki və ya məcburi miqrasiyaların tənzimlənməsi istiqamətində aparılan siyasət öz bəhrəsini verdi, qaçqınların hüquqi statusu, məskunlaşması, sosial müdafiəsi və digər məsələlər öz həllini tapdı. Ölkəmizdə xarici miqrasiyanın əmək, tranzit, daimi və müvəqqəti növləri inkişaf edir. Azərbaycanın davamlı iqtisadi inkişafı onun qonşu və digər ölkələrlə əlaqələrini genişlənməsinə səbəb oldu, bu isə miqrasiya proseslərini intensivləşdirdi. Təhlillərə görə, xarici miqrasiyada 2007-2015-ci illərdə dövlət sərhədlərindən buraxılan vətəndaşların sayı 94,3 mln nəfər olmuş, bunun 47,6 mln nəfəri və ya 50,5% gələnlər, 46,7 mln. nəfəri və ya 49,5% gedənlər təşkil etmişdir. Bu miqrasiya prosesi 2007-2009-cu illərdə 6-8 mln nəfərdən 2012-ci ildən sonra 12-13 mln nəfər səviyyəsinədək artmışdır. Tədqiq edilən dövrdə dövlət sərhədlərindən buraxılan əhalinin 39,3% -ni və ya 37,1 mln nəfər xarici ölkə vətəndaşları təşkil etmişdir (4, s.36; 5, s.31). Son illər ölkədən yerli əhalinin miqrasiyada gedənlər arasında üstün olması qonşu ölkələrlə viza tələb olmaması və xüsusilə, Rusiya və İranla ticarət əlaqələri ilə bağlı olmuşdur. 2010-2015-ci illərdə Azərbaycana xarici ölkələr üzrə gələnləri qruplaşdırsaq, belə nəticə alınır ki, onların 88%-i qonşu ölkələrdən, xüsusilə Rusiya və Gürcüstandan gələnlər 60%-dən çoxunu təşkil etmişlər. Bunun əsas səbəbi bu ölkələrlə vizanın olmaması və orada yaşayan azərbaycanlıların vətənlə bağlılıq əlaqələridir. İran və Türkiyədən gələnlərin çoxu turizm və istirahət məqsədilə gəlir. 2010-2012-ci illərdə İrandan 1 mln. nəfər gəlmişdisə, 2013-2015-ci illərdə bu say azalaraq, 425 min nəfər olmuşdur. Bu ölkələrlə əlaqələrdə vizalar götürülsə, bu miqrasiyalar 2-3 dəfə arta bilər, bu isə ölkə büdcəsinə əlavə milyardlarla gəlir gətirər. Təhlillər göstərir ki, Böyük Britaniya, Ukrayna, Qazaxstan, ABŞ, Almaniya, İtaliya, İzrail, Belarusiya, Fransa, Çin, Hindistan və digər ölkələrdən gələnlərin sayı daha çox olmuşdur.

Azərbaycana gələn xarici ölkə vətəndaşlarının səfərlərin məqsədinə görə, bölgüsü üzrə təhlillərindən aydın olur ki, 2010-2015-ci illərdə Azərbaycana xarici ölkələrdən gələnlər 13,5 mln. nəfər olmuş, onun 82%-i turizm və qalanları digər məqsədlərlə gəlmişlər. Turizm məqsədilə gələnlərin 35,8%-i istirahət, əyləncə, 33,4%-i işgüzar turizm, 26%-i qohumların, dostların ziyarəti, qalanları müalicə, dini və digər məqsədlərlə bağlı olmuşdur (5, s.33).




***Şəkil 1.*** *( Mənbə: 5, s.34-35 məlumatı üzrə tərtib olunub)*

***Cədvəl 1***

**Azərbaycana gələn xarici ölkə vətəndaşlarının səfərlərin məqsədi üzrə bölgüsü**

| | 2010-2015-ci illər | | |
|---|---|---|---|
| | min n. | % | % |
| Azərbaycana gələn xarici ölkə vətəndaşlarının sayı | 13498,9 | - | 100 |
| **o cümlədən**: turizm məqsədilə | 11039,5 | 100 | 81,8 |
| **ondan:** istirahət, əyləncə turizmi | 3953,0 | 35,8 | |
| işgüzar turizm | 3687,2 | 33,4 | |
| dini turizm | 219,4 | 2,0 | |
| müalicə turizmi | 72,8 | 0,7 | |
| qohumların, dostların ziyarəti | 2875,1 | 26,0 | |
| digər turizm məqsədilə | 232,0 | 2,1 | |
| **digər məqsədlə** | 2460,4 | - | 18,2 |

***Mənbə:*** *Azərbaycanda Turizm. Bakı-2016. (33 s.)*

Daimi yaşamaq üçün Azərbaycana gələnlər və gedənlərin dinamikasının təhlili göstərir ki, 1995-2015-ci illər ərzində gələnlərin sayı əvvəllər azalsa da, 2000-ci ildən sonra sabit qalmış, gedənlərə görə isə say göstəricisi sürətlə azalmaqda davam etmişdir. Hər iki proses ölkədə sosial-iqtisadi vəziyyətlə daha çox əlaqəli olmuşdur. Daimi yaşamaq üçün gələnlərin çoxunu Rusiya və

Gürcüstanın azərbaycanlı vətəndaşları olmuş, 1995-1999-cu illərdə Mərkəzi Asiya ölkələrindən gələnlər fərqlənmiş, gedənlər 1995-1999-cu illərdə Rusiya, İsrail və Ukraynaya, 2005-ci ildən sonra Rusiya və Qazaxstana olmuşdur.

Təhlillərə görə 1995-1999-cu və 2000-2004-cü illərdə daimi yaşamaq üçün gedənlər gələnlərdən 2 dəfə çox olduğu halda, 2005-2009-cu illərdə onlar arasında fərq bərabərləşmiş, 2010-2015-ci illərdə isə gələnlər gedənləri 3 dəfə üstələmişdir (*Cədvəl 2*).

***Cədvəl 2***

**Daimi yaşamaq üçün Azərbaycana gələnlər və ölkədən gedənlərlərin dinamikası (min nəfər)**

| | *1995-1999* | | *2000-2004* | | *2005-2009* | | *2010-2015* | |
|---|---|---|---|---|---|---|---|---|
| | *Gələn* | *Gedən* | *Gələn* | *Gedən* | *Gələn* | *Gedən* | *Gələn* | *Gedən* |
| Cəmi | 29,7 | 64,5 | 13,2 | 28,2 | 12,1 | 12,6 | 13,4 | 4,7 |
| MDB | 29,3 | 58,1 | 12,8 | 27,0 | 10,4 | 12,2 | 12,6 | 4,2 |
| Rusiya | 15,2 | 48,2 | 8,4 | 23,7 | 7,5 | 10,3 | 7,6 | 2,4 |
| Ukrayna | 2,0 | 3,8 | 1,0 | 1,4 | 0,6 | 0,6 | 0.7 | 0,2 |
| Gürcüstan | 3,6 | 0,8 | 1,1 | 0,2 | 1,3 | 0,05 | 2,1 | 0,04 |
| Qazaxstan | 2,0 | 0,9 | 0,5 | 0,7 | 0,7 | 0,9 | 0,9 | 1,3 |
| Özbəkistan | 1,0 | 0,6 | 0,5 | 0,1 | 0,5 | 0,04 | 0,5 | 0,1 |
| Türkmənistan | 1,0 | 1,6 | 0,8 | 0,1 | 0,9 | 0,03 | 0,4 | 0,06 |
| İsrail | - | 4,1 | - | 0,4 | - | 0,03 | 0,02 | 0,02 |
| Almaniya | - | 0,7 | - | 0,3 | - | 0,06 | 0,05 | 0,1 |
| ABŞ | - | 1,3 | - | 0,2 | - | 0,08 | 0,02 | 0,07 |
| Türkiyə | - | 0,2 | - | 0,1 | - | 0,03 | 0,7 | 0,15 |
| Digər ölkələr | 0,4 | 0,1 | 0,4 | 0,2 | 1,7 | 0,2 | 0,1 | 0,2 |

***Mənbə:*** *Azərbaycan əhalisi. DSK. B. 2005.(s.52-53); Azərbaycan əhalisi. DSK. B. 2011. (s.56-57 ); Azərbaycanın demoqrafik göstəriciləri. DSK. B. 2016. (s.449-450).*

2010-2015-ci illərdə daimi yaşamaq üçün Azərbaycana gələnlərin 75,7% şəhər və qalanı kənd yerləri üzrə məskunlaşmış, onların cins tərkibinə görə 51,3% kişi və 48,7% qadın, yaş tərkibinə görə əmək qabiliyyətli əhalinin payı 90,3%, uşaq və yaşlıların payı isə müvafiq olaraq 3,8% və 5,9% olmuşdur. Eyni dövrdə, ölkədən daimi yaşamaq üçün başqa ölkələrə gedənlərin 73% şəhər və 27% kənd yerləri üzrə məskunlaşmış, onların cins tərkibinə görə 42,5% kişi və 57,5% qadın, yaş tərkibinə görə əmək qabiliyyətli əhalinin payı 88,4%, uşaq və yaşlıların payı isə müvafiq olaraq 4,1% və 7,5% olmuşdur (3, s.451-465).

Qloballaşma dövründə dövlətlərarası sərhədlərin şəffaflığı və bu yöndə Azərbaycanda böyük quruculuq işlərinin aparılması xarici miqrasiya proseslərini intensivləşdirsə də, təhlillərdən aydın olur ki, bu proseslərin tənzimlənməsi və inkişafı üçün obyektiv və subyektiv amillərin təsiri araşdırılmalıdır. Obyektiv amillər coğrafi, demoqrafik, milli, iqtisadi, sosial-siyasi və digərləri aiddir (7, s.259). Ölkəmizdə baş verən xarisi miqrasiya proseslərində coğrafi amilin rolu daha böyük olmuşdur. Belə ki, Yaxın Şərq regionunun strateji əhəmiyyətli

Şərq və Qərb, Cənub və Şimal ölkələri arasında yollar qovşağında yerləşdiyi üçün və hazırda Türkiyə və İranla dəmiryol xətlərinin işə düşməsi ilə bağlı tranzit miqrasiyalar daha sürətlə artacaq bu proses qloballaşma nəticəsidir. Son illər quruculuq işlərində qeyri-neft sektorunda, xüsusilə turizm, mədəniyyət-incəsənət, idman sahələrində baş verən müsbət dəyişiliklər işgüzar və istirahət miqrasiya proseslərini sürətləndirmişdir. Daimi yaşamaq üçün gedən və gələnlərin miqrasiyasında iqtisadi və sosial amillərin də rolu nəzərə alınmalıdır.

Xarici miqrasiyanın idarə olunmasında və dövlət siyasətinin formalaşmasında Dövlət Miqrasiya Xidmətinin rolu böyük əhəmiyyətə malikdir. Miqrasiya siyasəti cəmiyyətin diqqət mərkəzində olduğu üçün onun təkmilləşməsi vacib sayılır və bununla bağlı aşağıdakı təklifləri məqsədəuyğun sayırıq:

–Miqrasiyanın qonşu ölkələrlə intensivliyinin daha çox olmasını nəzərə alaraq, kömrük-keçid məntəqələrə sutkalıq iş rejimi və bir neçə keçid xətti tətbiq edilməlidir;

–Türkiyə, İran, ərəb ölkələri, Pakistan və Hindistandan turizm məqsədilə gələnlərin sayının sürətlə artması və miqrasiyaların genişlənməsi üçün bu ölkələrə qoyulan vizalar ləğv olunmalıdır;

–Xarici miqrasiyada iştirak edənlərin etnik tərkibinin statistikası qeyd edilməlidir;

–Rusiya, Gürcüstan və digər ölkələrdə yaşayan azərbaycanlıların ölkəmizlə bağlılığını nəzərə alaraq, onlara ikili vətəndaşlıq verilməsi məqsədəuyğun hesab edilməlidir;

–Demoqrafik problemlərin həllinə kömək üçün Dövlət Miqrasiya Xidmətinin regional mərkəzlərinin nəzdində daxili miqrasiyalarla məşğul olan şöbələr yaradılmalıdır;

Xidmətin regional mərkəzlərində xaricdən gələn turistlərin statistikası aparılmalıdır.

**Ədəbiyyat**


1. Azərbaycan əhalisi. DSK. B. 2005. 115 səh.
2. Azərbaycan əhalisi. DSK. B. 2005. 124 səh.
3. Azərbaycanın demoqrafik göstəriciləri. DSK. B. 2016. 476 səh.
4. Azərbaycanda turizm və xidmətlər. B. 2014. 247 səh.
5. Azərbaycanda turizm. B.: 2016. 140 səh.
6. Bədəlov E.S. Abşeron iqtisadi-coğrafi rayonunda şəhər məskunlaşmasının inkişafında miqrasiya proseslərinin rolu.// Azərbaycan coğrafiya cəmiyyətinin əsərləri, XVIII cild. B. 2013. s. 339-343.
7. Əhali məsələləri üzrə ensiklopedik lüğət. BMT-nin Əhali fondu. B. 2008. 415 səh.
8. Tahirova H.M. Naxçıvan MR miqrasiyanın demoqrafik proseslərə təsirinin iqtisadi-coğrafi problemləri. B. 2016. 204 səh.

***Qərib ƏSGƏROV,***
*Azərbaycan Respublikası Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının dissertantı*

## İnsan alveri və dövlətin sərhəd təhlükəsizliyi siyasəti

Məqalədə müasir dövrdə beynəlxalq və milli təhlükəsizliyə real təhdidlərdən hesab edilən, son dövrlərdə daha geniş yayılan insan alveri və onun səbəbləri, eləcə də ona qarşı mübarizədə dövlət sərhədlərinin etibarlı mühafizəsinin əhəmiyyəti təhlil olunmuş, ölkənin milli təhlükəsizliyi baxımından, dövlət sərhədlərinin mühafizəsinin etibarlı təşkil olunması xüsusi vurğulanmışdır.

Qloballaşma prosesinin və dünya dövlətləri arasında inteqrasiya meyllərinin dərinləşməsi təhlükəsizlik məsələlərinə də qlobal prizmadan yanaşılmanı şərtləndirir. Bu yanaşmaya görə, qlobal və ya beynəlxalq təhlükəsizlik yalnız dünya dövlətlərinin birgə əməkdaşlığı şəraitində təmin oluna bilər. XX əsrin sonlarından etibarən ərazi-sərhəd problemlərinin, dini, etnik, separat və s. zəmində baş qaldıran məhəlli və regional münaqişələrin, ekstremizm və terrorizm hallarının geniş miqyas alması təhlükəsizliyin məzmun baxımından genişlənməsinə səbəb olmuşdur**.** (3, s.265) Müasir dövrdə istənilən dövlətin təhlükəsizlik sistemini beynəlxalq təhlükəsizlik sistemindən kənarda təsəvvür etmək çox çətindir və demək olar ki, hər bir ölkənin milli təhlükəsizliyi beynəlxalq təhlükəsizlik sistemi ilə sıx bağlıdır.

Beynəlxalq təhlükəsizlik dövlətlərin və eləcə də, beynəlxalq hüququn digər subyektlərinin sərbəst inkişafı üçün yaradılmış əlverişli dünya nizamıdır. XXI əsrin əvvəllərindən etibarən beynəlxalq təhlükəsizliyə terror təşkilatları və onların həyata keçirdiyi terror fəaliyyəti, transmilli cinayətkar birləşmələrin qeyri-leqal fəaliyyəti, habelə, geostrateji maraqları toqquşan, enerji daşıyıcılarına və kommunikasiya xətlərinə nəzarət uğrunda rəqabət aparan dairələrdən daha çox təhdid yaranır. Müasir dövrdə transmilli mütəşəkkil cinayətkarlıq, o cümlədən, qeyri-leqal miqrasiya və insan alveri beynəlxalq təhlükəsizliyə ciddi təhdid olmaqla yanaşı, hər bir dövlətin milli təhlükəsizliyinə birbaşa təhlükə yaradır.

İnsan alveri dedikdə, insanların şəxsi və seçim azadlıqlarından məhrum edildiyi, cinsi zorakılıqdan tutmuş əmək istismarı, icbari cinayətkarlıq, orqan alveri, yaxud hər hansı digər mənfəət məqsədli istismar formasınadək çoxsaylı məqsədlərlə üçün icbari və alçaldıcı vasitələrlə istismar edilməsi başa düşülür.

İnsan alveri –zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, hədə-qorxu və ya digər məcbur etmə vasitələrilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi deməkdir. (4, s.1)

İnsan alverinə məruz qalan şəxslər daha çox sosial müdafiəsi olmayan, təhsil səviyyəsi aşağı olan, az gəlirli, işsiz və digər sosial parametrləri qeyri-kafi olan şəxslərdir. Onlar daim normal və ya daha yaxşı həyat tərzi arzusu ilə, özünün və ailələrinin maddi təminat əldə edəcəkləri ümidilə yaşayırlar. Təəssüflər olsun ki, müxtəlif şəxslər və ya təşkilatlar belə şəraitdən istifadə edərək, cəlbedici təkliflər əsasında həmin şəxsləri müxtəlif ölkələrə aparır və istismara məruz qoyurlar. Ümumiyyətlə, insan alveri qurbanlarının sayı digər ölkələrlə müqayisədə az inkişaf etmiş, keçid dövrünü yaşayan ölkələrdə daha çoxdur.

İqtisadi çətinlik, işsizlik, həyat səviyyəsinin aşağı olması insan alverinə şərait yaradan əsas amillərdən hesab olunur. Bəzən təhsil almaq, yüksək əmək haqqı ödənilməklə işə götürmək, ailə qurmaq vədləri ilə vətəndaşlar müxtəlif yollarla xarici ölkələrə göndərilir. Daha sonra qurbanların vacib olan bütün sənədləri əllərindən alınır, onlar əxlaqsızlığa və məcburi əməyə cəlb edilirlər. Tez-tez məkanlarını dəyişdiklərinə görə, hətta həmin şəxslər öz yaşadıqları ünvanları dəqiq bilmir. Belə şirkətlər vətəndaşları xaricə göndərməklə, artıq öz vəzifələrini yerinə yetirmiş olduğunu bildirir və həmin şəxslərin sonrakı talelərinə görə məsuliyyəti öz üzərlərindən atır. Bunun nəticəsində, insan ticarəti yaranır. Bu gün dünyada insan alveri öz miqyasına görə silah alverindən sonra ikinci ən geniş yayılmış və ən çox gəlir gətirən sahə hesab olunur.

Göründüyü kimi, insan alveri elə bir qlobal problemdir ki, burada dövlət təkbaşına mübarizə apara bilmir. Müasir şəraitdə ancaq digər dövlətlərlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində hansısa müsbət dəyişikliyə nail olmaq mümkündür. Bu baxımdan həmsərhəd dövlətlər arasında dövlət sərhədlərinin birgə mühafizəsinin təşkil olunması mühüm əhəmiyyət kəsb edir. Həmsərhəd dövlətlər arasında inteqra edilmiş sərhəd idarəetmə sisteminin yaradılması zəruri şərtlərdən biridir.

Qlobal proseslərin dərinləşdiyi bir şəraitdə istənilən dövlətin milli təhlükəsizliyinin təmin olunmasında dövlət sərhədlərinin etibarlı mühafizəsinin əhəmiyyəti daha da artmışdır. Beynəlxalq aləmdə və regionda baş verən hadisələr, o cümlədən beynəlxalq terrorçuluq, separatçılıq, transsərhəd mütəşəkkil cinayətkarlıq, qeyri-leqal miqrasiya, narkotik və kütləvi qırğın silahları komponentlərin qaçaqmalçılığı kimi neqativ halların tez-tez müşahidə olunması ölkələrin milli təhlükəsizliyi baxımından dövlət sərhədlərinin etibarlı mühafizəsini tam zəruri edir.

Cənubi Qafqazın geosiyasi cəhətdən ən əlverişli məkanında yerləşən Azərbaycan Respublikasının etibarlı sərhəd təhlükəsizliyinin təmin olunması onun milli təhlükəsizliyi baxımından xüsusi önəm daşıyır. (2, s.117) Ölkənin həssas geosiyasi mövqeyi onu müasir dövrdə daha geniş yayılmış və daha təhlükəli xarakteri ilə seçilən beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı, kütləvi qırğın silahlarının yayılması kimi bir sıra transsərhəd təhdidləri ilə üzləşdirir.

Hər bir dövlətin təhlükəsizliyi onun sərhədlərindən başlayır. (5, s.505) Dövlət sərhədlərinin mühafizəsi istənilən dövlətin milli təhlükəsizliyinin, onun suverenliyinin, siyasi və iqtisadi müstəqilliyinin təmin edilməsinə yönəlmişdir. Sərhədlərin etibarlı mühafizəsini təmin etmədən dövlətə qarşı yönələn təhdidlərin –iqtisadiyyatı sarsıdan qaçaqmalçılıq, narkotik və psixotrop maddələrin qeyri-qanuni keçirilməsi, qeyri-leqal miqrasiya, terrorçuların və digər cinayətkar ünsürlərin miqrasiyası və s. bu kimi milli təhlükəsizliyə təhdid olan halların qarşısını almaq çox çətindir.

Azərbaycan 1991-ci ildə özünün müstəqilliyini əldə etdikdən sonra sərhəd təhlükəsizliyi ilə bağlı, xüsusən də beynəlxalq miqrasiya ilə bağlı qanuni mexanizm olmadığına görə, müəyyən problemlərlə qarşılaşdı. Yalnız 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ictimai həyatın digər sahələrində olduğu kimi, miqrasiya problemlərinin həlli və bu istiqamətdə sərhəd təhlükəsizliyi siyasətinin həyata keçirilməsi proseslərində də əhəmiyyətli inkişafa nail olundu.

Müasir qloballaşan cəmiyyətdə sərhəd amili və sərhədlərin təhlükəsizliyi məsələsi bütün dövlətləri düşündürən ən vacib məsələlərdən biridir. Çünki dövlət sərhədinin etibarlı mühafizəsini təşkil etmədən ölkənin suverenliyini, ərazi bütövlüyünü və toxunulmazlığını qorumaq mümkün deyil. Məhz bu amilləri nəzərə alan Ümummilli lider Heydər Əliyev sərhəd təhlükəsizliyi və onun təmin olunması məsələsinə xüsusi həssaslıqla yanaşaraq, 2002-ci il iyulun 31-də Dövlət Sərhəd Xidmətinin yaradılması barədə fərman imzaladı və bununla da, dövlət sərhədlərinin etibarlı mühafizəsi işini yeni mərhələyə qaldırmış oldu. Qısa müddət ərzində aparılan geniş miqyaslı islahatlar nəticəsində sərhəd nəzarət məntəqələrinin maddi-texniki bazası xeyli möhkəmləndiridi və müasir vasitələrlə təchizatı yaxşılaşdırıldı.

Prezident İlham Əliyevin səyləri nəticəsində 2006-cı il iyunun 20-də Dövlət Sərhəd Xidmətinin tabeçiliyində beynəlxalq standartlara uyğun miqrasiya təlim mərkəzinin yaradılması miqrasiya və sərhəd təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edən addımlardan biri oldu. Hazırda sərhəd nəzarəti sahəsində müsbət təcrübənin öyrənilməsi və tətbiqi xüsusi əhəmiyyət kəsb etdiyindən, Miqrasiya və Sərhəd Nəzarəti İdarəsinin əməkdaşları beynəlxalq əməkdaşlıq çərçivəsində müxtəlif xarici dövlətlərdə seminar və kurslara cəlb olunurlar. (1, s.245)

Ümumiyyətlə, son dövrlər xarici ölkələrin müvafiq qurumları ilə inteqrə edilmiş sərhəd idarəçiliyi, sərhəd nəzarəti, qeyri-leqal miqrasiya ilə mübarizə, dəniz sərhədlərinin mühafizəsi, təlim-tədris sisteminin təşkili və digər sahələr üzrə geniş əməkdaşlıq edilir.

Qeyri-leqal miqrasiya və insan alveri kimi sərhəd təhlükəsizliyinə ciddi təhdidlərdən hesab olunan əməllərə qarşı daha effektiv mübarizə aparılmasında Azərbaycan Respublikası Prezidentinin 2004-cü il mayın 6-da özündə insan alverinə qarşı mübarizənin bütün aspektlərini birləşdirən “Azərbaycan Respublikasında İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı”nın, o cümlədən, 2005-ci il iyunun 28-də “İnsan alverinə qarşı mübarizə haqqında” Qanunun, 2009-cu il fevralın 6-da 2009-2013-cü illəri əhatə edən “İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi mühüm əhəmiyyətə malik oldu. Eyni zamanda, insan alveri qurbanlarının müvəqqəti yaşaması üçün xüsusi sığınacaqların yaradılması və həmin sığınacaqlarda nəinki insan alveri qurbanı olmuş şəxslərin, hətta ehtimal olunan və potensial qurbanların da yerləşdirilməsi bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas göstəriciləri kimi qiymətləndirilməlidir. (6, s.1)

Görülən bu işlərlə yanaşı, miqrasiya problemlərini həll etmək, insan alveri kimi mütəşəkkil cinayətkarlığa qarşı effektiv mübarizənin təşkili məqsədilə sərhəd fəaliyyətinin həyata keçirilməsi zamanı aşağıdakı təkliflərin gələcəkdə nəzərə alınması məqsədəuyğun olardı:

- həmsərhəd dövlətlərin müvafiq qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsi və informasiya mübadiləsinin sürətli həyata keçirilməsini təmin edilməsi;
- həmsərhəd dövlətlər arasında sərhəd məsələlərini müzakirə etmək üçün mütəmadi seminarların və görüşlərin sayının artırılması;.
- sərhəd mühafizəsinin birgə təşkili məqsədilə həmsərhəd dövlətlərlə səlahiyyətlərin bölüşdürülməsi:

**Ədəbiyyat**


1. Azərbaycan sərhəd mühafizəsi 90 illik. B.: Şərq-Qərb. 2009. 441 səh.
2. Həsənov.Ə.Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. B.: Zərdabi LTD. 2016. 700 səh.
3. Mehdiyev:R. Azərbaycan qloballaşma dövrünün tələbləri. B.: XXI Əsr –Yeni Nəşrlər Evi. 2004. 582 səh.
4. İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanunu. 2005.
5. Piriyev:A.Siyasi strategiya və milli təhlukəsizlik problemi. B.: Çaşıoğlu. 2002. 530 səh.
6. www.mfa.gov.az/content/124.

***Könül Telman qızı KƏRİMOVA,***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı*

## Qloballaşma şəraitində Azərbaycanın dünyadakı miqrasiya proseslərində yeri və rolu

Məqaləmi Ümummilli lider Heydər Əliyevin ifadəsi ilə başlamaq istəyirəm: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur. Çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Dövlətlərin və xalqların inkişafı tarix boyu sabit deyil, hərəkətli olmuşdur. Ümumiyyətlə harada insan, həyat varsa, orada da mütləq hərəkət var. İnsanların hərəkətliliyini xarakterizə edən miqrasiya prosesi də müasir dünyanın və dövlətlərin taleyində mühüm rol oynayan, müasir tendensiya olan qloballaşmanın başlıca komponentlərindəndir.

Dünya kapitalist sisteminin yeni tarixi mərhələsini ifadə edən qloballaşma sanıldığı kimi, heç də bir formalı proses deyil. Qloballaşma bir tərəfdən, ölkələr arasındakı sədləri aradan qaldırır, digər tərəfdən, onlar arasında keçilməz olan sədlər yaradır. Müxtəlif mədəniyyətlərin daşıyıcıları olan insanlar arasındakı məsafələr qloballaşma vasitəsilə kiçilir, müxtəlif mədəniyyətlərin bir-birini tanıması prosesinin sürətlənməsi, dialoqu ilə yanaşı, onların arasında müxtəlif səbəblərdən yeni münaqişə ocaqlarının yaranmasına yol açır.

İqtisadi qloballaşmanın ön plana çıxması ilə birlikdə, kapitalist sistemini hərtərəfli əhatə edən qloballaşma əsasən üç sahədə bir-birini tamamlayaraq genişlənməkdədir. Bunlar iqtisadi, siyasi və mədəni sahələrdir. Bu sahələr adlarına müvafiq olaraq qloballaşmanın bir-biri ilə əlaqəli olan 3 əsas formasını təşkil edir. Qloballaşma fenomeni əsasən 1991-ci ildə SSRİ-nin Şərqi Avropa, Orta Asiya, Qafqaz ölkələrində öz nüfuzunu itirdikdən sonra ABŞ və bir sıra Qərbi Avropa ölkələrinin düşünülmüş siyasətidir. Bu fenomen bütün dünyada qloballaşmanın önündə gedən Amerika Birləşmiş Ştatlarına düşmənləri ilə mübarizədə hegemonluğunu qoruyub saxlamağa imkan verir. Buna baxmayaraq, qloballaşma dünyadakı siyasi proseslərə, beynəlxalq münasibətlərə, hətta etika və mənəviyyata da təsir edir. Qloballaşmanın xalqlara tam olaraq nə verə biləcəyi böyük bir sirr olaraq qalır. Bu gün qloballaşma insanların, xüsusi ilə də elitanın şüurunu və davranışını həqiqətən dəyişir.

Bu problem üzrə ölkəmizdə nəşr olunan ən sanballı əsər Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" adlı monoqrafiyasıdır.

Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi: "Qloballaşma suveren dövlətlər arasındakı sədləri dağıdaraq, cəmiyyətin daxilində sosial münasibətləri yeni məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq, sərt şəkildə məhdudlaşdırır. Beləliklə, yeni minilliyin əvvəlində qloballaşma dünya təfəkkürünün və tərəqqinin yeni, öncül istiqamətinə çevrilmişdir. Hesab edilir ki, ümumiyyətlə, XXI əsr qloballaşma əlaməti altında keçəcək.

Qloballaşma Azərbaycan Respublikasının qarşısında da çox böyük perspektivlər açmışdır. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi", "Bakı-Tbilisi-Ceyhan" neft və "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərlərinin reallaşdırılması, "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi istiqamətində atılmış uğurlu addımlar, tarixi İpək yolunun bərpasında ölkəmizin iştirakı Azərbaycanın dünya iqtisadi məkanına inteqrasiyasının artıq real həyat hadisəsi kimi təzahür etməsinin əyani göstəricisinə çevrilmişdir. Hətta 2010-cu il iyunun 29-da Bakıda Heydər Əliyev Fondunun Moskva nümayəndəliyinin sədri Leyla Əliyevanın təşəbbüsü ilə Mədəniyyətlərarası Dialoq adlı forum da işə başlamışdır. Həmçinin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında fond bir-birinin ardınca davamlı olaraq mühüm layihələr həyata keçirmiş, onun təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan –tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar.

Vaxtilə Ümummilli lider Heydər Əliyev "Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə bu narahatlığı belə ifadə etmişdir: "Dünya inkişafının indiki mərhələsinin başlıca meyilləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailliyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri, bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür".

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: "Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır". Biz də buna əməl etməyə, milli mədəniyyətimizi, zəngin mədəniyyət nümunələrimizi, mənəvi dəyərlərimizi Qərbin və onun yeritdiyi qloballaşmanın mənfi təsirlərindən qorumaqla bərabər, bu planetar layihədə iştirak etməklə, dünya iqtisadi məkanına inteqrasiyadan geri qalmamalıyıq.

Qloballaşma prosesində başlıca axınlardan biri də miqrasiya prosesinin sürətlənməsi və bu prosesin dövlətlərin və xalqların taleyində həlledici rol oynamağa başlamasıdır. Bu barədə Ümummilli liderimiz Heydər Əliyev demişdir: “Miqrasiya təbii bir prosesdir. Onun qarşısını almaq olmaz, almaq da lazım deyil və ümumən müsbət xarakter daşıyır. Dünyada miqrasiya prosesi bütün ölkələrə, xalqlara aiddir” (9, s.37).

Miqrasiya prosesinin pozitiv tərəfləri ilə yanaşı, neqativ tərəfləri də vardır ki, dünya dövlətləri, dünya birliyi pozitiv tərəflərdən faydalanmaqla, neqativ olanları neytrallaşdırmağa can atır və bu istiqamətdə həm yerli, həm regional, həm də beynəlxalq layihələr həyata keçirilir.

Çox təəssüflər olsun ki, dünyada cərəyan edən proseslər onu göstərir ki, “mokratiyanın beşiyi” kimi göstərilən regionlarda, ölkələrdə multikultural dəyərlər dağılmaq üzrədir. Bu gün dünyada dünyada 30 münaqişə ocağı var ki, onların da kökündə iqtisadi cəhətdən bərabərsizlik, istismar siyasəti və iri imperializm dayanır. Hazırda multikulturalizm tədricən ümumavropa probleminə çevrilməkdədir ki, bu da immiqrasiya və inteqrasiya sahəsində siyasətlə bağlıdır. İmmiqrasiya problemi iqtisadiyyatın yenidən qurulması, məşğulluq sahəsində böhran, şəhər seqreqasiyası, aşağı ixtisaslaşmaya malik olan işçilərin marginallaşması, təhsil sisteminin yenidən gözdən keçirilməsi zərurəti, rasizmin təzahürləri və s. kimi analoji ümumavropa problemləri ilə bir sırada durur. Avropa dövlətləri insan hüquqlarının üzərindən keçir, onlara laqeyd yanaşır və assimilyasiya layihələri irəli sürür. Məsələn, İtaliya məktəblərində xaç gəzdirmək və yerləşdirmək, İsveçrədə minarələrin tikilməsinə qadağa, etnik əlamətlərə görə dövri təqiblər (Fransadan qaraçılar, Böyük Britaniyadan irlandiyalılar), müxtəlif geyim növlərinə, dini simvollara qadağa, Fransada küçədə ibadət, buna qədər isə ictimai yerdə hicab daşımaq yasağı və s. diskriminasiyanın, rasizmin açıq-aşkar nümunələrindən bir neçəsidir.

Hazırda suriyalı qaçqınların bir sıra ölkələr üçün real xaosa çevrildiyi mərhələdəyik. 2011-ci il martın 15-dən başlayan Suriyadakı daxili münaqişə zəminində həm ölkə daxilində, həm də qonşu ölkələrə miqrant axını davam edir. Nəticədə, suriyalı qaçqınlar qonşu dövlətlərin suverenliyi, daxili sabitliyi, milli birliyi üçün təhlükəyə çevrilir. Belə ki, ötən dövr ərzində Türkiyə 1,2 milyon, Livan 1,1 milyon, İordaniya 640.000, İraq 250.000, Misir 150.000 suriyalı qaçqına öz qapılarını açmışdır. Ümumilikdə, 3 milyon Suriya vətəndaşı qaçqın kimi həyatını qonşu ölkələrdə davam etdirir.

BMT-nin rəsmi açıqlamalarına görə, dünyada 200 milyondan çox insan müxtəlif ölkələrdə miqrant kimi yaşayır.

Lakin bir sıra hallarda miqrant axını xalqların arasında dialoqa yox, cəmiyyətdə çaşqınlığa və aqressiyaya səbəb olur. Məsələn: 2014-cü il oktyabrın 20-də Almaniyada 350 nəfərlə başlayan PEGİDA hərəkatı cəmi 3 ay sonra 25.000 insanı ətrafına topladı. PEGİDA (almanca: *Patriotische Europäer*

*Gegen Islamisierung Des Abendlandes*) –"Qərbin islamlaşmasına qarşı vətənsevər avropalılar" hərəkatı alman hökumətini hədəf götürən siyasi hərəkatdır. Bu qrup Avropa boyu İslamın "təhlükəli nüfuzunun" artması əleyhinə küçə çıxışları təşkil edir. Almaniya Avropa İttifaqına üzv ölkələr arasında ən çox qaçqın və sığınacaq qəbul edən dövlətdir. Almaniyada qaçğın və sığınacaq istəyənlərin əksəriyyətini Suriya vətəndaşları təşkil edir. (17) Almanların yarısı kansler Angela Merkelin miqrant siyasətindən narazıdır. Hətta 2016-cı ilin avqustunda bir qrup Berlinin Brandenburg darvazasına iri banner asaraq, şüar vasitəsilə Almaniyanın "islamlaşdırılması" kimi hesab etdikləri immiqrasiyaya etiraz nümayiş etdiriblər.

Miqrasiyanın doğurduğu "beyin axını", "intellektual miqrasiya" müasir dünya dövlətləri üçün böyük problemlər doğurmuşdur. Qabaqcıl ölkələrin immiqrasiya siyasəti məhz "selektiv seçim" prinsipini tətbiq edərək, intellektual immiqrantlara status verilməsini və ya əmək qabiliyyətli, yüksək ixtisaslı işçi qüvvəsi üçün güzəştli leqallaşma siyasətini həyata keçirməyə yönəldilmişdir (11, s.263). Bu sahədə Avropa və ABŞ arasında amansız rəqabət gedir. İntellektual miqrasiya və ya "beyin axınından" əldə olunan iqtisadi fayda, hesablamalara görə hər il 1,43-1,62 trilyon dollara çatır. Qeyri-leqal miqrantlarla birlikdə bu rəqəm daha çoxdur.

Bəzi tədqiqatçıların qeyd etdiyi kimi, keçid dövründə 1992-2002-ci illərdə dünyanın üç ən böyük miqrasiya mərkəzləri ABŞ, Almaniya və Rusiya olmuşdur. Belə ki, qeyd olunan illərdə hər il ərzində orta hesabla ABŞ 924 min, Almaniya 865 min, Rusiya 609 min miqrantın hədəfinə tuş gəlmişdi (13, s.219).

Rusiya miqrant sayına görə dünyada ABŞ-dan sonra ikinci yerdə durur. Sovet imperiyası dağıldıqdan sonra Rusiya ən çox miqrant dalğası ilə üz-üzə qaldı. Bu miqrantların əksəriyyəti postsovet ölkələrindən iş və daha yaxşı həyat şəraiti tapmaq üçün gələnlərdən ibarət idi. Hazırda Rusiyanın miqrantlarla üzləşməsinin səbəbi iqtisadi və demoqrafik səbəblərdir. Böyük Rusiya şəhərlərində, iqtisadi cəhətdən inkişaf etmiş regionlarda, sərhəd bölgələrində, əmək miqrasiyası yüksək həddə çatmışdır. Bu bölgələrin iqtisadiyyatı xarici işçilərin əmək miqrantların iştirakı olmadan səmərəli fəaliyyət göstərə bilməyəcək səviyyəsinə gəlmişdir.

Azərbaycanın müharibə şəraitində yaşamasını, 1 milyondan artıq qaçqın və məcburi köçkünün doğma torpaqlarından didərgin düşməsini, o cümlədən respublikanın əlverişli coğrafi-siyasi məkanda yerləşməsini, əhəmiyyətli tranzit-kommunikasiya imkanlarını nəzərə alan böyük strateq Heydər Əliyev daxili və xarici miqrasiya proseslərinin tənzimlənməsi istiqamətində əməli tədbirlər həyata keçirmişdir. Bu mərhələdən ölkənin gələcəyi ilə bağlı ziddiyyətli fikirlərin, narahatlıqların və təhlükələrin aradan qalxması, yaşayış üçün yeni perspektivlərin açılması xarici ölkələrə miqrasiya prosesinin qarşısını almış, eyni

zamanda, əvvəlki illərdə Azərbaycandan köçüb getməyə məcbur olan vətəndaşlar, o cümlədən milli azlıqların nümayəndələri tədricən geriyə qayıtmışlar.

Konstitusiyanın 69-cu maddəsi ilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları tanınır. Belə ki, Konstitusiyamıza görə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, məhdudlaşdırıla bilər. Göründüyü kimi, Azərbaycan Respublikası yuxarıda qeyd etdiyimiz miqrasiya rejimlərindən milli rejimi özü üçün seçmişdir. Yəni ki, ölkə vətəndaşları üçün müəyyən edilmiş hüquqi rejim əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə də şamil edilmişdir. Konstitusiyanın 70-ci maddəsi ilə siyasi sığınacaq hüququ təsbit edildi: Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir. Siyasi əqidəsinə, habelə Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir (1, s.27).

Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, qanunların tətbiqində Azərbaycan Respublikasının milli təhlükəsizliyinin və sabit sosial-iqtisadi, demoqrafik inkişafının təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, ölkə ərazisində əhalinin mütənasib yerləşdirilməsi, miqrantların intellektual və əmək potensialından istifadə edilməsi, tənzimlənməyən miqrasiya proseslərinin neqativ təsirinin aradan qaldırılması, insan alveri də daxil olmaqla, qeyri-qanuni miqrasiyanın qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər)" təsdiq edilmişdir. 2007-ci ildə Prezident Cənab İlham Əliyev gələcək inkişaf proseslərini qabaqcadan planlaşdıraraq, Dövlət Miqrasiya Xidməti və 8 regional miqrasiya idarəsinin yaradılması, Bakı şəhərində və Yevlaxda qanunsuz miqrantların saxlanılması mərkəzlərinin fəaliyyətlərinin təşkil edilməsi ölkəmizdə miqrantlara qarşı olan münasibətin hansı səviyyədə olmasını, həmçinin miqrasiya proseslərinin birbaşa dövlət tərəfindən tənzimlənməsinin bariz nümunəsidir.

Miqrasiya Məcəlləsinin 74.1-ci maddəsinə əsasən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunda və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa

hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilərlər (2, s.74).

Qloballaşma və miqrasiyanın genişləndiyi dövrdə dövlətlərin tərkibindəki etnik müxtəlifliyin artması onların daxili sabitliyindən yan keçə bilməz. Ölkəmiz də bu prosesdən kənarda qalmamışdır. Əsrlər boyu Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Dünyada baş verənlərə rəğmən Azərbaycan mədəniyyətlərarası dialoqu gücləndirməyə öz töhfəsini verməkdə davam edir. Ümumiyyətlə, müxtəlif xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə dözümlü münasibət azərbaycanlıların mentalitetinə xasdır. Azərbaycan Prezidentinin imzaladığı Sərəncama əsasən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi dövlətimizin nə qədər tolerant, dözümlülük prinsipləri əsasında idarə edildiyinin əyani nümunəsidir. Prezident İlham Əliyevin "Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib," fikri multikulturalizmin mahiyyət etibarilə Azərbaycanda, eləcə də multikulturalizmi gələcəkdə bəşəriyyətin inkişafının yeganə yolu hesab etməsi, bu anlayışın beynəlxalq əhəmiyyətini dərk etmək baxımından bütün məqamlara geniş spektrdə işıq salır.

Lakin multikulturalizmi beynəlxalq platformaya çevirmək istəyən Azərbaycan dünyada bu prosesə qarşı olan təhlükəni hiss edir və onun xilası naminə mühüm təşəbbüslər irəli sürür. Çünki multikulturalizm bütün bu problemlər üçün özünün, mübahisəsiz və qəti olmasa da, müəyyən həlli yolunu təklif edir. Son illər ölkəmizə gələn əcnəbilərin sayında ciddi artım müşahidə olunur. Vaxtilə istirahət üçün Avropaya gedənlər artıq turist kimi Azərbaycana gəlməyi üstün tuturlar. Çünki Azərbaycan sabit və tolerant ölkədir.

Azərbaycan Respublikasının miqrasiya sahəsində çoxtərəfli formatda əməkdaşlıq etdiyi əsas tərəfdaşı kimi Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) çıxış edir. Azərbaycana rəsmi səfəri zamanı BMqT-nın baş direktoru Uilyam Svinq keçirdiyi mətbuat konfransında "Avropa ölkələrinin hökumətlərini miqrantlara qarşı sərt siyasət yürütməməyə çağırırıq" fikrini irəli sürmüşdü. BMqT-nin baş direktoru Aralıq dənizinin miqrantların Avropaya axını nəticəsində ölüm dənizinə çevrilməsinə və Avropanın buna laqeyd qalmasını da qeyd etmişdir: "Afrikadan gələn ilk qayıq İtaliya sahillərində batdıqdan sonra bu məsələ mənim daim diqqətimdə olub. Avropa İttifaqına üzv olan 28 ölkə ilə yüksək səviyyədə əlaqələrimiz var, bu məsələləri onlarla daim müzakirə edirik, təklif və xahişlərimizi onların nəzərinə çatdırırıq. Biz xüsusi sənəd hazırladıq. Həmin sənəd "Ölüm cığırı" adlanırdı. Həmin araşdırmada qeyd etdik ki, indiyədək 40 mindən çox insan qlobal səviyyədə miqrant kimi bir ölkədən digərinə keçərkən ölüb. Onlardan təkcə 22 mini Aralıq dənizində həya-

tını itirib. 365.165 nəfər Aralıq dənizi, Balkan yarımadası və digər istiqamətlərdə Avropa sərhədlərini keçməyə cəhd edib, onlardan 2.664 nəfəri ölüb”. U.Svinq qeyd edib ki, ona görə də BMqT Avropa ölkələrinin hökumətlərinə müraciət edir ki, miqrantlara qarşı sərt siyasət yürütməsinlər, ksenofobiya hallarına son qoyulsun: “Çünki məhz bu cür hallar vəziyyətin daha da pisləşməsinə səbəb olur”.

U.Svinq Azərbaycanın miqrasiya siyasəti ilə bağlı fikirlərini də söyləmişdir: “Azərbaycan 2001-ci ildən BMqT-nin üzvüdür. Burada multikultural siyasət yürütməsinə görə, Azərbaycana təşəkkür etməyə gəlmişdim. Buraya səfər məndə çox böyük təəssürat oyatdı. Azərbaycan stabillik və sülhün qorunmasına görə bütün Avrasiyada nümunəvi ölkədir”. Azərbaycanda olmağından fəxr hissi keçirdiyini, Cənubi Qafqaza ilk səfərinin Azərbaycandan başladığını deyən baş direktor Azərbaycanın böyük iqtisadi uğurlar əldə etdiyin də vurğulamışdır. U.Svinqə görə, dünyada xeyli münaqişələr baş verir. Bu da misli görünməmiş humanitar böhran yaradır, o cümlədən Şimali Afrika və Qərbi Asiya ölkələrindən Avropaya köç baş verir: “Miqrasiyanın səbəblərindən biri demoqrafik vəziyyətlə bağlıdır. Bir sıra şimal ölkələrində qocalma baş verir. Gənclərin, əmək qabiliyyətli insanların sayı azalır. Əksinə, cənub ölkələrində isə əmək qabiliyyətli gənc insanların sayının çoxluğu əsas faktorlardan biridir. Hazırda baş verən münaqişələrin qısamüddətli həlli yoxdur. Ona görə də, insanların ağır şəraitdə yaşamasına, xəstəliklərin yayılmasına səbəb olur. Təəssüflər ki, bəzən bununla bağlı düzgün tədbirlər görülmür, bəzi ölkələr tərəfindən miqrantlara qarşı siyasət yürüdülür”.

Dövlət Miqrasiya Xidmətinin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri Firudin Nəbiyev 2016-cı ilin dekabrında Cenevrədə “Miqrantlar və şəhərlər” mövzusunda iki gün davam edən beynəlxalq konfransda Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Uilyam Leysi Svinqlə görüşmüşdür. Baş direktor Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlamış, ölkəmizlə bağlı xoş təəssüratlarını bölüşmüşdür. U.L.Svinq Azərbaycanda miqrasiya sahəsində formalaşdırılmış innovativ işlərlə bağlı gördüklərini keçirdiyi çoxsaylı görüşlərdə dünya ölkələri üçün yaxşı nümunə kimi qeyd etdiyini vurğulamışdır.

Miqrasiya siyasəti sahəsində əsas anlayışlardan biri də əmək miqrasiyasıdır. Prezident İlham Əliyevin 2008-ci il avqustun 5-də Nazirlər Kabinetinin ölkədə sosial-iqtisadi inkişafa həsr olunmuş iclasın giriş nitqində mükəmməl ifadəsini tapmışdır: “Azərbaycan xarici vətəndaşlar üçün cəlbedici ölkəyə çevrilib. Əcnəbilər müxtəlif sahələrdə işləyirlər. Onlar yüksək maaş alan mütəxəssislərdir, enerji, xidmət sektorunda çalışanlardır. Eyni zamanda, biz xaricdən işçi qüvvəsinin gəlməsinə hazır olmalıyıq. Bu məqsədlə Dövlət Miqrasiya Xidməti yaradılmışdır. Biz miqrasiya siyasətimizi gücləndirməliyik. Çox ciddi sistem yaratmalıyıq. Hər gələn vətəndaş qeydiyyatdan keçməlidir.

Qanunsuz bir adam belə burada işləməməlidir. Mən buna çox diqqət göstərirəm. Çünki gələcəkdə bu problem ciddiləşə bilər. Azərbaycanda hərtərəfli inkişafın təmin olunması üçün bu məsələ daim diqqət mərkəzində olmalıdır. Dövlət tərəfindən tənzimlənməlidir “ (8, s.9).

Ulu öndərin dediyi kimi, həqiqətən də, “Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da –bütünlükdə hamısı azərbaycanlıdır”. Bu sözlər bu gün də son dərəcə əhəmiyyətlidir. Bunun göstəricisi olaraq, hazırda Azərbaycan Respublikasında əhalinin 10%-ə qədərini ləzgilər, ermənilər, ruslar, talışlar, avarlar, türklər, tatarlar, tatlar, ukraynalılar, saxurlar, gürcülər, yəhudilər, kürdlər, qrızlar, udinlər, Xınalıq sakinləri və digər xalqlar təşkil edir. Onlar heç bir təzyiqə və ayrı-seçkiliyə məruz qalmadan, hər kəslə eyni hüquqlara malik olmaqla, tam sərbəst şəkildə yaşayırlar.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqaməti hazırda Prezident İlham Əliyev uğurla davam və inkişaf etdirir. Dövlətimizin başçısının IV Bakı Beynəlxalq Humanitar Forumunda dediyi kimi, “Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir”.

Ölkəmizin və xalqımızın sahib olduğu multikultural dəyərlərin, tolerantlıq ənənələrinin beynəlxalq ictimaiyyətə təqdim edilməsində Azərbaycan dövləti ilə yanaşı, dünyada maddi və qeyri-maddi irsin qorunmasında və təbliğində mühüm işlər görən Heydər Əliyev Fondunun da böyük əməyi var. Bu gün Heydər Əliyev Fondu Azərbaycanın multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı olduqca əhəmiyyətli layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünyada dinlərin və mədəniyyətlərin müxtəliflikləri şəraitində fəaliyyət göstərməsini reallaşdırır. Fondun düşünülmüş, sistemli fəaliyyətində multikulturalizmin mühüm aspektlərindən biri olan mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi istiqaməti xüsusi yer tutur. Azərbaycan Respublikasının birinci xanımı, YUNESKO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu digər dinlərə də xüsusi diqqət ayırır. Onun rəhbərliyi ilə fond Luvr Muzeyində İslam Mədəniyyəti bölməsinin təşkilində, Romada katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində yaxından iştirak edir. Hətta 2016-cı il fevralın 23-də fondun bərpa etdiyi Müqəddəs Marçellinio və Pietro katakombalarının açılışı da olub (15).

Hazırda Azərbaycanda BMqT ilə birgə bir sıra layihələr, o cümlədən "Təhsil vasitəsilə insan alverinə dair maarifləndirmənin gücləndirilməsi –Faza III", "Azərbaycanda potensialın artırılması və texniki yardım vasitəsilə insan alverinə qarşı səmərəli mübarizə üzrə əməkdaşlığın gücləndirilməsi –Faza III", "Azərbaycanda miqranların hüquqlarını qoruyan səmərəli mexanizmlərin yaradılması", "Kəhrizlərin bərpası", "Miqrasiya və ali təhsil: bacarıq və qabiliyyətlərin artırılması (UNIMIG)" və "Səmərəli readmissiya idarəçiliyinin yaradılmasının dəstəklənməsi" layihələri həyata keçirilir.

Qeyd edək ki, miqrasiya problemi XXI əsrin qlobal problemləri içərisində yer alaraq əmək, yaradıcılıq, təhsil miqrasiyası kimi müsbət, qaçqın, məcburi köçkün, insan alveri, mütəşəkkil cinayətkarlıq və s. kimi mənfi təsirlərə malik olub, ikili xarakter daşıyır. Azərbaycanın inkişafının yeni mərhələsində miqrasiya problemi dövlət siyasətinin, milli inkişafın strateji hədəflərindən birini təşkil edən ən mühüm sahəsinə çevrilmişdir. Qısa müddətdə –cəmi 10 il ərzində Azərbaycanda miqrasiya sahəsində aparılan islahatlar, qəbul olunmuş proqram və sənədlər, həyata keçirilmiş fəaliyyətlər yaradılmış Dövlət Miqrasiya Xidmətinin nəinki Azərbaycandakı digər dövlət qurumları, həmçinin dünyanın bir sıra ölkələri üçün nümunəvi bir orqan olduğunu sübut edir. Bundan sonra miqrasiya sahəsində daha da səmərəli siyasətin həyata keçirilməsi başlıca istiqamətdir. Hesab edirəm ki, bunun üçün aşağıda irəli sürdüyüm təkliflər bir vətəndaş mövqeyi kimi dəyərləndirilə bilər:

- Miqrasiya məsələlərində sənədləşdirilmənin daha da sadələşdirilməsi ilə yanaşı, beynəlxalq təcrübədən istifadə edilməsi;
- Əcnəbi və vətəndaşlığı olmayan şəxslər arasında sənədləşmə prosesində və ölkəyə gəliş-gedişlə bağlı sorğu və təkliflərin qəbul edilib, analiz-təhlil edilməsi;
- Miqrasiya dünyanın qlobal və aktual problemi olduğundan, "Miqrasiya beyin mərkəzlərinin" yaradılması, bu sahədə elmi-nəzəri və praktik tədqiqatların aparılması;
- Elektron hökumət vasitəsilə Azərbaycandan kənarda yaşayan ölkə vətəndaşlarının və vətəndaşlığı olmayan azərbaycanlıların miqrasiya məsələləri ilə bağlı problemlərinin qısa müddətdə və operativ olaraq həll edilməsi üçün həmin dövlətlərin müvafiq qurumları ilə sıx əməkdaşlığın aparılması;
- Ölkəmizdən digər dövlətlərə miqrant kimi getmək istəyən vətəndaşların əvvəlcədən gedəcəkləri ölkənin miqrasiya qanunvericiliyi haqqında dəqiq məlumatlılığının təmin edilməsi və Azərbaycana gələn miqrantların miqrasiya üçün xüsusi sorğu mərkəzlərinin fəaliyyətinin təşkili;
- Miqrasiya sahəsində əhatəli fəaliyyət və tədbirlər görmək üçün "Xüsusi könüllülər qrupunun" yaradılması;
- Könüllülər qrupunun vasitəsilə ölkənin müxtəlif regionlarında "Miqrasiya: müsbət və mənfi tərəfləri" mövzusu ilə bağlı maarifləndirici seminarların

təşkili və bu maarifləndirmə tədbirlərinə əhalinin müxtəlif qruplarının cəlb edilməsi.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası B.: Qanun. 2014. 55 səh.
2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi, B.: Digesta. 2015. 92 səh.
3. Cəfərov İ.M. Azərbaycan Respublikasının Konstitusiyasının şərhi. B.: Hüquq ədəbiyyatı. 2012. 723 səh.
4. Həsənov Ə.M. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti. B.: Azərbaycan. 2005. 751 səh.
5. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşmanın tələbləri. B.: XXI –YNE. 2005. 464 səh.
6. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. B.: XXI –YNE. 2003. 248 səh.
7. Nəbiyev F.H. Dövlət miqrasiya siyasəti uğurla həyata keçirilir// Respublika qəzeti, № 115.Bakı. 18 dekabr, 2012. 14 səh.
8. Nəsibov E.M. Miqrasiyanın əsasları I Kitab. B.: Elm və Təhsil. 240 səh.
9. Rəcəbli H.M. Müstəqillik dövründə respublikada demoqrafik vəziyyət. B.: Odlar yurdu. 2006. 310 səh.
10. Sərdarov M.Ə. Qloballaşma və miqrasiya siyasəti, B.: Təknur. 2010. 124 səh.
11. Kavalski E.C. The New Central Asia: The Regional Impact of International Actors. N-Y.: World Scientific. 2010. p.364
12. Hall B.Z. İmmigration in European Union: problem or solution? // OECD Observer. 2000, №221, p.96.
13. Massey D.S. The Sosial and Economic Origins of İmmigrantion //Current trends international migration in Europe. Coincil of Europe, 1999.
14. Булатецкий Ю.Е., Мошняга В.П. Миграционные процессы и миграционная политика. М.: МГУ. 2010. 420 с.
15. www.Heydar-aliyev-foundation.org.
16. www.Migration.gov.az.
17. www.Bbc.com.
18. www.Iom.az.

***Rəna Bilal qızı AĞAMİROVA,***
*Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi*
*Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi*

## Azərbaycan gəncləri miqrasiya proseslərində

*Qlobalaşma dövründə miqrasiya prosesləri:*
*çağrışlar və cavab tədbirləri*

Bəşər tarixinin ilk çağlarından insan məskənini dəyişərək məkan və ya məskənini dəyişmək qəsdi ilə yer kürəsi üzərində hərəkətə başlamışdır. Beləliklə, yer üzünün insan məskunlaşdığı əraziləri daima yollarda hərəkət edən insan axınları ilə səciyyələnir. Müasir dövrdə miqrasiya adlandırdığımız proseslər hər hansı bir istiqamətdə və hər hansı bir miqdarda əhali yerdəyişməsini nəzərdə tutur. Belə bir əhali axını ölkənin bir bölgəsindən başqa bölgəsinə, həmçinin ölkə xaricinə də yönələ bilər. Bu cür hərəkətin məqsədləri arasında isə köklü surətdə yaşayış yerini dəyişmə, təhsil alma, iş axtarma və başqa amillər sadalana bilər. Həmin hərəkətin ünvanından asılı olaraq, miqrasiya zamanı qət edilən məsafələr qısa, yaxud uzun ola bilər. Adətən, demoqrafiya elmində miqrasiyaya səbəb olan amillər iki hissəyə ayırlır: cəzbedici və dəfedici amillər. Ayrı-ayrı insanları və ya böyük kütlələri yerindən oynadan və uzaqmənzilli hərəkətə sövq edən amillər bəzən hər hansısa bir qrupa, bəzi hallarda isə hər iki qrupa aid olaraq miqrasiya proseslərinə təkan verib onu surətləndirə bilər.

Miqrasiya ərazilərcə bölünmüş olan təbii resurs və istehsal vasitələrinə can atan işçi qüvvənin öz hədəfinə yetişməsinin bir üsuludur. Bu üsul əhalinin iş yerinə, yaşayış sahəsinə və digər zəruri vəsaitə olan tələbatını ödəməkdə səmərəli yollardan birisi kimi tanınır. Nəticədə, miqrasiya insanların sosial mövqeyinin, mənəvi-fiziki ehtiyaclarının və digər çatışmazlıqlarının təmin edilməsinə xidmət edir.

Yuxarıda qeyd edilən xüsusiyyətlərinə görə, miqrasiya daxili və xarici növlərə ayrılır. Hazırda ölkəmizdə miqrasiyanın adı çəkilən hər iki növünü müşahidə etmək olsa da, ikinci növün üstünlük təşkil etdiyini görmək çətin deyil. Əlbəttə, hər şeydən öncə çoxsaylı miqrantlar ordusunu ikiyə bölmək zəruridir. Ölkəyə daxil olan miqrantlar immiqrant, ölkədən xaricə köçən miqrantlar isə emiqrant adlanaraq, bu iki dəstənin riyazi fərqindən ibarət olan qalıq göstərici isə miqrasiya saldosunu təşkil edir.

Məsələn, alınan məlumata görə hər il respublikamızdan xaricdə daimi yaşayış yeri əldə etmək üçün 3 minədək insan köçür. Elə eyni miqdarda xarici vətəndaş da hər il Azərbaycana gəlir. Ölkədən köçən vətəndaşların bir çox hallarda müəyyən müddətdən sonra müxtəlif səbəblər üzündən fikrini dəyişib geriyə dönməsini nəzərə alsaq, deməli, ölkəmizə aid statistik miqrasiya saldosunun sıfıra bərabər olduğunu görərik.

Vaxtilə İngiltərə alimi Ravenşteyn dərindən nəzəri araşdırmalar apararaq miqrasiya proseslərinə təsir göstərən 11 qanun müəyyənləşdirmişdir. Bunlardan mövzunun açılışına kömək edəcək əsaslarını yad edək:

- Qısa məsafələrə hərəkət edən miqrantların sayı əksərən çoxluq təşkil edir;
- Ərazi mərkəzləri böyük olduqca, onların miqrantları cəlbetmə qüvvəsi də artır;
- Hər miqrasiya axınına qarşı əks istiqamətdə bir axın işləyir;
- Böyük şəhərlərin meydana gəlməsi özü-özlüyündə təbii artım vasitəsi ilə deyil, miqrasiya axını hesabına əmələ gəlir;
- Miqrasiya miqyası bilavasitə sənaye, ticarət və nəqliyyatın inkişafına bağlanaraq, bunların güclənməsindən böyüyür;
- Miqrasiya gerçəkliyində iqtisadi səbəblər birincilik kəsb edir.

Miqrasiya proseslərini düzgün qiymətləndirmək üçün onun müxtəlif növləri ilə tanış olaq. Mövsümi xarakterli miqrasiya. Bu, əsasən soyuq iqlimə dözməyən həmvətənlərimizin şimalda yerləşən ölkələrə hər hansı bir işgüzar məqsədlə səfər etmələri ilə bağlıdı. Adətən, kənd təsərrüfatı məhsullarını satışa aparmaq hədəfli miqrasiya da ilin isti aylarına təsadüf edir. Bu cür yerdəyişmələrdə gənclər mühüm hissəni təşkil edir. Bu qəbildən turizmi də qeyd edə bilərik ki, əsasən yay, qismən də qış turizm növləri mövsüm turizminin mühüm hissəsini təşkil edir. Yenə bir cəhəti də vurğulayaq ki, istirahət turizmi (və özəlliklə idman xarakterli istirahət turizmi) kateqoriyasında gənclərin rolu aparıcıdır. Əhalinin yaşlı hissəsinin aktivliyi istirahət turizmi sahəsindən çox müalicəvi turizmdə özünü qabarıq göstərə bilir. Əlbəttə, burada da bir şərt gözə çarpandır ki, təbii olaraq, hər müalicəvi səfərdə yaşlı nəslin nümayəndələrini ehtiyat məqsədi ilə əksərən gənc yaşda köməkçi yol yoldaşı müşayiət edir.

Kənddən şəhərə olan miqrasiya bu gün müasir ölkəmiz və xüsusən ölkə əhalisinin gənc təbəqəsi üçün səciyyəvidir, bu yaşadığımız əsrin əsas demoqrafik təmayülü olan və qitələri belə ağuşuna almış qlobal urbanizasiya prosesi ilə bilavasitə əlaqəlidir. Nəticədə, doğma kənd mühitini, demək olar ki, birdəfəlik tərk etmiş milyonlarla gənc oğlan və qızın, bəzən isə artıq formalaşmış hələ də gənc ailələrin şəhərlərə yollanıb nəhəng meqapolisləri göz qarşısında təşəkkülə gətirir. Bu tipli proses kiçik həcmdə olsa da, ölkəmizdə də paytaxta və digər böyük şəhərlərə (Gəncə, Sumqayıt) köç etmə timsalında özünü

göstərir. Lakin gənclərin beynəlxalq urbanizasiya axınına düşməsi gənc əhalimizin ölkəmizdən kənara (əsasən Rusiya, Avropa ölkələri və Türkiyəyə) istiqamətlənməsinə səbəb olur. Əlbəttə, bu, ölkəmiz üçün gənc resursların itkisinə səbəb olsa da, amma müəyyən mənada bununla barışaraq, bu itkidən Vətənimizin xaricində dünya cəmiyyətinə təsir edə biləcək bir diasporun, hətta lobbinin yaradılması üçün ilkin zəmin təşkil edir. Son hissədə sadaladığımız köç etmələrin səbəbləri, yəqin ki, başlıca olaraq sosial, iqtisadi və kulturoloji amillərə söykənir. Xüsusilə, qlobal iqtidar mərkəzlərinə məxsus olan kütləvi informasiya vasitələrinin və ideoloji sistemlərin bütün dünyaya yönəlmiş psixoloji təsiri altında gənclərimiz də “müasir mədəniyyət” ocaqlarında yeni yaşayış qurmağa həvəslənir, bu səbəbdən, gənclərimizin müəyyən hissəsində ənənəvi həyat və təsərrüfatçılıq tərzinə qarşı bir qədər soyuqluq yaranır, onlarda ölkədən kənara köçmək qərarı qətiləşir.

Lakin bəzi amillər çarxı geriyə fırladır, belə ki, çox valideynlər övladlarının mənən yad gördükləri mühitdə tərbiyələnməsinə razı olmayıb yenidən vətənə qayıdırlar. Bu kimi səbəbləri göz önünə alaraq, bəzi köçkünlər əvvəlcədən ehtiyatlanaraq vətəndaşlıqlarını dəyişməkdən çəkinirlər. Daha bir misal: 15 il öncə Skandinaviya ölkələrinə getmə halları çox olsa da, sonradan bu ölkələrin miqrasiya qanunları sərtləşdikdə (Çexiya haqqında da eyni sözü deyə bilərik), Baltikyanı ölkələrə axın gücləndi.

Keçmiş tarixi-iqtisadi formasiyaya nəzər saldıqda respublikamızın, tərkib hissə kimi daxilində mövcudluq sürdüyü Sovet İttifaqının nəhəng ərazisini başdan-başa bürümüş industrializasiya adlı şiddətli bir proses yada düşür. Bu geniş miqyaslı kampaniya ağlagəlməz miqrasiya axınları meydana gətirdi. Danışılan dövr üçün səciyyəvi olan miqrasiya prosesinin xüsusiyyəti gənclərin şəhərlərdəki sənaye müəssisələrinə gətirilməsi, əkinçilik və maldarlıqdan ayrı salınaraq, zavod və fabriklərdə fəhlə əməyinə alışdırılması idi. Nəticədə, sürətlə proletariat sinfi yetişdirilir, hakimiyyətdə iştirak üçün hazırlanırdı. Respublikamızda bu mərhələ yaşanmış, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan, Neftçala kimi şəhərlərin əhalisi həmin bu kəndli sinfindən yetişən, lakin həyatını artıq şəhərlə bağlamış gənclərdən formalaşmışdır. İndiki dönəmdə yenə də həmin istiqamətdə (yəni kənddən şəhərə) şiddətli hərəkət göz qarşısındadır, lakin hazırkı axın heç də sənaye sahəsinə yönəlməmişdir. Bu gün sənaye müəssisələrinin yerini başqa infrastruktur sahələri tutmuşdur. Bir incəlik gözə çarpıcıdır –günümüzdə ruralizasiya (yəni şəhərdən kəndə hərəkət) adlanan bir prosesin də əlamətlərinə rast gəlmək olur. Məsələn, respublika gənclərindən Cənubi Rusiya və Ukraynanın düzənlik, amma axar suya yaxın yerləşən ərazilərində bostançılığın təşkili və daha sonra bostan tərəvəzinin topdansatışı ilə məşğul olmaq niyyəti ilə miqrasiya edənlərə getdikcə daha tez-tez rast gəlmək olur. Əlbəttə, buna ciddi təkan verən bu işə qatılan gənclərimizin genetik yaddaşında gizlənən tərəvəzçilik bacarıqlarının canlanmasıdır ki,

daha sonra ticarətlə məşğul olan miqrantlara gözəgəlimli mənfəətlər bəxş edir.

Yeri gəlmişkən, bir faktı da açıqlamaq gərəkdir ki, köçəri maldarlığın tarixi beşiklərindən adlandıra biləcəyimiz Vətənimiz qədimdən bəri yaylaq-qışlaq heyvandarlığı ilə məşğul olan qəbilə və tayfaların məskəni olub. Millətimizin tarixən yaşadığı torpaqlar həmişə bu meyara görə ulularımız tərəfindən yaşayış üçün seçilib, qorunub, oxşanıb. Odur ki, iqlimlərarası miqrasiyaya dözümlülük və könüllülük xalqımızın davarçılıqla məşğul olan hissəsinin qan yaddaşında yaşayır və əməldə də özünü göstərməkdədir. Ən yaxın keçmişədək respublikamızın Şirvan, Şəki, Mil, Qarabağ mahallarında (həmçinin, soydaşlarımızın yaşadığı Borçalı və Dərbənddə) tərəkəməlik adı ilə tanınan bir heyvandarlıq təsərrüfatçılığı məşhur idi ki, bu ənənəvi malqara bəsləmə üsuluna sadiq qalan elatlar, demək olar ki, il boyu sürülərlə birgə hərəkətdə olur, hər iqlim qurşağından münasib fəsildə bəhrələnirdilər.

Gənclərin ölkəmizdən kənara miqrasiyasına toxunaraq, sərhədyanı məntəqələrimizdə yaşayan əhali kəsiminin öz iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün qonşu xarici dövlətlərin (Türkiyə, İran, Gürcüstan, Rusiya) həmsərhəd bölgələrinə, bəzi hallarda isə regional iri mərkəzlərinə ticarət məqsədli qısamüddətli səyahətlərini nəzərə almamaq mümkün deyil. Bu cür ticarət fiziki dözüm və qol gücü tələb etdiyindən, bu ticarət miqrasiyası gənclər təbəqəsini kifayət qədər özünə cəlb edir. Ümumiyyətlə, diyarımızın tarixi ticarət yollara məcra olduğundan, xalqımzın da çoxəsrlik ticarətçilik ənənələrinə qatlaşmasını nəzərə alaraq, ölkəmizdə ticarətməqsədli miqrasiyalar bu gün də olduqca dinamik və intensivdir. Sözsüz ki, yenə gənc vətəndaşlarımız bu sahədə çevik və iqtisadi baxımdan məhsuldardırlar. Az öncə adı çəkilən ölkələrə Qərbi Avropa, Amerika və xüsusilə sürətli inkişaf yolunda olan Çin və Hindistanı, Yaponiya və Malayziyanı əlavə etmək lazımdır ki, gənclərimiz artıq dünyanın maddi-texniki tərəqqiyə qovuşmuş bu regionlarda nəinki ticari əməliyyatlarla məşğuldurlar, hətta idarəçilik və istehsal işlərində də uğur qazanmaqdadırlar. Son dönəmdə Fars körfəzində yerləşən azad iqtisadi zonalarda (BƏƏ, Küveyt, Qətər) biznes fəaliyyətinə meyl edən gənclərimizin də sayı az deyil ki, bu da həmin istiqamətdə ciddi miqrasiya hərəkəti oyatmaqdadır.

Gənclər sektorunu əhatə etmiş miqrasiya cərəyanını səbəbləndirən vacib motivlərdən biri də müxtəlif şəhərlərdə təhsil alan tələbələrimizin qısa və ya uzun müddətə vətənlərini tərk etmələridir. Bu cür miqrasiyalar həm daxili, həm də xarici olmaqla bərabər, əslində, çox böyük kütləni hərəkətə gətirərək, onu qısa ya uzun müddətə vətənindən ayırır. Daha bir maraqlı cəhət odur ki, təhsil miqrasiyasının periodikliyi müxtəlif dövriyyə fasiləsi ilə təkrarlanır. Belə hal hər bir tələbə üçün bir neçə il davam edə bilər; nəticədə, demoqrafik səhnədə tədris rejiminə həmahəng olaraq, təkrarlanan əhəmiyyətli bir hərəkət meydana gəlir.

Danılmaz faktdır ki, Qarabağ münaqişəsi nəticəsində miqrasiya axını həm başıbəlalı miqrantları, həm də dövlət və xalqımızı çox böyük çətinliklərlə rastlaşdırdı. Uzun sürən sosial, coğrafi və mənəvi adaptasiya prosesində dövlətimizin himayəsi və operativ köməyi ilə respublikanın, demək olar ki, bütün regionlarına səpələnmiş çoxminlik köçkün kontingenti artıq öz şəxsi və ictimai həyatında psixoloji, sosial və hətta siyasi reabilitasiya mərhələsini keçmiş və normal həyat axarına qoşulmuşlar. Burada diqqət bir incəliyə cəlb edilməlidir ki, əvvəldən axıradək bütün yerdəyişmə proseslərində gənclərimiz mənsub olduqları ailələr və (xalq təbiri ilə desək) el-obaları ilə birgə misilsiz məşəqqətlərə məruz qalmış və eyni zamanda, qayğı yükünü böyüklərlə yanaşı daşımışlar. Təəssüf və ağrı hissi ilə xatırlatmaq lazımdır ki, hələ də cəbhə xəttinə yaxın yerləşən bölgələrdə separatçı hərbi birləşmələrin və qonşu təcavüzkar dövlətin şiddətli atəşləri altında canlı itki verən dinc əhali yenə də atəşkəs rejimi dövründə belə birdəfəlik ya müvəqqəti miqrasiyalara məcbur olur. Müzakirə olunan hadisələr zamanı respublikamıza insan itkisindən, fiziki və mənəvi işgəncələrdən sonra ikinci ağır yük olmuş miqrasiya axının kor-təbii yaxud fərdi təşəbbüslərə bağlı olmadığını, bu işin ictimailəşmiş qaydada dövlət orqanlarının nəzarəti və əməli yardımı ilə gerçəkləşdirildiyini görmək mümkündür. Gənclər və yeniyetmələrin bu proseslərdə təxliyə, adaptasiya və reabilitasiya kimi ağır mərhələlərdən necə keçdiyini araşdırarkən, bu işdə gənclərlə işləyən dövlət orqanlarının fəal köməyinin, əvəzsiz xidmətlərinin və səmərəli strategiyasının şahidi oluruq.

Yekunda bəzi faktları nəzərə çatdıraq ki, 2014-cü ildən bəri Avropa Birliyi ilə bağlanmış readmissiya sazişinə əsasən və digər əsaslarla 421 vətəndaşımız geriyə qaytarılmışdır. Artıq həmvətənlərimizin AB ölkələrinə qaçqın adı ilə yerləşməsi çətinləşmişdir. Çünki yalnız Yaxın Şərqdəki silahlı qarşıdurmalardan qaçan mühacirlər Avropaya sığınmaqda prioritetə malikdirlər.

**Ədəbiyyat**

1. www.stj.sam.az/post/azərbaycan-respublikasının-miqrasiya-qanunvericiliyi.
2. http://www.coqrafiya.info/2014/03/halinin-miqrasiyas-azrbaycan.html.
3. http://allahveranov.livejoumal.com
4. Абылкаликов С.И., Винник М.В. Экономические теории миграции: рабочая сила и рынок труда// Бизнес. Общество. Власть. 2012. № 12. С. 1-19.
5. Борисов Ивахнюк И.В. Развитие миграционной теории в условиях глобализации// Век глобализации. 2015. №1 (15). С. 36-49.

# Contents

***(By the Editor)*** ..........................................................................................5
**REFUGEES AND INTERNATİONAL PROTECTION OF CARE SEEKERS** ............7
*Zaur Alishov.* General situation of refugees and internally displaced persons in the Republic of Azerbaijan and international legal framework ..............................................9
*Aygul Abbaszade.* Factors affecting the choice of asylum seekers by destination ...............13
*Namik Jafarov.* International protection of care seekers –experience of Azerbaijan ...........18
**MIGRATION POLICY AND HUMAN RIGHTS**.........................................................31
*Amid Aliyev.* Migration policy in globalizing world: Essence and content ..........................33
*Sevda Zeynalova.* Mechanisms of protection of human rights in migration policy and the experience of Azerbaijan ..........................................................................................38
*Nargiz Karimova.* Where the rights of migrants start from? ...............................................44
*Turan Jahangirova.* International regulation of the rights of migrants and internally displaced persons ..................................................................................................49
*Mammadga Sardarov.* On the issue of improving and regulating migration processes .......57
*Atamoglan Mammadli.* An example of stability, progress, security service ...........................62
*Rima Mammadova.* Migration and education.........................................................................66
**MIGRATION PROCESSES IN GLOBALIZATION: CHALLENGES AND RESPONSE** ...........................................................................................................71
*Ilham Mamedzade.* Philosophical analysis of migration processes in the context of globalization ..........................................................................................................73
*Khayala Abbasova.* Migration processes in globalization: Challenges and response ..........78
*Rafig Najafguliyev.* Extremism and separatism are one of the social dangers that make the forced migration......................................................................................................82
*Sevinj Mastiyeva.* Mutual impact on migration and development.......................................85
*Mayis Aliyev.* Problems of legal regulation of labor relations of labor migrants.................94
*Afsana Huseynova.* Migration crisis in Europe: Existing realities and problems...............102
*Jamil Huseynov.* Multiculturalism model in Azerbaijan on migration background ...........114
*Azer Allahverenov.* Actual issues of migration processes in Azerbaijan under globalization...124
*Islam Hidayatov.* National security aspects of migration policy of the Republic of Azerbaijan during the globalization period.................................................................130
*Khayala Mammadova.* Migration in globalization: theories and analysis ............................137
*Nariman Pashayev.* The scientific-theoretical bases of modern migration forms and the study of economic and geographical problems caused by population migration in the territory of Azerbaijan ......................................................................................143
*Eldar Aslanov.* Migration and tourism: Mutual ınteraction and impact .............................156
*Rovshan Karimov.* Regulation of population migration caused by natural disasters..........167
*Z.N.Eminov, I.B.Mammadov, L.Aliyeva, E.H.Huseynova.* Main Directions of Migration in the Republic of Azerbaijan ..........................................................................166
*Etibar Badalov.* Globalization and dynamics of migration processes in Azerbaijan .........171
*Garib Askerov.* Human trafficking and state border security policy .................................176
*Konul Karimova.* Position and the role of Azerbaijan in global migration processes in globalization ..................................................................................................180
*Rena Agamirova.* Azerbaijani youth in migration processes.............................................190

© Khazar University Press, 2017
All rights reserved

**Materials**

**of the Scientific-Practical Conference on**

# MIGRATION POLICY IN AZERBAIJAN: ACHIEVEMENTS AND DEVELOPMENT PERSPECTIVES

**dedicated to the 10th anniversary of the State Migration Service of the Republic of Azerbaijan**

41, Mahsati str., Baku/Azerbaijan, Az1096